Atam Misir Rüstəmovun
əziz xatirəsinə

VAQİF RÜSTƏMOV

QAÇAQ SÜLEYMAN



(1872-1917)

Bakı-2021

Redaktor: **Samir Mehdi-zadə**

Vaqif Rüstəmov. "Qaçaq Süleyman" (roman). Bakı, "....." nəşriyyatı, 2021, 272 səh.

Müəllifin qələmə aldığı əsərdə ötən əsrin əvvəllərində Cəbrayıl qəzasının Daşkəsən kəndində baş verən hadisələrdən bəhs olunur. Əsərin süjet xətti kənddə yaşayan insanların həyat tərzindən götürülmüşdür. Qədim tarixi köklərə malik və Qarabağda bağlar diyarı kimi tanınan Daşkəsən kəndində yaşayan insanların torpağa, yurduna, vətəninə olan sevgisi əsərin qayəsidir. Vətənin ağır günündə quldur dəstələrinə, mənfur erməni silahlı qüvvələrinə qarşı döyüşlərdə birlik nümayiş etdirib çarpışan kənd camaatının hünəri əsər boyu oxuculara əhatəli şəkildə çatdırılır.

Ermənistanın hərbi silahlı qüvvələrinin 27 il işğal altında saxladığı Azərbaycan Dövlətinin tarixi ərazisi, Qarabağ uğrunda davam edən 44 günlük Vətən müharibəsi, müzəffər ordumuzun parlaq qələbəsi ilə 10 noyabr 2020-ci ildə başa çatdı. Məğlub edilmiş mənfur erməni ordusu rusvaycasına torpaqlarımızdan, Qarabağdan qovuldu.

Erməni işğalından azad edilən ərazilərə səfər edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, birinci vitse-prezident Mehriban xanım Əliyeva Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində yerləşən qədim Xudafərin körpüsünü ziyarət etmişlər.

Körpü üzərində Azərbaycanın Dövlət Bayrağını qaldırdıqdan sonra səfərinə davam edən Ali Baş Komandan İlham Əliyev qələbə əzmiylə Cəbrayıl şəhərində olarkən xalqımıza müraciət edərək: "Cəbrayıl şəhəri işğaldan azad edilib. Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

"Qəlbində keçmişinin tarixini saxlaya bilməyən nə insan, nə də ki alim deyil. Kim ki, özündə keçmişinin tarixini saxlayır, o şəxs öz ömrünə illər əlavə edir".

Məhəmməd ən-Nəsəvi

PROLOQ ƏVƏZİ

Dağların, qayaların qucağından,
Kəhrizlərin, bulaqların ağuşundan,
Şırıl-şırıl, həzin-həzin axan sular,
Ötüb keçər sakit axan Arazımdan.

"Qaçaq Süleyman" və "Səsverən qaya" əsərlərinin süjet xətti ötən əsrin əvvəllərinə təsadüf edir.

Cəbrayıl qəzasında baş vermiş hadisələri qələmə almaqda məqsədim qədim tarixi köklərə malik, maddi-mədəni irsi, zəngin etnoqrafiyası ilə seçilən və Qarabağ əyalətində kapitalizm cəmiyyətinə yol açan Daşkəsən kəndinin həyat salnaməsini geniş oxucu kütləsinə çatdırmaqdır.

Əfsuslar olsun ki, zaman-zaman yağı düşmənlərin müharibə meydanına çevrilmiş Azərbaycan torpaqlarında, xüsusən də Qarabağ uğrunda savaşın vəhşətlərini görmüş Daşkəsən kəndi də, bu tarixi həqiqətlərə şahidlik etmişdir.

XIX əsrin sonlarında manufakturadan maşınlı dəzgahlara keçən Daşkəsən kəndinin iş adamları, emalatxana sahibkarları əsas istehsal vasitəsi kimi ipək fabriklərinin, onlarla su dəyirmanlarının, daş karxanalarının ərsəyə gətirilməsinə nail olmuşlar.

Sənətkarlıqla yanaşı, kənd təsərrüfatında, əkinçilik, maldarlıq, qoyunçuluq, atçılıq, bağçılıq sahəsində kənd əməkçiləri münbit torpaqlarda bol məhsul yetişdirib firavan həyat sürmüşdülər.

Bu dövrlərdə çarizmin Cənubi Qafqazda ədalətsiz vergi və inzibati ərazi bölgü siyasəti, yerlərdə məmur özbaşınalığı Daşkəsən kəndində insanların narazılığı ilə qarşılanmış və etirazlara çevrilmişdir.

Yadelli basqınlara, yerlərdə çarizm tərəfindən müvəqqəti köç salmış erməni silahlı birləşmələrinin hücumuna məruz qalan Daşkəsən kəndinin igid övladları birlik nümayiş etdirərək, son damla qanlarına qədər vuruşmuşlar.

Səngiməyən etiraz dalğaları, "Qaçaq hərəkatı" adı altında kəndli üsyanlarına başçılıq edən Qaçaq Süleyman kimi cəsur vətən oğlu çarizmin zülmünə və məmur özbaşınalığına qarşı Qarabağda, xüsusən də Zəngəzur, Naxçıvan, Şuşa və Cəbrayıl qəzalarında 25 il mübarizə aparmış, haqq uğrunda vuruşaraq, xalqın inamını qazanmış, onların güvənc yeri olmuşdur.

Qaçaq Süleymanın babası Kərbəlayi Namaz Əli oğlu Cəbrayıl qəzasının Əhmədalılar obasında böyük torpaq mülkiyyətçisi kimi tanınırdı. Məmur özbaşınalığı və haqsızlıqla barışa bilməyən Süleyman, ata-baba mülkünün çar üsul idarəsi tərəfindən müsadirə edilməsinə qarşı çıxır. Yetkin yaşlarında yaşadığı Əhmədalılar kəndində çar məmurları və erməni yasavulları ilə əlbir olan kənd yüzbaşısı tərəfindən təqib olunan Qaçaq Süleyman ata mülkünün əlindən alınmasına dözə bilməyib, 1891-ci ildə onu qətlə yetirərək dağlara çəkilib, Qaçaq Nəbinin dəstəsinə qoşulur. 1894-cü ildə sui-qəsd nəticəsində Nəbinin ölü-

mündən sonra da Süleyman qaçaqlarla birlikdə mübarizəsini davam etdirmiş və 1909-cu ildən Nəbinin dəstəsinə başçılıq etmişdir. Təbriz üsyanı zamanı əks-inqilabi qüvvələrin darmadağın edilməsində və üsyançıların silahla təchizində Qaçaq Süleymanın dəstəsi mühüm rol oynamışdı. Getdikcə bu dəstə böyük qüvvəyə çevrilmiş və 1500 nəfər cəsur döyüşçü ilə Cənubi Azərbaycanda, Naxçıvanda hökumət qoşun hissələrini, bəy, xan dəstələrini dəfələrlə məğlubiyyətə uğratmışdı.

Bu dövrdə məmur özbaşınalığından fərqli olaraq Qarabağ əyalətində erməni daşnak qüvvələrinin qəddarlığı geniş miqyas almışdır. Səngiməyən erməni iğtişaşlarına qarşı Daşkəsən kənd camaatı birlik göstərib vuruşmuş, ətraf kəndlərdə erməni basqınlarına məruz qalanların müdafiəsinə qalxmış, onları kəndlərdən qovub çıxartmışdılar.

Əsərdə, çətin məqamlarda insanlara dəstək olan Qaçaq Süleyman çoxsaylı silahdaşlarıyla, hər zaman insanların köməyinə gəlmiş, onları müdafiə etmişdir.

Süleymanın haqq uğrunda mübarizə apardığını bilən Qafqaz canişini onu aradan götürmək naminə başına böyük məbləğdə pul qoyur. Yerlərdə yoxsul insanlar tərəfindən rəğbətlə qarşılanan Süleymanın hörmətinin artması daima varlı məmurları qorxuya salırdı.

Qaçaq Süleyman sələfləri kimi, 1917-ci il aprelin 6-da Cənubi Azərbaycanda, Acıdərə adlanan yerdə çar sərhəd mühafizə qoşunları və İran xanlarının birləşmiş qüvvələri ilə döyüşdə həlak olmuşdur.

Xalqımız tərəfindən sevgi ilə yad edilən xalq qəhrəmanı Qaçaq Süleymanın uyuduğu məzar Araz çayının o tayında – vətənimizin ayrılmaz bir parçası olan Acıdərədə, Şahqasım kənd qəbiristanlığındadır...

QANLI DƏRƏ

(Birinci fəsil)

Aydolanmaz meydanında boz kəhəri dördnala çapan atlı Dərəarası boyunca üzüaşağı – Quycaq kəndinə endi. Kənd yolunda qaçan kəhərin hənirini alanlar səksənib kənara çəkilərək atlıya yol verirdi...

Yayın qızmarında iri gövdəli tut ağacının kölgəsində sərinlənən ahıl kişilər ötüb keçənləri yada salır, dərdləşirdilər. Gün-güzəran barədə şirin söhbətə başları qarışan ağsaqqallar ətrafda baş verənlərdən xəbərsiz kimi mübahisə edir, deyib-gülürdülər.

Qəflətən yanlarından cavan bir atlının çaparaq ötüb keçdiyini görənlər onun saymazyana hərəkətindən qeyzlənib arxasınca deyindilər.

Kişilərdən biri xırıltılı səslə bağırdı:

- Ə..., günün bu istisində niyə qovursan bu atı? Hara çapırsan belə?

- Fikir vermə, cavandır! - deyə yanındakı yaşlı kişi onu sakitləşdirmək istədi.

- Əşi, görmürsən bu havalanmışın qanacağını...?! Qəzəbini boğa bilməyən kişi əyilib yerdən götürdüyü daşı, hikkə ilə atlının arxasınca atdı.

Kişinin çılğınlığına istehza ilə baxan həmsöhbətləri özlərini saxlaya bilməyib qəhqəhə ilə gülüşdülər.

Kəhrəba təsbehi ovcunda ovuşduran nurani qoca məzəmmətlə başını silkələdi. Özündən çıxan kişini tənbeh edirmiş kimi ərklə:

- Ay kişi, başına iş qəhətdir, nəyinə lazımdır axı hara çapır? Cavan uşaqdır, sən özün heç cavan olmamısan? Fikir vermə! - deyə onu sakitləşdirməyə çalışdı.

Kəndin aşağı məhəlləsində kəhərin başını yamaca çevirən atlı təpəni qalxıb Araz çayı istiqamətində çaparaq gözdən itdi.

Dəmyə əkin yerlərində biçilib səf-səf yığılan dərzlərin arası ilə irəliləyən atlını həyəcanla izləyən biçinçilər ani olaraq əl saxlayıb ona tərəf boylandılar. Atlının ardınca tamaşa edənlər təəccüblə bir-birinə baxıb çiyinlərini çəkdilər. Ensiz torpaq yolda çaparaq ötüb keçən atlı Gəyən təpələrindən üzüaşağı – köç yoluna endi. Yoldan xeyli aralı, üzü günçıxana axan Araz çayının sakit axan suları günəş şəfəqində bərq vururdu. Karvan yolunda Əhmədalılar kəndinə doğru sürətlə qaçan kəhərin dırnaqlarından qopan toz qatı havanı boz örpəyə bürümüşdü.

Yalmanına qısılıb həyəcanla qışqıran atlı:

-Hə, gözünə dönüm, - deyə hərdən də yəhərdə qamətini dikəldib əlindəki qamçını havada yellədir, kəhəri dəlicəsinə qovurdu.

Sahibinin səsindən havalanıb çılğınlaşan atın ayaqlarının tappıltısı ətrafda aydın eşidilirdi. Uzaqdan, çinar ağaclarının arasından Əhmədalılar kəndinin kiçik evləri görünürdü.

Yol boyu çəmənlikdə otlayan qoyun sürüləri kəhərin hənirindən hürküb ətrafa dağılışdılar. Çaparaq ötüb keçən atlını görən qoyun otaran uşaqlar bir-birini haylayıb qışqıra-qışqıra yola tərəf qaçmağa başladılar. Sevincindən atılıb-düşən uşaqlar qaçan atlının arxasınca baxa-baxa atı tərif edirdilər.

Onlardan biri:

- At belə olar ey, elə bil uçur.

Çoban yoldaşı ona dəstək verdi:

- Heç elə bil ayaqları yerə dəymir, - dedi.

Atlının uzaqlaşdığını həyəcanla seyr edən uşaqlar bir azdan deyə-gülə qoyun sürülərinin yanına qayıtdılar.

Çinarlıqdan obaya daxil olan atlı, kəhəri qarşıda görünən mərəyə tərəf sürdü. Qaratikan kolları ilə çəpərlənmiş quzu mərəyinə yaxın iri ağac kötüyün üstündə yanyana əyləşən ahıl kişilər qəfil peyda olan atlıya tərəf çevrildilər. Təəccüblə atlını seyr edən adamlar oturduqları yerdə donub qalmışdılar. Mərəyin yanına çatan atlı var gücü ilə yüyəni özünə tərəf çəkib kəhəri əyləmək istədi. Qızmış kəhər ani olaraq başını dik tutub arxa ayaqları üstə şahə qalxdı. Gəldiyi səmtə tərəf fırlanıb fınxıraraq səkil ayaqlarını havada oynada-oynada bərkdən kişnədi. Hürkmüş kəhər yerində fırlanır, ağzındakı gəmi gəmirərək sahibinə tabe olmaq istəmirdi. Atın burun pərələri dəmirçi körüyü təki qalxıb enirdi.

Bunu görən kişilər əyləşdikləri yerdən cəld ayağa qalxdılar. Onlardan yaşlısı, nurani qoca əlində əda ilə tutduğu deminin uzun müştüyünü atlıya tərəf tuşlayıb göstəriş verərək amiranə səslə qışqırdı:

- Əyə, atı tutun, atı tutun, - deyə yan-yörəsində dayananlara səsləndi.

Qocanın hökmlü səsini eşidən cavan kişilərdən ikisi dərhal irəli atıldılar. Çətinliklə atın yüyənini ələ keçirdib özlərinə tərəf dartdılar. Çılğınlıqla dartınan kəhər tələyə düşmüş yaralı ceyran kimi atılıb düşür, arxası üstə hərəkət edərək yüyənindən qurtulmaq istəyirdi.

Kəhərin tabe olmayacağını anlayan atlı cavan, cəld yerə atılıb atın boynunu qucaqladı. Sahibinin nəvazişini

duyan kəhər başını yuxarı qaldırıb şahə qalxmaq istədi. Qızmış kəhər burun pərələrini titrədərək fınxıra-fınxıra sakitləşdi.



Atlıya yaxınlaşan qoca təəccüblə:

- Ay bala, uşaq ha deyilsən...?! Demirsən bəs bu çər dəymiş səni yerə çırpar? De görüm kimsən, kimlərdənsən? Bura necə gəlib çıxmısan?

Üz-gözünü toz basmış cavan nəfəsini dərmədən, təntimiş halda:

- Daşkəsənli Alı bəyin nəvəsiyəm. Kərbəlayi Behbud bəy Süleyman əmiyə ismarıc göndərib.

- Nədir, yenə nə hadisə baş verib? Gün qızmamış at belində özünü təngnəfəs çatdırmısan bura?

Qocanın sualından özünü itirən oğlanın cavab verməyə taqəti qalmamışdı. Həyəcandan sinəsi qalxıb enir, dili söz tutmurdu. Bir anlıq nəfəsini dərib toxtayan cavan özünə gələndən sonra gəlişinin səbəbini söylədi:

- O taylı quldur Şirxan, yenə də böyük dəstə ilə sübh tezdən Araz çayından bu taya keçib. Maralyan kəndinin aşağı tərəfindən camaatın kövşənlərdə otlayan mal-qarasını yığa-yığa Heydər dağına tərəf qalxır.

Oğlanı diqqətlə dinləyən qoca:

-Ay oğul, deyəsən Şirxana tövbə kar etmir. Xəlvətə salıb camaatın nəyi varsa, yağmalayıb o taya daşımaqdan gözü doymur, - deyə çuxura düşmüş gözləri ilə Araz çayının o biri sahilini seyr edən qoca təəssüflə söyləndi.

- Düz deyirsən, əmi. Onların məqsədi kəndlərə soxulub evləri talamaq, kövşənlərdə mal-qaranı yağmalamaqdır. Ötən payızda da başına topladığı silahlı quldurlarıyla kəndimizə hücum etmişdi. Ancaq kənd camaatı onların başına elə oyun açdılar ki, qabaqlarında duruş gətirə bilməyib qaçdılar. Özlərini güclə Araz çayına çatdırıb o taya keçdilər. İndi Şirxan kinli dəvə kimi bizdən qisas almağa gəlir...

Əhvalatı hərtərəfli danışan atlı, toz basmış köynəyinin qolu ilə üz-gözünün tərini silə-silə uzaqdan güclə seçilən Heydər dağına tərəf boylandı.

Cavanın ətrafına yığılan kişilər yer-yerdən quldurları qınayırdı. Onlardan yaşca cavanı olan, əli silahlı uzunboylu, cantaraq kişi özünü saxlaya bilməyib Şirxanın qarasınca deyinərək onu hədələməyə başladı:

- Ay qaniçən! Sümsük it kimi yenə də arsız-arsız Araz çayını bu taya keçmisən...?! - deyə qəzəblə tüfəngini havada yellətdi, - həyasızın oğlu abır-həya edib özünə yığışmır ki, yığışmır!

- Az deyingən ol! Vaxt itirmədən atını min, tez Süleymanın dalınca get! - deyə nurani qoca kişiyə tərəf çönüb çəpəki baxışlarla ona qəbahətini anlatdı.

- Əlihüseyn əmi, Süleyman Çinarlı kəhrizində ürgəsini suvarır, məni burda gözləyin, gedim xəbəri ona çatdırım.

- Cəld ol, tərpən, - deyə Əlihüseyn kişi ərklə silahlı kişiyə təpinərək, - harda olursa-olsun Süleymanı tap, çağır gəlsin bura. Nanəcib Şirxan layiqli cavabını almasa hələ bu tayda çox qanlar tökəcək.

Qocanın hövsələdən çıxdığını görən silahlı kişi mərəkdən aralı, çinar ağacına bağladığı kəhərə yaxınlaşdı. Yüyəni ağacdan açıb bir göz qırpımında atın belinə sıçrayıb dəhmərləyərək mərəkdən uzaqlaşdı.

Atlının ardınca baxan Əlihüseyn kişi üzünü cavan oğlana çevirib nəvazişlə:

- Darıxma, bala, Süleyman indi harda olsa, gəlib çıxar. Bəxtiniz gətirib ki, iki gündür Süleyman başının dəstəsiylə yaylaqdan kəndə qayıdıb, - deyə cavanın boynunu qucaqlayıb, əlini onun çiyninə qoydu.

Xəbəri eşidən kənd adamları tələşlə mərəyə doğru axışırdı. Bir azdan mərəyin yanına toplaşan adamların səs-küyü ətrafı bürümüşdü. Hamının diqqəti cavan atlıya yönəlmişdi.

Kəhərin başını sinəsinə sıxıb nigarançılıqla uzaqdan görünən Heydər dağını seyr edən atlı gözlərini bir nöqtəyə zilləyib gəldiyi yollara baxırdı.

Fınxırıb qulaqlarını şəkləyən kəhər də başını dik tutub yola tərəf boylanırdı...

***

Qara Molla pirinin ətrafına yığılan sılahlı daşkəsənlilər, iri qaya daşın üstündə dayanıb ucadan danışan Kərbəlayi Behbuda həyəcanla qulaq asırdılar. Əlində bürmələdiyi atın yüyənini övkələyərək qətiyyətlə danışan bəy, meydana toplaşan adamlara arvad-uşaqların evdən küçəyə çıxmamalarıını dönə-dönə xəbərdar edərək, göstərişlər verirdi. O, quldurların tezliklə kəndə basqın edəcəklərini hamı eşitsin deyə, hərtərəfli izah edirdi:

- Camaat, vəziyyətimiz çox ağırdır. Sübh tezdən, Mərcanlı kəndində yaşayan sahman adamlarımızdan biri bizə xəbər gətirib ki, kosa Şirxan Araz çayının o tayında, iki gündür başının dəstəsini yığıb bu taya hücum etmək istəyir. İndi isə bu gün sübh ertədən Maralyan kəndi səmtindən dəstəsi ilə cayı keçib bizdən qisas almağa gəlirlər. Ötən payız beş-on atlı ilə qəfil kövşənlərimizə soxulan o nanəcib, kəndin bir qotur çəpişini də qamarlayıb apara bilmədi. Hamılıqla o yaramazın cavabını necə lazımdırsa verdik! İndi isə aldığımız xəbərə görə qansız oğlu səhərin alatoranlığında əlli-altmış atlı ilə çayın dayaz yerindən bəri taya keçiblər. Quldurlar aşağı kəndlərdə əllərinə ke-

çəni yağmalaya-yağmalaya bizə tərəf gəlirlər. Şirxana bizim mal-qaramız lazım deyil. O, aşağı kəndlərdən yığdığı mal-qaranı Arazdan o taya keçirib gedə də bilər. Onun məqsədi bizdən qisas almaqdır. Heydər dağına tərəf qovub gətirdiyi mal-qara, bizi yolumuzdan azdırmaq xatirinə düşünülmüş bir kələkdir. Kosa Şirxan bizimlə olan köhnə ədavətinin əvəzini çıxmağa gəlir. O, qisas almasa, xoşluqla buralardan çıxıb gedən deyil. Qaniçən kəndimizi viran qoyub yandıracaq, çapıb-taladıqlarını da o taya aparacaq. Bu gün bu meydanda öldü var, döndü yoxdur. Necə olursa-olsun, gücümüzü o nanəciblərə göstərməliyik. Səhər ertədən Qaçaq Süleymana da xəbər göndərmişəm. Bildiyimə görə o, silahdaşlarıyla bir-iki gün olar ki, Salvartı yaylağından obasına, Əhmədalılara qayıdıb. Ola bilsin ki, Süleyman da vaxtında gəlib özünü bizim hayımıza çatdıra bilməsin. Əgər bu ağır günümüzdə gələ bilməsə, hamılıqla bu döyüş meydanında ölüm-dirim savaşına girməliyik, - dedi.

Ciddiyyətlə adamları gözdən keçirən Behbud bəy silahlı cavanlarla yanaşı dayanan Göyüş kişiyə tərəf çevrilib ərklə dedi:

- Göyüş kişi, o cavanlardan bir-iki nəfəri özünlə götür, kövşənlərdə otlayan bütün mal-qaranı bağyuxarı, Quylu bulaq tərəfdə dərəyə aparın! Ora etibarlı, gözdən uzaq yerdir. Şirxan kəndimizə hücum çəksə də, başımızın üstündən o tərəflərə keçə bilməz, - dedi.

Kərbəlayi bir anlıq nəfəsini dərib, silahlı daşkəsənlilərlə bir arada dayanmış iri cüssəli Ağalar kişiyə baxdı. Hamı eşitsin deyə ucadan səsləndi:

- Ağalar kişi, dəstənlə Qanlı dərənin yuxarı tərəfində, Əncirlikdə dayanın. İmkan verməyin oğrular dərədən üzüyuxarı, Kültəpə səmtindən qalxıb kəndə soxulsunlar.

Zoğal ağacından düzəltdiyi iri dəyənəyini başı üzərinə qaldıran Ağalar kişi əminliklə cavab verərək, özünə məxsus əda ilə:

- Kərbəlayi, arxayın ol! Biz tərəflərdən bir inni-cinni də keçib kəndə soxula bilməz! Necə yəni, biz ölmüşük ki, kəndimizə hücum çəkən kosa Şirxanın dılğır gədələri əlimizdən sağ-salamat qurtarsın? - dedi.

Ağalar kişinin yarızarafat-yarıciddi məzəli sözlərini eşidənlər gülüşdülər.

Meydana toplaşanların şən əhval-ruhiyyəsindən üzündə təbəssüm yaranan Behbud bəy anidən ciddiləşdi. O, silahlı atlı dəstəsi ilə adamların arxasında dayanmış Məşədi Yusif ağaya tərəf boylandı. Sonra tüfəngin nişangahını Horovlu kəndinə tərəf çevirib, Heydər dağının ətəyində görünən gədiyi Məşədi Yusif ağaya göstərdi:

- Məşədi, Səsverən qayanın ətrafını gözdən qoymayın. On-on beş silahlı atlını daş yolda pusquda saxlatdıran Şirxan, atlı dəstəsiylə kəndimizi hər tərəfdən mühasirəyə alandan sonra hücuma keçəcək. Sən ki, o yaramazı yaxşı tanıyırsan. Nainsafın oğlu çapıb-taladıqlarını Araz çayından o taya aparacaq. İnanmıram, Şirxan buralardan qansız-qadasız getsin.

Bəyi diqqətlə dinləyən Məşədi Yusif ağa əlində dəstələlədiyi qamçını yuxarı qaldırıb silkələyərək, qətiyyətlə dilləndi:

- Kərbəlayi, biz tərəfdən arxayın ola bilərsən. Silahlı adamlarımız çoxdur. Şirxanı dəstəsi qarışıq mühasirəyə alıb elə tövbələtmə verərik ki, bir də qələt edib bu tərəflərə gəlməzlər. O qurumsağın ağlı, deyəsən, aşağı kəndlərdə gözünün odunu aldığı binəva fəqir-füqaralara gedib...!

Yusif ağanın ötkəmli cavabını eşidən silahdaşları vaxt itirmədən atlarına süvar olub, Behbud bəyin göstərdiyi səmtə tərəf yollandılar...

***

Araz çayı boyunca kövşənlərdə yağmaladığı mal-qaranı Heydər dağına tərəf qovan quldurların hay-küyü, qışqırıq səsləri bir-birinə qarışmışdı. Sürünün ardınca hərəkət edən qoşa atlı faytonda atılıb-düşən quldurlar əllərindəki tüfənglə hara gəldi atəş açırdılar. Oğrular mal-qaranı qovan əliağaclı adamlara nalayiq söyüşlər yağdıraraq ələ salır, başlarının üzərindən bir-iki güllə ataraq onları qorxuzur, tələsdirirdilər.

Uzaqdan Heydər dağının zirvəsi aydın seçilirdi. Açılan güllələrin vahiməli səsindən hürküb ətrafa yayılan heyvanların qarşısını kəsmək mümkün deyildi.

Sürüdə ayaqları ilə yeri eşən qızmış buğa fısıldayıb böyürərək Gəyən təpəsinə doğru qaçmağa cəhd etdi. Mal-qaranı əhatəyə almış adamlar heyvanları pərən-pərən düşməyə qoymurdular.

Quldurlara başçılıq edən motal papaqlı, üz-gözü toz-torpağa batmış Şirxan bunu görən kimi bağırtı ilə:

- Sürünün qabağını kəsməyin! Burda dayanmaq olmaz, - deyə atını səyirdərək hikkə ilə yaşlı kişinin üstünə şığıyıb, - zındıq oğlu zındıq, bayaq sənə dedim axı mal-qaranın qabağını kəsməyin. Necə olursa-olsun, günorta namazına qədər bu ətrafda olan bütün heyvanları yığmalıyıq, - deyə nalayiq söyüş yağdırıb özündən çıxan Şirxan amansızlıqla ahıl kişinin baş-gözünü qamçı ilə vurmağa başladı.

Əllərini başı üzərinə aparıb özünü qorumağa çalışan qoca kişi dizi üstündə aşağı qısılaraq ona dəyən zərbələrdən inildəməyə başladı.

Qamçının zərbəsindən baş-gözü al-qana boyanan qoca ilantək qıvrılıb qısılaraq yumağa dönmüşdü. Duruş gətirə bilməyən yazıq qoca qəfil səntirləyib üzü üstə yerə yıxıldı.

Arxadan gələn oğrular kişinin döyülməyindən həzz alırmış kimi hırıldaşır, onu fitə basıb ucadan qışqırırdılar.

Faytonda atılıb-düşən oğrular da döyülən kişinin başının üstündən bir-iki güllə atıb onu bərk qorxuzdular. Malqaranın ətrafında vurnuxan silahlı quldurlar Şirxanın qəzəbləndiyini görüb bir-birini tələsdirdilər. Yamacboyu malqaranın qopardığı toz qatı ətraf yerləri görünməz etmişdi...

***

Daşkəsən təpəsindən ətraf yerləri müşahidə edən silahlı cavanlar Araz çayı tərəfdən yaxınlaşan toz qatını izləyirdilər. Heydər dağına doğru qovulan mal-qaranı görüb işarəylə Qanlı dərədə döyüşə hazır dayanan daşkəsənliləri xəbərdar etdilər. Müşahidəçilərdən biri vaxt itirmədən təpədən üzüaşağı qaçaraq dərəyə endi. Quldurların yaxınlaşdığını bilən daşkəsənlilər dərhal atlandılar. Əvvəlcədən göstərilən yerlərdə bənd-bərəni tutub Behbud bəyin hücum əmrini gözlədilər.

Əli silah tutan kənd camaatı hamılıqla səfərbər olub Qanlı dərəyə axışmışdı.

Bu an bir dəstə silahlı atlı kəndin yuxarı məhəlləsində yerləşən qədim yaşayış məskəni olan Kültəpədən üzüaşağı, Qanlı dərəyə enirdi. Dərədə çay yatağı boyu atları dördnala çapan silahlılar Şahverdili bağına doğru hərə-

kət edirdilər. Atlılar qarşıdakı təpəni qalxıb Qara Molla pirinə yaxınlaşdı. Qabaqda, ərəb atın belində gələn Xanlar ağa pirin yanında cəld atından düşüb Behbud bəyə yaxınlaşdı. Onunla görüşüb təngnəfəs halda ucadan söyləndi:

- Kərbəlayi, qardaşın Şirxanla Qışlaq kəndindən yuxarıda otlayan qoyun sürülərimizin dalınca gedirdik. Kənddən təzəcə aralanıb Ala dağda Daşkəsən gədiyinə qalxırdıq. Bizimlə gedənlərdən biri arxaya boylanıb görüb ki, camaat qaça-qaça Qara Molla pirinə tərəf axışır. Qorxunc hadisənin baş verdiyini hiss edib atların başını çevirərək dərhal kəndə qayıtdıq. Təzə kəhrizə yaxın, Qiyas kişinin su dəyirmanında taxıl üyütdürənlər vəziyyəti təfsilatı ilə bizə danışıblar. Vəziyyətimiz ağır olsa da, oğruların cavabını keçən payızda olduğu kimi elə verməliyik ki, bir də cürət edib Araz çayını bu taya keçməsinlər. Gününgünorta çağı camaatın mal-mülkünü talamasınlar.

Qəzəbindən sifəti bozarmış Xanlar ağa əlindəki aynalını oynadaraq danışırdı.

Xanlarla kiçik qardaşı Kərbəlayi Şirxanın silahlı adamlarını görən Behbud bəy özlüyündə toxtaqlıq tapıb ikrah hissi ilə:

- Xanlar, - dedi, - qansız oğlu sürüyə dadanmış yalquzaq təki qisas almağa gəlir. Nanəcib bu dəfə böyük qüvvə toplayıb üstümüzə hücum çəkir. Abır-həya bilməyən Şirxanın əcəli burda yetməlidir. Sübh namazında, gün qalxmamış Mərcanlı kəndindən mənə xəbər gətirən atlının dediyinə görə, Şirxan bu dəfə Rəhim ağayla Tülkü Zəkinin də dəstəsiylə birləşib kövşənlərdə mal-qaranı yığa-yığa üzü bəri qovurlar, - deyə Behbud bəy əlindəki qamçıyla uzaqdan görünən, Gəyən təpəliyinin yamacındakı Gavalı bağlarını göstərdi.

Behbud bəyi diqqətlə dinləyən kiçik qardaşı Şirxan irəli yeriyərək:

- Qağa, oğruların qabağını aşağıda, təpəliklərdə kəsməliyik. Burda onları gözləməyin faydası yoxdur.

- Mən də bilirəm, oğruların qabağını Quycaq kəndindən aşağıda, Quyu dərəsində, Kötüklükdə kəsmək lazımdır. Şirxan sağolmamış, bizim hücum etməyimizə bənddir. O, nanəcibin birisidir. Uzaqdan gəlişimizi görüb aşağı kəndlərin adamlarına divan tutacaq, yağmaladıqları mal-qaralara xətər yetirib aradan çıxacaq. Sonra o, yaramaz əməllərini bizim camaatın üstünə yıxacaq. Sən, quzğun Şirxanı yaxşı tanımırsan. Onun dabbaqda gönünə bələdəm. Yaxsısı budur, vaxt itirmədən silahlı adamlarınla Səsverən qayada dayanan Məşədi Yusif ağaya köməyə gedib, onunla bir yerdə döyüşəsən. Mənim ehtiyat etdiyim yer Səsverən qayanın ətrafıdır. Yəqin, Şirxan axşam ertədən, adamlarını oralarda pusquda saxlatdırır. Eybi yoxdur, onlar yağmaladıqlarını Gavalı bağlarından üzü bəri, bizə sarı qovsunlar, sonrasına da baxarıq, - deyə Behbud bəy təmkinlə cavab verdi.

- Düz deyirsən, Behbud bəy, aşağı kəndlərdə adamların sayı azdır. Orda yaşayan insanların əksəri də yazın əvvəlindən mal-qarasını yaylaq yerlərinə aparıblar. Yerdə qalanları bu taya keçən quldurlarla bacara bilməzlər. Binəvalar olan-qalan qoyun-quzularını ertədən ötürüblər kövşənlərə. Şirxan da əlinə keçənləri yağmalayıb üzü bəri qovur. Biz hücuma keçib, onların qabağını aşağıda kəssək, adamlarımızı qırğına verə bilərik. Meydan qızışsa, mal-qara itkisi də çox olacaq. Quldurlar qansız, nainsaf adamlardır. Kəndə soxulsalar, mütləq camaata xətər yetirəcəklər. Oğruların qabağını Quycaqla-Horovlu kəndi ara-

sında, köhnəsəngər yerində kəsməliyik, - deyə Xanlar ağa məsləhət bildi.

- Xanlar, yaxşı məsləhətdir. Məndə istəmirəm ölümitim olsun. Görürsən onları? Elə bil alçaqlar sürüyə soxulmuş yalquzaqdırlar. Camaatın mal-qarasını qova-qova necə də tozanaq qaldırıblar, - deyə açılan güllə səsindən oğruların yaxınlaşdığını Xanlar ağaya göstərdi. Behbud bəy yüyəni kəhərin qaşına aşırıb qıyğacı kəndin ətrafını seyr etdi.

- Səbr elə, Kərbəlayi, baxarıq, - qəzəbini hədə ilə bitirib dərhal atına süvar olan Xanlar ağa, - İnşallah, bu dəfə onların axır gəlişləri olar!

Xanlar ağanın qətiyyətli fikri onlara qulaq asan silahlı adamları ruhlandırdı.

- Xanlar, dərədə səngərlərə baş çəkmək lazımdır. Daşkəsən təpəsində silahlı cavanlarımız Araz çayına doğru görünən köç yolunu izləyirlər. Səhər ertədən bacın oğlu Misiri də Qaçaq Süleymanın dalınca xəbərə göndərmişəm. Yəqin indilərdə Əhmədalılar kəndinə çatmış olar, - deyə Behbud bəy sözünü bitirib kəhərin belinə sıçradı.

- Behbud bəy, Süleyman yayın bu tülyanında kəndinə qayıtmaz. Mən biləni indi o, yaylaqdadır, - deyə Xanlar ağa tərəddüdlə iradını bildirdi.

- Xanlar, Süleyman iki gündür yaylaqdan qayıdıb. Obasına baş çəkməyə gəlib. Tez bir zamanda geriyə, yaylağa gedəcək. Mən onun gəlişini bilməsəm, bu dar məqamda Misiri xəbərə göndərmərəm.

- Çox yaxşı ki, xəbərə Misiri göndərmisən. Yəqin bilirəm, o, Süleymanı tapıb əhvalatı ətraflı ona danışmış olar, - deyə Xanlar ağa at belində arxaya çönüb bir anlıq Alı bağına tərəf boylandı. Bağdan yuxarı, təpəliklərdə Əh-

mədalılar obasına doğru görünən torpaq yolu nigarançılıqla seyr etdi.

- Xanlar, Misirə arxayın olduğum üçün onu Süleymanın dalınca xəbərə göndərdim. Əminliklə danışan Kərbəlayi Behbud bəy atını Xanlar ağa ilə yanaşı sürərək Şahverdili dərəsinə endilər. Çınqıllı dar yolla dərəyə enən atlılar Qanlı dərənin geniş meydanından səngərlərə doğru irəlilədilər.

Yerlərdə sayıq dayanan silahlıları yoxlamağa gedən Behbud bəylə Xanlar ağa səngər kənarında dayanmış daşkəsənlilərin döyüşə hazır olmalarını dönə-dönə tapşırdı. Quycaq yatağından Horovlu kəndinə qədər qazılmış qədim səngər yerlərinin kol-kos basmış, xəndəklər görünməz olmuşdu. Quldur dəstəsini səbirsizliklə gözləyən əli-silahlı daşkəsənli atlıları Qanlı dərənin geniş meydanına nəzarət edirdilər...

Hay-küylə mal-qaranı Gavalı bağları ətrafında qovan oğrular Heydər dağına tərəf yaxınlaşırdılar. Hürküb irəli sıçrayan heyvanların qopardığı tozanaq hər tərəfi görünməz etmişdi. Böyürə-böyürə qaçan mal-qaranın yaxınlaşdığını görən daşkəsənlilər döyüşə atılmağa səfərbər oldular. Qanlı dərədən yuxarıda damların üstündə yanlarına topa-topa kiçik qaya daşlarını yığan uşaqlar da həyəcanla dərəyə baxır, sanki böyüklər kimi onlar da meydana atılıb vuruşmaq istəyirdilər...

***

Əhmədalılar kəndinin ara yolunda ağ köhləni çaparaq mərəyə yaxınlaşan Qaçaq Süleyman cəld atından yerə sıçradı. Əlindəki yüyəni yəhərin qaşına keçirib, silahlı adamlarla yanaşı dayanmış qoca kişiyə tərəf addımlayıb təmkinlə:

- Salam, əmi, - deyə əl verib onunla nəzakətlə görüşdü.

- Qardaşoğlu, bu cavan oğlan daşkəsənli Alı bəyin nəvəsidir. Qorxulu bir xəbər gətirib. Deyir ki, Kosa Şirxan yenə də dəstəsi ilə sübhdən Araz çayını bu taya keçib, camaatın mal-qarasını yığa-yığa üzüyuxarı, Heydər dağına tərəf qovur. Bu heyvərəyə nə tövbə təsir edir, nə də ki, abır-həya edib özünə qoyulmur.

Əmisinin söylədiyi xəbərdən sifəti səyriyən Süleyman bir anlıq duruxub qaldı. Sonra Araz çayına tərəf boylanaraq hikkə ilə:

- Ay qurumsaq, tövbə sənə qənim olsun. Deyəsən axı sənin əcəlin çatıb!

- Baxarıq! Bu dəfə əlimdən canını qurtara bilməyəcəksən, - deyə enli kəmərlə belinə bağladığı dəri qobur-dan mauzeri çıxardıb göyə iki yaylım atəşi açdı.

Güllə səsini eşidənlər vəziyyətin çətin olduğunu anladılar. Güllə səsinə kəndin hər tərəfindən əli silahlı qaçaqlar dərhal atlanıb çaparaq bir-bir, iki-iki mərəyə tərəf gəldilər.

Süleyman onun dalınca xəbərə gələn silahlı kişiyə baxıb əlinin işarəsiylə evdən tüfəngini gətirməsini bildirdi. O, köhlənin yalmanına sığal çəkə-çəkə pərtliyini biruzə vermədən uzaqdan görünən Araz çayına tərəf boylandı. Və bir azdan mərəyin ətrafına yığılan atlılara nəzər yetirdi. Pörtmüş halda adamlardan kənarda dayanıb, kəhərin başını sinəsinə sıxan oğlana tərəf çevrilib qıyğacı onu süzdü. Xəbər gətirən cavan atlı donuxmuş halda ona baxa-baxa qalmışdı. Bir anlıq oğlana baxan Süleymanın sifətindəki qəzəb ani olaraq mülayimləşdi. Nə fikirləşdisə, nəvazişlə:

- Çinarlıqdan keçəndə görürdüm səni. Yaxşı at çapmağın da var! Sən Xanlar ağanın oğlusan? - deyə maraqla soruşdu.

Süleymanın sualını eşidən cavan özünü itirmədən dərhal:

- Xeyr, Bayram ağanın oğluyam. Xanlar ağa mənim böyük dayımdır, - deyə sakitcə cavab verib gözlərini aşağı dikdi.

Oğlanın cavabından məmnun qalan Süleyman gülümsünərək:

- Belə de, demək rəhmətlik Hacı Rüstəm ağanın nəvəsisən! Allah rəhmət eləsin, atan mərd kişi olub. O vaxt kəndinizdən yuxarıda, Xiyaban meydanında silahlı erməni dığalarını bir yerdə qovub çıxartmışıq. Rəhmətlik elə o döyüşdə də ağır güllə yarası almışdı. Güllə yarasından bir neçə gün sonra dünyasını dəyişdi. Allah ona rəhmət eləsin. Qəbri nurla dolsun. Bəs adın nədir sənin?

Süleymanın atası haqqında dediyi xəbərdən təsirlənən oğlan qəhərdən dolmuş gözlərini ondan gizlətməyə çalışaraq, başını aşağı endirib sakitcə:

- Misir, - dedi.

- Səni kim göndərib mənim dalımca?

Oğlan başını qaldırıb qəmli baxışlarla onu süzərək:

- Kərbəlayi Behbud əmi, - dedi.

Sadiq dostunun adını eşidən Süleyman bir anlıq duruxub qaldı. Əlindəki qamçının göndən sıx hörülmüş saçağını dəstəyinə büküb sıxdı. Məyus olmuş halda başını silkələyib uzaqdan zirvəsi görünən Heydər dağına tərəf boylandı.

Qəzəbini güclə boğan Süleyman təəssüf hissi ilə başını silkələyib təmkinlə:

- Necə oldu ki, səni mənim dalımca göndərdi?

Süleymanın ciddiyyətlə soruşduğunu hiss edən Misir özünü ələ alıb baş verən hadisəni həvəslə, ətraflı izah etməyə başladı:

- Suçularla Alı babamın bağında ağacları suvarır, dəhnədən axan suya nəzarət edirdim. Şəl üzüm ağaclarının zoğlarını otluq arasında boy atan budaqlarını sahmana salırdım. Bağın aşağı tərəfində Ağ göldən aralı təpəlikdə dayanan suçulardan biri qəflətən qışqıraraq məni yanına çağırdı. O, əlini Araz çayına tərəf uzadaraq həyəcanla dedi:

- Gəl bir ora bax!

Mən işimi yarımçıq saxlayıb tez təpəyə tərəf gedərək onun göstərdiyi səmtə boylandım. Uzaqdan güclə seçilən Araz çayının bəri sahilində çoxlu atlı dəstəsi görünürdü. Onlar Maralyan kəndinin yuxarı tərəfindən çaparaq irəliləyirdilər. Sübh tezdən bir bölük atlı dəstənin Araz çayını bu taya keçib üzüyuxarı, bizim tərəfə gəlməsindən heç nə anlamadım. Mən dərhal arxaya çevrilib kəndimizə tərəf boylandım. İstədim ki, atlanıb kəndə gedim və bu xəbəri camaatımıza çatdırım. Ancaq arxaya çönüb baxanda özüm də heyrətimdən donub qaldım. Əli tüfəngli, dəyənəkli kənd adamlarını Qara Molla pirin ətrafına yığılan gördüm. Ora yığılanlar qaya daşının üstündə dayanıb danışan adama qulaq asırdılar. Danışanın Behbud əmi olduğunu uzaqdan tanıdım. Kəndin əli silah tutan adamlarının hamısı Aydolanmazın cıdır meydanına tərəf axışırdı. Eşidilən hay-küydən özüm də çaş-baş qalmışdım. Doğrusu, bilmirdim ki, nə edim. Vaxtı itirmədən ərik ağacından asdığım tüfəngimi də götürüb tez atlanıb Ağ göldən aşağıı, Dərəarasını keçib kəndə doğru qalxdım.

Qara Molla pirin yanına çatar-çatmaz Behbud əminin amiranə səsini eşitdim. O, silahlı adamlara tapşırıqlar verirdi. Atdan düşmək istəyirdim ki, Behbud əmi məni görüb ərklə dedi:

- Nənəm qurban, aşağı düşmə, atın başını çevir, özünü Əhmədalılar kəndinə çatdır. Necə olursa-olsun, Qaçaq Süleymanı yerin deşiyindədə olsa tap. Ona bildir ki, Kosa Şirxan iki bölük atlı dəstəsi ilə Araz çayını keçib Maralyan kəndi səmtindən üzüyuxarı, bizə tərəf gəlir! Mən onun dediklərinə diqqətlə qulaq asıb anladım ki, vəziyyət çox gərgindir. Odur ki, dərhal kəhərin başını çevirib çaparaq sizə xəbər verməyə gəldim! - deyə Misir Süleymana baxa-baxa həyəcanla danışdı.

Gözucu mərəyin ətrafına yığılan silahdaşlarını diqqətlə bir-bir nəzərdən keçirən Süleyman oğlanın gah həyəcanla, gah da sakit-sakit danışığına qulaq asır, tez-tez başını tərpədib onun dediklərini təsdiq edirdi. Oğlanı diqqətlə dinləyib məsələdən hali olan Süleyman məmnun halda:

- Ay bərəkallah, oğul, sən elə qaçaqlığa layiq olan igidsən, - deyə əliylə oğlanın başına sığal çəkərək, - mindiyin bu kəhər kimindir, sənindir?

Gözlənilməz sualdan çaş-baş qalıb allanan Misir bir anlıq gözlərini yerə dikib nəzakətlə:

- Bəli əmi, Mərcanlı Hacı Fərhad əmi bağışlayıb, - dedi.

- Nə əcəb? - deyə Süleyman təəccüblə soruşdu.

Süleymanın sualına cavab verən Misir boz kəhəri necə əldə etməsini həvəslə yerli-yataqlı danışmağa başladı:

- Keçən yaz ilin axır çərşənbəsində kəndin cavanları Aydolanmaz meydanına cıdıra çıxmışdı! Fərhad əmi də külfəti ilə dayımgilə qonaq gəlmişdi. Mən Fərhad əminin

atına qulluq edirdim. O, həmişə olduğu kimi məni sorğu-suala tutub hal-əhvalımı ətraflı xəbər alandan sonra söz-arası yarı zarafat, yarı gerçək təəccüblə soruşdu:

- Qardaşoğlu, bayaq bura gələndə Aydolanmazın cıdır meydanında kəndin cavanlarını at oynadan gördüm. Deyəsən, bayramqabağı cıdıra çıxıblar. Bəs sən nə əcəb, cıdıra at çapmağa getməmisən? - deyə soruşdu.

- Doğrusu, Fərhad əminin qəfil verdiyi suala bilmədim ki, necə cavab verim. Ancaq özümü birtəhər ələ alıb dedim ki, Hacı, mənim atım elə də qaçağan deyil.

O, təəssüflə başını tərpədərək mənə baxıb ərklə:

- Onda mənim kəhərimi min, get. Bir azdan mən də dayınla birlikdə gəlib cıdırda sənin at çapmağına tamaşa edəcəm. Baxaq görək necə at çapırsan?

Elə bil ki, mən bu sözə bənd idim. Tələsik tövləyə girib Hacının atını həyətə çıxardaraq yəhərlədim. Bir göz qırpımında atın belinə sıçrayıb Aydolanmaza – cıdır meydanına tərəf çapdım. Meydana yığılan kənd camaatı uşaqlı-böyüklü cıdıra tamaşa etməyə gəlmişdilər. Cıdırda at çapmaq istəyən cavanlar mindikləri atları şahə qaldıraraq qürrələnir, özlərini tamaşa edənlərə göstərirdilər. Kənd ağsaqqallarının verdiyi qərara görə cıdırda irəlidə gələn atlıya peşkəş olaraq bir erkək toğlu verilməli idi. Hamımız mindiyimiz atla Qara Molla pirindən aralı meydançada səf-səf düzülüb hazır dayanmışdıq. Tamaşaya gələnlərin əyləşdiyi yerin önündə cıdıra başçılıq edən ağsaqqalın işarəsini səbirsizliklə gözləyirdik. Aydolanmaz meydanının sonunda, dikdirdə sıra ilə əkilmiş iri Üç qoz ağacının ətrafına fırlanıb geriyə qayıtmalı idik. Cıdır başlandı, mən də o cavanlara qoşulub atımı çapdım. Kəhərin hesabına onları ötüb keçdim. Bizim at çapmağımızı ma-

raqla izləyən ağsaqqalların əyləşdikləri yerə hamıdan qabaqda gəlib çatdım. Cıdırda birinci gəlməyimə sevinən kənd camaatı əl çalaraq məni alqışladılar. Ötüşməmizə nəzarət edən başçı birinci gələnə veriləcək erkək toğlunu gətirib mənə verdi. Ağsaqqalların arasında əyləşən Məşədi Yusif ağa gülə-gülə mənə tərəf gəlib boynumu qucaqladı. O, özünün fabrikində qara yun parçadan tikilmiş bir dəst çərkəzi çuxanı və gümüş qınlı xəncəri hamının gözü qarşısında mənə bağışladı. Ağsaqqallarla yanaşı əyləşib bizə tamaşa edən dayım Xanlarla Hacı Fərhad əmi əllərinin işarəsi ilə məni çağırdılar. Əyləşdiyi yerdən ayağa qalxan Hacı Fərhad əmi məni bərk-bərk qucaqlayıb bağrına basaraq gülə-gülə ucadan dedi:

- Ə, qardaşoğlu, bu gündən kəhər oldu sənin!

Fərhad əminin sevimli atını mənə bəxşeyiş kimi verməsini görənlər təəccüblə bizə baxıb çəpik çaldılar. Hacının hərəkəti cıdıra tamaşa edənlərin ürəyincə oldu.

Kənardan söhbətə qulaq asan dayım dil-ağız edib çox çalışdı ki, Hacı fikrini dəyişsin. Ancaq Fərhad əmi dediyindən dönmədi ki, dönmədi...

Misiri diqqətlə dinləyən Süleyman razılıqla:

- Yaxşı atdır, yaxşı bax ona. Bəs bayaq gələndə atın başını niyə buraxmışdın? Elə bil ki, əlində yüyən yox idi.

- Hacı atı mənə bağışlayanda kəhər haqqında dəyərli nəsihətlər də verdi.

Süleyman ətrafına yığılan qaçaqların maraqla onların söhbətinə qulaq asdığını görüb silahdaşlarına göz vuraraq gülə-gülə:

- Belə de! Deməli, Hacı kəhərlə necə davranmağı da, "xasiyyətini" də necə var sənə izah edib, başa salıb.

Süleymanın söhbətdən razı qaldığını hiss edən Misir sözünə davam edərək:

- Hacı dönə-dönə tapşırdı ki, nəbadə, ata qamçı vurasan. At hürküb səni yerə çırpar. Çalış ki, kəhər sənin səsinə alışsın. Əgər vacib bir işin dalınca gedirsənsə, ucadan "hə, gözünə dönüm", de. Atı çapanda da yüyəni qəfil çəkmə. Çünki, o anda kəhər çılğınlaşıb şahə qalxacaq. Bərk çapanda atın başını burax, o səni mənzil başına tez çatdıracaq, - deyə Misir Hacının nəsihətli sözərini birər-birər xatırlayıb həvəslə danışdı.

Mərəyin yanına yığılan silahlıları gözaltı nəzərdən keçirən Süleyman cavana baxıb ucadan:

- Elə düz deyirlər ki, Hacı yaxşı atın şakəridir! Çalış ki, onun dediklərinə həmişə vaxtında əməl edəsən, - dedi.

Bu vaxt Süleymanın silah dalınca göndərdiyi kişi mərəyə yaxınlaşdı. Gətirdiyi beşaçılan tüfəngi güllə qatarı ilə Süleymana uzadaraq ona verdi.

Süleyman silahını alıb:

- Sağ ol, yaxşı ki, tüfəngi tez gətirdin, - dedi.

O, cəld güllə qatarını çiynindən aşırıb, beşaçılan tüfəngi yəhərin yanına bərkidilmiş uzun dəri qobura yerləşdirərək üzüaşağı salladı.

Qaçaqların hamılıqla yığışdığını görən Süleyman köhlənin üzəngisini bərkidərək ucadan:

- Hamı gəlib? - deyə soruşdu.

Qaçaqlardan biri – qıvrım saçlı, ucaboylu Xanalı hamıdan əvvəl dilləndi:

- Hə, qağa, yığışmışıq.

Süleyman:

- Mehdigildən bir xəbər yoxdur?

Xanalı:

- Qağa, Mehti səhər ertədən Aslan düzündən xəbər göndərib ki, günorta üstü Araz çayını bu taya keçəcəklər.

Süleyman qoca kişiyə, əmisinə tərəf çevrilib sakitcə ona eşitdirdi:

- Əmi, Mehdigil gələndə onlara bildir ki, Nüzgar kəndinə çatmamış, alt yolla üzüyuxarı – Daşkəsən kəndinə tərəf gəlsinlər.

Qoca nəvazişlə:

- Arxayın olun qardaş oğlu. Sərvaxt gedin. Mehdigilin dəstəsi kəndə gələn kimi sənin ismarıcını mütləq ona çatdırıb tez-tələsik dalınızca göndərəcəm, - Allah amanında, bir-birinizi nanəcib quldurların həmləsindən, qəfil güllələsindən qoruyun.

Süleyman yola düşməzdən əvvəl qaçaqlara bir-bir tapşırıqlar verdi:

- Xanalı, Quycaq kəndinin yuxarı tərəfindən Qanlı dərəyə doğru görünən yarğanı gözdən qoymayın. Şirxan adamları ilə mal-qaranı yığa-yığa gəlib ora çıxacaq. Onun əməllərinə yaxşı bələdəm. Özü gəlməzdən əvvəl beş-altı silahlı qulduru yol adamı kimi ağılagəlməz yerlərdə pusquda saxlatdırıb qəfil hücuma keçəcəkdir. Sonra yağmaladığı bütün mal-qaranı Gəyən təpələrindən üzüaşağı – Xudafərin körpüsünə tərəf qovacaqlar. Nanəcib heç vaxt Araz çayını keçdiyi yerdən geriyə qayıtmaz. İndi çayda su azalıb. Körpüdən yuxarıda, qayalıqlar arasından dar yerdən keçib o taya gedəcəklər.

Süleyman sonra üzünü Qara Dadaşa sarı çevirib əlavə etdi:

- Dərəarası yarğanından Qara Molla pirinə tərəf qalxarsınız. Oğrulara aman verməyin ki, kəndə soxulsunlar! Mən özüm Usubla Rəşidin atlıları ilə daş yoldan Daşkə-

sən kəndinin təpəsinə, Heydər dağına çıxacam. İşarəm olmadan heç kim güllə atmasın. Əminəm ki, Kərbəlayi da Şirxanı necə lazımdır "layiqincə" qarşılamaq üçün tədbir görüb. İndi isə tərpənin, yolda ləngiməyin!

Sonra o, kənarda dayanan başqa qaçaqlara səslənib:

- Siz hamınız dağılışın, qayıdın evinizə. Bax ha, kəndi sahibsiz qoymayın.

Ora çox adam lazım deyil.

Ciddiyətlə qaçaqlara tapşırıq verən Süleyman cəld köhlənin belinə qalxdı.

Sahibini duyan at çılğınlıqla irəliyə sıçradı. Xəbər gətirən Misir də bir göz qırpımında atlanıb onların dalınca götürüldü. Qaçaqların önündə gedən Süleyman, çiyni üstə arxaya çönüb onların ardınca çaparaq gələn Misirə səslənərək:

- Dalımızca gəlmə. Geriyə qayıt. Bağ aşağı kəndinizə tərəf çap. Xanalının dəstəsinə qoşul!

Ancaq Süleymanın dəstəsindən geri qalmaq istəməyən Misir atını dördnala çaparaq qaçaqların ardınca sürdü.

Yüyrək at mənzil başına tez çatar. Enişli-yoxuşlu Gəyən düzünün otlaq sahələri cıdır meydanına bənzəyirdi. Göy çəmən otları qaçan atların ayaqları altından sıçrayıb kənara düşürdü. Atlılar qarşıda görünən yamacdan sağa burulub təzəcə biçilmiş arpa zəmisinin arası ilə uzanıb gedən dolanbac torpaq yola çıxdılar. Atların qopardığı toz qatı səf-səf yığılıb bağlanmış dərzləri bozumtul rəngə bürümüşdü. Qarşıdakı kiçik təpəni sürətlə qalxan qaçaqlar Daşkəsən kəndinə gedən yolla hərəkət edərək tut bağlarına yaxınlaşırdılar. Quzeydə köhnə yurd yerlərin arası ilə daş yola tərəf irəliləyən qaçaqlar yamacda görünən köhnə su dəyirmanının arxasından üzüaşağı endilər. Daş

yoldan aralı "Rus yurdu"nu keçib üzüyuxarı Heydər dağın yamacına qalxdılar. Yamacın günçıxan səmtindən aşağıda, qədim yaşayış məskəni olan Kül təpə xarabalığında Kosa Şirxanın pusquda dayanan adamları qəfil irəli atılıb qaçaqları tüfənglə nişan alaraq vurmaq istədilər. Pusquda dayananlarla rastlaşan Süleyman onlara atəş açmağa aman vermədi. Mauzerdən açılan güllələr iki qulduru yaralayıb atlarından yerə aşırdı.

Süleyman hayqırtı ilə bağıraraq arxadan gələn qaçaqlara göstəriş verdi:

- Usub, atları yeyin sürün! Qudurmuşlar kəndə soxulublar...

Dərədə açılan güllələrin əks-sədası qayalıqlarda şaqqıldayır, yeri-göyü lərzəyə gətirirdi. Kül təpəni sürətlə qalxan atlılar dikdirdən aşağı, Qanlı dərəyə, Əncirlik bağına tərəf şığıdılar. Başdan-başa toz-dumana bürünüb hər tərəfi görünməz edən Qanlı dərədə daşkəsənli silahlıların hayqırtısı ildırım çaxnaşması təki guruldayırdı. Daşkəsənlilərin həmləsindən vahiməyə düşüb çaş-baş qalan oğrular köhnə səngər yerindən dərəyə doluşan mal-qaranın qarşısını kəsə bilmirdilər. Horovlu yatağında yamaca yayılan sürü tufanla gələn seltəki gədikdən üzüaşağı, dərənin dibinə doluşurdu. Sürünü əhatəyə alan quldurlar bilmirdilər ki, nə etsinlər. Onların əfəlliyini görən Şirxan qəzəbindən söyüşü söyüşə calamışdı. Hürküb ətraf yamacda qaçan mal-qaranı bir yerə yığa bilməyən quldurlar geriyə üz tutub aradan çıxmaq istəsələr də, artıq gec idi. Hər tərəfdən Qaçaq Süleymanın dəstəsi və daşkəsənli silahlılarıyla əhatəyə alınan Kosa Şirxanın adamları qorxudan sürüdən ayrılıb canlarını qurtarmaq xatirinə vurnuxur, mühasirəni yarıb qaçmaq istəyirdilər. Asanlıqla aradan çıx-

mağın müşkül məsələ olduğunu görən oğrulardan lopa bığlısı hürkmüş kəl kimi at belində atılıb-düşürdü. Hər tərəfdən mühasirəyə alındığını görən lopa bığlı atın başını çevirib səyirdərək Şirxana yaxınlaşıb tələşlə qışqırdı:

- Şirxan, mühasirəyə düşmüşük, - deyə xırıltılı səslə bağırdı.

Qəzəbindən qızmış buğatək fısıldaya-fısıldaya atını sağa-sola səyirdən Şirxan özünü sındırmaq istəməyib əda ilə çımxıraraq:

- Ə, səsini kəs. Camaatı duyuq salıb buralardan qaçırtma, mühasirə nədir, heyvanları üzübəri qovun gəlsin, - deyə onu söyüb təhqir etməyə başladı.

- Şirxan, görmürsən daşkəsənlilər qızılquştək hər tərəfdən şığıyıb başımızın üstünü kəsiblər?

- Ə, nə boş-boş danışırsan! Nə olsun! Biz bura gizlən-qaç oynamağa gəlmişik? Ay quş ürəklilər! Heyvanları dağılışmağa qoymayın, - deyə hürküb üzüaşağı, dərəyə götürülən mal-qaranı tüfəngin nişangahı ilə göstərən Şirxanın qəzəbli səsi ətrafa yayıldı.

Sürünün arxasınca gələn oğruların bir dəstəsi vəziyyətin çətin olduğunu başa düşüb gədikdə atlarını əylədilər. Dərəboyu Qaçaq Süleymanın adamları ilə daşkəsənli silahlıları qarşısında tab gətirə bilməyən oğrular atların başını çevirib tez aradan çıxaraq üzü Araz çayına tərəf götürüldülər. Qaçanlara başçılıq edən tülkü Zəki kəhər atını bir anlıq təpədə əylədi. Şirxan eşitsin deyə cır səsiylə qışqırdı:

- Şirxan, dərədə Süleymanla daşkəsənlilərin qabağında nə vuruşası halımız, nə də təpilməyə samanlıq dərimiz yoxdur. Araz çayının o tayında, qamışlıqda sənlə kəsdiyimiz şərtimiz belə olmamışdı. Dərədə daşkəsənli-

lərin əlinə düşüb bəri başdan əşədənnimi oxumaq istəmirəm. Buralar bizim yemimiz deyil. Allah sənə xeyir versin, biz getdik! - deyə Zəki atının başını çevirib qaçan quldurların dalınca çaparaq gədikdən uzaqlaşdı. Zəkinin aradan çıxdığını görən Şirxan qızmış dəvə kimi nərildəyir, nə edəcəyini bilmirdi. Horovlu gədiyindən hücuma keçən Məşədi Yusif ağanın atlı dəstəsi oğruların qabağını kəsib onların qaçıb aradan çıxmasına imkan vermədi. Yamacda mal-qara arasında tələşlə vurnuxan quldurlar mühasirədən çıxmağa can atırdılar. Quycaq yatağının sıldırımlı yarğanında özünü vaxtında çatdıran Xanalının dəstəsi qaçan oğruları atdöşü edib geriyə, Qanlı dərəyə tərəf qovdu. Qara Molla pirin yanından Şahverdili dərəsinə enən Qara Dadaşın adamları daşkəsənli silahlıları ilə birləşib oğrularla döyüşə girdilər. Qaçıb canlarını qurtara bilməyən Şirxanın adamları geriyə, Muğum bağına tərəf çəkildilər. Hürküb böyürtü ilə dərə boyu vurnuxan mal-qaranın qaldırdığı tozanaq ətrafı görünməz etmişdi. Qanlı dərədə köhlən atıyla cövlan edən Behbud bəy qızılquştək Şirxanın üzərinə şığıdı. Behbud bəyin sürətlə yaxınlaşdığını görən Şirxan özünü qorumağa çalışdı. Atını şahə qaldırıb sürünün arasına soxuldu. Açılan güllələrdən qorunmaq istəyən oğrular dərədən çıxıb sığınmağa yer tapa bilmirdilər. Silahlı daşkəsənlilərin hayqırtısı, hürkmüş mal-qaranın böyürtüsü meydanı qızışdırmışdı.

Ağ köhlənin belində Kültəpədən üzüaşağı hücuma keçən Qaçaq Süleyman mauzerindən atəş aça-aça oğruların başının üstünü kəsdi. Süleymanın ardınca gələn silahdaşlarının dərəyə endiyini görən daşkəsənlilər qəfil oğruların üzərinə atılaraq əlbəyaxa döyüşə başladılar.

Muğum bağının yuxarı tərəfində, qayalıqlarda dayanıb oğrularla çomaq davasına çıxan Ağalar kişiylə Məşədi Cəfərin şaqraq səsi Heydər dağında əks-səda verirdi. Ağalar kişinin dəyənəklə vurduğu zərbələr oğruları bir-bir atdan yerə aşırırdı. Ucaboylu Dilişin güclü zərbələrinə tab gətirə bilməyən quldurlar daşkəsənlilərin cəngindən qurtulmağa çalışırdılar. Döyüşün mənasız olduğunu görən oğrular silahlarını çaylağa atıb qaçmağa üz qoydular. Əlbəyaxa döyüşə girməyə cəsarət etməyən Şirxanın dəstəsi Heydər dağına tərəf qaçıb Əncirliyə soxuldular. Qaçan oğruları görən Xanlar ağa onları qabaqlayıb gizlənməyə macal vermədi. Ələsgər bulağı səmtində aradan çıxmaq istəyən Şirxanı təqib edən Behbud bəy onu diri tutmaq istəyirdi. Hər ikisi arasında atışma başladı. Təqibdən yaxa qurtara bilməyən Şirxan arxaya dönüb Behbud bəyə beşaçılan tüfənglə atəş açmaq istəyirdi ki, Süleymanın sərrast atdığı güllə onun tətik tutan sağ əlini parçaladı. Tüfəngi əlində saxlaya bilməyən Şirxanın silahı çay yatağında suya düşdü. Aldığı güllə yarasından öküz kimi böyürən Şirxanın vəziyyətini görən quldur yoldaşları döyüşü dayandırıb geriyə, Horovlu gədiyinə tərəf qaçdılar.

Yağmalanmış mal-qara açılan güllələrin səsindən pərən-pərən düşüb yamac boyu götürülərək ətrafa səpələnmişdi.

Mühasirədən çıxmağa çalışan yaralı Şirxan atın başını çevirib gədiyə doğru qaçan oğruların ardınca çapdı. Muğum bulağında oğruları atdöşü edib qovan Süleyman sürünün arasına soxulan Şirxanın aradan çıxmaq istədiyini görüb:

- Ə, tülkü qurumsaq, hara sivişirsən? - deyə tüfəngini qaldırıb onu nişan aldı.

Bu dəfə açılan güllə Şirxanın başındakı motal papağını havaya tulladı. Hər tərəfdən silahlı adamlarla əhatəyə alınan oğrular mühasirədən çıxmağın mümkünsüz olduğunu başa düşüb tüfənglərini yerə ataraq bir-bir təslim oldular. Hürküb qaçan mal-qaranın ardınca təpəni qalxan oğrulara yalvararaq imdad istəyən Şirxan da atını məhmizləyib onların ardınca götürüldü. Qaçan quldurlar Şirxana məhəl qoymadan sürünün arasına soxulmuşdular. Heyvanların hürküb qaçmasından istifadə edən quldurlar mühasirəni yarıb Horovlu yatağına çıxdılar. Arxada zarıya-zarıya tənha qalan Şirxan bir əlli atın yüyənini güclə saxlayıb qaçan yoldaşlarını köməyə çağıraraq:

- Məni darda qoymayın. Qurtarın məni burdan. Qaçaq Süleymanın əlinə keçsəm diri-diri dərimə saman təpəcək, - deyə yalvarırdı.

Hürkmüş mal-qaranın böyürtüsü, adamların hayküyü döyüş meydanında vahiməli bir səhnə yaratmışdı. Ağız deyənin qulaqları heç nə eşitmirdi.

Sürünün önündə, sıçrayışla irəliyə atılan qızmış buğa qəflətən heyvanlardan ayrılıb böyürə-böyürə yamac boyu dikdirə tərəf qalxdı. Sürüdəki heyvanlar da buğanın ardınca götürüldü.

Fürsətdən istifadə edən Şirxan da onun harayına yetişən iki atlı quldurla birləşib gədiyi qalxdı. Qədim səngər yerindən Araz çayına tərəf atları dördnala çapan quldur dəstəsi mühasirəni yara bildi. Yamaca çıxan heyvanlar da kövşənə sarı qaçıb dağılışdılar. Aradan çıxan oğruları köç yolunda haqlayan Xanalıyla, daşkəsənli atlıları onları təqib etməyə başladılar. Atlılar sanki cıdır meydanına çıxmışdılar. Köç yolunda Şirxanın atlılarını qabaqlayan Quycaq kəndinin adamları onları daş-qalaq etdilər.

Təqibdən qurtulub qaça bilməyən oğruların bir hissəsi torpaq yoldan kənara çıxıb üzü günbatana – Xudafərin körpüsünə tərəf atlarını çapıb uzaqlaşdılar. Kəhərin yalmanına qısılıb irəli şığıyan Xanalı sərrast atəşlə onlardan üçünü yaralayıb atdan yerə saldı. Xanalıyla atını yanaşı çapan Məşədi Yusif ağa beşaçılan tüfənglə qaçan oğruları güllə yağışına tutmuşdu. Şəybəyi kəndinin ətrafını əhatəyə almış təpəliklərdən enib Araz çayının sahilinə çatan Şirxanla dəstəsi atlarını sıçradaraq yarğandan suya atıldılar. Atların suda qopartdığı şappıltı kolluqda quşları pərən-pərən saldı. Çaparaq sahilə yanaşan Xanalı oğruların ardınca Araz çayını keçmək istədi. Özünü yetirən Yusif ağa təmkinlə:

- Lazım deyil, qoy rədd olub getsinlər, onlar bir də cürət edib bu tərəflərə keçə bilməzlər! - dedi.

Kəhərin cilovunu çəkib əyləyən Xanalı çayın o tayına keçən Şirxanı qəzəblə süzərək üzünü Yusif ağaya çevirdi:

- Məşədi, nanəcib bu dəfə də aradan çıxa bildi. Onu diri tutmaq istəyirdim. Zalımın oğlu elə bil, Arazboyu kəndlərin adamlarına qənim kəsilib. Keçən dəfə də o tayda, Aslan düzündə əlimizə keçən Şirxan, Süleymanın qabağında diz çöküb tövbə etmişdi. Yalansa tövbə ona qənim olsun. Necə olur-olsun onunla kişi kimi haqq-hesab çəkmək istəyirəm! - dedi.

Tüfəngini çiyni üstündə dik saxlayan Yusif ağa qaçanların ardınca baxıb kinayə ilə başını tərpədərək söyləndi:

- Adama oxşamayanın bir abbasılıq dərisi də yoxdur ki, mataha minsin. Qorxudan marığa yatmış tülkü kimi mal-qaranın arasına soxulub dılğırlarına necə yalvarırdı? - deyə cavab verdi.

Xanalı üzünü çayın o tayına tutub ucadan qışqırdı:

- Ay qorxaq, tüfənglə motal papağın Qanlı dərədə, yağmaladığınız mal-qaraların ayaqları altında qaldı. Bu dəfə də bəxtin gətirdi. Aradan çıxa bildin. Onu da bil ki, harda əlimə keçsən yalquzaq təki gəbərdəcəm. Kişisənsə, gəl Aslandüzünə, orda hesabımızı çürüdək!

Şirxan cəmisi səkkiz atlı ilə Araz çayını o taya keçə bildi. Aslandüzündə atları dördnala çaparaq uzaqlaşan oğrular böyürtkən kolluqları arasında gözdən itdilər.

Kəhərin başını gəldikləri səmtə tərəf çevirən Məşədi Yusif ağa ərklə:

- Xanalı, geriyə qayıtmağın vaxtıdır. İndi camaat bizdən ötrü nigaran qalıb, yolumuzu gözləyirlər, - deyə oğruları təqib edən adamlarla geriyə, Daşkəsən kəndinə qayıtdılar.

Özünü ələ ala bilməyən Xanalı Şirxanın qarasınca o ki var deyinərək qəzəblə:

- Yaxşı ay qurumsaq, heç eybi yoxdur. Əvvəl-axır, bir gün əlimə keçəcəksən. Onda da sənin halına baxaram, - dedi.

Məşədi Yusif ağa:

- Xanalı, qansız oğlu ağına-bozuna baxmadan köv-şənlərdə əlinə keçən mal-qaranı yığıb o taya keçirmək istəyirdi.

Xanalı Yusif ağaya tərəf çevrilib özünəməxsus halda təmkinlə cavab verdi:

- Məşədi, oğru ilə quldur bir bezin qırağıdır. Onların xəmiri bir yerdə yoğrulub. Belələrinin heç vaxt eli-obası olmaz. Dünya malına hərislik onların fəzilətini birdəfəlik məsləkindən silib atıb. O ünsürlərin cavabını gərək vaxtında verəsən ki, naqislik edib camaatın malına göz dikməsinlər!

Xanalının sözlərini ehmalca başını tərpədərək təsdiq edən Yusif ağa:

- Birinci dəfə gəlişi qansız oğluna tövbə olmadı. İndi də abır-həya bilməyən həyasız oğlu, hardansa çırpışdırdığı faytonla da bu tərəflərə "təşrif " buyurub, - deyə dilləndi.

- Məşədi, Şirxan tək olsa, dərd yarıdır. Özü kimisinin biri də o taydadır. Onların işi-peşəsi nanəciblik edib kasıb-kusubun malını talamaqdır. Camaata zülm edib, əzabəziyyətlə əkib-becərdikləri zəmiləri yandırmaqdan həzz alırlar. Binəva insanların mal-qarasını günün-gündüz çağı kövşənlərdə yağmalayıb aparırlar. Marığa yatmış canavar təki adamlara ziyan vurmaqdan əl çəkmirlər.

Xanalının dediklərinə diqqətlə qulaq asan Məşədi Yusif ağa razı qalmış kimi dərindən köks ötürüb susurdu.

Sözünə davam edən Xanalı, - Məşədi, onların əllərindən xeyirli iş gəlməz, - deyə ürək ağrısı ilə oğruların qarasınca danışdı.

Yol boyu söhbət edə-edə irəliləyən dəstə Quycaq yatağından Üç qoz ağacına tərəf davam edən ensiz çınqıllı yolla dardikdiri qalxdı. Alı bəyin kəhrizi yanında atlarından düşdülər. Toz-torpağa batmış atlılar üst-başlarının tozunu çırpıb təmizləyəndən sonra Dərəarasından yuxarıda, Daşkəsən çayına axan kəhriz suyunda əl-üzlərini yuyub sərinləndilər. Qovulmaqdan yorulan atlar da sakitcə suyu sümürürdü. Yuyunub sərinlənən Xanalı yamaclara yayılmış mal-qaranı, qoyun-quzunu Yusif ağaya göstərib soruşdu:

- Məşədi, sizin də kəndin mal-qarası burda otlayanların içərisindədir?

- Xeyr, qağa, gördüklərіniz aşağı kənd camaatının heyvanlarıdır. Yəqin, indi sahibləri də gəlib çıxarlar! Şirxanı dəstəsi ilə Araz çayına tərəf qovanda aşağı kəndin adamları bizi görürdülər. Biz özümüz ertədən kəndin malqarasını Quylu bulağı deyilən dərəyə tərəf sürdürmüşük. Oralar gözdən-qulaqdan uzaqdır. Nainsafın oğlu qabağına çıxanı yağmalayıb qovub gətirib bura. Nanəciblər kövşənlərdə bir heyvan da saxlamayıblar ki, onu görənlər sevinsinlər. Ancaq qudurmuşun istəyi ürəyində qaldı, bəd əməli baş tutmadı. Şirxanın bu səfərki gəlişi mal-qara oğurluğu deyildi. Məqsədi ötən payızda yarımçıq qalmış ədavətin haqq-hesabını çəkib qisas almaq idi. Görürsən də, onun niyyəti bu dəfə də baş tutmadı...

***

Qara Molla pirin ətrafına yığılan camaat döyüşdə yaralanmış adamlara qayğı göstərirdilər. Üst-başı al qana, toz-torpağa batmış yaralılar tanınmaz hala düşmüşdülər. Onları kəndin həkimi, Abuzər "doktor" müayinə edir, yaralarını ağ mələfədən kəsilmiş əsgi ilə sarıyırdı. Kəndin türkəçarə biliciləri də yaralıların qayğısına qalır, yardım göstərirdilər. Əlbəyaxa döyüşlərdə qorxu bilmədən quldurlarla vuruşan adamlara yaxınlaşıb təskinlik verən Süleyman onların hünərindən razı qaldığını bildirdi. O, Abuzər həkimin yanında bir anlıq dayanıb soruşdu:

- Doktor, yaralıların vəziyyəti necədir, ağır olanları varmı?

Mələfədən kəsilmiş əsgi parçası ilə Cəfərin qolunu sarıyan Abuzər doktor başını qaldırıb təmkinlə cavab verdi:

- Yaralıların bir qisminə baxmışam, elə də vəziyyəti ağır olanı yoxdur.

- Ay həkim, vallah bizim ağrıyan yerimiz yoxdur. İndi bir korazehin koradır da, balaca qolumuza toxunub, - deyə qolu döyüşdə zədələnmiş Ağalar kişi özünəməxsus məzə ilə dedi.

- Ağalar kişi, deyəsən axı, özün ağır yaralı ola-ola başqalarına da təskinlik verirsən? - deyə Süleyman ona yaxınlaşıb mələfə ilə çiyninə qədər sarınmış qanlı qoluna diqqətlə baxdı.

- Heç nə olmaz, qağa, qolum bir az əzilib. Bir-iki günə o da çəkilib gedər, - deyə Süleymana cavab verən Ağalar kişi heç nə olmamış kimi dəyənəyinə söykənib özünün sağlam olduğunu göstərməyə çalışdı.

Cəfərin qolunu sarıyıb qurtaran Abuzər həkim ayağa qalxıb belini dikəldərək arxayınlıqla Süleymana eşitdirdi:

- Adamlardan dörd nəfəri yüngül güllə yarası alıb. Zədə alanların sayı çoxdur. Hələlik, ancaq on-on beş nəfər yaralını gətiriblər. İnşallah, qalanlarını da bura gətirəndən sonra müayinədən keçirdib sağaldacam.

Abuzər həkimin qətiyyətli sözündən məmnun qalan Süleyman o biri yaralılara da baş çəkməyə getdi. Behbud bəy yaralılar arasında gəzir, onlardan bir-bir hal-əhval bilib toxtaqlıq verirdi.

Kəndin yeniyetmə cavanları, uşaqları çiyinlərində gətirdikləri su dolu səhənglərdən mis camlara su süzüb yaralılara içirdirdilər.

Qanlı dərədə yamacboyu yayılmış heyvanların böyürtüsü kəsilmək bilmirdi.

Horovlu gədiyindən aşağı, torpaq yolun kənarında yan üstə aşmış faytonun ətrafında hərlənən mal-qara köhnə səngər yerlərin üstündən sıçrayıb Gəyən təpəliklərinə tərəf qaçırdılar. Yalda dayanıb tamaşa edənlər yamacda

aşmış faytonu əlləri ilə göstərərək öz aralarında mübahisə edib danışırdılar.

Tüfəngin nişangahı ilə faytonu göstərən Süleyman, israrla Behbud bəydən soruşdu:

- Kərbəlayi, yamacda yan üstə aşan o fayton kimindir?

Behbud bəy:

- Bilmirəm, qağa. Faytonda Şirxanın adamları meymun təki atılıb-düşür, lağ-lağı edib hara gəldi güllə atır, mal-qaranın dalınca sürürdülər.

Faytona tərəf baxan Süleyman:

- Fayton elə Şirxanın motal papağına yaraşır. Allah bilir, görəsən, hansı binəvanındır. Həyasızlığına salıb əlindən alıb. Faytonu gətizdirin, əməli-saleh yerdə saxlatdırın. Yəqin sahibi də sərgərdan adam kimi dərə-təpələrdə faytonunu axtarır. Tezliklə aşağı kəndlərdən soraqlaşa-soraqlaşa öyrənib gəlib buralara çıxar.

Ətrafına nəzər yetirən Behbud bəy əlisilahlı Tapdığı işarə ilə yanına çağırıb tapşırıq verdi.

- Özünlə iki silahlı götür, tez dərəyə düşün. Atları faytona qoşub sürün aparın poçt məntəqəsinə. Poçtda "rus" Camala da mənim adımdan deyin ki, sahibi gələnə qədər faytona toxunmasın. Atlara da yem verib qulluq etsin.

- Yaxşı, Kərbəlayi.

Tapdıq cəld iki silahlıyla Qara Molla pirindən dərəyə yollandı.

Behbud bəy Süleymana dil-ağız edərək:

- Süleyman, vaxtında özünü çatdırdın. Yoxsa vəziyyətimiz ağır olardı, - dedi.

Uzaqdan günəş şəfəqində bərq vuran Araz çayının sularını nigarançılıqla seyr edən Süleyman, dərindən köks ötürüb dilləndi:

- Kərbəlayi, el bir olsa fələyin də bizə gücü çatmaz. Sən, "sağ ol"u o, yaralıya kömək edən cavan oğlana de! - deyə əlindəki qamçı ilə Misiri göstərdi.

Diliş kişinin yaralı çiynini mələfəylə sarıyan Abuzər doktora kömək edən Misir adını eşitcək dizi üstə oturduğu yerdən ayağa qalxdı.

Süleyman:

- Maşallah olsun, atla bu qədər yolu çaparaq xəbəri obamızın adamlarına çatdırmaq sənə elə də asan gəlməsin. Mindiyi kəhəri də elə bil onu duyur.

- Düz deyirsən, Süleyman, tapşırıq verməyimlə bir onu gördüm ki, göz qırpımında köhlənin başını çevirib çaparaq Aydolanmaz meydanından, Quycaq yatağına enən gədiyi aşdı...

- Kərbəlayi, Allah rəhmət eləsin, atasına çəkib. Rəhmətlik qorxu nə olduğunu bilməzdi. Yadındadır, Çayzəmi ilə Xiyaban arasında, Dolanlı Nersesin dığaları ilə vuruşanda rəhmətlik səngərdən geri çəkilmək istəmirdi?

Süleymana qulaq asan Behbud bəy başını razılıqla silkələyib köks ötürdü:

- Elədir, Süleyman! Gecə-gündüz o ətrafları sahibsiz qoymamışıq! Axırda da Hərəkül, Sur, Banazurdan gəlib üstümüzə hücum çəkən erməni dığalarını qabağımıza qatıb "yuvalarına" qədər qovub cavablarını verdik! Elə o vaxtlardan da bəri dığalardan bir kimsə qorxularından bu həndəvərə yaxın gəlmir!

- Kərbəlayi, düşmənin ki, qabağından qorxub qaçdın, o acgöz canavar təki üstünə atılacaq. Gərək aman verməyəsən ki, düşmən səni üstələsin.

Süleymanla Behbud bəyin söhbətinə qulaq asan Xanlar ağa:

- Elədir, qağa! Dığalar əllərinə keçirdikləri bir-iki "berdanka" tüfənglə üstümüzə hücum çəkmişdilər. Onlar elə başa düşürdülər ki, bu yerlərdə kefləri nə istəsə, onu da edəcəklər. Təəssüf ki, istədikləri baş tutmadı. Dığa nəkarədir ki, torpağımızda fironluq edə. Ağılları başqalarına getmişdi. Onları əzişdirib Xiyabandan üzüyuxarı qovanda, dığaları qızışdırıb üstümüzə göndərən "köpək sürüləri" də kömək durmadı. İndi qorxularından bir addım da "yuva"larından qırağa çıxıb gəzə bilmirlər. Günah dığaların özlərindədir, - deyə Xanlar ağa həqiqətləri bir daha yada saldı.

Süleyman handan-hana dilləndi:

- Xanlar, bir-birimizin hayına-harayına gəlməsək, meydanda tək qalarıq. İmkan vermək olmaz, Nerses, Sokrat, Şirxan kimi qaniçənlər bu torpaqda at oynatsınlar! Nanəciblərin xəmiri oğurluqla, qəddarlıqla yoğrulub. Camaatın mal-qarasını, malını-mülkünü çapıb-talayanlardan insaf-mürvət gözləmək olmaz. Onlar hər zaman kasıb-kusuba qənim kəsiliblər.

- Düz sözə nə deyəsən, ay Süleyman, görmürsən, günün günorta çağında quldurlar camaatın mal-qarasını çəkib aparırlar! Onların elə bil heç dini-imanı da yoxdur, - deyə Behbud bəy təəssüf hissi ilə Süleymanın sözlərini təsdiqlədi.

Söhbətə müdaxilə edən Xanlar ağa:

- Camaatımız əllərində silah gecə-gündüz bu dağlarda sərvaxt dayanıblar. Ətrafımızı möhkəm qoruyuruq. Kol-koslar marığa yatmış oğru dəstələri ilə doludur. Onlar erməni dığaları kimi kövşənlərdə heyvanların başına ip salıb sorğu-sualsız, halal-haram bilmədən öz malları kimi dartıb aparırlar.

Xanlar ağaya diqqətlə qulaq asan Süleyman oğruları qınayırmış kimi, təəssüflə:

- Hərdən məni də o quldurlara oxşadırlar. Ancaq bir olan Allah da şahiddir ki, heç vaxt elin malına xor baxan deyiləm, - Süleyman qamçının dəstəyi ilə gümüşü papağını alnından geriyə itələyib qəlbindən keçənləri eyhamla dilə gətirdi.

- Süleyman, ağzıgöyçəklər qoy nə deyir, desin! Yel qayadan nə aparıb? Səni ki, bütün el-oba yaxşı tanıyır! Quldurdan, oğrudan qaçaq olmaz. Onlarda elə bir hünər, nə də qeyrət yoxdur ki, qaçaqlıq etsinlər. Ancaq kasıbkusubun malını yağmalamaqdan savayı bir iş bilməzlər, - deyə Behbud bəy dostu Süleymanı yaxşı tanıdığını əminliklə eşitdirdi.

Süleyman:

-Mən elələri ilə çox rastlaşıram. Hamısı bir bezin qırağıdır. Başlarının üstünü kəsdirəndə Şirxan kimi döyüş meydanında yaraq-yasağını qoyub qaçır.

- Elədir ki var, - deyə Behbud bəy razılıqla, - Təkləli Saday bəyin sözü olmasın. O, hər dəfə söz düşəndə deyirdi ki, "Süleymanın səsi gələndə Araz çayı da səsini içinə salıb lal axır! Allah-taala onun kimi beş-on oğul yetirsə, vallah bu ətraflara "çaqqal sürüsü" də keçib hərlənə bilməz".

Behbud bəy danışa-danışa əlindəki aynalını çiyni bərabərində qaldırıb uzaqdan görünən Araz çayını göstərdi.

- Saday bəy hünərli, qeyrətli kişidir! Ötən payız el dağdan qayıdanda onunla Haramı düzündə görüşdük. Gülə-gülə məni qucaqlayıb ərklə dedi: - "Əmioğlu, Kür mənim, Araz sənin!". Mən də zarafatla ona dedim ki, bəy, Araz

da, Kür də, hər ikisi sənin olsun! O, əlini çiynimə qoyub xeyli fikrə getdi. Sonra pərtliyini biruzə vermədən eyhamla dedi: - "Süleyman, yaxşı bilirsən ki, Allahdan başqa bir kimsədən qorxum yoxdur. Eləcə də heç nədən çəkinən deyiləm! Dünya ölüm-itim dünyasıdır. Mən ondan ehtiyat edirəm ki, öləndə özümünkülər kəndiri boğazıma keçirib atın yedəyində sürütləyib meyidimi də kalafaların birinə atacaqlar".

- Doğrusu birdən-birə bəyin inamsız danışığı məni də pərt etmişdi. Dedim ki, bəy, elə danışma. Biz gecəli-gündüzlü binəva insanların, kasıbların halına acıyıb, çöllərdə olmuşuq. Kasıbların yolunda özümüzü ona görə güllə qabağına atmışıq ki, onlara zülm olunmasın.

O, dərindən köks ötürüb başını tərpədərək, uzun şeşə bığlarına astaca sığal çəkərək qəmli gözləri ilə Araz çayının sakit axan sularına baxıb, dedi:

- Süleyman, bir sözdür də, dedim.

- Bəyin sözü məni yaman tutmuşdu. Soruşdum ki, bəy bu fikir hardan sənin ağlına gəlib? O, Araz çayının bulanıq sularından gözünü çəkmədən söhbətinə davam edib, - Süleyman, insanlar çox dəyişib, elə bil ki, durumunu dəyişib başqa yola düşüblər. Bir çoxlarıyla rastlaşanda baxıb görürəm ki, sıval çay daşı təki əqidəsi də sürüşkəndir. Zəmanəsinə bənzəyən adamlar kimi işi düşəndə üzünə gülür, qabağında tülkü kimi quyruq bulayır. Elə ki, quyruğu qapı arasından çıxdı, başlayır hədyan danışmağa. Adam olan kəs dünya malına görə bu qədər yaltaq, bu qədər ikiüzlü olar? Vallah, çobanlarım onlardan qat-qat əməlisaleh, qeyrətli, sözübütöv adamlardır. Belələri elə bil şeytan xislətini pulla satın alıblar. Çuğulluqdan başqa bir işə yaramırlar. Qayğısına qalırsan, çətinə düşəndə kö-

mək dursursan, yenə də gedib "yuxarılarda" əyləşən "naçalniklərə" bizdən olmazın hədyanlığını edirlər. Qınayan olmasa, dədəsini qoyub yuxarıda oturanların canına and içərlər. İllah da qulluq sahibi olub qazanc yeri tapanda ədaları yerə-göyə sığmır. Burunlarını piylənmiş tülkünün quyruğutək dik tutub əda ilə yeriyirlər...

Bəyin ədalı sözləri, yekəxana adamların qəbahətini dilə gətirməsi eynimi açdı. Onun sözündəki mənalı bənzətməni eşidəndə özümü saxlaya bilməyib qəhqəhə ilə xeyli ucadan güldüm. Hərdən Saday bəylə görüşürük. El dağdan qayıdanda Mil düzündə köç salmış Əliqulular camaatından olan dostumun oğlu Camalın kiçik toy məclisinə getmişdim. Saday bəy də başının dəstəsi ilə toya gəlmişdi. Hal-əhvalını xəbər alandan sonra Allah ruzisindən bir tikə yedik. Ötüb-keçən hadisələri yada salıb xeyli söhbət etdik. Ancaq nədənsə Saday bəy yenə də qayğılı, narahat görünürdü...

Kərbəlayi Behbud:

- Əliqulular camaatı etibarlı, çətin gündə adama arxa-dayaqdırlar. Onlar bir kəslə kəsdikləri çörəyin qədrini biləndirlər. Kürəyini onlara dayasan sənə zaval yoxdur. Saday bəy bilir, kimin süfrəsində əyləşib çörək kəsmək olar. Həqiqətən də, o, hünərli, qeyrətli kişidir. Əməllərini, kasıb-kusuba əl tutub, arxa-dayaq durmağını sadalasam, bir dastan bağlamaq olar. Danışmaqla qurtaran deyil. Yazpayız köçü buradan, Hava dərəsindən gəlib keçir. Özü səxavətli, sözü bütövdür. Hər dəfə yaylağa gedib-gələndə yolüstü mənə baş çəkib görüşməsə olmaz. Bir gün yayın qızmarında Təbrizdən, bazarlıqdan gəlirmiş. Xudafərin körpüsünü keçəndə bizim tərəflərə təşrif buyurmuşdu. Soruşdum ki, bəy, sən indi yaylaqda olmalısan, nə

əcəb? Dedi ki, Behbud, Təbrizdən gəlirəm, bir az uşaqlara, çobanlarıma bazarlıq edib, xurd-xuruş almışam. Araz çayını bu taya keçəndə mənimlə səfərdə olan yol yoldaşlarımı Xudafərin körpüsündən yaylağa yola saldım getdilər. Ürəyim istədi gəldim ki, səni də yoxlayım, görüm nə var, nə yox. Bəyin gəlişinə çox sevindim. Hacıkəndi, bağ-bağatı, bulaqları gəzib dolandıq. Hacıkənddən aşağıda, təpənin döşündə – Heydər bulağına yaxın kənd ağsaqqalları ilə bir yerdə çörək kəsdik. Məclisimiz gün batana qədər davam etdi. Axşamı bizim evdə qaldı. Səhərisi sübh ertədən yanına da bir-iki silahlı atlı qoşub daş yoldan Ziyarət dağına – yaylağa yola saldım.

Behbud bəyin dediklərini başı ilə təstiq edən Süleyman yamacboyu səpələnmiş mal-qaranı, qoyun-quzuları gözdən keçirərək:

- Saday bəy çobanlarına yaxşı baxır. Heç vaxt qayğılarını onlardan əsirgəməz. Qeyrətinə yaxşı bələd olduğum üçün ona böyük hörmətim var. Bir dəfə eşidib ki, Qızıl təpədə, Qalaçalarda Hacı Rüstəm ağa ilə oğlu Bayram ağanın qoyun yatağına göz dikənlər kişiyə sataşırlar. Bəy eləməyib tənbəllik, gedib onların "aşının duzunu" qoyub qabaqlarına. O həngamədən sonra qaçaq-quldurlar cəsarət edib bir də o tərəflərə ayaq basmırlar.

- Rəhmətliyin sağlığında Saday bəy köçüylə yaylağa gedəndə, Bayram ağanın qonağı olardı. Mənim də onunla tanışlığım, dostluğum o vaxtdan yaylaqda başladı, - deyə Behbud bəy söhbətə əlavə etdi.

- Saday bəy dostluqda möhkəm, sədaqətlidir. Sözü bütöv adamlara inanar, xatirini əziz tutar.

- Elədir ki var, - deyə Behbud bəy Süleymanın dediklərini başının hərəkəti ilə təsdiqlədi.

Söhbət əsnasında Behbud bəyə yaxınlaşan yeniyetmə oğlan astaca nəyi isə ona eşitdirdi. Behbud bəy yanpörtü çevrilərək başını aşağı əyib, sakitcə oğlana cavab verdi:

- Hə, yaxşı, gəlirik!

Kərbəlayi üzünü Süleymana tutub:

- Süleyman, evə qalxıb bir loxma çörək kəsək, - dedi.

- Kərbəlayi, biz yemişkən varıq, qalsın başqa bir vaxta...

- Ay Süleyman, səhərdən evdə tədarük görülüb, belə getmək yaxşı deyil axı! Sizi heç yerə buraxan deyiləm...

- Kərbəlayi, uşaqlara əziyyət vermə, biz təcili obaya qayıtmalıyıq. Dünən ertədən Mehdigili Arazın o tayına, Aslan düzünə göndərmişəm. Bu gün ertədən qayıtmalıydılar. Ancaq onlardan bir xəbər yoxdur. Çox nigaran olmuşam. Yəqin ki, indilərdə Araz çayını keçmiş olarlar! Narahat olmayın, camaatı yerbəyer edin. İndi yemək vaxtı deyil. Yaxşı oldu ki, ölüm-itim olmadı. Yaralılardan da muğayat olun. O əli-qolu bağlı binəvaları da azad edin, ötürün getsinlər evlərinə, - deyə Qara Molla pirinin yanında əli-qolu bağlı oğruları qamçının dəstəyi ilə göstərib, - yazığım gəldi onlara. Üz-gözlərindən, üst-başlarından oğruya-quldura oxşamırlar. Allah bilir, Şirxan onları necə qorxudubsa, binəvalar əlacsız qalıb dəstəyə qoşulublar. Zənnim məni heç vaxt aldatmaz.

- Düz deyirsən, qağa, üst-başlarına fikir vermişəm, geyimləri yoxsul, rəncbər geyimləridir. Qışın sazağı, yayın qızmar havasında cadar-cadar olmuş sifətləri qızmar günəş altında yanıb qaralmış daşlara bənzəyir, - deyə Behbud bəy ürək ağrısı ilə cavab verdi.

Süleyman:

- Kərbəlayi, mən buranı həmişə öz obam bilmişəm. Vallah, Alı bəyin kəhrizində əl-üzümü yuyub bir ovuc soyuq su içməyim nəyə desən dəyər. O kəhrizi də, sizi də heç vaxt unuda bilmərəm! Bir-iki günlüyə qaçaqlarla yaylaqdan kəndə qayıtmışdıq ki, obamızı, həyət-bacamızı gözdən keçirdək. Bu gün geriyə, yaylağa qayıtmalı idik. Səhər ertə sənin göndərdiyin çapardan ismarıcını eşidən kimi dərhal uşaqlarla bura gəlmişik.

- Allah səndən razı olsun, Süleyman! Sən ki, bu çətin məqamlarda imdad istəyənlərin hayına gəlib arxa-dayaq dursursan, vallah bilmirəm necə alqış edim ki, Allaha da xoş getsin?! - deyə Behbud bəy sidq-ürəklə razılıq etdi.

- Bəy, dost-dosta nə gündə gərək? Biz ki, hər zaman bir yerdə olmuşuq, ağır günlərdə də bir-birimizin hayına gəlmişik. Dərdimiz-sərimiz bir olub. Deyirsən yəni, indi olub-keçənləri unudaq? - deyə əlini Behbud bəyin çiyninə qoyan Süleyman bəyə toxtaqlıq verdi.

Kərbəlayi Behbud duyğulu-duyğulu ətrafa nəzər saldı:

- Süleyman, ötən günləri yada salma. Biz hər zaman sənin yolunda ölümə də getməyə hazırıq. Sən ki, bunu yaxşı bilirsən...

Süleyman sadiq dostunu, xilaskarı Behbud bəyi qucaqlayıb ərklə dedi:

- Atalar yaxşı deyiblər ey, hər şeyin təzəsi, dostun köhnəsi!

Behdud bəy Süleymanın qoluna girib, Aydolanmaz meydanında pay-piyada Üç qoz ağacına tərəf yollandılar. Söhbət edə-edə gedən hər iki dostun ardınca gələn kənd adamları da onları izləyirdi.

Behbud bəy üzünü kənd cavanlarına tərəf tutub ucadan onlara səsləndi:

- Yamaclarda gördüyünüz mal-qaranı meydanda bir yerə yığın, - deyə əli ilə Aydolanmazın güllü-çiçəkli çəmənliyini göstərib, - imkan verməyin ki, çöl-biyabana dağılışsınlar! İndi aşağı kəndlərdə binəva sahibləri onlardan ötrü bərk nigarandırlar.

- Yaxşı, Kərbəlayi, bu ətrafa dağılışan bütün mal-qaranı toplayıb meydana yığarıq, - kəndin əli silahlı cavanları ilə arxadan gələn Talıb cavab verdi.

- Baxın ha, it-bata düşməsin, sahibləri yazıqdır...

Üç qoz ağacına yaxın, Alı bəyin kəhrizi ətrafında vurnuxan atlıları qamçının dəstəyi ilə Behbud bəyə göstərən Süleyman:

- Deyəsən, kəhrizin ətrafına yığılan adamlar Xanalının atlılarıdır. Bayaq onlar Yusif ağanın atlıları ilə mühasirədən çıxıb qaçan Şirxanın dəstəsini təqib edib qovurdular.

- Elədir ki, var, onlardır. Hərəkətlərindən görünür ki, sağ-salamatdırlar, - deyə Behbud bəy onun sözünü təsdiq etdi...

***

Aydolanmaz meydanında saysız-hesabsız mal-qara yamacboyu yaşıl təpəliklərə səpələnmişdi. Aşağı obalardan gələnlər öz heyvanlarını ayırd edirdilər. Onların üzgözündən sevinc yağırdı. Dillərindən xeyir-dua əskik olmurdu. Hamının nəzərləri Qara Molla pirindən pay-piyada gələn adamlara dikilmişdi. Yaşca hamıdan böyük görünən ağbirçək qadın əlindəki kəndiri yanıbalalı inəyin boğazına bağlayırdı. Dodağının altında alqış edən qadın özözünə söylənirdi:

- Allah canlarını sağ eləsin. Nə yaxşı ki, duyuq düşən Daşkəsənli camaatı oğruların "payını" vaxtında verdi. Yoxsa o köpək uşağı ağına-bozuna baxmadan olan-qalan bir inəyimi də yağmalayıb aparmışdılar.

Qadının alqışını eşidən adamlar onun dediklərini razılıq hissi ilə təsdiq edirdilər. Yamacda otlayan mal-qaraların arasından arayıb tapdığı qoyunları bir yerə yığan çalmalı qadın üzünü ağbirçək arvada tutaraq:

- Ay bajı, deyilənə görə Qaçaq Süleyman da dəstəsi ilə haya gəlib. Odur ey, özü də çərkəzi paltarda, yedəyində də ağ köhləni daşkəsənlilərlə danışa-danışa Qara Molla pirindən bizə sarı gəlir, - dedi.

- Hə, bajı, düz deyirsən. Onun Daşkəsən camaatına meyli xoşdur. Məmə yeyənindən pəpə deyəninə qədər hamısı Qaçaq Süleymana hörmətlə yanaşır, xətrini də əziz tuturlar.

- Elə daşkəsənlilər də ondan geri qalmırlar! Alı bəy kimi dünya malına göz dikməyiblər. Rəhmətliyin bizə göstərdiyi qayğılar heç vaxt yadımızdan çıxmaz. Aclıq vaxtı taxıl anbarlarının ağzını açıb yetim-yesirə payladı, bizi də o ağır günlərdən, zillətdən qurtardı.

- Düz deyirsən, bajı. Alı bəy qızı Sənəmi Quycaq kəndinə ərə verəndə, Üç qoz ağacından üzübəri əkin yerlərini rəncbərləri ilə birlikdə qızına bağışladı.

- Elədir ki var. Kaş elə bizimkilər də onun kimi mərd, hünərli olaydı. Alı bəyin xeyirxah əməlidir ki, qızına bağışladığı torpağın hesabına indiyə qədər əkib-biçir, kasıbçılığımızı edib dolanırıq. Rəhmətlik anam həmişə Alı bəydən söz düşəndə deyərdi ki, bəy Qara Molla pirinin yanında, Quycaq yatağına gəlin köçürdüyü qızına xeyirdua verirmiş. O, sıra ilə əkilmiş üç qoz ağaclarını qızına

göstərib vəsiyyət edir ki, gördüyün o qoz ağaclarından üzüaşağı, altı "desyatin" torpağı cehiz olaraq sənə verirəm. Əkin, biçin, külfətinizi saxlayın. Kənarda dayanıb bunu eşidən Alı bəyin arvadı Şəbnəm xanım təəccübünü gizlətmədən ərinə inadla eşitdirir:

- Ağa, Allah canını sağ eləsin. Adar-madar bir qızın var. Dünyanın malından-sərvətindən heç nə əsirgəməyib ona çoxlu cehiz vermisən. Allah xeyir versin. Heç olmasa əlavə də olaraq var-dövlətindən, qaş-daşından qiymətli bir pay da ver ki, çətin günlərində, dar məqamda satıb başlarını dolandırsınlar, - deyir.

Arvadına diqqətlə qulaq asan Alı bəy bir anlıq fikrə dalıb kölgəsində dayandığı Uç qoz ağacların iri çətirlərini gözdən keçirərək, xeyli susur. Bir azdan fikir aləmindən ayrılan bəy ərklə xanımına səslənərək:

- Rəhmətliyin nəvəsi, torpaqdan qiymətli pay nə ola bilər? Qızıl-gümüş verəcəm, ömrüboyu qızımın həyatı, günü-güzəranı səksəkəli, qorxu altında keçəcək. Gəbə-kilim verəcəm, bir müddətdən sonra onları da güvə yeyib didik-didik edəcək. Qoyun-quzu versəm, il quraqlıq gəlsə, hamısı qızdırmadan tələf olacaq. Torpağımızın bir hissəsini verirəm ki, bağ-bağat salsınlar, taxıl əkib-biçsinlər, özlərini dolandırıb ehtiyac içində yaşamasınlar.

Alı bəylə Şəbnəm xanımın söhbətini eşidən rəncbərlərdən biri pərt olmuş kimi öz-özünə deyinərək kinayə ilə yoldaşlarına eşitdirir:

- Bəy torpağın yarısını qızına verdi. Allah xeyir versin. Ruzi-bərəkətli olsun. Bəs yaxşı, onda bizə nə qaldı? Bundan sonra biz hansı yeri əkib-biçib evimizə bir parça ruzi aparaq ki, külfətimizi saxlayaq?

Kənardan qulaq asan rəncbərbaşı təpədə görünən Üç qoz ağacını ona göstərib irişə-irişə rişxəndlə:

- Rəhmətliyin oğlu, daha nə qalmalıdır? Alı bəyin təpədə görünən Üç qoz ağacının qozları. Nə qədər istəyirsən doyunca ye, xaşalını doldur.

Rəncbərbaşının sözünü eşidənlər qəşş edib bir ağızdan gülüşürlər.

Rəncbərlərin gülüşünü eşidən Alı bəy ani olaraq onlara tərəf baxıb rəncbərbaşını yanına çağıraraq israrla soruşur:

- A gədə, nədir, nə olub belə hamınız bir ağızdan gülürsünüz?

Rəncbərbaşı:

- Heç ağa, qurbanın olaq, öz aramızda danışırıq. Uşaqlardan biri deyir ki, Allah xeyir versin, ağa torpağın yarısını bölüb qızına cehiz olaraq verdi. Bəs onda biz haranı əkib-biçib külfətimizi dolandırmalıyıq?

Rəncbərbaşının sözünü eşidib təəcüblənən Alı bəy cavabında söz tapmır. Pərtliyini biruzə vermədən əlində dəstələdiyi yüyəni yəhərin qaşına keçirib Alı bağına tərəf boylanır. Əsgərxan bulağından xeyli yuxarıda, təpənin döşündə yaşayan rəncbərlərin kiçik komalarını seyr edib xeyli fikrə gedir. Və bir azdan atın yüyənini rəncbərbaşına uzadaraq: - A gədə, atı min, özünü faytona çatdır. Qızıma da de ki, torpaqla bərabər rəncbərləri də ona verirəm. Əksin, biçsin, sizin də məhsul payınızı, zəhmət haqqınızı vaxtlı-vaxtında artıqlaması ilə ödəsin.

Alı bəyin iltifatını görən rəncbərlər bəyə yaxınlaşıb alqış edə-edə razılıqla dil-ağız edirlər, - deyə qoca arvad Alı bəyin özünə məxsus torpaq mülkündən pay verməsini ətraflı danışdı.

- Allah rəhmət eləsin. Rəhmətlik o qədər əliaçıq, səxavətli insan olub ki, danışmaqla qurtaran deyil. Güvənib yanına gələnləri heç vaxt boş qaytarmazdı. Bir dəfə başının dəstəsiylə Xudafərin körpüsündən qayıdanda Quycaq yatağında görür ki, Daşkəsən çayının üstündə davadalaş düşüb. Atlı dəstəsiylə çayın sahilinə yaxınlaşan bəy orada duran adamlardan birini yanına çağırıb təəccüblə soruşur:

- Nədir, burda nə səs-küydür belə?

Bizimkilərdən biri dərhal cavab verib deyir ki, bəs ağa, dirriyimizi, bağ-bağatımızı suvarmaq istəyirik, bu "su cuvarı" da dəhnənin ağzını kəsdirib deyir ki, pul verməsəniz, çaydan su apardı yoxdur, - deyə su başında dayanan, başı kuduya oxşayan zağar qarın kişini göstərir.

Bəy soruşur:

-Pul nədir? Cuvar kimdir?

Həmin adam yanında dayanan əkinçilərdən kömək istəyirmiş kimi bir-bir onların üzünə baxıb bəyə yaxınlaşaraq ərzini yenidən təkrar edərək deyir:

- Bəy, su cuvarı axır vaxtlar bizi yaman qaralayıb. Hər gün sübhün gözü açılmamış gəlib burda su başını kəsdirib biz binəvaları dönə-dönə hədələyir ki, ötən dəfə suvarmadan sizin mənə borcunuz qalıb. Nə qədər ki, qalan borcunuzu ödəməmisiniz, bu arxdan sizə su verilməyəcək.

Kişinin dediklərinə məəttəl qalan bəy, eləmə tənbəllik, atından düşüb su cuvarına yaxınlaşır. Qəzəblə onun yaxasından yapışıb soruşur; - Ayə! Ay gədə! Səni bura kim su cuvarı təyin edib?

Təkəbbürlə dayanan su cuvarı özünü sındırmadan uzun bığlarına sığal çəkə-çəkə bəyə tərəf çevrilib ədayla:

- Buraları mənə tapşırıblar, ona görə də bu arxa mən nəzarət edirəm, - deyir.

Cuvarın hikkəylə verdiyi cavabdan qəzəblənən Alı bəy əlini möhkəm qolaylayıb onun peysərinə güclü bir qapaz ilişdirir. Yaxasını əlindən buraxmayıb onu var gücü ilə silkələyərək:

- Ay kələbaş, qanmazın biri. Əvvəla məlumun olsun ki, şümür kimi subaşında dayandığın yer arx deyil, Daşkəsən çayıdır. Qaldı ki, sənin cuvar kimi suyun qabağını kəsib camaatı susuz qoymağına, vallahi-billahi, Allah bu rəzaləti götürməz. Əstəfurulla, mən mənəmsə, səni bura su cuvarı təyin etməmişəm! Gədə, bizlərdə su cuvarı olmur. Heç olmasa, kəndə tərəf qalx, soraqlaş, öyrən gör camaatımız sudan necə istifadə edir? Bizlər suya pul vermirik, nə də sudan pul almırıq. Heydər dağından üzüaşağı axan kəhrizlərin, bulaqların sularını Daşkəsən çayının məcrasına qoşub üç yerdə böyük dəryaçalar yaratmışıq ki, camaat əkin-biçində su sarıdan korluq çəkməsin. Su dəyirmanları gecə-gündüz işləsin. İndi, ay dilbilməzin balası, qandın...? Bəlkə elə suyu da sələmlə verəsən? Burdan elə itilirsən ki, bir də səni buralarda gözüm görməsin! Axmaq adam, elə bircə cuvarımız çatmırdı ki, suyun qabağını kəsib şümürlük eləsin. İtil burdan, şümür oğlu, şümür, - deyə özündən razı halda suya darğalıq edən cuvarın abrını ətəyinə büküb çayın sahilindən qovur.

- Bəy, baş qoşma. Görmürsən onun mərifətini, - deyə at belində kənardan bu mübahisəni seyr edən Məşədi Mahmud ağa səsləndi.

- Əşi, mən bilmirəm bu adam hansı çöl-biyabandan azıb gəlib bura çıxıb? Belə də mürvətsizlik, itaətsizlik olar? Abır-həyasını itirmiş birisi gəlib günün-gündüz ça-

ğı buralarda darğalıq edir. Bulaqların, kəhrizlərin sularını bir məcraya axıdıb, Araz çayı səmtinə tərəf yönəltmişik ki, bu çətin günlərdə bizdən aşağıda olan kəndlərin də adamları əkin-biçində hamılıqla istifadə edə bilsin. Bu zalım oğlu da, şümür kimi çayın qabağını kəsib yazıq camaatı da suya həsrət qoyur. Mən qızıma görə yox, el-obaya görə bu əkin yerlərini, toxmaçarlıqları Quycaq yatağında köç salan adamlara vermişəm ki, təki onların da güzəranları yaxşı olsun. Nainsafın oğlu da bilmirəm, kimlərin saqqalının altından keçib gəlib buralarda hoqquldayır. Deyəsən axı, darğalığı bizim başımızın üstündə öyrənib camaatımıza əzab-əziyyət verməklə pul qazanmaq istəyir. Özü də düşüb yetim-yesirin üstünə. Şümür oğlu, suya da vergi qoyub, haqq alarlar? Nə deyim, vallah, bizim görəcək günlərimiz deyəsən hələ qabaqdadır...

Alı bəyin cəsarətli hərəkətini görüb sevinən adamlar ondan razı qalıb alqış edirlər. Su cuvarı da o gedən gedir, bir də geri qayıtmır.

- Bajı, elə ona görə də Quycaq kəndinin camaatı o kişiyə həmişə rəhmət oxuyurlar. Allah ona qəni-qəni rəhmət eləsin.

- Bilirəm, bilirəm, Alı bəyin bizim yolumuzda haqqı-sayı, əziyyəti çox olub. Onun bizə etdiyi xeyirxahlıqları danışmaqla qurtarmaz...

***

Kənd adamları ilə Üç qoz ağacına tərəf gələn Qaçaq Süleymanı görənlər ona yaxınlaşır, əl verib görüşür, alqış edirdilər. Yamaca yayılmış heyvanların sahibləri bilmirdilər ki, Süleymana necə razılıq etsinlər. Başı bağlı inəyin ipini yedəyində dartıb aparan ağbirçək arvad yanından ötüb-keçən kişiləri görüb bir anlıq dayandı. Utancaq ba-

xışlarını yana çevirib yoldan kənara çıxdı. Başındakı örpəyi əlləri ilə büzərək yaşmaq bağlayıb onlara yol verdi. Daşkəsənlilərlə söhbət edə-edə gələn Süleymanı görüb dilağız edərək onunla mehribancasına danışmağa başladı:

- Allah köməyin olsun, ay qağa, yaxşı ki, özünü vaxtında karımıza çatdırdın. Qudurmuş köpək oğlu bir inəyi də bizə çox görmüşdü.

Süleyman:

- Bajı, salaməleyküm! Allah sizdən razı olsun! Evinizdə-eşiyinizdə arxayın yaşayın. Oğrular bir daha biz tərəflərdə dolanmazlar! Gün batır, yəqin ki, aşağı kənddən gəlib inəyini burda tapa bilmisən. Uşaqlarınız evinizdə nigaran qalıb yolunuzu gözləyirlər. Narahat olmayın. Obanıza qayıdın.

- Yox, qadan alım, biz bu yaxınlıqda - Quycaq yatağında yaşayırıq.

- Hə, lap yaxşı. Neynək. Allah amanında, heç kimdən qorxub-eləməyin! Evinizdə arxayınlıqla yaşayın!

Qadınla şirin söhbət edən Süleymana kənardan qulaq asan bir dəstə kişi də yaxınlaşıb ona əl verib görüşdü. Onlardan yaşlısı, nurani qoca, əlini Süleymanın əlindən çəkmədən onun boynunu qucaqlayıb aramla danışmağa başlayıb dedi:

- Süleyman, Allah səni qorusun. Vaxtında özünüzü çatdırıb, bizi bu xəta-bəladan qurtardınız. O nanəciblərin də "payını" yaxşı vermisiniz. Bir az olar ki, bizim mal-qaramız da böyürə-böyürə qaçıb kənddə həyətlərə doluşublar. Kövşənlərdə otlayan heyvanlarımızı yağmalayan quldurlar onları apara bilmədilər. Səhər-səhər biz bu kişilərlə, - deyə yanında dayanmış ahıl kişiləri göstərərək, Quycaq yatağında, tut ağacının kölgəsinə yığışıb söhbət edirdik.

Hərdən də ötüb-keçənləri yada salıb deyib-gülürdük. Doğrusunu bilmək istəsəniz, bilmirdik ki, başımıza belə bir müsibət gələ bilər. Qəfil o sarıyanız yeniyetmə oğlan, - deyə barmağı ilə kənarda, atın yanında dayanan Misiri göstərib, - mindiyi kəhərlə kənd yolunda tozanaq qopara-qopara qızılquş təki ötüb yanımızdan keçdi. Onun saymazyana ədalı hərəkəti hamımıza çox pis təsir etmişdi. Hələ üstəlik yanımızda dayanan bu kəmhövsələ kişi də, - deyə uca boylu, lopa bığlı kişini israrla Süleymana göstərib, - dözə bilməyib yerdən götürdüyü daşı deyinə-deyinə onun dalınca atdı. Sən demə, o uşaq elə sizin yanınıza xəbərə gedirmiş.

Sıxıla-sıxıla əhvalatı təfsilatı ilə danışan yaşlı kişi üzrxahlıq edib Süleymana razılığını bildirdi. Nurani kişini diqqətlə dinləyən Süleyman arxaya dönüb, Daşkəsənlilərlə onu yola salmağa gələn Misirə tərəf baxıb gülə-gülə:

- Qardaş oğlu, tay denən, günün-gündüz çağı camaatı küçədə tozanağa basıb, möhkəm qorxutmusan ki...

Süleymanın zarafatla dediyi sözə cavab verməyən Misir başını aşağı salıb gülümsündü.

Kərbəlayi Behbud:

- Süleyman, mən onu sənin dalınca göndərəndə atını necə dəhmərləyib götürüldüsə, dedim, bəlkə, bu gedişlə o, buralarda bənd olmayacaq, - deyə Misirə baxa-baxa zarafatla eşitdirdi.

Süleyman:

- Kəndi belələrinə tapşırmaq lazımdır. Çox cəsarətli cavandır.

Kərbəlayi Behbud:

- Elədir ki, var. Kənd cavanları da onun xətrini istəyir.

Süleyman əlinin işarəsi ilə Misiri yanına çağırıb:

- De görüm, tüfəngdən sərrast atəş açmağı bacarırsan? - deyə cavanın çiynindən aşırdığı beşaçılan tüfəngə qıyğacı baxıb onu başdan ayağa süzərək soruşdu.

- Bəli, əmi.

Süleyman:

- Sərrast ata bilirsənsə, onda sənə zaval yoxdur. İndi çox qarışıq zəmanədir. Hər kolun dibində bir quldur dəstəsi var. Silahı heç vaxt yanından əsirgəmə. Bayaqdan səni tanıyanların hamısı hünərindən, cəsarətli olmağından danışıb razılıq edirlər. Bax ha, həmişə belə ol. O, yəhərin qaşına bağladığı dəri qoburlu mauzeri açıb aşırma qayışla Misirin çiynindən asaraq gülə-gülə:

- Bu da məndən sənə ərmağan. İndi əsl qaçağa oxşayırsan, - deyə Misirin boynunu qucaqladı.

Kəhrizin ətrafına yığılanlar Süleymanın hərəkətini görüb onu alqışladılar. Hamı bu hadisəyə sevinirdi. Süleyman Alı bəyin kəhrizində şırıltı ilə axan gözünə əyilib buz kimi soyuq suda əl-üzünü yuyandan sonra bir-iki ovuc içib razılıqla:

- Vallah, elə bil buzdur, yayın qızmarında bu kəhrizin suyu adamın canını sərinlədir. İçməklə doymaq olmur.

- Ay Süleyman, kəndin dörd bir yanında yerdən çıxan bulaqların, kəhrizlərin suyu yay-qış belə buz kimi soyuq olur, - deyə kəhrizin baş tərəfində qolu sarıqlı dayanan Ağalar kişi əlindəki iri dəyənəklə kəndin ətrafını, bağ-bağatını göstərib ərklə eşitdirdi.

Süleyman ovucladığı suyu içdikdən sonra dikəlib üzünü Ağalar kişiyə tutaraq, zarafatla:

- Elə ona görə də biləyinin yoğunluğu əlindəki o naxışlı dəyənəyindən seçilmir. Vurduğun adam da bir-iki həftə xamralı təpitməni özünə yorğan etdirib yatağında ah-vayla zarıya-zarıya qalır!

Süleymanın zarafatla verdiyi cavaba kəhrizin başına yığılanlar qəh-qəhə çəkib gülüşdülər.

- Qağa, Vallah, çomaq davasında Məşədi Cəfərsiz, Dilişsiz mənim işim keçmir. Gərək onların ikisi də dava vaxtı sərvaxt olub kürəyimi arxadan qoruyalar! Cəfər gur səsiylə, "nənəm, qurban Ağalar, möhkəm vur", deməsə, vallah qolum qalxmır!

Süleyman gülə-gülə:

- Bilirəm, Ağalar kişi, yaxşı bilirəm. Dərədə "fərasətini" görürdüm. Muğum gölünün kənarında, Əncirlikdə atla cövlan edən quldurun kürəyinə dəyənəklə necə ilişdirdinsə, binəvanın oğlu atqarışıq şappıltı ilə suya aşdı, - deyə Ağaların Qanlı dərədə hünərini hamı eşitsin deyə təfsilatı ilə danışdı..

- Qağa, mən yazıq neyləyə bilərdim axı? O vurduğum quldurun qabağında adam balası kimi sakitcə dayanıb baxırsan, zalım oğlu məni vurmur. Qamarlayıb əl-qolunu tutursan da, bir yerdə rahat durmur. Mindiyi tayqulaq atıyla təşər-təşər qabağımda o qədər cövlan etdi ki, vallah başım hərləndi. Bir tərəfdən də arxamda dayanan Cəfər haray-qışqırıq salıb məni qızışdırır ki; - "Ə..., Ağalar, nə durmusan, tayqulaq atlını vur", - deyib səbrimi tükəndirdi. Vallah, axırda dözə bilməyib dəyənəyi ilişdirdim onun kürəyinə ki, məni vura bilmirsənsə, heç olmasa qabağımda tülkü kimi atılıb-düşüb işimizə pəl vurmasın, - deyə Ağalar kişi atlını dərədə necə vurduğunu özünəməxsus məzə ilə danışmağa başladı.

Ağalar kişiyə qulaq asan qaçaqlar, kənd camaatı, onun özünəməxsus gülmədən dediklərini eşidəndə ürəkdən qəşş edib güldülər...

Deyib-gülən qaçaqlar soyuq suda yuyunub bir-iki ovuc içdikdən sonra atlarına süvar oldular. Onları yola

salmağa gələn kənd adamlarıyla əl verib görüşən qaçaqlar mehribancasına vidalaşırdılar.

- Qağa, sağ ol, həmişə səsin gəlsin!

Sadiq dostunu, Süleymanı bağrına basıb qucaqlayan Behbud bəy sidq-ürəklə razılığını bildirdi.

- Kərbəlayi, biz onsuz da hər zaman birik! Yaxşı olar ki, sən özünü qoru. El-oba sənin xiffətini çəkməsin, - deyə Süleyman Behbud bəyə razılıqla eşitdirdi.

- Allah səni qorusun, ay Süleyman!

Ona yaxınlaşan kəndin ağsaqqalı Mirzə Mehdi də ağızdolusu xeyir-dua verdi. Köhlənin belinə qalxmaq istəyən Süleyman bir an ayaq saxladı. Mirzəyə tərəf dönüb onu ədəb-ərkanla qucaqladıqdan sonra əlindəki qamçını yəhərin üstündən aşıraraq nəzakətlə:

- Mirzə, sizlər olmasanız, dinimiz də, dilimiz də əldən gedər. Ona görə biz sizin kimi oxumuş, aqil insanları hər zaman eşitməliyik ki, sonradan səhv əməllərimizə görə peşmançılıq çəkməyək, - deyə Mirzə Mehdi ilə görüş-dükdən sonra kənd camaatı ilə sağollaşıb yəhərin qaşına aşırdığı yüyəni əlində dəstəklədi. Bir göz qırpımında atın belinə sıçrayıb yəhərdə yerini rahatlayan Süleyman kəhrizin ətrafına yığılan camaata əl edib köhlənin başını çevirərək yola düşdü.

Alı bəy kəhrizindən, Quycaq yatağına doğru atlarını yorğa sürüb uzaqlaşan qaçaqlar Gəyən təpəliklərin arxasında gözdən itdilər...

***

Günortanın bürkülü havasına sərinlik gətirən meh adamın ruhunu oxşayırdı. Əsən külək Aydolanmaz meydanının geniş göy çəmənliyində yamac boyu göz oxşayan gül-çiçəkli otlara sanki sığal çəkirdi. Ətir saçan təra-

vətli çiçəklərin yaşıl örpəyə bürünmüş mənzərəsi təbiətə meydan oxuyurmuş kimi insanı valeh edirdi.

Qaçaq Süleymanı yola salmağa gələn daşkəsənlilər Alı bəyin kəhrizi ətrafında görüşüb ayrıldığı qaçaqların arxasınca nigaran-nigaran baxırdılar. Uzaqdan günəş şəfəqində bərq vuran Araz çayının sakit axan suları görünürdü. Şırıl-şırıl axıb Dərəarası yarğanından üzüaşağı axıb Daşkəsən çayının məcrasına qovuşan bulaq və kəhriz suları Gəyən təpəliklərinin arasıyla Araz çayı səmtinə doğru şütüyürdü. Söhbət edə-edə piyada kəndə qayıdan ağsaqqallar, Qanlı dərədə baş verən döyüşü öz aralarında müzakirə edərək yollarına davam edirdilər.

Arxadan gələn cavanlar ağsaqqalların yedəklərində apardıqları atların yüyənini onlardan alıb özləri çəkə-çəkə arxalarınca gəlirdilər.

Kərbəlayi Cavada ehtiramla eşitdirən Behbud bəy:

- Kərbəlayi, gör indi nə qədər insan əzab-əziyyətlə saxladığı mal-qarasının qayıtmasına sevinib, şad olacaqlar! Şirxan ağına-bozuna baxmadan qabağına çıxan naxırları bir ucdan kövşənlərdən yığıb aparmaq istəyirmiş. Yaxşı ki, nainsafın gəlişini əvvəlcədən bilib, bəlanın qabağını hamılıqla ala bildik. Yoxsa, Allah bilir, indi bu qədər malqaranı quldurlar Araz çayının o tayına keçirib axırına çıxmışdılar.

- Bilirsən, bəy, hər zaman kəndimizin camaatı sərvaxt olsa yaxşıdır. Onların nəzər-diqqəti bizim üzərimizdədir. Güvənc yerləri də həmişə biz olmuşuq. Əzəldən bu ağır yükün altına girmişiksə, hər necə olursa-olsun, özümüzü odun-alovun içinə atıb, camaatı belə çətinliklərdən, bəladan qurtarmalıyıq, - deyə əynindəki çərkəzi çuxası toz-torpağa batmış Məşədi Yusif ağa qayğı ilə cavab verdi.

- Düz buyurursan, Məşədi. Kəndin camaatı əzəldən qaçaq-quldurlara, yağılara baş əyməyib. Camaatın güzəranı xatirinə bizdən əvvəlkilər də, elə biz özümüz də bu ağırlığı çiynimizə götürmüşük. Yan-yörəmizdə olan kəndlərə də həyan olmuşuq! İmkan verməmişik ki, onlar qaçaq-quldurun tapdağı altında qalıb əzilsinlər, - deyə Behbud bəy Yusif ağanın sözünə qüvvət verdi.

- Elədir, Behbud bəy! Daşkəsən kəndi bəndsiz-bərəsiz bir qalaya bənzər! Nə qədər ki, canımızda təpər, qolumuzda taqətimiz var, gözümüz el-obanın üstündə olacaq. Keçən-keçmişdən ata-babalarımız bu meşələri, bağ-bağatları bizə miras qoyub dünyadan köçüblər. Gecə-gündüz şırhaşırla axan kəhrizlərin, bulaqların şəfalı suları bizi həmişə gümrah saxlayıb. Bütün bunları əldən versək, daha onda biz nəyə lazımıq? İmkan vermək olmaz ki, ismətimizlə qismətimiz qəhətə çıxıb bizi tərk etsin! - deyə Kərbəlayi Cavad müdrükcəsinə deyilənlərə əlavə etdi.

Kərbəlayi Cavadın aramla danışdıqlarına diqqətlə qulaq asan Behbud bəy:

Elədir, - dedi, - Kərbəlayi, babalarımız əkib-becərib, əzab-əziyyətlə o bağ-bağatı göyərdiblər. Yerin təkindən kəhriz sularını üzə çıxardıblar. Çay zəmi ilə Teştək bağlarında axan bulaqların suları Daşkəsən çayının məcrasına qovuşub, gecə-gündüz Araz çayına doğru şütüyür. Hamınız yaxşı bilirsiniz ki, kəndimizdə bir kimsə su sarıdan korluq çəkməyib.

Kərbəlayi Cavad:

- Behbud bəy, su məsələsində Seyid İbrahimin haqqı-sayı çox olub. Onun zəhməti hesabına kəhrizlərin, bulaqların sayı ilbəil artır. Seyid bu yamacların hər qatına yaxşı bələddir. İndi də öz peşəsini, kənkanlığı nəvəsi İbrahimə öyrədir...

Behbud bəy Kərbəlayi Cavadın dediklərini başının hərəkəti ilə təsdiqlədi. Kənd adamlarının arxasınca söhbət edə-edə gedən ağsaqqallar Qara Molla pirinə yaxın dikdiri asta addımlarla qalxırdılar. Pirin ətrafında camaatın toplaşdığını görən ağsaqqallar torpaq yoldan kənara çıxıb onlara yaxınlaşdılar. Adamların arasında əli-qolu kəndirlə bağlı on bir nəfər quldurun görkəminə nəzər yetirən ağsaqqallar bir anlıq dayandılar. Diqqətlə quldurları seyr edən Behbud bəy xeyli baxandan sonra:

- Heç əməlinizdən peşmansınız? - deyə onlara səsləndi.

Oğrulardan yaşlısı, qısa boylusu:

- Vallah, bəy, biz Şirxanın fitnə-feilindən qorxub zorla bura gəlmişik.

Gördüyün qolubağlı adamlar dədə-babadan əkinçidirlər. Şirxan silah gücünə hədə-qorxu gələrək, bizi məcbur edib öz quldur dəstəsinə qoşub. İki gündən bir üstümüzə hücum çəkib zəmimizi yandırmaqla hədələyirdı. Dişinin dibindən çıxanı bizə deyirdi. Dəstəmə qoşulub bizimlə getməsəniz, zəminizə od vurub külə döndərəcəm! Biz də çar-naçar qalıb onun dediklərinə əməl etdik. Sizdən nə gizlədək, onsuz da günümüz itin günüdür, nə gecəmiz, nə də gündüzümüz var...

Kərbəlayi gözaltı onların bağlı qollarına baxırdı. Xışın dəstəyini tutmaqdan əlləri döyənək olmuş qolu bağlı oğrular quldura oxşamırdı.

Behbud bəy üzünü Talıba tutub təmkinlə:

- Aç o binəvaların qollarını, dəstəmaz almağa da bir səhəng su gətizdir! - dedi.

Bəyin lütfkarlığını eşidənlər ona minnətdarlıq etdilər. Rəncbərlərin yazıq görkəmini görüb təəssüflə başını tərpədən Behbud bəy:

- Bəs yaxşı, üstümüzə top-tüfənglə gəlmişdiniz, silahlarınız hanı? - deyə ciddiyyətlə soruşdu.

- Bəy, cəmisi iki tüfəngimiz olub, onu da Araz çayını keçəndə Şirxan hikkə ilə üstümüzə atıb: - "Götürün, yolda lazımınız olar", - demişdi. Dərədə hər tərəfdən sizin adamlarınız bizi mühasirəyə alıb üstümüzə hücum çəkəndə vuruşmağın yersiz olduğunu bilib silahları əncir ağaclarının aşağısı ilə sısqa axan suya atdıq.

- Bəy, yazıq düz deyir. Bu binəvalar açılan güllələrdən canlarını qurtarmaq xatirinə qaçıb əncirlliyə soxulmuşdular. Ancaq Xanlar ağanın dəstəsi onlara gizlənməyə macal vermədi, - Məşədi Yusif ağa gördüklərini dedi.

Başının hərəkəti ilə Yusif ağanın sözlərini təsdiq edən oğru yazıq-yazıq dedi:

- İstəyirdik açılan güllələrdən canımızı birtəhər qurtarıb əncirlikdə daldalanaq. Orda da imkan vermədilər ki, özümüzü qoruyub sağ-salamat dayanaq. Vallah, bəy, düzünü bilmək istəsəniz, biz güllə atmağı da bacarmırıq. Araz çayını bu taya keçəndə hərəmiz özümüzə söyüd ağacından əl ağacı düzəltmişdik ki, Şirxanın yağmaladığı heyvanları bir təhər onun dediyi yerlərə qova bilək.

Behbud bəy, yazıq düz deyir. Çaylaqda suyun içindən iki islanmış tüfəng tapıb gətirmişik. Baxıram ki, bunlar bizimkilərin tüfənginə oxşamır.

İri cüssəli Savalan kişi tüfəngləri bəyə göstərərək yerə qoydu.

- Bəy, yerə atılan tüfənglərdən birini də biz tapıb gətirmişik. Horovlu gədiyinə qalxan yamacda yerdə əzilmiş halda qalmışdı. Tüfəng qanlıdır. Hürküb qaçan mal-qaranın tapdağı altında qalıb əzik-üzük olub.

Əzilib sınmış tüfəngi yerdəki silahların yanına atan Bəşir kişi dilləndi:

- Bu Şirxanın tüfəngidir. Qanlı dərədə məni bununla vurmaq istəyirdi ki, Süleymanın atdığı güllələr onun əlini paraladı. Vəziyyətin pis olduğunu görüb aradan çıxmaq istəyən Şirxan motal papağını da Süleymanın ikinci gülləsinin hesabına bada verdi. Ancaq nanəcibin silahı özündən qat-qat qiymətlidir. Əsl Osmanlı tüfəngidir.

Behbud bəy dərədəki hadisəni xatırlayıb aydınlıq gətirdi. Diqqətlə bəyə qulaq asanlar oğruların aqibətinin sonunu gözləyirdi. Su dolu səhənglə mis parçı gətirən cavan oğlana səslənən Behbud bəy təmkinlə:

- Oğul, səhəngi sal daşın üstünə qoy! - deyə ona eşitdirdi.

Sonra oğrulara sarı döndü:

- Götürün sudan için sərinlənin. Sonra dəstəmaz alıb Qara Molla pirinin ocağında günahınızı dilə gətirib etdiyiniz əməlinizə görə tövbə edin. Bir də başısoyuqluq edib o nanəciblərin felinə uymayın. Belə hərəkət etmək sizə yaraşmaz!

Bəyin qərarı hamının ürəyincə oldu. Dəstəmaz alıb günahlarının bağışlanmasını əta edib tövbə edəndən sonra yan-yana dayanan rəncbərlər Behbud bəyə baxaraq aqibətlərinin sonluğunu gözləyirdilər. Məmnunluqla onlara yaxınlaşan bəy qayğı ilə:

- İndi isə mənim əziz qonağımsınız, - dedi, - geriyə qayıtmağınız artıq gecdir, axşamı bizim evdə qalıb dincəlin, sübh tezdən hamınızı obanıza yola salarıq.

Behbud bəy ağsaqqallarla, əkinçilərlə birlikdə kəndin yuxarı başında, Bacam təpədə yerləşən imarətinə tərəf yollandı. Həyətdə qol-budaqlı iri tut ağacının altında xalçalar döşənib, səliqə-sahman yaradılmışdı.

Bəy tut ağacından aralıda, qaya daşları üzərində qoyulmuş, içərisi su ilə dolu daş təknəni qonaqlara göstərərək:

- Gedin orada rahat yuyunun, - dedi.

İmarətin xidmətçiləri təknəyə yaxınlaşan rəncbərlərin qulluğunda dayanıb mis parçla onların əllərinə su tökməyə başladılar.

Behbud bəylə ağsaqqallar yuyunmaq üçün təknəyə yaxınlaşdılar. Yuyunub-qurulanan adamlar hamılıqla ayaqlarını soyunub xalça üzərində sərilmiş süfrə ətrafında əyləşdilər. Xidmətçilər öz işinin pərgarı kimi ləziz nemətləri süfrəyə düzürdülər. Bir azdan Behbud bəy, "bismillah" deyib məclisdə əyləşənlərə nuş etməyi buyurdu. Əkinçilərin kirimişçə başlarını aşağı dikdiklərini görən bəy gözucu onlara nəzər yetirib:

- Atalar "elin o başı-bu başı olmaz"- deyiblər. Siz hamınız, kəndimizin əziz qonağısınız. Arxayın-arxayın nuş edin, - deyə qayğı ilə qonaqlara eşitdirdi.

Behbud bəyin iltifatını eşidən əkinçilər süfrədə təamlardan nuş etməyə başladılar.

Kərbəlayi başını yuxarı qaldırmadan sakitcə nahar edirdi. Süfrə arxasında əyləşənlər yeməklərini rahat yeyəndən sonra sakitcə şükranlıq etdilər.

Nahardan sonra bəy xidmətçilərə işarə ilə çay gətirilməsini bildirdi. İşlərini bilən xidmətçilər qənd, noğul qalaqlanmış gümüş qabları cəld süfrəyə düzməyə başladılar.

Məclisdən aralı qızılı rəngli iri "pataşov" samovarı zümzümə ilə qaynayırdı. Çay hazırlığını görən xidmətçilər gümüş sinidə armudu stəkana süzdükləri çayları süfrəyə gətirdilər. Məclisdə əyləşənlər sakitcə çaylarını içirdi. Sükutu pozan Kərbəlayi əkinçilərə tərəf üz tutub:

- Məhsulunuz, elə bilirəm, bu il bol olar. Dəmyə əkin yerlərində yağıntı çox olanda taxıl da bol olur, - deyə çayını içə-içə söhbətə başladı.

- Hə, ağa, axır vaxtlar quraqlıq olmur. Ancaq nə olsun ki, əziyyətimiz özümüzə qalır. Məhsulun yetişən vaxtı biçin başlar-başlamaz ərbablardan qabaq qaçaq-quldurlar başımızın üstünü kəsdirirlər. Onlar taxıl "paylarını" bizdən almasalar əl çəkmirlər, - deyə qısaboylu, yaşca böyük olan kişi şirin Təbriz ləhcəsində cavab verdi.

- Günah özünüzdədir. Onları görəndə qorxudan qabaqlarında ikiqat olub təzim edirsiniz. Ona görə də o naxaləf yaramazlar bilirlər kimin üstünə hücum çəkib sıxma-boğmaya salmaq olar. Əzabla əkib-becərdiklərinizi də gəlib-gedən gəda-güdələrə paylayırsınız, - səsini bir qədər ucaldan Behbud bəy ötkəmliklə cavab verdi.

- Bəy, qurbanın olaq. Neynəməliyik axı, çarəmiz yoxdur. Gərək onların çaldığı hər havaya oynayaq. Əgər onların istəyini yerinə yetirməsək, bundan da betər müsibətləri görüb baş-gözümüzü qapazlamalıyıq.

Sözünə haqq qazandıran əkinçi başlarına gətirilən müsibətləri təfsilatı ilə danışırdı.

Əkinçini diqqətlə dinləyən Kərbəlayi ürəkağrısı ilə başını tərpədib nəsihət verirmiş kimi inadla soruşdu:

- Belə ki, zəhmətlə ruzi qazanırsınız, bəs niyə Şirxana qoşulub oğurluğa qurşanmısınız?

- Ağa, qaçaq-quldursuz günümüz əskik olmur. İllah da Şirxansız. Onun nə gözü doyur, nə də ki, nəfsi. Haqq-nahaq düşür üstümüzə. İstəyinə də əməl etməyəndə ziyankarlıq edir. Onda da qalırıq məəttəl. Sübh tezdən bizi silah gücünə Araz çayının dayaz yerinə gətirtdirib məcbur etdi ki, keçin. Biz də çarıqlarımızı çıxartmadan, çırmanıb keçdik bu taya. Onun dəstəsi böyükdür, Vallah, bəy, onlarla bacarmaq olmur. Elə ki Şirxanın tələbini eşitməyib sözünü çevirdin, baş-gözümüzü verir qamçının ağzına. Aşağıda, Maralyan kəndindən aralı, Gəyən təpə-

lərində hürküb qaçan mal-qaranın qabağını kəsmişdik ki, dağılışmasınlar. Bir də onda gördük ki, Şirxan hikkə ilə bizim hamımızı söyə-söyə atını səyirtdi üstümüzə. Əlindəki qamçı ilə bu yazıq kişini başladı döyməyə, - deyən əkinçi sözünə ara verib yanaşı oturduğu sir-sifəti qamçı zərbindən zod qalmış ahıl kişini göstərdi.

- Şirxan əzazil adamdır. Düz deyirsiniz ki, onun gözü heç vaxtı doymur. Çünki nəfsi sürüyə dadanmış yalquzaq nəfsidir. Şirxan kimi nanəciblərdən nə qədər kənar dursanız, bir o qədər də başınız salamat, canınız rahat olar.

- Vallah, bəy, sözün düzü, Şirxanla bizim heç bir əlaqəmiz yoxdur. O, əzazil adam kimi Araz çayının o tayında da məşhurdur. Həmişə bizə hədə-qorxu gəlib hədələyir. Bu gün bizim işimiz kövşənlərdə yağmalanmış heyvanları bir yerə yığıb Araz çayının sahilinə qədər gətirmək, onun dediklərinə əməl etmək idi.

- Bəs o tülkü Zəkini hardan tapıb qoşub yanına? Tülkü Zəki marığa yatmış tülkü kimi Araz çayının hər iki tayında məşhurdur, - deyə rəncbərin dediklərinə diqqətlə qulaq asan Kərbəlayi, bığaltı gülümsəyərək sakitcə soruşdu.

- Bəy, Araz çayının o tayında, qamış talasında oğruların gizli məşvərət yerləri var. Dünən günbatana yaxın Şirxan al dilnən quldur Zəkini dəstəsi ilə oraya çağırtdırmışdı. Uzun söz-söhbətdən sonra Zəkinin başını bişirib adamları ilə birlikdə öz dəstəsinə qoşa bildi. Əvvəlcə şərtləşdikləri kimi, oğurlanmış mal-qaradan ona da pay verməli idi. Bu söhbətin məğzini bilib şirnikən Zəkinin gözləri hərislikdən tülkü gözləri kimi parıldayırdı. Ancaq gəlib bu məqama çatanda sizin adamların şir kimi hücuma keçdiyini görüb dərəyə düşməyə cürət etmədi. Bir tərəfdən də ağ köhlənin belində təpədən üzüaşağı şığıyan Qaçaq Süleymanla adamlarını görən Zəkinin hücum etməyə

cəsarəti çatmadı. Əcəb yerə ona Tülkü Zəki demirlər. O, Süleymanı görən kimi, işin şuluq olduğunu bilib adamları ilə üzü Araz çayına doğru götürülüb aradan çıxdı.

Əkinçinin Zəki haqqında danışdıqlarını eşidən Kərbəlayi ürəkdən gülə-gülə:

- Zəkinin bərkdə əli yoxdur. Qoyasan onu yaxşı-yaxşı kənardan-kənara əlinə keçənləri xəlvəti çırpışdırıb aradan çıxa. Heç yadıma düşmür, Rəhim ağa nə əcəb Şirxanın dəstəsinə qoşulmayıb? Onlar axı çox vaxt bir yerdə olurlar. Əllərinə düşən malları öz aralarında pay-püşk edib bölürlər?

- Vallah, bəy, eşitdiyimə görə son vaxtlar Rəhimlə Şirxanın sözü-söhbəti bir-birlərinə xoş gəlmir. Bu gün sübh ertədən o tayda qamışlıqda patrondaşlarını yerbəyer edən Şirxan, Rəhim ağanın dalınca o ki var asıb-kəsirdi. Doğrusu, onların aralarında olan ədavətdən xəbərsizik, səbəbini də bilmirik.

- Rəhim ağa ona baxanda toya getməlidir. Heç olmasa, az da olsa, insaf-mürvət qanandır. Oğurluğunu da insafla edir. Yoxsa Şirxan kimi əlinə keçənləri süpürüb aparmır!

- Rəhim ağa o qədər də bizə dəyib-dolaşan deyil. İldə bir kərə biçin vaxtı başının dəstəsi ilə gəlib atlarına ayırdığımız arpa "payını" arabasına yüklətdirib sakitcə mürəxxəs olub gedir.

- Bunlar hamısı aydındır. Şirxan bu dəfə gələndə özü ilə fayton da gətirmişdir. Xeyirdirmi? Görəsən, o qoşa atlı faytonu haradan ələ keçirmişdi? - Kərbəlayi maraqla soruşdu.

- Bəy, Araz çayının dayaz yerindən keçib Maralyan kəndinə tərəf gedirdik. Kəndə xeyli qalmış gördük ki, karvan yolunda uzaqdan qoşa atlı fayton iti sürətlə bizə sarı gəlir. Bizim dayandığımız yerdə silahlı atlı dəstəni

görən faytonçu yanımıza çatar-çatmaz atları əylədi. Faytonun arxa oturacağında əyləşən iki ahıl kişini, bir də qoca faytonçunu görən Şirxan hikkə ilə onların aşağı düşməsini tələb etdi. Ancaq faytondakılardan biri dərhal yerindən qalxıb özünə arxayın halda Şirxana səsləndi:

- Nə səbəbə faytondan düşməliyik? Sən kimsən belə toplu-tüfəngli qabağımızı kəsib bizə hərbə-zorba gəlirsən? - deyə çəkinmədən Şirxandan soruşdu.

Kişinin sorğusu Şirxanın xoşuna gəlmədi. Qızmış buğa təki fısıldayan Şirxan qəfil əlindəki Osmanlı tüfəngin çaxmağını şaqqıltı ilə geriyə çəkdi. Kişinin qorxu-hürkü bilmədən söz güləşdirməsi onu hövsələdən çıxartmışdı. Şirxan, atını səyirdib faytonda oturan ahıl kişilərin üzərinə hücum çəkərək bağıra-bağıra:

- Deyəsən axı mənimlə söz güləşdirirsən? Dedim ki, faytondan düşün. Yoxsa beyninizi göyə sovurub hamınızı o dünyalıq edərəm, - deyib tüfənglə onların başı üzərindən bir-iki güllə atdı. Şirxanın hərəkətini görən faytondakılar kirimişcə aşağı düşüb kənəra çəkildilər. Bayaqkı kişi yenidən Şirxana müraciət edərək:

- Yolumuz uzaqdır, Allah eşqinə, icazə verin yolumuza davam edək, - dedi.

- Fayton mənim özümə lazımdır. Gedirsiniz, pay-piyada rədd olun buralardan. Gözüm sizi görməsin. Sizi burda saxlayan var? - deyən Şirxan ədəb-ərkan gözləmədən atla onların ətrafında cövlan edib bağıraraq təhqir etdi.

- Axı dedim ki, bizim yolumuz uzaqdır. Bu qədər yolu yayın tüğyanında pay-piyada necə gedib mənzil başına çata bilərik? - deyən kişi ədəblə ondan soruşdu.

Şirxan:

- Ə, mən nə bilim, hansı cəhənnəmə necə gedəcəksiniz. Bura qədər faytonla şellənə-şellənə gəlmisiniz, bəsi-

nizdir. İndi də əziyyət çəkin, burdan da belə hara lazımdır itilib gedin. Məgər piyada gedəndə xançalınızın qaşı düşəcək? - deyə ağzı köpüklənə-köpüklənə kinayəli baxışları ilə onları süzdü.

Qəzəbindən gözləri hədəqəsindən çıxan Şirxanın qanacaqsız hərəkətini görən quldur yoldaşları qorxudan susur, mübahisənin nə ilə qurtaracağını gözləyirdilər. Hirsi soyumayan Şirxan əlindəki qamçı ilə oğru yoldaşlarına Gəyən təpələrini göstərib, faytonu o tərəfə sürməyi tapşırdı.

Faytondan düşən adamlar çar-naçar yoldan kənara çıxıb sakit-sakit oğrulara baxırdılar. Şirxanın göstərişinə dərhal əməl edən quldurlardan ikisi atlarından birbaşa faytona atıldılar. Onlar atların başını Gəyən təpələrinə tərəf çevirib hay-küylə qovmağa başladılar. Ələ keçirdiyi faytonu özünə qənimət bilən Şirxan razı qalmış kimi israrla, ətrafında dayanan oğru silahdaşlarına eşitdirdi:

- Qayıdanbaş evlərdən çırpışdırdığımız xalça-palazları, mitilləri faytona yığıb gətirərik, - deyə təkəbbürlə söyləndi.

Şirxanın əməllərini təfsilatı ilə izah edən əkinçilərə diqqətlə qulaq asan Behbud bəy özündən asılı olmayaraq ehmalca başını tərpədir, qəzəbini güclə boğurdu.

Gecədən xeyli keçmişə qədər tut ağacının budağından asılı qalmış otuzluq lampanın gur işığında bəylə əkinçilər arasında davam edən söhbət bitmək bilmirdi. Əkinçiləri sorğu-suala tutub dəyərli məsləhətlər verən Behbud bəy:

- "Gecənin xeyrindənsə gündüzün şəri yaxşıdır", - deyə uzun sürən söhbətdən sonra astaca ayağa qalxıb qamətini düzəldib, qayğıkeşliklə onları imarətin ikinci mərtəbəsində ayrılmış otağa dəvət edib yatıb-dincəlmələrini bildirdi.

***

Kəndi hər tərəfdən əhatəyə almış meyvə bağlarında yarpaqlar üzərində puçur-puçur düşmüş şeh damcıları, təzəcə qalxmış günəş şəfəqində incitək parıldayırdı. Heydər dağının zirvəsində, səmada qiyyə çəkib süzən qoşa qartallar da yorulmadan hey qanad çalıb uçur, bəzən də buludlar arxasında görünməz olurdular.

Sübhdən oyanan kənd camaatı mal-qaranı örüş yerinə aparırdı. Bacam təpəyə toplaşan arvad-uşaq öz aralarında ötən gün Qanlı dərədə daşkəsənlilərlə quldurlar arasında baş verən döyüşdən danışırdılar. Evlərin damından döyüşü əvvəldən axıradək izləyən uşaqlar da öz aralarında mübahisə edirdilər. Qaçaq Süleymanla Behbud bəyin döyüş zamanı şücaətini, Ağalar kişinin çomaq davasında oğruları əzişdirdiyi anları sözlə təsvir edərək, ətrafda onlara tamaşa edənləri təəccübləndirirdilər.

Diribaş və cəldliyilə tay-tuşlarından seçilən goppuş oğlan hamı eşitsin deyə, Qanlı dərədə baş verən döyüş anlarını özünəməxsus ədayla ucadan danışaraq, hamının diqqətini cəlb etmişdi.

Oğlan:

- "Usub, atları yeyin sürün, qudurmuşlar bizi qabaqlayıb kəndə soxulublar", - deyə Qaçaq Süleymanın ağ köhlənin belində hayqırtı ilə Kültəpədən üzüaşağı çaparaq şığıdığı anı, hayqırtısını elə təsvir edirdi ki, onun yamsılamasına qulaq asıb tamaşa edənlər məəttəl qalmışdı. Qaçaq Süleymanın mauzerdən atəş açmağını, oğruları pərən-pərən salıb atdöşü edərək, qovduğunu təsvir edən oğlan, elə bil ki, həmyaşıdları qarşısında tamaşa göstərirdi. Əkin-biçində, bağ-bağatda işləməyə gedənlərin şaqraq səsləri ətrafı bürümüşdü. Ertədən hazırlıq görən adamlar iş yerlərinə - ipək fabriklərinə yollanırdılar.

***

Sübh tezdən tut ağacının altında sərilmiş xalçaların üzərində səliqə ilə böyük süfrə açılmışdı. Xidmətçilər süfrəyə səhər yeməyini düzürdülər. Axşamı imarətdə gecələyən əkinçilər ertədən oyanıb su təknəsinə yaxınlaşdılar. Navalçadan axan suda yuyunub-qurulandıqdan sonra həyətin bir küncünə çəkilib, öz aralarında xısınlaşaraq, hərdən də gözaltı geniş həyəti seyr edirdilər.

Asta addımlarla pillələri enən Behbud bəy əkinçilərlə görüşdükdən sonra navalçaya yaxınlaşıb yuyundu. Sonra o, qonaqları səhər yeməyinə dəvət etdi. Hamılıqla çarıqlarını soyunub, süfrə arxasında əyləşənlər "bismillah" deyib səhər yeməyinə başladılar.

Behbud bəy özünəməxsus sakit tərzdə nuş edirdi. Səhər yeməyini bitirən bəylə əkinçilər əllərini süfrədən çəkib dua edərək şükranlıq etdilər. Qonaqlar diqqətlə bəyə baxır, onun fəziləti qarşısında söz tapıb deyə bilmirdilər. Behbud bəy xidmətçilərə süfrəni yığışdırmağı tapşırdı.

Məclisdə bir anlıq hökm sürən sükutu pozan Behbud bəy üzünü qonaqlara tutub təmkinlə dedi:

- Uşaqlar sizi Araz çayının dayaz yerindən o taya keçirəcəklər. Axşam sizinlə söhbət zamanı əmin oldum ki, siz bir daha qəbahətli əməllərə yaxın durmaz, Şirxan kimilərinə də qoşulub özünüzü bədnam etməzsiniz. Bilirsiniz, indiki zəmanədə bir parça çörək qazanıb ərsəyə gətirmək nə deməkdir? İndi rahat yaşamaq, külfəti dolandırmaq çox çətindir. Siz özünüz əzab-əziyyətlə, alın tərinizlə əkib-becərib necə yaşayırsınızsa, bizimkilər də külfətini saxlamaq xatirinə gecə-gündüz əlləşir, əkib-becərir, mal-qara saxlaya-saxlaya kasıbçılığını edirlər. Ancaq lazım deyil, kiminsə fitvasına uyub oğurluq etməklə yaşamaq. Ev talayıb, qazanıb yemək bir kimsəyə başuca-

lığı gətirməyib. Belə əməllərlə xeyir-bərəkət sahibi olmaq mənim aləmimdə mümkün deyil. Çalışın, ruzinizi halal zəhmətinizlə qazanın. Xoşbəxtliyinizi, xoş güzəranınızı başqa bir kimsənin bədbəxtliyi üzərində qurmaq istəyinizdən əl çəkə bilsəniz, Allahın dərgahında xətriniz əziz, ruziniz bərəkətli olacaq.

Qonaqları əməllərindən çəkindirməyə çalışan bəy, iradlarını bildirərək, əyləşdiyi yerdən ayağa qalxdı. Süfrə arxasında əyləşənlər də hamılıqla ayağa durub, bəyə təzim etdilər. Bəy əkinçilərlə söhbət edə-edə Qara Molla pirinə tərəf yollandı. Kəndin ara yolu ilə irəliləyən əkinçilər yol boyu kənd uşaqlarının onlara həqarətlə baxdığını görüb, başlarını aşağı salaraq, sakitcə addımlayırdılar.

Pirin ətrafına toplaşanlar Behbud bəyin evində gecələyən əkinçiləri yola salmağa gəlmişdilər. Bəyin tapşırığı ilə kəndin cavanları qonaqlar üçün ayrılmış atların yüyənindən tutaraq, onları gözləyirdilər. Bəylə birlikdə gələn əkinçilər pərt olmuş kimi pirin ətrafında qələbəliyi görüb bilmirdilər ki, bəyə necə dua edib üzrxahlıq etsinlər. Heç nə olmamış kimi özünü sakit və təmkinli aparan Behbud bəy əkinçiləri bir-bir nəzərdən keçirib, aramla danışa-danışa tapşırdı:

- Şirxan rastınıza gəlsə, ismarıcımı mütləq ona çatdırın, mənim adımdan deyin ki, birinci kərə dılğırları ilə bizlərə "təşrif" buyuranda Kərbəlayinin gülləsinə tuş gəlmədin. Dünənki döyüşdə isə onu qəsdən vurub öldürmədim. Ancaq Şirxan bir də əlimə keçsə, onun dərisini çəpişin dərisi kimi boğazından dartıb çıxardacam. İndi isə vaxtdır, yolda heç nədən çəkinməyin, arxayın evinizə qayıda bilərsiniz. Bir az susandan sonra bəy əlavə etdi. - Sizə yaxşı yol. Necə deyərlər, yolçu yolda gərək. Atların tərkinə bağlanmış heybələrdə uşaqlarınız üçün sovqat,

özünüzə isə çarıqlarınızı təzələmək üçün bir cüt aşılanmış göndən çarıqlıq qoyulub. Şadlıqlarda geyinin. Evimizin qapıları hər zaman üzünüzə açıqdır. Çətinliyiniz olsa, korluq çəksəniz, heç nədən çəkinməyin, birbaşa mənim yanıma gəlin. İndi isə atlanın, gün qızmamış yola düşün. Allah amanında. Sağ-salamat gedin.

Yola düşməzdən qabaq sonuncu dəfə əkinçilərlə birbir əl verib görüşən Behbud bəyin üz-gözündən mehribanlıq, qayğıkeşlik yağırdı. Nəzakətli davranışından pərt olmuş əkinçilər dərhal atlandılar. Qonaqları yolboyu müşayiət edəcək əlisilahı daşkəsənlilər də atlarına süvar olub hazır dayandılar. Silahlı adamlar arasında uca qamətinə görə hamıdan cüssəli görünən Talıba tərəf çevrilən Behbud bəy:

- Talıb, qonaqlarımıza Araz çayının sahilinə çatanda suyun dayaz yerini göstərin ki, rahatlıqla o taya keçə bilsinlər. Özünüz də diqqət edin ki, onlar çayı keçəndə burulğana düşüb batmasınlar. Geriyə qayıdanda atları da özünüzlə gətirin, - deyə təmkinlə eşitdirdi.

- Yaxşı, Kərbəlayi, arxayın olun, siz necə məsləhət bilirsinizsə, elə də olacaq, - deyə Behbud bəyi dinləyən Talıb cavab verdi.

Atlarını yorğa sürən dəstə Aydolanmaz meydanının torpaq yolunda tozanaq qaldıra-qaldıra uzaqlaşdılar. Alı bəyin kəhrizindən Araz çayına doğru, üzüaşağı enib Üç qoz ağacının arxasında görünməz oldular. Səmada qiyyə çəkib süzən qoşa qartallar da səmtini dəyişərək, sürətlə Araz çayı istiqamətində uçub gözdən itdilər.

HEYDƏR DAĞI

(İkinci fəsil)

Payızın sazaqlı havasında qışın sərt gəlişi Heydər dağının zirvəsini ağ örpəyə bürümüşdü. Dağın ətəklərində yamacboyu sıra ilə tikilmiş evlərin bacasından çıxan tüstü burumu səmada Araz çayı səmtinə tərəf ötüb keçirdi.

Xəzan yarpaqları düşürdü bir-bir. Qoz ağacının budaqlarında saralmış seyrək yarpaqlar küləyin vıyıltısında əsim-əsim əsirdi. Yarpaqlar sanki həyat eşqi ilə çarpışır, budaqdan qopmaq istəmir, titrəyirdi. Günəşin üfüqdə batmaqda olan qızartılı şəfəqi dəmirci kürəsində sönməkdə olan közə bənzəyirdi. Quycaq yatağından yamacı qalxan naxırın, qoyun-quzuların mələrtisi aydın eşidilirdi. Naxırın ardınca atını sürən çoban Musanın gur səsi ətrafı bürümüşdü. Çomağını başı üzərində hərlədərək, sürüdən ayrılan keçiləri haylayır, öz-özünə deyinirdi. Sürünün qabağına çıxan sahibləri, öz heyvanlarını ayırıb həyətlərinə ötürür, çobana ağızdolusu dil-ağız edirdilər.

Musa yol kənarında dayanıb, naxırın gəlməsini gözləyən yaşlı, ağbirçək qadına çatmamış, atı onun qənşərində əyləyib gülə-gülə:

- Təzəxanım xala, gözün aydın olsun, dövlətinin gəlhagəlidir, keçin əkiz doğub, - dedi.

Çoban cəld arxaya çönüb, atın tərkinə aşırdığı, içərisində bir cüt oğlaq olan köhnə heybəni götürüb, ona verdi. Başlarını heybədən çölə çıxaran qumral oğlaqlar, səslərini kəsmədən hey yazıq-yazıq mələşir, dartınaraq heybədən çıxmağa cəhd edirdilər.

- Sağ ol, ay Musa! Allah səndən razı olsun, məni burda gözlə, gedim evdən muştuluğunu gətirim, - deyə Təzəxanım arvad oğlaqları heybə qarışıq götürüb, tez-tələsik evinə tərəf yollandı. Zoğalı rəngli kəhərin yanında vurnuxan ana keçi balalarının aparıldığını görüb qəfil arxa ayaqları üstə dikəlib fırlanaraq, cəld irəli atıldı, mələyə-mələyə qadının ardınca götürüldü. Kənd yolunun aşağı tərəfindən ensiz cığırla diki çıxan Göyüş kişi, demisini tüstülədə-tüstülədə çobana yaxınlaşdı. Bir anlıq nəfəsini dərib, dayandı. Musa ilə salamlaşan qoca kəndin ara yoluna doluşan qoyun-quzudan gözünü çəkmədən, ərklə razılığını bildirərək:

- Deyəsən sürünü kövşəndə yaxşı otarmısan, maşallah, hamısı qıvraqdır, doyunca yeyiblər.

- Elədir, qağa, sürünü Quycaq yatağında, dərədə otarırdım. Günortaya yaxın hoyladım təpəliklərə. Otara-otara gün çıxan tərəfə, kəndin köhnə yurd yerlərinə apardım. Teştək düzünə qədər kövşənlərimiz göy otla boldur.

- Ay Musa, düz deyirsən, otlaq sarıdan mal-qaramız korluq çəkmir. Yayı-qışı kövşənlərimiz yaz otu kimi gömgöydür. Vallah, belə yerdə yayı yaylağa qalxmağa ehtiyac da yoxdur. Elə burda qalıb heyvanlarımızı otarsaq, yaxşıdır. Otlaq yerlərimiz il boyu kəndin bütün qoyun-quzusuna, mal-qarasına bəs edər.

- Hə, qağa, düz deyirsən, kövşənlərimiz, əkin yerlərimiz su sarıdan da yaxşıdır. Kəhrizlərin, bulaqların gecə-gündüz şırhaşırla axan suları bağ-bağatda, dirriklərdə də hər işimizə yarayır. Elə ki, suad vaxtı gəldi, bir də görürsən, sürü götürülür Gül Qasım ağanın kəhrizinə tərəf. Mən binəva da tez özümü verirəm sürünün qabağına. İmkan vermirəm qoyun-keçi otlaqdan kənara çıxıb bağ-

bağatı, payızlıq əkin yerlərini yolmalasın, - deyə Musa uzaqdan görünən Gəyən təpələrində dəmyə əkin yerlərini çomaqla göstərib, narahatçılığını bildirdi.

- Keçilər əkin yerlərinə girməsə, qoyun-quzu da o tərəflərə keçə bilməz. Ancaq sürünü otaranda gözdə-qulaqda ol ki, çəpgözlər gözündən yayınıb, taxıl zəmilərini yoluşdurmasınlar.

- Demə-demə, qağa, keçilər nəfəsimi elə kəsiblər ki, gəl görəsən. Onların girmədiyi kol-kos, dırmanmadığı daşqaya qalmayıb. Ağına-bozuna baxmadan, hara gəldi özlərini ora dürtürlər.

- Keçi dediyin nədir, dağa-daşa dırmanıb qayalarda atılıb-düşmədi nədir? Əzəldən bu dəcəllər bir yerdə fараğat dayanmazlar.

- Vallah, düz deyirsən, Göyüş kişi. Nə gizlədim, dünən günorta vaxtı Qanlı dərədə, Əncirlikdən yuxarıda, Gül Qasım ağanın kəhrizində sürünü suvarırdım. Bir də gördüm, boz təkə Heydər dağının ətəyində yekə bir qayanın təpəsinə çıxıb, orda sərili qalıb. Hərdən də bəyirərək, qayanın üstündə kəfşək vurur. Nə qədər hay-küy, hayharay salıb hoyladım, bir xeyri olmadı. Təkə qayadan aşağı düşmədi ki, düşmədi. Elə ki, qoyunlar kəhrizdən su içib doydular, təzədən sürünün üzünü döndərdim kövşənə tərəf. Baxıb nə görsəm yaxşıdır? Həmin boz təkə sürünün qabağında quyruğunu bulaya-bulaya, təşər-təşər yeriyir.

- Təkələr, həmişə elədir, dırmanmadığı daş-qaya qoymaz, təşər yerişi də olmasa, sürünü ardınca apara bilməz.

Başını razılıqla tərpədən Göyüş kişi gülə-gülə həyət-bacalara doluşan qoyunlara, keçilərə baxırdı.

Sevinə-sevinə oğlaqları evinə aparıb, yerbəyer edən Təzəxanım arvad təngnəfəs halda çoban Musaya yaxınlaşıb, əlindəki qozla dolu heybəni ona uzadaraq şirin ləhcə ilə:

- Ay Musa, sən Allah, bunu götür, evdə uşaqlara verərsən.

- Payın artıq olsun, ay xala, nə zəhmətdir?

Heybəni alan Musa, onu yəhərin qaşından aşırdı. Atını dəhmərləyib uzaqlaşan sürünün ardınca sürüb getdi.

***

Araz çayı səmtində küləyin qovduğu topa buludlar arxasında bir anlıq görünməz olan Ay işığının şöləsi yenidən işıq saçırdı. Həyətlərdə mal-qaranı yerbəyer edən adamların səsləri ətrafa yayılmışdı. İnəkləri sağan qadınların zümzüməsi gecənin səssizliyində həzin musiqitək səslənirdi. Pəncərələrdən görünən çıraq işıqlarının zəif işartısı seçilirdi. Səs-səmir kəsildikcə elə bil ki, kənd də payızın sükutuna qərq olmuşdu...

Bacam təpədə yerləşən Kərbəlayi Behbud bəyin imarətinin dəmir şəbəkəli pəncərəsindən görünən çıraq işığının parıltısı, qütb ulduzuna bənzər şəfəq saçırdı. Divar sobasının önündə sərilmiş geniş xalı üzərində, döşəkçələrdə əyləşən kənd ağsaqqalları öz aralarında qarşıdan gələn Müqəddəs Qurban bayramını məşvərət edirdilər. Kəndin sayılıb-seçilən ağsaqqalı Kərbəlayi Cavad kişi, müqəddəs bayramın xoşməramlı ovqatını yada salıb, aramla danışırdı.

Məclisdə əyləşənlər diqqətlə ona qulaq asırdılar:

- İnşallah, gələn şənbə günü Qurban bayramıdır. Allahdan diləyimiz budur ki, bu əziz günlərdə hər bir evdə bayram qazanı qaynasın. Fağır-füqəralar əziz gün-

də naümüd qalmasın, - deyə qəlbindən keçənləri dilinə gətirdi.

Divar sobasına yaxın əyləşən Mirzə Məmməd, sual dolu baxışları ilə Cavad kişiyə tərəf döndü. Onun dediklərini başının hərəkəti ilə təsdiq edib soruşdu:

- Kərbəlayi, kəndimizdə neçə ev var? - deyə maraqla soruşdu.

Mirzənin sualına təmkinlə cavab verən Cavad kişi:

- Günorta azanından sonra məsciddə ağsaqqallarla bir yerdə hesablamışıq. Kənddə dörd yüz əlli altı tüstü pulu ödəyən ev var. Ancaq yüzdən çox evin sahibləri bu vergidən azaddırlar. Əkin sahəsi olmayıb, vergi ödəməyən kəslər mədrəsədə, "şkolda" çalışan mirzələr, müəllimlərdir. Poçtda, fayton məntəqəsində gecə-gündüz yollarda qalıb bizi mənzil başına çatdıran faytonçuları, su kəhrizlərində işləyən kankanları, rəncbərləri də bir yerdə hesaba alsaq, elə düz çıxar, - deyə Kərbəlayi Cavad bir anlıq ətrafına nəzər yetirib, sözünü bitirdi.

Məşədi Yusif ağa deyilənləri başı ilə təsdiq edib:

- Məndən olsa, birinci elə vergidən azad olanları qabağa salsaq, yaxşıdır. Kimin külfəti böyükdür, onların qurban paylarını, uşaqlarına əyin-baş, süfrələrinə də ləziz çərəz sovqatı göndərsək, pis olmaz. Maşallah, bir bölük külfəti olanlarımız da bu ərəfədə bayramı könül xoşluğu ilə keçirərlər, - deyə məclisdə əyləşənlərə eşitdirdi.

- Ağsaqqal düz buyurur, - Yusif ağanın təklifini bəyənib, razılıq edən Behbud bəy, - məsciddə, mədrəsədə, "şkolda" çalışan mirzələrin, müəllimlərin bayram paylarını ertədən göndərmək lazımdır. Qaldı ki, fayton məntəqəsində xidmət edən faytonçular, mehtərlərlə yanaşı, Daşkəsən bazarında baqqal dükanlarını qoruyan gözətçiləri,

bazar xidmətçilərini də yaddan çıxartmaq olmaz. Kəhrizlərə, su arxına baxan kankanlar, suçular, əkin-biçində əziyyət çəkən rəncbərlərin də boynumuzda haqq-sayları çoxdur. Belələrini bu əziz günlərdə nə unutmaq, nə də zəhmətlərini itirmək olmaz, - əlində çevirdiyi kəhrəba təsbehi ovcunda bürmələyən Behbud bəy, aramla peşə sahiblərinin adlarını yad edib qayğı ilə dedi.

Mirzə Məmməd eyhamla:

- Bəy, - dedi, - dağda daşyonanlar, əhəng, gəc quyularında zillətlə işləyib məhlul bişirənlər, dəyirmançılar necə olsunlar? Axı onların da zəhmətini, gördüyü işləri yaddan çıxartmaq olmaz.

- Mirzə, sadaladığın adamların əzab-əziyyətləri hamımızdan çoxdur, çox sağ ol ki, bunu məramında yadımıza salıb xatırlatdın, - deyə Behbud bəy razılıqla Mirzənin sözünü təsdiqlədi.

Başını astaca tərpədən Cavad kişi, Behbud bəyin nəcib hərəkətinə rəğmən dedi:

- Bəy! Allah dünyadan köçənlərinə rəhmət eləsin, yerləri behiştlik olsun. Sən ki, bu cavan yaşında camaatı sevindirirsən, inşallah, işin həmişə avand olar. Xeyirxah əməlinlə böyük savab qazanırsan. Oruc-namazın qəbul olsun. Mübarək ayda, Ramazan bayramında bütün kənd camaatını, uşaqdan tutmuş ahıl yaşlılara kimi sevindirdin. İndi də Qurban bayramı ərəfəsində səxavətini əsirgəmirsən.

Cavad kişini dinləyən bəy, oturanları seyr edib, başını aşağı dikərək, təmkinlə cavab verdi:

- Kərbəlayi, vallah bu dünyadan heç nə aparası deyilik. Dünya malı dünyada qalasıdır. Siz ki, bunu bilməmiş olmazsınız. Peyğəmbərimiz hədislərindən birində buyurub:

"- İldə bir neçə dəfə rahat yatıram. Onlardan biri də Müqəddəs Qurban bayramı günüdür. Bilirəm ki, ümmətimdən elə bir adam tapılmaz ki, həmin gün qurbanlıq ətindən faydalanmasın"! İndi biz də necə rahat ola bilərik ki, fağır-füqəralar, imkansız insanlar bu əziz gündə Qurban ətindən dadmasın. Külfəti ilə bir kənara çəkilib, acsusuz məəttəl qalsınlar. Qurbanlıq qoyunları sürüdən ayırtdırmışam, çobanlara tapşırmışam ki, üç gün əvvəl qoyunları sizin məsləhət bildiyiniz adamlara çatdırsınlar. İstəmirəm ki, onlar bu əziz günlərdə naümid qalsınlar.

- İnşallah, qalmazlar da! - Kərbəlayi Cavad bəyə toxtaqlıq verib dedi:

Razılıqla söhbətə müdaxilə edən Məşədi Yusif ağa:

- Hamılıqla bir yerə yığılıb, bu əziz günlərdə səxavətimizi göstərməliyik. Bizim buna imkanlarımız çatır...

Qurban bayramını təmtəraqla qarşılamaq istəyi ilə xeyirxah qərar qəbul edən ağsaqqalar, öz aralarında söhbəti davam edib sakit danışırdılar. Sobaya yaxın oturmuş Mirzə Mehdi hamı eşitsin deyə, təmkinlə müraciət edərək, - Söhbətimizi yekunlaşdıraq. Qəbul etdiyimiz qərarımız hamımıza bəlli oldu. İndi isə namazın vaxtıdır. Allah dərgahında səcdəyə duraq, xeyir-dua edək, niyyətimiz müstəcəb olsun, - deyə məclisdə oturanlara eşitdirdi.

Ağsaqqallar ayağa qalxıb, dəstəmaz almaq üçün eyvana çıxdılar. Saray xidmətçiləri nəzakətlə onlara sayğı göstərirdilər. Dəstəmazdan sonra otağa daxil olub, namaza oturanların Allah dərgahında fəzilətli duaları eşidilirdi. İbadətdən sonra yerlərində əyləşən ağsaqqallar yenidən şirin söhbətə başladılar.

Behbud bəyin işarəsi ilə xidmətçilər şam yeməyini, nemətləri gətirib süfrəyə düzdülər.

- Bismillah! - deyə Behbud bəy hamını şam yeməyinə dəvət etdi. Süfrə arxasında yan-yana əyləşənlər "bismillah", - deyib nuş etməyə başladılar. Bir azdan süfrədən əllərini çəkənlər şükranlıq etdilər. Mirzə Mehdi xoş avazla xeyir-dua verib, salavat çevirdi. Xidmətçilər armudu stəkanlarda süzülmüş ətir saçan çayları ağsaqqalların qənşərinə düzdülər. Arxayınlıqla çaylarını içənlər ötübkeçən hadisələri yada salıb həvəslə danışırdılar...

Söz boxçasını açıb tökən ixtiyar ağsaqqalların xatirəyə dönmüş əhvalatları tükənmək bilmirdi. Bayırda zülmət qaranlığı yaran bədirlənmiş ay işığında gecənin aydınlığı hökm sürürdü.

***

Quycaq yatağından gədiyi qalxan iki cavan oğlan, Dərəarası yarğanın kənarı ilə kəndə tərəf tələsirdilər. Təngnəfəs olmuş cavanlar qarşıdakı qaratikan kolunun yanında bir anlıq dayanıb, ətrafa boylandılar. Ay işığında yamacboyu ərazinin aydın görünməsindən ehtiyat edib bir müddət kolun dibində qısılaraq, çömbəltmə oturdular. Onlar qorxu hissi ilə yamacda görünən kəndi seyr edir, öz aralarında pıçıltı ilə danışırdılar. Büründəklərinə bürünüb, yoxsulluğun ağır günlərindən gileylənən cavanlar uzaqdan görünən imarətin işıq saçan pəncərəsindən gözlərini çəkmirdilər. Yanında oturandan böyük görünən saqqallı oğlan xısın-xısın danışır və ətrafa da diqqət edərək, sakitcə məsləhət edirmiş kimi:

- İndi kəndə girə bilmərik. Gözləyək, əl-ayaq çəkilsin. Sonra sakitcə həyətə girib öküzü ağacdan açıb gətirərik. Belə bir vaxtda qabağımıza bir kimsə çıxmasa yaxşıdır. Gərək öküzü elə gətirək ki, kəndin itləri hənirimizi

alıb hürməsinlər. Çətini heyvanı yarğana qədər yedəyimizdə çəkə-çəkə aparmaqdır, ordan o yana asandır, - dedi. - Yəqin bilirsən ki, ev sahibi qapıda it saxlamır?

- Yox, saxlamır. Bilirəm ki, səni bura gətirmişəm. Həyətin yolu görünən imarətin bəri tərəfindəndir. Ancaq qorxuram, əməlimizdən xəbər tutan kənd camaatı dərhal başımızın üstünü kəsdirsinlər. Ev sahibləri öküzü gecə-gündüz həyətdə tut ağacında bağlı saxlayırlar.

- Ağaca bağladıqlarını görmüsən ki, belə arxayın-arxayın danışırsan?

- Görmüşəm, əvvəl ağaca iki öküz bağlamışdılar. Dünən isə buraları gəlib gözdən keçirəndə ağac dibində bir öküz gördüm, - dedi, - görməsəm, demərəm axı, - deyə balaca oğlan cavab verdi.

- Yaxşı, nə deyim, təki sən deyən olsun, yəqin öküzün o biri tayını kimə isə yer şumlatdırmağa veriblər. Baxaq görək, bundan belə başımıza nə iş gələcək. Qış bu gün-sabah girir, payızlıq əkin yerlərimiz də şumlanmamış qalıb. Rəhmətlik qağamızın sağlığında ikimiz də kəllərin boyunduruğunda oturub holavar deyərdik. Dərdsərin nə olduğunu bilməzdik. Yeyib-içib kənd arasında şellənərdik. İndi bu dünyada nə dədəmiz var, nə də əkin yerimizi şumlamağa öküzümüz...

Başını koldan çıxaran oğlan, keçən günləri yada salıb heyfslənərək, dərindən köks ötürdü, təəssüflə kiçik qardaşına gileyləndi. Dincini alıb, giley-güzar edən cavanlar oturduqları yerdən ayağa qalxıb asta addımlarla imarətə tərəf yollandılar. İmarətə bitişik qaya daşları ilə hörülmüş yarıuçuq hasarın arxasında bir anlıq daldalandılar. Hər tərəfi diqqətlə izləyən saqqallı oğlan həyəti gözdən keçirdi. Aşağı əyilərək, balaca qardaşına izah etməyə başladı:

- Həyətə girən kimi öküzü ağacdan açıb, bayaq gizləndiyimiz qaratikan koluna qədər aparaq. Dərəarasında kol-kosluğa çata bilsək, bizə zaval yoxdur, - dedi.

Böyük qardaşının soyuqqanlı danışığını eşidən kiçik qardaşın qorxudan elə bil, canına üşütmə düşmüşdü. Dili topuq vura-vura:

- Şükür məsləhətinə. Bizi bir kimsə həyətə girən görsə, vay halımıza. Haray-həşir salıb kənd camaatını yuxudan oyadacaq. Bir də gördün camaat töküldü üstümüzə. Bizi tutsalar, elə öküzün yanındaca dərimizə saman təpəcəklər.

- Kəmfürsət olma, özünə toxtaqlıq ver, - deyə saqqallı qeyzlə dilləndi.

- Nə deyirəm?! Təki sən deyən olsun.

Kənddə səs-səmirti kəsildikcə, itlərin də hürməsi eşidilməz oldu. İmarətin baş tərəfindən diki qalxan oğrular, həyətdəki öküzü görməyəndə çaş-baş qalıb bir an duruxdular. Böyük qardaş təəccüblə:

- Hanı öküz? Gözümə dəymir.

Öküzü yerində görməyən kiçik qardaş qorxudan çiyinlərini tərpətdi. Gecənin bu vaxtında Araz çayı sahilindən pay-piyada gəldiklərinə də peşman olan böyük qardaş:

- Deyəsən, axı, ağaca bağlanan öküzü də bizdən əvvəl kimsə aparıb. Ya da əkin yerlərini şumlamaq üçün kiməsə veriblər, - deyə qardaşına eşitdirdi.

Gördüyü mənzərədən pərt olub nitqi quruyan kiçik qardaş, cavab verməyə söz tapmayıb, başını aşağı saldı. Çıxılmaz vəziyyətdə qalan qardaşlar, qaranlıqda bir-birinin üzünə baxdılar. Bir azdan özünü ələ alan böyük qardaş naümid halda qardaşına səsləndi:

- Xəlvəti get, tövləyə baş çək, gör öküzləri ora salmayıblar? Ola bilər ki, bu soyuqda tövlədə saxlasınlar, - deyə divarın arxasından həyətə boylandı.

Kiçik qardaş qorxa-qorxa həyətə girib, ətrafını seyr etdi. Tövlədə pəncərəni əvəz edən kiçik yarıqdan içəri boylandı. Bir azdan o, başını yarıqdan çölə çıxarıb, əli ilə qardaşını yanına çağırdı. Kənardan onu pusan qardaşı ətrafına baxa-baxa tövləyə yaxınlaşaraq, yarıqdan içəri boylandı. Tövlədə dirəyə bağlanmış öküzlə sağmal ala inəyi görüb sevincək:

- Hə, bu başqa məsələ, işlərimiz düzəldi. Öküzü aparmağa gəlmişdik, hələ üstəlik qismətimizə sağmal inək də çıxdı, - deyə taxta qapının dəmir ilgəyini açıb içəri girdi. İçəridə, qaranlıqda, gözləri işıqtək parıldayan öküzlə inək kövşək vururdu. Saqqallı qardaş heyvanların dirəyə bağlanmış ipini bıçaqla kəsib, boyunlarını sığallayıb oxşayaraq, hər ikisini çölə çıxardı. Yedəyində çəkə-çəkə gəldikləri səmtə doğru addımladı. Yamacdan üzüaşağı, bağa enən qardaşlar, Dərəarası istiqamətində hərəkət etdilər. Öküzlə inəyin ipini əlinə dolayıb dartan böyük qardaş, arxaya dönüb əminliklə:

- Hə, indi arxayın-arxayın payızlıq şumunu edib, taxılımızı səpə bilərik, - dedi.

Arxadan heyvanları qovan kiçik qardaş, nəsihət edirmiş kimi israrla:

- Qağa, yaxşı iş görmədik. Sahibləri bilsə, bizə qarğış yağdırıb, ölümüzü-dirimizi ismətsiz edəcəklər. Gəl heyvanları qaytaraq, aparıb bağlayaq yerinə. Bizim ocağa haram tikə, haram əməl düşmür. Səhər gəlib ev sahibinin özünə gənəşib, öküzü bir-iki günlük istəyərik. Verər, arxayın aparıb, əkin yerlərimizi şumlayarıq, verməz də can-

ları sağ olsun. Oğurluq malla şum edənin xeyir-bərəkəti, urvası olmaz, - deyə yazıq-yazıq deyindi.

- Ay qardaş, bilirsən nə var? Əfəl olma, əlimizə yaxşıca fürsət düşüb. Nə olar, olar. Nə olursa olsun, mən bir də geriyə qayıdan deyiləm, - deyə qaratikan kolluqlarının arasıyla irəliləyən qardaşı ötkəm səslə cavab verdi.

Dərəarasının kənarı ilə hərəkət edən qardaşlar, Daşkəsən çayını keçib, yamacboyu Araz çayı səmtinə endilər. Ağ göldən yuxarı, dəyirman tərəfdə itlərin duyuq düşüb hürməsi, ətrafda hökm sürən səs-səmiri pozdu.

- Hə, rahat oldunmu? - deyə irəlidə, heyvanların ipini yedəyində dartan böyük qardaş, - indi özünü o köpəklərdən qoru görüm, necə qoruyursan? Ağız-ağıza verib hürən itlər səhərə qədər səslərini kəsməyəcəklər. Sənինlə bir yerə çıxmaq olmur. Nifrin adamlar kimi həmişə zəvzəyib qabağıma nəhs gətirirsən. Çubuqla öküzün sarğısına vuran kiçik qardaş qorxudan səsini çıxartmadı...

***

Küləyin cansıxıcı vıyıltısında aramsız yağan yağış səngimək bilməsə də, bədirlənmiş ay işığında kəndin ətrafı aydın görünürdü. Daş yoldan kəndə tərəf atlarını yorğa sürən bir dəstə yapıncılı adam, Bacam təpədə ikimərtəbəli imarətin darvazası önündə atlarını əylədi. Yapıncılarına bürünmüş atlılar, çiskinli yağışda islanmışdılar. Onlardan biri kəhərin belindən tez yerə sıçrayıb taxta darvazanın cəftəsini taqqıldatdı. Bir azdan qapının kiçik tayını açan çərkəzi paltarlı, sarıyanız yeniyetmə oğlan küçəyə boylandı. Onun sifətindəki təəccüb dolu baxışları xoş təbəssümlə əvəz olundu. Ağ köhlənin belində yapıncısına bürünmüş qonağı görüb sevincək:

- Süleyman əmi, xoş gəlmisiniz, buyurun içəri, həyətə keçin, - dedi.

Süleymanın başının dəstəsiylə gəlişinə sevinən oğlan, gülə-gülə taxta darvazanı taybatay açıb, onları həyətə dəvət etdi. Atından düşən Süleyman həyətə keçdi. Oğlana əl verib görüşərək, onun alnından öpüb uca səslə:

- Ay maşallah, Yusif, böyümüsən. De görüm, dədən evdədir?

- Hə, əmi, yuxarı mərtəbədə qonaqlarla söhbət edir. Günbatan çağı kəndin ağsaqqalları bizə təşrif buyurublar. Mübarək Qurban bayramını elliklə necə keçirəcəklərini müzakirə edirlər.

- Mübarək olsun! Allah saxlasın, dədən həmişə elobanın yükünü boynuna götürüb. Camaata qayğı göstərməsə, rahat ola bilmir.

- Bəli, Süleyman əmi, elədir ki, var.

- Hə, nə deyirsən, Yusif, qoşulursan bizim dəstəmizə? Gəlmişik səni aparmağa, - deyə Süleyman gülərək, ona tərəf əyilib zarafatla soruşdu.

- Nə deyirəm, Süleyman əmi. Mən kəndimizdə rustatar məktəbində, "şkolda" oxuyuram. Bir az böyüyüb güclənim, sonra sizin dəstənizə qoşulacam.

- Ay maşallah. Allah saxlasın səni. Mən sənin fərasətli olduğunu belə də bilirdim. Əvvəl oxumağına fikir ver ki, böyüyüb qulluq sahibi olasan, - deyə Süleyman Yusifə öyüd-nəsihət verdi.

Yusif köhlənin yüyənini Süleymanın əlindən alıb, tövləyə tərəf apardı. Həyətdəki səs-küyü eşidən saray xidmətçiləri cəld bayıra tökülüşdülər. Səsə ikinci mərtəbədə eyvana çıxan Behbud bəy həyətdə Süleymanla gələn qaçaqları görüb, dərhal pillələrlə aşağı endi. Bəyin ar-

dınca uca qamətli xanımı - Asya xanım da şəstlə mərmər pillələrlə aşağı düşərək, pilləkənin geniş meydançasında dayandı. Behbud bəy irəli keçib, gülə-gülə Süleymanla səmimi görüşüb xoş-beş edərək, onu bərk-bərk qucaqlayıb dedi:

- Xoş gəlmisən, ay Süleyman.

Məğrur baxışları ilə Süleymanı salamlayan Asya xanım təmkinlə:

- Xoş gəlmisiniz, Süleyman qağa.

- Salam, bajı! Axşamınız xeyirli olsun,- deyə Süleyman Asya xanımla nəzakətlə görüşdü. Sonra anasına sığınmış balaca sarışın qızcığaza, Zibaya yaxınlaşdı, alnından öpüb nəvazişlə:

- Salam, balaca xanım! - deyə onunla görüşdü.

Behbud bəy oğlu Yusifi qıyğacı baxışları ilə süzüb gülə-gülə:

- Ay Süleyman, nədir, yenə dostunu çək-çevirə salmısan, deyəsən? – kənardan onlara tamaşa edən qaçaqlara yanaşıb, bir-bir əl verib görüşdü.

Süleyman, əlini Yusifin çiyninə qoyub ucadan:

- Maşallah, istiqanlı oğlandır, Allah saxlasın, - deyə Yusifi göstərib sözünə davam etdi, - günorta azanından əvvəl Cəbrayıldan Əfəndilər kəndinə, ordan da obamıza tərəf qayıdırdıq. Çiskinli hava da bir yandan bizi daşyolda, Papı kəndi səmtində haqladı. Yolumuzu burdan saldıq ki, sənlə də görüşüb atüstü söhbət edək, - deyə Süleyman, gəlişinin səbəbini Behbud bəyə eşitdirdi.

- Əşi, əcəb eləyib gəlmisiniz, yuxarı çıxın, əl-üzünüzə su vurun, rahatlanın, sonra söhbətimizə davam edərik.

Bəy imarətin xidmətçisinə qonaqların yuyunması üçün tədarük görməsini tapşırdı.

- Uşaqların yarısı Xanalının dəstəsiylə Əfəndilər kəndində qaldılar. Onlara tapşırmışam ki, kəndin girəcəyində bir müddət ayıq-sayıq dayanıb gözləsinlər. Qayıdanda da Heydər dağının gün çıxan səmtindən gəlsinlər. Yamacboyu kol-kosda erməni dığaları pusquda durub, yerdir marığa yatmış canavar təki gəlib-gedənə hücum çəkirlər. Ola bilsin ki, erməni silahlıları qəfil həmin kolluqlardan kəndə hücum etsinlər. Biz geri qayıdarkən, Heydər dağına çatanda onlar kənddən çıxmamışdılar. Xanalıya tapşırmışdım ki, geri qayıdanda gəlib bizi burda, sizin evin qabağında gözləsin, bir yerdə obamıza qayıdaq. Yəqin bir azdan onlar da gəlib bizi burda taparlar.

- Süleyman, sizin gəldiyiniz yol çox qısadır. Səbrinizi basın, inşallah, onlar da gəlib çıxarlar. Yerimiz genişdir. Axşamı burda qalıb dincəlin, səhər Allah qoysa, arxayıncasına obanıza yola düşərsiniz.

- Sağ ol, Kərbəlayi. Allah razı olsun, qalmışkən varıq. Biz getsək, yaxşıdır. İndi obada bizdən ötrü hamı nigaran qalıb.

- Xeyirdirmi, Süleyman, toplu-tüfəngli Əfəndilər kəndinə getməkdə. Orda bir hadisə baş verməyib ki? - Behbud bəy təəccüblə soruşdu.

- Hərəkülün dığaları kəndin camaatını incidir, malqarasını sorğusuz-sualsız kövşənlərdə otarırlar. Yazıqların həyətlərində ot tayalarını dədə malı kimi daşıyıb aparır, apara bilmədiklərinə də od vurub yandırırlar. Sözün kəsəsi, erməni dığaları o ətraflarda bildiklərini edirlər. Nainsaflar camaatın qoyun-quzusunu, mal-qarasını yağmalamaqdan da əl çəkmirlər. Yazıqlar da səslərini çıxardanda, dığalar bir yerə yığılıb, açıq-aşkar kəndə hücum edir, kənd adamlarını top-tüfənglə hədələyirlər. Son vaxtlar

Dolanlı Nerseslə Sokratın daşnak dəstəsi o ətrafdan əl çəkmir. Nerses başına yığdığı beş-on silahlı dığalarıyla erməni kəndlərində adamlara hədə-qorxu gəlir ki, müsəlmanların yaşadığı yerlərə hücum etsinlər. Nersesin əməllərindən bezikib cana doyan ermənilər də sözü bir yerə qoyub hamılıqla onu dəstəsi qarışıq kənddən qovmaq istəyiblər. Geriyə çəkilməyən Nersesi söyüb biabır edən iki qoca ermənini, ərlə-arvadı günün-günorta çağı kəndin aralıq meydanında, camaatın gözü qabağında güllələyib. Məqsədləri də budur ki, olan-qalan adamları da öz tərəflərinə çəkib ermənilərlə müsəlmanlar arasında nifaq salsınlar. Əfəndilər camaatı onlardan narazılıq edir. Biz də Hərəkül kəndinin ermənilərini bir yerə yığıb başa saldıq ki, başqasının fitvasına uyub artıq-əskik hərəkətə yol verməsinlər. Erməni arvadları başlarına açılan müsibətləri yerli-yataqlı bizə danışdılar. İndi, bəy, oralarda sakitlikdir. İnana bilmirəm o söhbətdən sonra dığalar bir daha Əfəndilər kəndinə hücum çəkib, camaata sataşsınlar, - Süleyman Əfəndilər kəndində baş verən hadisənin məğzini ətraflı danışdı.

Köhləni tövlədə dirəyə bağlayan Yusif bayıra çıxdı. Hasara bitişik tayadan tələm-tələsik bir qucaq ot çəkib dərhal geriyə qayıtdı. Bunu görən Behbud bəy, Süleymana tərəf çevrilib gülə-gülə:

- Heç mənim kəhərimə belə qulluq göstərmir, - deyə eyhamla eşitdirdi.

- Zarafat deyil ey, kişi ilə dost olmuşuq. Bir az böyüsün, onu dəstəmə qoşacam. Görərsən, Yusifdən bir qaçaq olsun ki, heç bu ətrafda onun tayı-bərabəri olmasın, - Süleyman da zarafatla ona cavab verdi.

- Allah xeyir versin, nə deyirəm, təki sizin biri-birinizə arxa-dayaq durmağınız güclü olsun.

Həyətə girən qaçaqlar, yedəklərində çəkə-çəkə üstü-örtülü talvarın altına apardıqları atların yüyənini divara bərkidilmiş dəmir halqalara keçirib, bağladılar. Kənarda divarboyu qalaqlanmış ot tayasından hərəsi bir qucaq ot çəkib gətirərək, uzunsov axura boşaltdılar. Xırçıltıyla quru otu yeyən atlardan aralanan qaçaqlar, üst-başlarını çırpıb, bir qədər aralıdan Süleymanla Behbud bəyin söhbətinə qulaq asırdılar.

Sarayın mərmər pilləkəninə yaxınlaşıb, Süleymanı dəstəsiylə evə dəvət edən Behbud bəy nəzakətlə:

- Süleyman, buyurun yuxarıya, - deyə qonaqları evə dəvət etdi. Yanaşı söhbət edə-edə pillələrlə qalxan Behbud bəy, eyvanın geniş meydançasında Süleymanın yapıncısını çiynindən götürüb xidmətçiyə verdi və qayğı ilə:

- Deyəsən, möhkəm islanmısan?

Pillələrlə qalxan qaçaqlar da yapıncılarını çiyinlərindən aşırıb xidmətçilərə verdilər. Aftafa-ləyən gətirdilər, gələn qonaqlar yuyunub qurulandıqdan sonra, eyvanda çəkmələrini çıxardıb, böyük bir otağa daxil oldular. Tavandan asılmış otuzluq lampanın gur işığında qaçaqların yorğun çöhrəsi aydın görünürdü. Divar sobasında çırtaçırtla yanan ocağın gur alov dilimləri otağı işıqlandırırdı. Sobaya yaxın xalı üstündə əyləşən kənd ağsaqqalları qonaqların içəri daxil olduğunu görüb, ayağa qalxdılar. Onlar Süleymana yaxınlaşıb, nəzakətlə əl verib görüşdülər. Hamının nəzərləri Süleymana yönəlmişdi. Ağsaqqalların əhvalını xəbər alan Süleyman otağın ortasında qoz ağacından düzəldilmiş iri masanı qaçaqlara göstərib:

- Siz hamınız masa ətrafında, kətillərdə əyləşin.

Özü isə ağsaqqallarla yanaşı, ona göstərilən yerdə, döşəkcə üzərində oturdu.

- Elə indicə qarşıdan gələn Qurban bayramını necə keçirəcəyimiz barədə öz aramızda məşvərət edib məsləhətləşirdik, - deyə xidmətçilərə şam yeməyi gətirilməsini tapşıran Behbud bəy də keçib Süleymanın yanında əyləşdi.

Süleyman razılıqla hamıya tərəf baxaraq:

- Allah qurbanınızı qəbul etsin! Mübarək olsun! Şam yeməyinə ehtiyacımız yoxdur, uşaqlara da zəhmət verməyin. Siz söhbətinizə davam edin.

Behbud bəy ərklə:

- Əşi, nə zəhməti ola bilər, bu əziz günlərdə təşrif buyurmusunuz. Bir tikə çörək kəsməmək günahdır. Məsləhətləşib qərara gəldik ki, kəndin yaşlılarına, işləyə bilməyənlərə, vergi ödəməyə imkanı olmayan kəslərə bayram ərəfəsində qurbanlıq payı göndərək. Bayram günlərində onların da evlərində qazan qaynasın, süfrəsində bol, ləziz çərəzlər olsun, uşaqların əyin-başları, paltarları təzələnsin.

- Pis məsləhət deyil. Bəy, sən hər zaman kasıb-kusubların pənahında durmusan. Bir olan Allah da həmişə sənin köməyində dayanacaq, - deyə Süleyman Behbud bəyə xeyir-dua verdi.

- Vallah, ay Süleyman, Alı bəyin sözü olmasın. Rəhmətlik söz düşəndə deyərdi ki:

- "Hər bir Allah bəndəsinin bir qarnı var. Kimisi yavan, kimisi yağlı yeyir. Kimisi də quru çörəyə möhtacdır. Gərək yaşadığın obada elə edəsən ki, kasıbın da güzəranı babat olsun", - aramla danışan Behbud bəy hamı eşitsin deyə, məclisdə əyləşənlərə Alı bəyin kəlamını xatırlatdı.

- Elədir ki, var. Dünya malına susayanlar öz aqibətlərini də düşünsələr, yaxşı olar, - deyə Süleyman, Behbud bəyin dediklərinə şərik olduğunu bildirdi.

- Süleyman, bizim, hər birimizin yaradanımız var. Varı-dövləti insan ömrü kimi o kəslərə əmanət olaraq verir ki, səxavətiylə ehtiyac içində yaşayanlara əl tutsun. İndi biz də varımızdan, imkanlarımızdan, gücümüz nəyə çatırsa, onu da edirik. Yəni, əvvəl-axır hamımızın sonu axirət evində iki arşın torpaq, beş arşın bez deyil? Əgər o ev də nə vaxtsa bizə də nəsib olsa...!

- Elədir, Kərbəlayi, haqlısan, - Süleyman başını dik qaldırıb kinayə ilə cavab verərək, - elələri də var ki, qızılı badya ilə ölçüb sandığa, küplərə yığa-yığa, kasıb-kusuba göz dağı verir. Belələrinin bir şahılıq malı çıxsa, elə bil canı çıxar. O qədər göy adamlardır ki, "su başına getməzlər ki, birdən qarnı acar"...

- Əşi, bu əziz günlərdə belə söhbətləri yada salmasaq yaxşıdır. Onsuz da olan olub, keçən keçib, hər kəs yaranıb öz dərdini çəkməyə. Kimisi özünün, kimisi də yeddi arxa dönənlərinin ad-sanını qoruyub saxlayır. Ataların gözəl bir kəlamı var:

- "Quyuya su tökməklə quyu sulu olmaz", - deyiblər, - "çeşmə gərək quyunun dibində qaynasın"!

Behbud bəy söhbətin məğzini dəyişməyi eyhamla anladaraq, qapıda dayanan xidmətçiləri işarə ilə tələsdirdi.

- Havalar bu il yaman tez soyudu, çiskinli hava adamın iliyinə işləyir, - deyə Süleymana diqqətlə qulaq asan Mirzə Məmməd söhbətə başladı.

- Elədir, Mirzə, Əfəndilər kəndindən daş yola çıxanda Ala dağla Heydər dağın sazaq vurmuş zirvəsi elə bil ki, ağ örpəyə bürünmüşdü.

Süleyman ocağın gur yanan dilimlərinə baxa-baxa dedi:

- Qışın sərt gəlişi bu ətraflarda hər zaman özünü ilk günlərdən Ziyarət dağında göstərir. Bu ərəfədə çöl-biyabanda yarımçıq qalmış işlərimizi tez-tələsik qurtarırıq. Sonra da yavaş-yavaş gün çıxan tərəfdə Ala dağın zirvəsi ağ örpəyə bürünür. Onda da odun-ocağımızı evin kandarına yığıb hazırlıq görür, tövlədə mal-qaranın yerlərini rahatlayırıq. İndi də iki gündür, Heydər dağın zirvəsini sazaq vurub ağardıb. Təki qış ruzili qədəmləri ilə gəlsin. Biz hər vaxt onun gəlişinə hazırıq. Taxılımız bol, odunumuz bol, otumuz da mal-qaramıza bir-iki ilə də bəs edər.

Mirzəyə diqqətlə qulaq asan Süleyman, hər iki əlini yana açıb ucadan:

- Tay deyin ki, əzəldən qış sizinlə dost olub. Ona görə də Qaf dağından üzü bəri xəbər edə-edə siz tərəflərə gəlir. Mən də deyirəm axı, görəsən niyə belə hamınız arxayın-arxayın danışırsınız.

Süleymanın gülə-gülə zarafatla dediyi sözlərə hamı güldü.

Mirzə sözünə davam edərək:

- Doğrudan da, bu üç dağ, üçəm qardaş olub. Ötən dörd qərinədə kəndimizin şeyxi, rəhmətlik Şeyx Sübhü Murad oğlu, məclislərdə əyləşənlərə deyərdi ki, zirvəsi buludları oxşayan bu üç dağ, Qaf dağının üçəm övladlarıdır. Üz-üzə, göz-gözə, bir-birinə arxa-dayaq olan bu dağların üçü də qabaq-qənşər sıra ilə düzülüb.

- Düz buyurursan, Mirzə, - söhbətə müdaxilə edən Kərbəlayi Cavad, - Allah rəhmət eləsin Şeyx Sübhüyə, qəbri nurla dolsun, onun dedikləri bu gün də müdrik bir kəlam kimi dildən-dilə gəzir, - dedi. - Rəhmətlik deyərdi ki, üç dağın arasında yerləşən bərəkətlı torpaqlarımızda əkinbiçin yerlərimiz həmişə bol məhsullu olubdur. Qarabağ-

da bağlar diyarı kimi tanınan Daşkəsən kəndinin dörd bir yanı, bağlı-bağatlı, buz kimi şəfalı bulaqlıdır. Rəhmətlik ulu babalarımız qədim zamanlardan bu yerləri yurd yeri, məskən etməkdə haqlı olaraq çox düz iş görüblər. Ancaq nə olsun? Əzəldən bu yerlər müharibə meydanına çevrilib.

Kəndimiz dəfələrlə yağıların hücumuna məruz qalıb. Aylarla davam edən döyüşlərdə bağ-bağatlar, əkin yerləri, meşəliklərin çoxusu düşmən toplarının zərbindən məhv edilib.

- Elədir ki var, Kərbəlayi, - deyilənləri razılıqla təsdiq edən Mirzə Məmməd dərindən köks ötürüb, bir anlıq xəyala dalaraq keçmişi yada salıb, - əvvəl-əvvəl yeddi para kənd olmuşuq. Bir ucu Xiyaban bağlarının ətrafı, bir ucu da Quycaq yatağından aşağı, Quyu dərəsində "Kötüklü" deyilən yerlərdə torpaqlarımız vaxtı ilə Səfəvilər şahlığının ərazisi kimi tanınırdı. Sonralar isə, Osmanlı sultanlığına, rus çarının ixtiyarına verilmişdi. Geniş ərazidə yerləşən Daşkəsən kəndi tək Qarabağda deyil, Azərbaycanda da abad kənd kimi tanınırdı. Bu yerlərdə qanlı döyüşlərin sayı-hesabı yoxdur. Nadir şahın "Qızıl quşun" qisasının aldığı kənd Daşkəsən kəndi olmuşdur. Bir quşun təsadüfən ovçular tərəfindən Teştək meşəsində öldürülməsi xəbərini alan Nadir şah, qoşun yeridib kəndi, bağ-bağatı viran qoymuş və insanlara olmazın işgəncəsini verdirmişdi. Nadirin sui-qəsd nəticəsində öldürülməsindən sonra bizim mahalımız o vaxtlar Qarabağ xanlığının tərkibində idarə olunurdu. İran taxt-tacına sahib olan Ağa Məhəmməd Şah Qacar Qarabağa hücum edərkən bizi də fəlakətlərin ağuşuna atmışdı. Qəzəblənmiş şahın əmriylə sərbazlar abad kəndimizi viran qoydu, mədrəsə və ikiminarəli məsciddən savayı bütün evlərə od vurub

yandırdılar. Şah o qədər zalım, qəzəbli hökmdar idi ki, kəndlərdə salamat ev, sığınmağa bir koma da qoymamışdı. Şuşa qalasında Qacarın qətlə yetirilməsini eşidib bilən sərbazlar, səhərin gözü açılmamış pərən-pərən olub, Qarabağ torpağını tərk edərək, üzü Araz çayı istiqamətində qaçıb getdilər. Onlar gedəndən sonra kənd camaatı viranə qalan yurd yerlərində, kalafalarda əzab-əziyyətlə təzədən özlərinə gorgah salıb ev tikdilər. Ancaq xoş güzəranımız o qədər də çox çəkmədi. Rus-İran dövlətləri arasında yaranmış qarşıdurmada qanlı müharibələr başladı. Teştək bağlarında, Quycaq yatağı ilə Heydər dağının dərin dərəsində baş verən döyüşlərdə, uşaqlı-böyüklü bir kimsəyə aman verilmədi. Qanına qəltan edilən adamların sayı-hesabı bilinmirdi. Döyüşlər zamanı qan çanağına dönmüş dərə, "Qanlı dərə" kimi yaddaşımıza həkk olundu. O illərdən üç qərinə keçməsinə baxmayaraq, kəndin yaşlı nəsli qanlı günləri, qırğınları unutmayıblar. Yurd-yuvasından didərgin düşənlərimiz Dizaq mahalına, Dəmir qapı Dərbəndə üz tutub köç etdilər. İllərlə davam edən müharibədə rus toplarından atılan mərmilər bağlarımızı, evlərimizi, əkin yerlərimizi viran etmişdi. Vuruşmada uşaqlı-böyüklü şəhid olanlarımız çox oldu. İllərlə davam edən müharibədə rus əsgərləri daş yolun kənarında, "urus yurdu" deyilən dərədə, Quycaq yatağında yerdən qazdıqları qazmalarda yaşamalı oldular. Elə ki, havalar soyudu, əsgərlər ətrafımızda olan meşəliklərdə, bağlarda ağacları qırıb tonqal qalayır, qışın soyuğunda qızınırdılar. İndi həmin dərələrdə qırılan ağacların kötükləri qalıb. El arasında o yer "Kötüklü dərə" kimi tanınır. O vaxtlar kəndin ağsaqqalları rus ordu düşərgəsində komandirlərin yanına gedib ərz edirdilər ki, tut ağaclarını qırmaq

olmaz. Ancaq nə fayda, əsgərlər bildiklərini edirdilər. Onların əməllərindən xəbər tutan Qafqaz canişini bağlarda tut ağaclarını qırmağı yasaq etmişdi. Dilmanc vasitəsi ilə ağsaqqallar canişini inandıra bilmişdilər ki, bağlarda qırılan tut ağaclarına görə ipəkçilik sıradan çıxıb, kümdarlar da dövlət vergisini ödəyə bilmirlər, - deyə Mirzə Məmməd təəssüflə olub-keçənləri xatırlatdı.

Məclisdə dərin sükut hökm sürürdü. Hamı diqqətlə Mirzəyə qulaq asırdı. Bir azdan sükutu pozan xidmətçilər iri məcməyidə gətirdikləri şam yeməyini səliqə ilə masada əyləşənlərin və Süleymanın qənşərində sərilmiş süfrəyə düzdülər.

Behbud bəy Süleymana və masa arxasında əyləşənlərə müraciətlə:

- Biz, sizdən əvvəl şam etmişik. Siz arxayınlıqla nuş edin! - deyə təklif etdi.

Şam yeməyini bitirənlər, şükranlıq edib, əllərini süfrədən çəkdilər. Süfrəni yığışdıran xidmətçilər çay gətirdilər. Çayın xoş ətri otağı bürüdü. Məclisdə əyləşənlər gümüş qablardakı şirniyyatdan dadıb, çaylarını içə-içə söhbətlərinə davam edirdilər.

Aramla danışan Kərbəlayi Cavad:

- Babam bir rəvayəti yeri düşəndə hamımıza xatırladardı, - deyə məclisdə əyləşənləri gözdən keçirib, - o deyərdi ki, camaatımız Peyğəmbər Salavatullahın yoluna sadiq olub davam etdirən, fəziləti ilə dinimizə iman gətirən Həzrət Əli eşqinə kəndin günbatanında olan dağı Heydər dağı adlandırmışdır. Həzrət Əlinin bizim tərəflərdə olması qədimdən bəri dilimizdə rəvayət kimi danışılır. Günçıxan tərəfdə, Teştək bağlarında Düldül ocağı kimi tanınan ziyarətgah onun sevimli atının adı ilə bağlıdır. Atın

ayaq zərbəsindən üç yerə bölünən qaya parçası üzərində nal izi bu ətrafda yaşayanların ziyarət etdiyi müqəddəs yerdir. At muraddır, deyimi el arasında elə-belə yayılmayıb. Niyyət edib şəfa diləyən insanlar, o ocağı ziyarət edir, nəzir-niyaz aparırlar.

Kərbəlayi Cavada diqqətlə qulaq asan Süleyman:

- Kərbəlayi, Heydər dağının zirvəsində daş təknələr haqqında rəvayətləri çox eşitmişəm. Bir gün köçümüz yaylaqdan qayıdanda daş yoldan yuxarıda, sıldırımlı qayalara baxa-baxa yolumuza davam edirdik. Çobanlarımız Heydər dağını ikiyə bölən gədikdən, Daşkəsən gədiyindən keçəndə sürünü yoldan aralıda, şırha-şırla axan Atöldürən kəhrizinə tərəf suada apardılar. Çoxdan istəyirdim ki, dağın zirvəsinə qalxıb gəzim, o daşları gözlərimlə görüm. Fürsətdən istifadə edib, köçdə olan bir-iki həmyaşıdımla dağa çıxdım. Yuxarıya çıxdıqca ətraf kəndlər elə bil adamın ayağı altında qalırdı. Zirvədə, yonulub atılmış, təknəyə oxşayan çala daşlar gördüm. Daşların bir qismi qırılıb, parça-parça olub, digərləri isə hələ də salamat qalmışdır. Nə əcəb bir kimsə onlara toxunub, xətər yetirməyiblər? Salamat qalmış təknə daşların içərisində göz yaşı təki su yığılıb qalıb.

Kərbəlayi Cavad:

- Süleyman, Heydər dağı müqəddəs bir ocaqdır. O, ətrafımızda olan dağlardan seçilir. Düz buyurursunuz. Həqiqətən də təknə daşların içərisi yay-qış saf su ilə dolu olur. El arasında qayalıqda görünən o təknələr, "Qayaların göz yaşı" kimi tanınır. Orda qayalıqları diqqətlə gözdən keçirəndə, elə bil sal daşları bir-bir əl ilə üst-üstə yığıblar. Dağdakı daş karxanalarında babalarımız daş çıxardıb özlərinə ev tikiblər. Heydər dağı əvvəllər bütov olubdur.

İllərlə oradan çıxarılan sal daşların hesabına dağın çökək hissəsi aşağıya qədər çapılaraq, dəvə beli kimi kələ-kötür yarğana çevrilib. Yarğan, bəlkə də, əlli arşın daş yola qədər enib. Daşkəsən gədiyi kimi dildən-dilə düşən o yol el yoluna çevrilib. Dağın yuxarı hissəsində, qoparılan qaya daşların oyuğu sanki divardan asılı qalmış iri ləyənlərə bənzəyir. Onların arasında olan məsamələr daşı bir-birindən ayırmağı asanlaşdırır. "Ləyən" yerləri dəyirman daşlarının izləridir. Qayalığı çapan ustalar dəyirman daşının ölçüsündə, çevrəsi boyu hər qarışdan bir şəhadət barmağı boyda oyuq açırdılar. Sonra "şeytan" ağacından hazırlanmış iri çivləri suda isladıb, həmin oyuqlara vururlar. Bir-iki gündən sonra şişmiş çivlərin təsirindən məsaməli qaya daşı yerindən oynayıb qopur. Qopmuş qaya parçasını daş ustaları cilalayıb hamarlayır, ondan dəyirman və kirkirə daşları hazırlayırlar. Daşkəsən çayı boyunca Quycaq yatağına qədər, yerlərdə tikilib işlədilən doqquz su, iki od dəyirmanı, karxanada cilalanmış dəyirman daşları ilə taxıl üyüdülür. Qarabağ camaatı da dəyirman daşlarını gəlib burdan aparır. Dən üyüdəndə ovulub tez sıradan çıxmır, qızanda isə çatlamır. Karxanada daş ustalarının düzəltdikləri kirkirə daşından evlərimizdə, qonşu kəndlərdə də istifadə olunur. Elə bir ev olmaz ki, kirkirə daşı olmasın. Taxılı, Naxçıvandan gətirilən sal duz parçalarını xırdalayıb o kirkirə ilə üyüdürük. Qayadan çıxarılan daşın yerində qalan oyuğu, təknə daşlarını ustalar təzədən həmin qaydada qoparıb çıxarır, təmənnasız olaraq, kənd adamlarına su ehtiyatı saxlamaq üçün verirlər. Belə su təknələrindən çox adamın həyətində var. Beş-altı səhəng su tutan təknələrdən birini də Behbud bəy həyətində qoydurub. Yay-qış istifadə edir.

Adının çəkildiyini eşidən Behbud bəy zarafatla:

- Kərbəlayi, gərək elə məni misal çəkib sataşasan? Niyə bəs Surxayın, Məşədi Yusif ağanın, Kərbəlayi İbrahimin barama fabriklərində, həyətlərində qoyduğu su təknələrindən danışmırsan? - deyə gülə-gülə iradını bildirdi.

Kərbəlayi Cavad:

- Vallah, bəy, ərkimiz sənə çatır. İsmini çəkirik ki, ruzimiz bol olsun.

Bəyə zarafatla cavab verən Kərbəlayinin sözünə məclis əhli də gülüşdü.

Əyləşənləri gözucu seyr edən Cavad kişi özü də bığaltı gülümsündü.

- Kərbəlayi düz buyurur, - deyə danışanlara diqqətlə qulaq asan Məşədi Yusif ağa söhbətə müdaxilə edib deyilənləri təsdiq edərək:

- Ev, əl-ayaq damı, tövlə tikəndə, daş sarıdan korluğumuz olmaz, indiyə qədər daşa görə bir kimsəmiz məəttəl qalmayıb. Kənd camaatı o karxanalardan gen-bol istifadə edir.

- Vallah, bayaqdan sizin söhbətinizi dinlədikcə, ürəyim elə bil dağa dönür, - deyə Süleyman, məclisdəkiləri seyr edib söhbətə qoşuldu:

- Mirzə, Daşkəsən kəndinin hər qarış torpağı uca tanrının bizlərə bəxş etdiyi müqəddəs bir nemətdir. Qarabağın kəndlərində belə gözəl məkan, bağ-bağatlı yer çoxdur. Ancaq adamların özündən də çox şey asılıdır. İstər varlı oldun, istərsə də kasıb, gərək hər zaman yaşadığın obanın adamlarına qayğı göstərib, onların güzəranına can yandırasan.

Məclisdə əyləşənlər Süleymanın ibrətamiz sözlərini razılıqla yer-yerdən təsdiq edirdilər.

- Elədir, Süleyman, - deyə Məşədi Yusif ağa dərindən köks ötürüb, - bağa baxarsan bağ olar, baxmazsan, dağ olar, hamı gərək öz el-obasının qədir-qiymətini bilsin. Ayıq-sayıq olsun, obasını, bağ-bağatda hər bir ağacı da nadandan, qaçaq-quldurdan qorusun.

Süleyman:

- Tamamilə düz buyurursan, Məşədi. İndi hərə əlinə bir tüfəng alıb, başına da beş-altı adam yığıb, xəlvəti yerlərdə at oynadırlar. O dərə mənim, bu dərə sənin, qaçaq adıyla düşüblər kənd-biyabanları çapıb-talamağa. Özlərini gah ağa, gah da quldur kimi aparırlar. Fürsəti əldən verməyib, fağır-füqəranı da incidirlər ki, gərək onların qarşısında baş əyib, təzim edib, dedikləri ilə oturub dursunlar. Belələrini bilmək olmur ki, hansı yuvanın quşudur, nə məzhəbə qulluq edirlər.

Mirzə Məmməd:

- Düz buyurursan, Süleyman! Qondarma bəylərlə nanəcib quldurlar büsbütün bürüyüb aləmi. Yerindən duranı dindirirsən, deyir mən bəy oğlu bəyəm. Əslin-kökün yoxlayanda bəlli olur ki, çürümüş ağacın koğuşu kimi boşdur, hey ovulub tökülür, - deyə Mirzə Məmməd Süleymanın sözlərinə qüvvət verdi. Elədir ki, var. Əvvəllər hər yoldan ötəni varlı saymaz, el arasında onlara hörmətlə yanaşmazdılar. Yaxşı deyiblər ey, - "varlı ol, karlı ol, oban üçün barlı ol", - məsəli sözgəlişi deyilməyib. Kim yaşadığı obada kasıb-kusuba əl tutub kömək etmirsə, onun el içində hörməti, izzəti olmaz. Var-dövləti ilə qürrələnib, kasıb qarşısında təşərlənən "bəyzadələr", dar macalda kənara çəkilər, heç nə olmamış kimi özlərini görməzliyə vurarlar. İndi aləm bir-birinə dəyib, zəmanə də dəyişib. Bir yandan toplu-tüfəngli yağılar, bir yandan da

onlara züy tutan erməni dığaları, hərə bir tərəfdən daraşıb yazıq camaatın canına. Digər tərəfdən də özündən deyən təzələri də əmələ gəlib. Başındakı papağa, yaxalarına bağladıqları qırmızı bezli adamlar, gecə-gündüz "bolşevik" adı ilə yuyulmamış qaşıq kimi atılıblar ortaya. Bolşevik deyilən o adamlar, kənd-kəsəkdə camaat arasında xəlvəti iş aparıb, sayılıb-seçilən, "bab" bildikləri hünərli kişiləri al dilnən ələ alırlar ki, nədir-nədir onların tərəfini saxlasınlar. Harda qaçaq, igid görsələr, dəstələrinə qoşur, özlərini kasıb-kusubun müdafiəçisi kimi göstərirlər. Sözlərinə baxmayıb kənara çəkilən o igidlərimizi min cür hiylə ilə bir-bir aradan götürüb, qanına qəltan edirlər.

Mirzə Məmməd danışdıqca, adamların ağır vəziyyətinə aydınlıq gətirdi.

Mirzəni diqqətlə dinləyən Süleyman, anidən qəhqəhə çəkərək güldü və razılıqla başını tərpədərək:

- Mirzə, o dediyiniz qırmızı bezli bolşeviklərdən mənim də yanıma gələnləri çox olur. Al dilnən məni yola gətirib, öz tərəflərinə çəkmək istəyirlər. Ancaq nə faydası var. İlanın ağına da lənət, qarasına da. "Fitilbörkdə" oturanlar istər çar olsun, istərsə də qeyrisi. Dəyişən yalnız şəxsdir. İndiyə qədər kasıb-kusubun dərdinə yanıb, qayğısını çəkmək istəməyənlər, kim olursa-olsun, bundan sonra da heç nə düzələn deyil. Əksinə, yaşadığımız el-obanın yurd yerlərini çağrılmamış "qonaqlara" peşkəş verib üstündən də su içəcəklər. Burda deyiblər ey, - "sən saydığını say, gör fələk nə sayır. Elə ona görə də, əldə silah, düşmüşük çöllü-biyabana. Mərdi qova-qova say-seçmə adamları namərd edib öz el-obasından didərgin salırlar. Babam rəhmətlik Kərbəlayi Namaz Əli oğlu Sərkərin mülkünü günün-günorta çağı əlimizdən aldılar. Höku-

mət adamları ilə çinovniklər, hərəsi bir yandan həyətimizə tökülüşdülər. Hərbə-zorba gələrək, bizi qorxuzub Sibirə sürgün etməklə hədələdilər. Naçalnikin idarəsinə, hökumət adamlarının yanına çox gedib-gəldim. Vəziyyətimizi necə lazımdırsa, onlara ərz elədim. Ancaq nə fayda, nainsafları yola gətirə bilmədim. Torpaq mülküni İbrahimxəlil xanın oğlu Cəfərqulu xan, babama pay olaraq, vermişdir. Vur-tut, o mülklərdə babamla bərabər, cəmisi üç ailə yurd salıb yaşayırdılar. Babamın vəsiyyətinə görə, mülkləri oğlu Ağa Hüseyn ağa idarə edir, əkib-becərirdi. Hökumət dəftərxanasında qanuni mülkə sahib olan atam, dünyasını dəyişəndən sonra, mənim qara günlərim başladı. Kəndimizin yüzbaşısı hər cür hiyləyə əl atıb, torpağımızı ələ keçirmək xatirinə mənə tələ qururdu ki, mülkümüzə sahib olsun. Axırda onun fitnəkarlığına dözə bilmədim. Yüzbaşını öldürüb evimizdən, el-obamızdan didərgin düşdüm. Zülmün əlindən baş götürüb qaçdıqca, qaçdım. Öz-özlüyümdə fikirləşirdim ki, bəlkə, canımı birtəhər bu quzğunların əlindən qurtara bildim. Çox istəyirdim ki, Qaçaq Nəbinin yanına gedim, onun dəstəsinə qoşulum. Nəbinin sui-qəsd nəticəsində öldürüldüyünü eşidəndən sonra bərk sarsıntı keçirsəm də, qərarımı dəyişmədim. Nəbinin ölümündən sonra bir müddət o dəstədə qaçaqlıq etdim. Yenə də zülmə, haqsızlığa ürcah oldum. Sən demə, hara gedirəmsə, zülm də qarabaqara məni izləyib gəlişimi gözləyirmiş. Hara ayağımı qoyurdumsa, çiynində əzab-əziyyəti, zilləti daşıyana, binəva yoxsullara həmdəm olurdum. Varlıların tamah dişləri o qədər itilənib ki, quduz canavarlar bunların yanında toya getməlidir. İnsan olan kəslərin dünya malına-mülkünə olan hərisliyi nə qədər güclü olarmış?! Elə ki, beləsinə ürcah olan-

da tüfəngin lüləsini dirəyirsən peysərinə, onda da başlayır şirin dilini işə salmağa. Onları qorxuzmasan, bu zəmanədə kasıb-kusubu adam yerinə qoyub sayan, qayğısına qalan yoxdur.

Süleymanı ürək ağrısı ilə dinləyən Mirzə Məmməd köks ötürüb:

- Süleyman, dərd orasındadır ki, belə əzazillərin kasıbları talamağı bir yana dursun, hələ desən, üstəlik yazıq binəvaların əllərində nəyi varsa, zorla tutub alırlar. Kasıb da canının dərdindən nə əkir, nə də biçir...

Süleyman:

- Düz deyirsən, Mirzə, törəmə bəylərin sayı çoxalıb, sizin sözünüzə qüvvət, gərək onlarla başqa dildə danışasan. Belələrinin keçmişi də, indisi də bir qara qəpiyə dəyməz. Hər dəfə yolum burdan düşəndə, kəndin adamları ilə görüşüb, hal-əhval bilirəm. Yeddi para kənd kimi tanınan Daşkəsən kəndində olan varlının sayı-hesabı bu ətraflardakı kəndlərin heç birində yoxdur. Hamınız kasıb-kusubun yolunda canınızdan keçməyə hazırsınız. Sözün düzü, mən buralara gələndə çox şad oluram. Desəm ki, öz obamda belə rahatlıq görmürəm. Bir kərə də olsun kənd camaatının kimdənsə narazı qaldığının şahidi olmamışam. Bu ərəfələrdə eşitməmişəm ki, kəndin yüzbaşısından, kəndxudasından, bəyindən bir kimsənin incikliyi olsun.

- Bilirsən, ay Süleyman, əzəldən bu kəndin bünövrəsi düzgün qoyulub. Bu obada heç kim bir kimsədən artıq adam deyil, - deyə Behbud bəy kənddə yaşayanların vəziyyəti haqqında məclisdə oturanlara aydınlıq gətirdi.

Süleyman:

- Bilirəm, Behbud bəy, bilirəm. Ağır günlərdə, dığalarla səngərlərdə, qayalıqlarda vuruşanda hamınızın də-

yanətinə, hünərinə yaxından bələd olmuşam. Yəqin ki, yadındadır, Xiyabandan yuxarıda səngər qurub, ermənilərin qabağını necə kəsmişdik. İgidlərimiz bir addım da səngərdən geri çəkilmirdilər. O döyüşlərdə altı nəfər şəhid verdik, ancaq silahlı dığalar da paylarını yaxşı aldılar. Düşməni gərək yuvasına qədər qovasan. Yeri gəlmişkən, başımıza gələn bir əhvalatı danışacam. Dəstəmizlə Gorusdan üzü aşağı, yamacboyu Araz çayı səmtinə tərəf enirdik. Qəflətən aşağıda, dərədə güllə səsləri eşitdik. Elə bil, dərədə döyüş gedirdi. Haray-həşir salıb qışqıranların, ah-vay edənlərin sözlərindən bizim adamların olduğunu bildik. Dərhal silahlarımızı çəkib, o səmtə doğru atları səyirtdik. Nə görsək yaxşıdır? On-on beş silahlı erməni dığası yol kənarında köç salan adamları qabaqlarına qatıb, üzüaşağı qovurlar. Əli yalın adamlar uşaqlı-böyüklü hamı qışqıra-qışqıra hara gəldi qaçırdı. Dığaların qəfil həmləsi məni yaman pərt etmişdi. Dəstəmizin arxadan gəldiyindən xəbərləri olmayan silahlı ermənilər qəfil bizi görüb pərən-pərən oldular. Silahlarını atıb aradan çıxmaq istəyən ermənilər, keçi kimi qayalara dırmaşırdılar. Tez onları hər tərəfdən əhatəyə aldıq. Qaçan-qaçdı, qaçıb canını qurtara bilməyənlərdən yeddisini tuta bildik. Əsir düşən dığaları sorğu-sual edəndə bizə məlum oldu ki, onların başının üstündə daşnaq erməni cəlladı Nijde dayanıb və əmr verib ki, Araz çayı sahilindən, Xuraman obasından Gorusa qədər yerlərdə olan müsəlmanları qovun, yurd-yuvalarını yandırın, özlərini də öldürün. Ancaq mən səbrimi basıb, onlara diqqətlə qulaq asırdım. Çarəsiz qalıb yaman yerdə ilişən erməni silahlıları, şirin dillərini işə salıb imdad diləyərək, yalvarmağa başladılar. Dığaların şirin dilinə inanmasam da, onlara yazığım gəldi, öldürmə-

dim. Ancaq axırıncı dəfə xəbərdarlıq edib bildirdim ki, əgər bir də belə nanəcib iş tutsalar, bizdən aman istəməsinlər. Döyüşdən sonra tənha qarağacın kölgəsində dincimizi alırdıq ki, yolumuza davam edək. Qəfil aralıda, böyürtkən kolluğunda qadın iniltisini eşitdik. Qaçaqlardan ikisi atlarını kolluğa tərəf sürdü. Orda nə hadisə baş vermişdisə, onlardan biri hayqırtı ilə qışqıraraq:

- Ay Allahı sevənlər, belə də dərd olar?! Səsi eşidəndə tez atlarımızı kolluğa sürdük. Kolluqda gördüyümüz hadisə bizi varımızdan yox edib, sarsıtdı. Əlləri ilə qarnını tutan cavan, hamilə gəlin ağıla gəlməz, qorxunc bir halda dünyaya uşaq gətirirdi. Bunu görəndə qəzəbimdən dodağım səyridi. Özümü ələ ala bilməyib qışqırdım: - Gör Nəbinin yoxluğu yurdumuzu nə hala salıb. Nə vaxtacan dığaların əlindən elimizdən-obamızdan didərgin düşüb tərki-vətən olmalıyıq? Görüb şahidi olduğum hadisə məni çox sarsıtmışdı. Heyrətimdən bütün bədənim əsirdi. Dərhal uşaqlara tapşırdım ki, atın tərkinə bağladıqları yapıncılarını açıb pərdə kimi qadının ətrafına tutsunlar. İki nəfər qaçağı da erməni silahlılarının yamaclarda pərən-pərən salıb dağıtdığı binələrə tərəf xəbərə göndərdim və onlara da tapşırdım ki, qayıdanbaş özləri ilə bir-iki zənən xeylağı, bir də bir araba tapıb gətirsinlər. Elə bu an körpənin qığıltılı çığırtısı ətrafa yayıldı. Qaçaqlar heybələrində olan təmiz alt paltarlarını çıxardıb dəstəmizdə olan yaşlı birisinə verdilər ki, təzəcə dünyaya gələn körpəni bələsin. Yaşlı kişi özü də utana-utana xəcalət çəkərək, uşağı bələdi. Bir azdan özünə gələn gəlin göz yaşını axıda-axıda, inilti ilə başına gələnləri bizə danışdı:

- Sağ ol, qağa. Allah köməyiniz olsun! Hay-haray vaxtı silahlı dığaların qorxusundan uzağa qaça bilməyib,

özümü bu kolluğa atdım. Allaha yalvarırdım ki, onlar yerimi tapa bilməsinlər...

Bir azdan alaçıqlara göndərdiyim qaçaqlar da gəlib çıxdılar. Onlar özləri ilə at arabası və iki ağbirçək qadın gətirmişdilər. Arabadan düşən qadınlar, yerdə inildəyən gəlini görcək qiyyə çəkib şivən qopardılar.

Yaşlı qadın fəryad edib ağlaya-ağlaya:

- Fələk, biz az zülm görmüşük ki, bu müsibəti də başımıza gətirdin? Nəbinin, Həcərin yox günündə zülmümüz ərşə dirənib. Nə o taydan, - deyə iki əllərini yuxarı qaldırıb Araz çayını göstərərək, - nə də bu taydan səsimizə hay verənimiz yoxdur. Qadınlar özləri ilə gətirdikləri mələfə ilə körpənin bələyini dəyişdilər. Xəbər tutub gələn köç adamları kolu əhatəyə alıb dinib-danışmır, başlarını aşağı dikib, sakitcə dayanmışdılar. Onları gözucu bir-bir seyr edib bilmək isəyirdim ki, bu yazıq binava gəlinin əri kimdir. Məni maraq götürmüşdü. Özümdə deyildim. Soruşdum ki, kimdir bu xanımın ömür-gün yoldaşı? Gələn adamların arasından saqqallı bir cavan qabağa çıxıb, başını aşağı dikərək, gözaltı inildəyən qadına baxırdı. Özümü saxlaya bilməyib, ona tərəf çevrilərək israrla, - Sənin yoldaşındır? - Sualıma cavab verə bilməyən cavan başını tərpədərək yerə baxırdı. Əlimi mauzerin qoburuna aparıb onu cəzalandırmaq istəyirdim. Ancaq mənə diqqətlə baxan ağbirçək qadınlardan biri niyyətimi başa düşüb, tez ayağa qalxaraq atın yüyənində tutub, - oğul əl saxla, dedi. Ağbirçək qadından həya edib əl saxladım. Başını yuxarı qaldırmayan cavan sakit dayanmışdı. Birtəhər özümü ələ alıb onu sorğu-suala tutdum. Dedim dar gündə adam da ömür-gün yoldaşını qoyub qaçar? Pərt olmuş cavan dinib-danışmır, əllərini yumruq kimi sıxıb, ye-

rində qurcalanırdı. Soruşdum ki, xəncərdən, tüfəngdən nəyin var. O, yenə də süst dayanıb susurdu. Məsələnin məğzini başa düşüb, cavana və onunla gələn köç adamlarına bildirdim ki, qayıdın köç yerinizə. Dığaların kol-kosa atdığı silahları yığın, belə dar gündə yaraq kimi gərəyiniz olar. Qaçaqlara da tapşırdım kı, qadını yapıncı qarışıq arabaya qaldırıb binələrinə aparsınlar. İndi bəy, gərək yaşadığın obanın tərəfini saxlayıb, möhkəm dayanasan. Düşmənin qabağından qaçmaq olmaz. El-oba adamlarını incitməklə dinclik yarada bilmərik. Hamıya bir gözlə baxmaq, qayğı göstərmək lazımdır.

Süleymanı dinləyənlər başlarını aşağı dikib, sükuta qərq olmuşdular. Kərbəlayi Behbud:

- Süleyman, qəlbimdən keçənlərdən xəbər verdin. Ömrüm boyu gücüm nəyə çatıbsa, camaatın yolunda əlimdən gələn köməkliyi etmişəm, onların iş-gücünə yaramışam. Bu kənd hamımızın kəndidir. Kənddə yaşayan adamların yaxşısı da, pisi də bizim adımızadır.

Behbud bəyin yanıqlı danışığına diqqətlə qulaq asan Süleyman, başını tərpətməklə onun sözlərini təsdiq edib, razılığını bildirdi.

- Süleyman, ağır günlərdə həmişə bir olmuşuq, indi də birik, - deyə səhərdən deyilənlərə qulaq asan kəndin yüzbaşısı Məşədi Qüdrət dilləndi. - Heydər dağından qoparıb gətirilən daşlardan varlı da, kasıb da özlərinə evlər tikiblər.

Dağların yamacından gecə-gündüz axan gur suların hesabına gördüyünüz bu bağ-bağatlar becərilib, hər tərəfimiz də elə bil qalın meşədir. Bunlar kəndin adamlarının qabarlı əllərindən gəlib keçib, insafdan deyil axı kimsəni incitmək, yaxud da onun mal-mülkünə göz dikib, əlindən almaq.

Süleyman:

- Bilirəm, Məşədi, hamı sizdən razılıq edir. Camaata görə qəza rəisi ilə, pristavla hər dəfə üz-göz olmağından da xəbərdaram.

Məşədi Qüdrət:

- Elədir ki var. Gərək camaatın tərəfini saxlayasan. Hökumət adamları onları incitməsinlər deyə, mən də əlimdən gələni edirəm. Güzəranımız torpağa bağlıdır. Kəndin varlısı, kasıbı hamılıqla bir yerdə zəhmət çəkib, firavan yaşayırlar. Bu bağ-bağatlar elə-belə başa gəlməyib. Hamısı suyun hesabınadır. Seyid İbrahimin canı sağ olsun. İldə bir kəhriz qazıb üzə çıxartmasa, rahat olan deyil. Soruşanda da deyir ki, Məşədi, suyumuz nə qədər bol olsa, güzəranımız da bir o qədər yaxşı olar. Dağ yeridir, istəmirəm camaatımız, aşağı kəndlərin adamları sudan korluq çəksin. Çayzəmi ilə Xiyaban arasından Quycaq yatağına qədər yerlərdə otuz altı kəhrizin, on dörd bulağın suyu Daşkəsən çayının məcrasına qovuşub üzü Araz çayına tərəf axıb gedir. Havadərənin üst tərəfi, Hacıkəndin aşağı tərəfində kankanlarımızın qazıb çıxartdığı Atöldürən kəhrizin gur suyu ilə əkin-biçin yerlərini, dirriyimizi becəririk. Behbud bəy camaatımıza görə Atöldürən kəhrizində su dəyirmanı da tikdirib, istifadəyə verib. Üstəlik onun barama qurutma və ipəkçilik fabrikində də işləyən adamlarımız hər cür çeşiddə ipək parçalar toxuyurlar.

Kərbəlayi Behbud:

- Süleyman, insan qayğı çəkməkdən ötrü yaranıb, - deyə israrla, - sən ki, bizim tərəflərə yaxşı bələdsən. Allah bilən məsləhətdir. Çətin günlərdə el-oba bizdən umma-

yıb kimə üz tutmalıdı? İmkanımız nəyə çatıb, rahatlığımız üçün o şəraiti də yaratmışıq.

- Elədir ki var, - deyə Məşədi Qüdrət deyilənləri təsdiq edib, - bəy hər zaman bizə arxa-dayaq olub, qayğısını kasıb-kusubdan əsirgəməyib.

Süleyman:

- Bilirəm, Məşədi, hər şeydən xəbərim var. Atöldürən kəhrizinin üstündə su şırnağında dəyirman tikdirib, təmənnasız camaatın istifadəsinə verməsi, nəyə desən dəyər. Kəhrizin də suyundan olmaz. Yayın tüğyanında o sudan bir-iki ovuc icəndə, məlhəm kimi adamın yanğısını söndürür.

Məşədi Qüdrət:

- Əvvəllər kənd camaatı Atöldürən kəhrizini Hacıkəndin "buzlu suyu" deyə adlandırırdılar. Sonralar isə Laləli təpədə köçüylə qışı qışlayıb, yaz vaxtları yaylağa qalxan Həcər xanımın kəhriz yanında əqrəbası ilə bir günlük köç saldığı yer kimi də deyirdik. O kəhriz haqqında el arasında bir deyim də var. Yaylağa köç edən vaxtlarda Aran tərəkəmə elatlarının mal-qarası kəhrizdən su içirmiş. Üzüaşağı Havadərəyə axan suyun gur şırnağına tab gətirməyən dayçanı su aparır. Elə o vaxtdan da kəhriz "Atöldürən kəhriz" kimi dillər əzbəridir.

Süleyman:

- Allah rəhmət eləsin hər ikisinə. Qaçaq Nəbi ilə Həcər xanımın yerləri behiştlik olsun. Həcər xanım sağlığında Laləli təpədə, Haramı düzündə, Salvartı yaylağında otlaqlarda köç salanda, onun mal-qarasını, qohum-əqrəbasını gözdən qoymamışam, - deyə ötən günləri yada saldı.

Məşədi Qüdrət:

- Camaatımız belə işlərdə bir-birinə arxa-dayaq olub. Hələ bu kənddən bir nanəcib adam çıxmayıb. İş-güc o qədər çox olur ki, boş vaxtımız da olmur.

- Elədir ki, var. Adamın boş vaxtı olmayanda qeybətdən də uzaq olur, - deyə sobadakı kösövləri maşa ilə qurdalayan Behbud bəy gülə-gülə söhbətə müdaxilə edərək, - indi hamı payızın nemətini dadır. Yazı-yayı əziyyət çəkib işləməsən, payızda da, qışda da bəhrəsin dada bilməzsən.

Bu an bayırda səs-küy eşidildi. Səsə, Süleyman masa arxasında əyləşən qaçaqlara:

- Deyəsən, bizim uşaqlardır, axır ki gəlib çıxdılar, - deyə mənalı baxışları ilə onlardan birinə bayıra çıxmasını bildirdi. Qapıya yaxın masa arxasında əyləşən qaçaq, dərhal yerindən qalxıb, bayıra yollandı.

Süleyman:

- Kərbəlayi, bizə icazə verin, mürəxxəs olaq, - deyə razılıqla eşitdirdi.

- Əşi, hara tələsirsiniz? Yaxşı deyil axı, heç olmasa, yol gələnlər də gəlib bir tikə çörək kəssinlər, - Behbud bəy ötkəmliklə dedi.

Süleyman üzrxahlıq edərək:

- Sağ ol, bəy, yolumuz uzaqdır, indi obamızda bizdən ötrü nigarandırlar.

Xəbərə gedən qaçaq içəri daxil olaraq, Xanalının dəstəsi ilə gəlib çıxdığını bildirdi. Masa ətrafında əyləşən qaçaqlar dərhal ayağa qalxıb, Behbud bəylə, ağsaqqallarla sağollaşıb eyvana çıxdılar.

***

Güclü əsən küləyin vıyıltısı səngimək bilmirdi. Küləyin təsirindən tövlənin açıq qalmış qapısı zərblə çırpılırdı. Səsə hövlnak yuxudan oyanan Tərgül arvad, cəld pəncərəyə yaxınlaşıb, çölə boylandı. Bayırda bədirlənmiş ayın gur işığında bəyaz gecə sanki aydınlığa qovuşmuşdu. Kəndin hər tərəfi aydın görünürdü. Səsdən şübhələnib ehtiyat edən arvad, tövlə qapısının açıq olduğunu görüb, yerində duruxub qaldı. Yükün üstünə atdığı yun şalı çiyninə salıb, tələsik bayıra çıxdı. İti addımlarla tövləyə yaxınlaşan Tərgül arvad ehtiyatla açıq qapıdan içəri boylandı. Axura yaxın dirəyə bağladığı ala inəklə öküzün ipinin kəsildiyini görüb, ani olaraq içini çəkdi:

- Evin yıxılsın, fələk, oğrular olan-qalan varımızı – inəklə öküzü aparıblar.

Yazıq arvad vaysınıb ağlayaraq, tez evə qayıdıb, yatağında şirin yuxuya dalan oğlunu hayladı:

- İsbəndiyar, ayağa dur, bala.

Həyəcandan özünü itirmiş Tərgül arvad, tələsik özü də geyinə-geyinə, yatan oğlunu yenidən səslədi. Dünyadan xəbərsiz kimi taxtında mışıl-mışıl yatan İsbəndiyarı oyatmağa çalışan Tərgül arvad, bir yerdə qərar tuta bilmirdi. Çarəsiz qalmış ana, uşağı oyatmaq istəməsə də, yenidən onu səslədi:

- İsbəndiyar! Ayağa qalx, oğrular inəyimizi öküz qarışıq aparıblar.

Anasının harayına oyanan uşaq tənbəl-tənbəl yerində gərnəşərək yatağından qalxıb oturdu. Yuxulu-yuxulu:

- Hə, nənə, nədir, nə olub? - deyə xəbər aldı.

- Ay bala, daha nə olacaq? Bundan da artıq nə olmalıdır! Tövlədən inəklə öküzümüzü canıyanmış oğrular

açıb aparıblar. Qalx ayağa, əynini geyin, gedək Behbud dayıngilə. Bəlkə o, oğruların izinə düşüb, bizə bir əncam çəkdi.

- Yaxşı, nənə.

Yuxudan oyanan uşaq, yarıyuxulu halda paltarını geyinə-geyinə nənəsinə eşitdirərək:

- Nənə, sən evdə qal, mən özüm tək gedəcəm, - deyə mızıldanaraq ayağa qalxıb bayıra çıxdı.

Ertədən başlanan küləyin vıyıltısı kəsmək bilmirdi. Payız sazağının iliyə işləyən soyuğunda addımlayan uşaq, əllərini üzünə tutaraq özünü küləkdən qorumağa çalışırdı. O, çətinliklə dikdiri aşağı düşüb, kənd yoluna endi. Evlərin arası ilə palçıqlı yolda, küləyin əks səmtinə doğru yoluna davam etdi. Kəndin yuxarı məhəlləsində, Bacam təpədə imarətin pəncərəsindən çıraq işığının şöləsi aydın görünürdü. Yağışdan sonra əmələ gəlmiş gölməçə kənarında duruxub qalan uşaq, qəfil hürən köpəyin səsindən səksənib, çaşıb qaldı. Kənd məscidinə yaxın kiçik həyətdən eşidilən tanış səsə tərəf boylanan İsbəndiyar, ürəklənib yoluna davam etdi.

- Bu gecə vaxtı hara gedirsən, ay bala, bir hadisə baş verməyib ki? - deyə yaba ilə ot tayasının ətrafını yığışdıran ucaboylu kişi qayğı ilə soruşdu.

Səslənən kişini tanıyan İsbəndiyar:

- Seyidalı əmi, oğrular tövləmizdən öküzlə inəyimizi açıb aparıblar, gedirəm Behbud dayıma xəbər verim, - deyə ağlamsınaraq cavab verdi.

- Ay sizi görüm, tünbətün olasınız...! Köpək uşağı, sümsük it təki qabaqlarına nə gəldi, ağına-bozuna baxmadan dartıb aparırlar. Eybi yoxdur, əynimə bir şey ge-

yinim, bu saat gəlirəm, bala. Qorxub eləmə, o, nanəcibləri yerin deşiyindən də olsa, öküz qarışıq axtarıb tapacam.

Uşağa ürək-dirək verən Seyidalı kişi, tələsik yabanı tayaya söykəyib, kürsülü evin pilləkənləri ilə eyvana qalxdi.

İsbəndiyar, kişini gözləmədən yerindən tərpənib, Bacam təpəsində görünən iki mərtəbəli imarətə tərəf yollandı. Sarayın darvazası qarşısında meydana yığılan silahlı atlılarla rastlaşan uşaq, qorxusundan yerindəcə duruxub qaldı. Adamların diqqətlə ona tərəf baxdığını görüb, nitqi qurudu. Atın cılovunu əlində saxlayan qıvrım saçlı, silahlı kişi dərhal ona tərəf baxıb nəvazişlə:

- Bu gecə vaxtı nə gəzirsən buralarda, kimi axtarırsan? - deyə uşaqdan soruşdu.

Uşaq silahlı atlıların oğru olduğunu zənn edib, kirimişcə gözlərini bərəldərək, onlara baxdı. Səsini çıxarmadan, titrəyən kiçik toppuş əlini imarətə tərəf uzadıb, hıçqırtı ilə ağlamağa başladı.

Silahlı kişi mehribanlıqla onun əlindən tutub:

- Kişi ağlamaz, - deyə onu sakitləşdirməyə çalışaraq, içəri, həyətə apardı.

Həyətdə uşağı tanıyan xidmətçi dərhal ona yaxınlaşıb, aşağı əyilərək, boyunu oxşaya-oxşaya:

- Nədir, bala, nə olub? - deyə həyəcanla soruşdu.

Tanıdığı mehtərin yaxınlaşdığını görüb, kövrələn uşaq ağlaya-ağlaya boğuq səslə:

- Oğrular, - deyə əlini silahlı adamlara tərəf uzadıb, - gecə vaxtı tövləmizdən ala inəyimizi, öküzümüzü götürüb aparıblar.

Sözünü tamamlaya bilməyib, hıçqıran balaca İsbəndiyar, qəzəblə tanımadığı atlılara baxırdı.

Uşağın bilmədən qaçaqları oğru zənn etdiyini görüb gülümsünən xidmətci:

- Oğlum, onlar oğru deyil, Qaçaq Süleymanın adamlarıdır. Pilləkənlə yuxarı mərtəbəyə çıx, böyük otaqda Behbud dayın ağsaqqallarla söhbət edir, - deyə, mehtər imarətin ikinci mərtəbəsini göstərdi.

Mehtərin xoş rəftarından ürəklənib, özündə toxtaqlıq tapan İsbəndiyar, dərhal pilləkənlərlə ikinci mərtəbəyə qalxdı. Dəhlizin artırmasından otağa daxil olan uşağı görən Behbud bəy təəccüblə ona baxdı. Cəld əyləşdiyi yerdən qalxıb, İsbəndiyara yaxınlaşdı. Aşağı əyilib onu qucaqlayaraq, həyəcanla soruşdu:

- Nədir, bala, bu gecə vaxtı niyə gəlmisən? De görüm bir hadisə baş verməyib?

Dayısını görüb ağlamağa başlayan İsbəndiyar, kövrək səslə:

- Dayı, inəyimizi öküz qarışıq oğrular tövlədən aparıblar, - dedi.

Behbud bəyin nəvazişini hiss edib ağlayan uşaq, bərkdən hönkürməyə başladı.

İsbəndiyarın gətirdiyi xəbərdən pərt olan bəy, onu qucağına götürüb, divar sobasının yanına apardı. Bəy uşağın islanmış çəkmələrini çıxardaraq, onu sobaya yaxın döşəkçədə oturtdu.

Behbud bəyin əlində saxladığı çəkmələri görən xidmətçi cəld yaxınlaşıb onu alaraq, cütləyib səliqə ilə qapı ağzında sərilmiş ayaqaltının üzərinə qoydu. Bu mənzərəni diqqətlə seyr edən Süleyman, özü də pərt olmuş kimi təəccüblə soruşdu:

- Kərbəlayi, xeyirdirmi? Bir hadisə baş verməyib ki? Bu uşaq kimdir belə? - deyə soruşdu.

Behbud bəy, mütəəssir halda uşağa baxıb:

- Süleyman, bacımın bir dənəsidir, rəhmətlik Həzrətqulu bəyin oğludur, xəbər gətirib ki, oğrular tövlədən inəklə öküzü açıb aparıblar.

Əhvalatı eşidib qeyzlənən Süleyman, qapı ağzında hazır dayanan silahlı qaçağa təmkinlə:

- Öyrən gör nə məsələdir! Uşaqlara da xəbər elə atlansınlar.

- Yaxşı, qağa! - deyə qapıda dayanan silahlı qaçaq dərhal eşiyə çıxdı.

Süleyman:

- Kərbəlayi, rəhmətliyin evi gərək ki, Ələsgərin evinin arxasındakı həyətdə olsun?

Kərbəlayi:

- Hə, düz tapmısan, yazıq elə əzəl vaxtdan orda, ata yurdunda yaşayırdı. Rəhmətlik təzə imarət tikdirmək istəyirdi ki, əcəl imkan vermədi, - deyə fikirli-fikirli sakitcə cavab verdi.

Ayağa qalxan Süleyman pəncərəyə söykədiyi beşaçılan tüfəngi götürüb, divar sobasının qarşısında bir anlıq dərin fikrə getdi, nəhayət, Behbud bəyə tərəf baxıb:

- Kimdirsə, elə bil qəsdən sataşıb. İnanmıram bu gecə vaxtı oğrular kənd yoluna çıxsınlar. Onlar ya bağa girib Atakişi dəhlizində, kümlərdə daldalanıblar, ya da Əsgərxan bulağından üzüyuxarı, təpəliklərdən Araz çayına tərəf gediblər.

- Nədən bildin, ay Süleyman?

- Kərbəlayi, şər indi qarışıb, çox adam heyvanı indi-indi tövləyə salıb, yerbəyer edib.

Behbud bəy divarda, xalça üzərində asılmış beşaçılan tüfəngi götürüb qətiyyətlə:

- Mən də elə fikirləşirəm, - dedi.

Behbud bəyin divardan asılmış xalça üzərindən silahını götürdüyünü görən Süleyman, onu qabaqlayıb ərklə:

- Kərbəlayi, siz hara hazırlaşırsınız? Siz əyləşin, biz gedərik! - deyə üzünü uşağa tərəf çevirib, əlini onun çiyninə qoyaraq mehribanlıqla, - darıxma, bala, inəyiniz də, öküzünüz də tezliklə tapılacaq, sabah həyətinizdə olacaq.

Bu an Süleymanın xəbərə göndərdiyi silahlı qaçaq içəri daxil olub təntimiş halda:

- Qağa, - deyə üzünü Süleymana tutub, - həyətdə dayananlardan biri köhnə yurd yerində itlərin ağız-ağıza verib bərkdən hürdüklərini eşidən kimi, şübhələnib tez-tələsik xəbər bilmək üçün atını o tərəfə çapıb. Dəstəsi ilə indi gəlib çatan Xanalı da oğurluqdan xəbər tutub, dərhal uşaqlardan iki nəfəri oğruların dalınca göndərib. Özü də tapşırıb ki, oğruları vurmasınlar. Onları mal qarışıq tapıb kəndə gətirsinlər.

Bayırda adamların səs-küyünü eşidən Behbud bəy tez dəhlizə çıxıdı.

Atlı, silahlı daşkəsənlilərin qaçaqlarla yanaşı dayandıqlarını görüb, təəccüblə soruşdu:

- Nədir, siz niyə bura yığışmısınız?

- Bəy, rəhmətlik Həzrətqulu bəyin tövləsindən inəklə öküzü oğrular gecə ikən açıb aparıblar. Gəlmişik onların izinə düşüb axtarıb tapaq, - at belində şax oturmuş iri cüssəli Seyidalı cavab verdi.

Atın cilovunu tez-tez özünə tərəf çəkən qaçaqlardan biri:

- Kərbəlayi, biz iki nəfər burda atların yanında dayanıb gözləyirdik. Köhnə yurd yerindən itlərin qəfil hürməsini bayaq biz də eşitdik. Bir az bundan əvvəl isə sizə

xəbərə gələn balaca bir uşaq da ağlaya-ağlaya tövlədən mal-qaralarının oğurlandığını deyirdi. Deyəsən, itlərin hürməsi də elə-belə deyilmiş. Xəbər bilmək üçün mənimlə dayanan yoldaşım atlarımızı çaparaq, Ağ gölə tərəf getdik. Dəstəsi ilə bura gələn Xanalı da məsələdən hali olan kimi, tez qaçaqlardan iki nəfəri oğruların dalınca göndərdi. Yəqin, xəbər bilib indi qayıdıb gələrlər, - deyə qaçaq məsələyə aydınlıq gətirdi.

Qaçağı diqqətlə dinləyən Kərbəlayi üzünü daşkəsənlilərə tərəf tutub əminliklə Seyidalı kişiyə eşitdirdi:

- İşinizdə olun! Üçünüz köhnə yurd yerlərinə tərəf, Teştək bağlarına yollanın! Quylu bulağa, dərəyə də göz gəzdirin. Üçünüz də Qara Molla pirindən üzüaşağı – Şahverdili dərəsinə düşün. Quycaq yatağında qədim səngər yerlərinə baxa-baxa gedin. Qayıdanda mənə də xəbər gətirin.

Bəy tapşırığını verib, dəhlizdən otağa daxil oldu.

- Kərbəlayi, o nə səs-küydür elə, olmaya bizim uşaqlardır? - deyə Süleyman təəccüblə soruşdu.

- Yox, qağa. Öz adamlarımızdır, oğurluqdan xəbər tutublar, indi onların dalınca getmək istəyirlər.

- Bax, mən buna varam. Belə ağır gündə hamı bir-birinə həyan, arxa-dayaq olsa, yaxşıdır. Onda camaat arasında etibar da, güvənc də hər zaman möhkəm olar, - deyə Süleymanın sevincdən gözləri parıldadı.

- Yaxşı iş görüblər. İnanmıram ki, oğrular uzağa getsinlər, onlar ya xamdırlar, ya da buralara nabələddirlər.

- Süleyman, Allah mərdimazara lənət eləsin. Gör zəmanə adamları nəyə vadar edib. Qabaqlar oğru tövlədə heyvanı tək görəndə rəhmə gəlib onu aparmazdı. Rəva bilməzdi ki, tək heyvana görə sahibi ağartıya tamarzı qa-

lıb aparanı qarğısın. Ya da, iki heyvandan birini aparar, ikinciyə tamah salmazdı. Sahibinə yazığı gələn oğru, biri ilə kifayətlənib, üzüsulu heyvanı qabağına qatıb apararardı. İndi isə zəmanə dəyişib. Hər şey tam tərsinə olub. Oğru əlinə keçəni otaylı quldur Şirxan kimi yağmalayıb aradan çıxır, nə insaf bilir, nə də mürvət.

- Behbud bəy, elə ona görə də xeyir-bərəkətimiz qəhətə çıxıb, əvəzində isə şeytançılıq qanqal kolu kimi cücərib, çoxalıb, - deyə Süleyman təəssüflə bildirdi.

- Məsəl var, şeytanla yol gedənin azuqəsi çiynində, ondan gen gəzənin addımları iti olsun gərək, - qapıya yaxın kətil üzərində əyləşib, çəkmələrini geyınən Behbud bəy gileyləndi.

- Elədir qağa. Deyəsən zəmanəmiz dəyişib, öz abıhavamız axarıyla getmir.

Ağsaqqallarla sağollaşan Süleyman, başının hərəkəti ilə onun sözünü təsdiq etdi. Hadisəni sükutla qarşılayan ağsaqqallar müraxxəs olmaq üçün Behbud bəydən icazə istədilər.

- Siz hara gedirsiniz? Keçin əyləşin, qonaqları ötürüb qayıdıram.

Bəy qətiyyətlə ağsaqqalların qabağını kəsib, etirazını bildirdi.

- Kərbəlayi, icazə verin, biz gedək. Artıq gecdir. Allah süfrənizi bol etsin. İnşallah, mübarək Qurban bayramında görüşərik - deyə Mirzə Məmməd üzrxahlıq edib xeyir-dua verdi.

- Kərbəlayi, getmək vaxıdır. İnşallah, gələn həftə Qurban bayramında yolum bu tərəflərə düşsə, onda oturub rahat söhbət edərik, - deyən Süleyman da yanında sakit dayanmış uşağa baxıb gülümsünərək diqqətlə onu

süzdü. Aşağı əyilib, İsbəndiyarı boyu bərabərində yuxarı qaldıraraq:

- Darıxma, bala, sabah inəklə öküzünüz həyətinizdə olacaq, - deyə onun üzündən öpüb, yerə qoydu. Üzünü kənd ağsaqqallarına tutub, razılıqla sağollaşıb, - salamat qalın, yolçu yolda gərək.

Süleyman, asta addımlarla dəhlizə çıxdı. Ağsaqqallar da bir-bir onun ardınca otağı tərk etdilər.

İmarətin geniş həyətində Süleymanı gözləyən qaçaqlar, onların eyvana çıxdığını görüb özlərini yığışdırdılar.

Kərbəlayi Behbud bəy eyvanda dayanan silahlı adama yaxınlaşıb qayğı ilə:

- Talıb, uşağı evlərinə ötürərsən. Mən Üç qoz ağacına tərəf gedəcəm, - dedi.

- Yaxşı, Kərbəlayi, indi aparıb ötürərəm, - deyə Talıb cavab verdi.

Behbud bəy pillələrlə aşağı düşən ağsaqqallara yol verib, özü də onların ardınca həyətə düşdü. Həyətdə Süleymanla sağollaşan ağsaqqalları qapıya qədər ötürən Behbud bəy, razılıq edə-edə onları evlərinə yola saldı.

Ağ köhlənin cilovunu əlində saxlayan Süleyman, darvazaya tərəf gedən Behbud bəyə gülə-gülə:

- Əlisilahlı bizdən qabağa düşüb hara gedirsən belə? Qayıt geri. Nədir, balam, qoşun üzərinə hücuma keçmirik ki! Allah bilir, hansı dərənin axmaqlarıdır, bir qələtdir də, ediblər. Uşaqlar özləri oğruları tapıb tənbeh edəcəklər. Sən narahat olma, geri qayıt, özünü soyuğa vermə.

- Süleyman, sizi Alı bəyin kəhrizinə qədər ötürüm, sonra qayıdacam, - deyə, qapıdan geri qayıdan bəy israrla eşitdirdi. Behbud bəy, tövlə yanında mehtərin saxladı-

ğı kəhərə yaxınlaşdı. Atın yalmanına sığal çəkərək, yüyəni mehtərdən alıb, cəld belinə qalxdı.

- Tay deynən ki, ürəyindən axşam seyrangahı keçib. Ona görə də bizə qoşulub gedirsən?

Süleymanın zarafatla dediyi sözə qaçaqlar qəh-qəhə çəkib ucadan gülüşdülər.

- Deyəsən, elə düz tapmısan. Elədir ki, var. Hərdən kəndin ətrafını, bağ-bağatı gəzirəm, - deyə bəy gülə-gülə cavab verdi.

Yəhərdə yerini rahatlayan Behbud bəy, atın başını çəkib, Süleymanla yan-yana həyətdən küçəyə çıxdı. Atlı dəstə Ay işığında aydın görünən cıdır düzünə tərəf, Aydolanmaz meydanına gedirdi. Ulduzlu səmadan asılı qalan Ayın bədirlənmiş şöləsi, ətraf yerləri nura qərq etmişdi. Bir nöqtədə şəfəq saçıb boylanan nurlu Ay da yerindən tərpənmir, geniş cıdır meydanını bəyaz gecəyə çevirmişdi. Hərdən qara yelin sərt vıyıltısı gecənin sakitliyinə, şirinliyinə vahiməli səslə acılıq qatır, soyuq küləyi adamın sifətinə çırpırdı. Atlarını yan-yana, yorğa sürən Behbud bəylə Süleyman şirin söhbət edirdilər. Arxadan gələn qaçaqların şən səsləri, eşidilən gülüşləri gecə səssizliyinə ayrı bir xoş ovqat vermişdi. Süleymanla Behbud bəy Daşkəsən çayı səmtinə doğru axıb qovuşan Alı bəyin kəhrizi yanında atlarını bir anlıq əylədilər. Şırıl-şırıl, həzinliklə axıb gedən suda bərq vuran Ayın parlaq əksi titrəyirdi.

- Kərbəlayi, bura qədər gəldin, bəsindir, indi isə geri qayıdın, sabah Allah qoysa, inəklə öküzü tapdırıb uşağın həyətinə göndərtdirəcəm, - deyə Süleyman üzünü Behbud bəyə tərəf çevirib ərklə dedi.

- Yaxşı, ay qağa, Allah sizdən razı olsun, sizə yaxşı yol, Allah amanında.

Behbud bəy Süleymanla, qaçaqlarla bir-bir əl verib, görüşdükdən sonra onlardan ayrıldı. Qaçaqlarla yanaşı atını yorğa sürən Süleyman üzüaşağı, Araz çayına doğru endi. Bir azdan Dərəarası gədiyindən üzüaşağı gedən atlılar görünməz oldular.

Alı bəy kəhrizindən aralı, köhlən atın belində, əlisilahlı Talıb ciddiyyətlə, gəlişini sezdirmədən Kərbəlayini müşayiət edirdi. Talıbı görən Behbud bəy:

- İsbəndiyarı evlərinə ötürdün? - deyə atın başını kəndə tərəf çevirib soruşdu.

- Bəli, Kərbəlayi, uşağın anasına da, oğurluqdan xəbər tutub ora yığılan kənd adamlarına da bildirdim ki, narahat olmasınlar.

- Sən özün niyə gəldin? Məndən bir addım da kənarda dayanmırsan? - deyə Kərbəlayi Talıba ərklə eşitdirdi.

Kirimişcə başını aşağı salan Talıb, bəyin sualına cavab vermədi. Hər ikisi atlarını yorğa sürüb, kəndə qayıtdılar.

Kənddə, məscidə yaxın yerdə, oğruların izinə düşüb axtarmağa gedən Seyidalı ilə rastlaşan Kərbəlayi, təəccüblə soruşdu:

- Nə oldu, bir iş görə bildinizmi?

- Yox, Kərbəlayi, köhnə səngər yerindən Araz çayı səmtinə, Gavalı bağlarına qədər baxa-baxa getdik, nə təzə ləpir, nə də bir inni-cinni rastımıza çıxmadı. Oğurluq ertədən olub. Onlar bu tezliklə kənddən uzaqlaşa bilməzdilər.

- Bəs Quylu bulağa gedənlərdən nə xəbər var? Onlar ki, sizdən qabaq Dəhnə bağına enmişdilər.

- Kərbəlayi, onların da qabaqlarına bir kimsə çıxmayıb.

- Onda Süleymanın adamları düz bələdləyiblər. Oğrular heyvanları Əsgərxan bulağı səmtiylə üzüaşağı, Dərə arasından Quycaq yatağına tərəf aparıblar. Hamınız qayıdın evinizə, indi gecdir, gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır.

Kərbəlayi onlarla birlikdə evinə tərəf yollandı...

***

Dərəarası yarğanından kəhrizə tərəf qalxan silahlı atlılar qabaqlarında öküzlə inəyi aparan cavan oğlanların ardınca gəlirdilər. Adamın iliyinə işləyən payız sazağının soyuğunda büzüşən saqqallı oğlan mal-qaranın boğazına bağlanmış ipi yedəyində çəkərək, palçıqlı yolda irəliləyirdi. O, hərdən də arxaya dönüb kinli adamlar kimi, qardaşına baxa-baxa dodağının altında deyinirdi. Qardaşı da ağacla hər iki heyvanın sağrısına vuraraq onları qovurdu. Bir azdan kəndin girəcəyində, imarətin yanında dayanan cavanlara silahlı atlılardan biri eyhamla eşitdirdi:

- Özünüz ki, tövlənin yerini yaxşı bilirsiniz. Aparın heyvanları hardan açmısınız, əlim-ayağım dəymədən, dinməz-söyləməz bağlayın yerinə.

Silahlı adamın dediklərinə dərhal əməl edən cavanlar, heyvanları həyətdə tut ağacının yanına aparıb, kirimişcə dayandılar. Qorxudan bənizləri ağarmış oğrular arxadan gələn əlisilahlı atlılara ürkək nəzərlərlə baxırdılar.

Atlılardan orta boylu, qıvrımsaçlı Xanalı ötkəm səslə:

- Bayaq dedim axı, - deyə əlindəki qamçını onlara tərəf uzadıb göstəriş verdi, - heyvanları hardan açmısınız, aparın, yerinə də bağlayın.

- Xanalı, bəlkə ev sahiblərini də çağıraq, çıxsınlar bayıra?! Onlar da görsünlər ki, heyvanları tapılıb, sağ-salamat qapılarına gətirilib, - deyə atını Xanalı ilə yanaşı əyləyən qaçaq dedi.

- Düz deyirsən.

Xanalı, əlində ağac olan cavana işarə ilə ev sahibini çağırmasını bildirdi. Dərhal evin dəhlizinə girən oğlan taxta qapını astaca taqqıldatdı. Səsə qapını açıb çölə boylanan sarıyanız uşaq, həyətdə inəklə öküzü, əlisilahlı adamları görüb anidən qışqırdı:

- Nənə, muştuluğumu ver, öküzlə inəyimiz tapıldı, - deyə sevincindən ayağıyalın öküzə tərəf qaçaraq, onun boynunu qucaqladı. Sahibini tanıyan öküz, fısıldayıb bərkdən böyürməyə başladı. Bunu görən silahlı qaçaqlar da uşaqla öküzə baxıb ucadan güldülər.

- Hə, qoçaq! Bu da sənin inəyin, üstəlik öküzünü də tapıb gətirmişik, - deyə Xanalı qımışdı.

Axşam Behbud bəyin imarətinin həyətində ona nəvaziş göstərən qaçağı tanıyan İsbəndiyar, dil-ağız edib razılıqla:

- Çox sağ olun, əmi. Allah sizdən razı olsun.

Səs-küyə otaqdan eşiyə çıxan Tərgül arvad, silahlı adamları görüb, çiyninə atdığı şalla yaşmaqlandı. Həyətdə inəklə öküzü görüb qorxudan yerində donub qaldı. Nənəsinin qorxduğunu görən uşaq:

- Nənə, qorxma, bu atlılar Süleyman əminin adamlarıdır. İtən heyvanlarımızı tapıb gətiriblər, - deyə inəklə öküzün buynuzundan yapışıb sallanaraq, dilləndi.

- Allah dadınıza çatsın, siz ki, bu mübarək ayda bizi sevindirdiniz, görüm heç zaman dad-amanda qalmayasınız, işiniz həmişə avand olsun. Keçin içəridə əyləşin, - deyə qadın onları evə dəvət etdi.

- Sağ ol, bajı, yolumuz uzaqdır. Mal-qaradan muğayat olun. Ayıq olun ki, oğrular onları aparmasınlar, - deyən Xanalı, cavanlara işarə ilə heyvanları tövləyə aparıb bağlamağı tapşırdı.

Səs-küyü eşidib xəbər tutan yaxın qonşular da sevinə-sevinə gəlib həyətə doluşdular. Gələn adamlar silahlı qaçaqlara razılıqlarını bildirir, uşağa, qadına gözaydınlığı verirdilər.

Həyətin aşağı tərəfindən əlindəki yoğun dəyənəklə dikdiri qalxan iri cüssəli kişini görənlər:

- Ağalar əmi gəlir, - deyə bir-birinə xəbər etdilər.

Xanalıya yaxınlaşan Ağalar kişi, şəstlə əl verib, onunla görüşərək:

- Xoş gəlmisən, Xanalı. Allah səndən razı olsun. Öküzün böyürtüsünü eşidib bura gəldim. Bu çətin məqamlarda tifilin mal-qarasını tapıb gətirmisən, vallah, sənin yerin hər iki dünyada behiştlikdir.

- Sağ ol, Ağalar kişi, nə əcəb imkan vermisən ki, oğrular həyətlərdən mal-qaranı çırpışdırıb aparıblar? - deyə Xanalı ətrafında dayanan qaçaqlara göz vuraraq, gülə-gülə, zarafatla soruşdu.

- Ay Xanalı, ağzında oğru deyirsən. Oğru nə bilir, halal nədir, haram nədir? Təki, əlinə bir şey keçsin. Oğru girdiyi həyətdən mal-qara, qoyun-quzu apara bilməsə də, nəfsi o qədər itidir ki, gözünə sataşan qotur keçini də qamarlayıb aparacaq. Ya da ağacdan asılı qalmış, bir şələ otu bağlamağa yaramayan örkəni də qoltuğuna vurub, aradan çıxacaq. O nanəciblərin gəlişindən xəbər tutsaydım, inan inandığınıza, bir-bir bu gördüyün dəyənəklə onları mitil kimi yan-yana uzadıb, Nağdalının ərköyün keçisi kimi bəərdərdim...

- Bilirəm, Ağalar kişi, bilirəm. Səndə olan hünərə, kəramətə yaxşı bələdəm. Səninlə öcəşən kəs ya kəlmeyi-şəhadətini bəri başdan oxumalı, ya da ki, bir-iki ay yorğan-döşəkdə sərili qalıb zarıldamalıdır.

Qaçaqların ətrafına yığılan adamlar, Xanalının ərk edib zarafatla dediklərinə qəşş edib bərkdən gülüşdülər...

İnəklə öküzü tövlədə dirəyə bağlayıb, çölə çıxan oğrular da qorxa-qorxa gəlib tut ağacının yanında, qaçaqların qabağında sakitcə dayandılar. Başlarını aşağı dikən cavanlar həyətə yığılıb onlara tamaşa edən adamları gözaltı seyr edirdilər. Cavanların tutduqları əməllərinə görə xəcalət çəkdiyini hiss edən Xanalı, susaraq camaat yanında onlara bir kəlmə də söz demədən üzünü adamlara tərəf çevirib mehribanlıqla:

- Hə, salamat qalın. Bir-birinizdən göz-qulaq olun. İmkan verməyin ki, həyət-bacanızda mal-qaranı, paltar-palazınızı kimsə gəlib oğurlayıb aparsın. Biz gedirik, yolumuz uzaqdır, - deyib həmin iki nəfər oğlana da ardınca gəlmələrini bildirdi.

Ağalar kişi irəli yeriyib, Xanalının mindiyi atın cilovundan tutub ərkəyana:

- Xanalı, eşit gör nə deyirəm! Cavanlarla işin olmasın. Bir xətadır, qanmayıb ediblər. Yəqin ehtiyac ucbatından bu yolu seçiblər.

Ağalar kişi, tam arxayın olun. Başa düşürəm onları. Əməllərini boyunlarına alıblar. Mən istəməzdim ki, belə bir iş olsun, - deyə Xanalı cavab verdi.

Xanalının cavabından razı qalıb, atın üzəngisini buraxıb, geriyə çəkilən Ağalar kişi:

- Allah sizdən razı olsun, Xanalı.

Həyətə yığışan qonşular ev sahibinə gözaydınlığı verir, heyvanları tapıb gətirən qaçaqlara alqış edirdilər. Heyvanların tapılıb həyətlərinə gətirilməsinə sevinən İsbəndiyar, ayağıyalın Xanalının atına tərəf qaçdı. O, Xanalının üzəngiyə keçirdiyi çəkməli ayağından əlləri ilə yapışıb, sevincdən dolmuş gözləriylə altdan yuxarı ona tərəf baxdı. Uşağın qəlbindən keçənləri gözlərindən hiss edən Xanalı, atın belindən aşağı əyilib, onu boyu bərabəri yuxarı qaldıraraq, alnından öpdü. Bu nəvazişdən xoşallanan İsbəndiyar da geriyə çevrilib, Xanalının boynunu qucaqlayaraq köksünə sığındı. Uşağın istiqanlı hərəkətindən mütəəssir olan Xanalı:

- Qorxub-eləmə, - dedı, - bir də heyvanlarınızı oğurlamayacaqlar. İndi isə soyuqdur, ayaqların da yalındır. Görürsən, corabların necə islanıb? Tez get evə, ocaq yanında bir az qızın.

Bu təəssüratdan özü də kövrələn Xanalı, uşağı aşağı endirdi. O, həyətə yığışan adamlarla görüşüb, oğruları da özü ilə apardı. Atların başını geri döndərən qaçaqlar həyəti tərk edib, palçıqlı yolla Qara Molla pirinə yaxınlaşdılar. Payızın sazağında Qara Molla pirinin baş tərəfində bitmiş Saqqız ağacının müdhiş görüntüsü diqqət çəkirdi. Ağacın budaqlarında puçur-puçur olmuş yağış damlalarının parıltısı aydın seçilirdi. İki əsrdən çox yaşı olan ağacın qəribə tarixçəsi, hər zaman kənd adamlarının qəlbində hörmətlə yad edilirdi.

Daşkəsən kəndinin tanınmış el ağsaqqalı Şeyx Molla Qaranın məzarına qoyulmuş baş daşını əvəz edən tənha ağac, sonralar təbiətin möcüzəsi sayəsində, həyat eşqi güc gələrək, göyərib qol-budaq atmış, müqəddəs məkana çevrilmişdi.

Müqəddəs ziyarətgaha, Qara Molla pirinə yaxınlaşan Xanalının dəstəsi, atları əylədilər. Xanalı oğurluq etmiş cavanlara tərəf dönüb, təmkinlə onlara eşitdirdi:

- Pirin qabağında tövbə edin, - dedi, - heç olmasa, günahınızın bağışlanmasını dilinizə gətirin.

Xanalının nəsihətli sözlərini eşidib, gözlərinə inanmayan hər iki cavan, Pirin qabağında tövbə edərək, əməllərindən peşman olduqlarını dillərinə gətirdilər.

- Başa düşürsünüz? Başqasının inəyini, öküzünü həyətindən aparıb payız şumu etməklə, xeyir-bərəkət qazanmaq olmaz. Əgər sizə bir cüt qoşqu öküz lazım idisə, zəhmət çəkib, gəlib Behbud bəyə gənəşəydiniz. O, hardan olursa-olsun, sizin istəyinizi canla-başla yerinə yetirərdi. Yaxud da, heç olmasa, Süleymanı tapıb dərdinizi, çətinliyinizi ona ətraflı deyəydiniz. Axı siz tək deyilsiniz. Əgər Behbud bəy vəziyyətinizi bilsəydi, halınıza yanıb, bir-iki günlüyə kimdənsə bir cüt öküzü alıb sizə verərdi. Siz hələ cavansınız. Bir də belə hərəkət etməyin. Bilin ki, Süleyman tapşırıb ki, sizə dəyməyək. Yaxşı-yaxşı əməl sahibi olun. Gedin, başınızı salın aşağı, kasıbçılığınızı edin. İndi isə ikiniz də qayıdın obanıza, - deyə Xanalı hər iki cavana öyüd-nəsihət verib onları başa saldı.

Sakitcə qulaq asıb başlarını aşağı dikən cavanlar, onlara göstərilən insanlığın müqabilində pərt olmuş halda danışmadan oradan uzaqlaşdılar.

Cavanlar gedəndən sonra, Xanalı atın başını çevirib, dəstəsi ilə yamacdan üzüaşağı Daşkəsən bağına tərəf endi. Ağaclar arasında otlayan qoyun-quzular atların ayaq tappıltısından hürkərək, kənara sıçradılar. İri qoz ağaclarının arası ilə ötüb keçən qaçaqlar Qiyasın su dəyirmanı-

na doğru irəliləyirdilər. Dəyirmana yaxınlaşan Xanalının dəstəsi atlarını su dəhnəsinin üstündən sıçradıb, təpəni qalxdılar. İrəlidə kəhəri dördnala çapan Xanalı, qaçaqlarla Teştək düzündə şumlanmış payızlıq əkin yerlərini ikiyə bölmüş torpaq yola çıxıb, Dördçinar kəndi istiqamətində uzaqlaşıb gözdən itdilər.

***

Aramsız yağan yağış, səhər ertədən kəsilmişdi. Payızın mülayim havasında yamacları isidən günəşin şəfəqi duman-çənə bələnmiş torpağın buğ qatını əridirdi. Xoş ovqatla qarşılanan mübarək Qurban bayramında bir-birinə şirin sözlərlə gözaydınlığı verən adamların xeyir-duası, alqışı, hamıda xoş təəssürat oyatmışdı. Şadyanalıqla keçirilən bayram tədbirləri hər bir evdə sevinclə qarşılanırdı. Üç gün ertədən kənd ağsaqqalları tərəfindən irəli sürülən təşəbbüsə əməl olunurdu. Evlərə paylanan qurbanlıq qoyunları alanların sevinci yerə-göyə sığmırdı. Ailələrə təşrif buyurub, onlara bayram sovqatları gətirən ağsaqqalları hörmətlə qarşılayır, cani-dillə onlara minnətdarlıq edib yola salırdılar. Əziz günün şirinliyini dadan uşaqların sevinci yerə-göyə sığmır, şən əhval-ruhiyyə, böyüklərdən daha çox onların üzündə sezilirdi. Şənbə gününün şadlıqla açılan səhəri bir qələbəliyə çevrilmişdi. Kənddə qurbanlıq erkəklərin kəsilməsi başa çatmışdı. Kəsilmiş qurbanlığın qanına barmağını batırıb bir-birinin alnına sürtən uşaqların sevincdən doğan gülüşləri yazın ilk müjdəsi kimi ətrafa yayılırdı.

***

Mübarək Qurban bayramında Heydər dağının zirvəsindəki geniş meydana toplaşan cavanların xoş əhvalruhiyyəsi, şaqraq səsləri ətrafı bürümüşdü. Ertədən daşıyıb gətirdikləri odunları ocaq yerində qalaqlayıb, yandırmağa hazırlaşırdılar.

Əziz günlərdə adətlərinə xilaf çıxmayan cavanlar, hamılıqla tığ vurulmuş odunların ətrafına yığılıb şənlənir, deyib-gülürdülər. Bir azdan odunlara od vurub yandırdılar. Çırta-çırtla yanan odunlar alışdıqca alovun dilləri göyə millənirdi. Havanı isidən tonqalın ətrafında dayanıb şadyanalıq edən cavanların şən səsləri qayalıqda əkssəda verirdi. Heydər dağının zirvəsində gur yanan tonqalın alov dilləri hər tərəfdən görünürdü. Səmada qiyyə çəkib süzən qartallar da, şənlənirmiş kimi, qiyyə çəkərək, yanan tonqalın ətrafında dövrə vurub hey uçurdular.

SƏSVERƏN QAYA
(roman)

MAYA
(Birinci fəsil)

Bu dağların, qayaların qucağından,
Kəhrizlərin, bulaqların ağuşundan,
Şırıl-şırıl, həzin-həzin, axan sular,
Xan Arazın məcrasına qovuşar...

Yazın gəlişi ilə qış yuxusundan oyanan Daşkəsən kəndinin bağları çal-çağırlı günlərinə qovuşmuşdu. Heydər dağının yamacından üzüaşağı axan bulaqların şırıltısı adamın ruhunu oxşayırdı. Daşkəsən çayına qovuşan bulaq suları Dəhnə bağında Üç gölün mənsəbini aşıb keçir, Araz çayı istiqamətində şütüyürdü.

Çayzəmi ilə Xiyaban arasında salınmış qədim tut bağlarında çalışan kümdarlar qırdıqları tut şaxlarını arabaya yükləyirdilər. Bağda oxuyan uşaqlara qulaq asan ahıl kişilər, hərdən də öz aralarında ötüb-keçən günləri yada salıb, şirin-şirin söhbət edirdilər. Kol quşları kimi bir yerdə qərar tutmayan uşaqların şaqraq səsləri ətrafı bürümüşdü:

Boz at, səni, sər tövlədə saxlaram,
Ayağına qızıl, gümüş nallaram.
And içirəm, səni məxmər çullaram,
Boz at, məni apar uzaq ellərə,
Düşəcək tərifin bütün dillərə.

Eşidilən mahnıların qəlboxşayan şirinliyinə valeh olan kümdarlar, gözlərini səs gələn səmtə zilləyib, sakitcə qulaq asırdılar. İri gövdəli qoz ağacına çıxan, budaqdan-budağa atılan dəcəl uşaqlar biri-biri ilə bəhs edirmiş kimi oxuduğu mahnıları sona çatdırmamış yenisini başlayırdılar:

Gün qalxıbdır günortanın yerinə,
Həcər xanım qalxdı atın belinə.
Əşrəfi düzdürüm onun telinə
Qoy sənə desinlər, ay qoçaq Nəbi,
Həcəri özündən ay qoçaq Nəbi.

Uşaqlara qulaq asan kümdarlar bir az dincəlmək xatirinə əl saxladılar.

Əlindəki dəhrəni quru kötüyə pərçim edən Savalan kişi tut budaqlarından dəstələdiyi şələni arabaya qaldırıb, səliqə ilə yerləşdirdi. Sonra üst-başının tozunu çırpıb, öz-özünə deyinə-deyinə:

- Gəl indi bundan sonra tut şaxlarını buda görüm, necə budayırsan? - deyə dodağının altında mızıldandı.

Ləng addımlarla iri ağac kötüyünə yaxınlaşan qoca, onun bir tərəfində əyləşdi.

Dincini alan Savalan kişi eşidilən mahnıdan feyziyab olmuşdu. Oturduğu yerdə yanpörtü Dəhnə bağına tərəf boylandı, razı qalmış kimi başını yellədi.

Uşaqlar yorulmadan səs-səsə verib Nəbinin, Həcər xanımın şəninə qoşulmuş mahnıları hey oxuyur, bildikləri başqa mahnıları da həvəslə gözəl ifa edirdilər.

Qəflətən, Səsverən qayadan qız uşağının yanıqlı səsi ətrafa yayıldı. Məcrasına sığmayan dağ çayının qayalara çırpılan ləpələritək çağlayan nəğmənin sözlərini eşi-

dənlər ani olaraq, yerlərində donub qaldılar. Bağda çalışan kümdarların, oxuyan uşaqların səsi elə bil bir anlıq xırp kəsilib, eşidilməz oldu. Mahnının sədasını eşidənlər təəccüblə Heydər dağı səmtinə boylandılar. Qızın qəlbi riqqətə gətirən şaqraq, şirin avazı, ona qulaq asanların ürəyinə yağ kimi yayılır, üzlərində xoş təbəssüm aydın sezilirdi:

Uca dağlar, qarlı dağlar başında,
Bir yar sevdim, tirmə şalı var başında,
Eybi yoxdur kipriyində, qaşında...

Oxuyan qızın yanıqlı səsi Çinarlı gölün sahilində paltar-palaz yuyan qız-gəlinləri də ovsunlamışdı. İri gövdəli qoşa çinar ağacından aralı, şırıl-şırıl axan bulaq başında, iri qaya daşının üstündə oturub, paltar yuyan Ceyran nənə əlindəki qulplu mis parçı ərklə səs gələn tərəfə uzadıb həyəcanla:

- Ay Allahı sevənlər! Allah saxlamış, yenə də qızları Səsverən qayada yığıb başına. Qarabağın bülbülütək cəhcəh vurur. Zalımın qızı oğlan uşağı olsaydı, gör indi nələr edərdi.

Ağbirçək nənə qəlbindən keçən sızıltının fərqinə varmadan, başını yuxarı qaldırdı. Məlul-məlul irigövdəli qoşa çinar ağacında çətiri andıran budaqların yarpaqlarını seyr etdi. Sonra arxaya dönüb, gülər üzlə Heydər dağının çən bürümüş zirvəsində əzəməti ilə seçilən Səsverən qaya səmtinə boylandı.

Günəş şəfəqində göz qamaşdıran, kainatın həqiqətlərə sığmayan möcüzəvi aləmini köksündə sirli saxlayan Səsverən qaya, danışılan, eşidilən hər bir səsi çox-çox uzaq-

lara çəkib aparırdı. Pıçıltıyla deyilən hər bir kəlmə, bir göz qırpımında əks-səda verib, Havadərə çökəyində aydın eşidilirdi. Heydər dağının əlçatmaz-ünyetməz qayalığında oynayıb-oxuyan uşaqların səsi bir-birinə qarışıb, hər tərəfə yayılmışdı. Qayalıqda məskən salmış bir cüt qartal da daima səmada qiyyə çəkib süzür, dağın ətrafına dolanırdı. Səsverən qayada eşidilən mahnıların şaqraq sədası, ona qulaq asanları valeh etmişdi:

Aman yarım, gözəl yarım, gül yarım,
Küsdürmüsən, gəl könlümü al, yarım.

- Ay nənə, vallah bu qızın xoş avazı elə bil ki, İlahinin bizə göndərdiyi şirin bir paydır. Adam bu qıza qulaq asanda, əlini ağdan-qaraya vurmaq da istəmir. Hələ mən, onun Aydolanmaz meydanında, güllü-çiçəkli cıdır düzündə kəndin cavan oğlanları ilə cıdıra çıxıb, at çapmağını demirəm. Əgər onun at çapmağını da görsəniz, vallah hamınız məəttəl qalarsınız, - deyə iri mis satıldan yerdə sərili qalmış gəbə üzərinə su töküb yuyan cavan gəlin dilləndi.

- Düz deyirsən, bala. O qız gərək oğlan doğulaydı. Kim bilir indi o nələr edərdi, - cavan gəlinin sözünə qüvvət verən Gülbəst xanım yuyulmuş paltarların suyunu sıxan qadınlara eşitdirirmiş kimi, oxuyan qız haqqında bildiklərini ucadan dedi. Ceyran nənə, deyilənləri başının hərəkəti ilə təsdiq etdi. Hamının eşidəcəyi bir səslə və eyni zamanda mülayimcəsinə əlavə edərək, dedi:

- Ay qızım, bəs onun Səsverən qayada nişangah qoyub güllə atmağını niyə demirsən ki, burda oturanlar da eşidib bilsin? Allah saxlamış gülləni elə sərrast atır ki, gözündən heç nə yayınmır. Sərçəni gözündən vurur.

Ceyran nənəyə heyranlıqla qulaq asan Gülbəst:

- Düz deyirsən, nənə, o qız elə bil, özünü Həcər xanıma oxşadır. Nənə, Həcər xanımın yaz vaxtı Mollu camaatıyla Laləli təpədən, qışlaqdan qayıdanda, Heydər dağının ətəyində bir gecəlik köç salması yadındadır?

- Niyə yadımda deyil, ay bala? Allaha şükürlər olsun, hələ qocalmamışam ki, yadıma da sala bilməyim. Huşum-başım hələ sərasər yerindədir, - deyə bir anlıq gözlərini yuman Ceyran nənə, - o vaxtdan neçə il keçib görəsən? Hesabı yaxşı bilməsəm də, mən biləni on, ya da on bir il olar, ya da olmaz.

- Hə, nənə. O, Səsverən qayada nişangah qoyub güllə atan kəndimizin cavanlarına irad tuturmuş. Qayalıqlarda sərrast atmağı bacarmayan kəndimizin cavanlarına güllə atmaqda məharətini göstərdiyini sən ki, yaxşı bilirsən. O əhvalatı bir də yadına sal, danış, qoy bilməyənlər də eşitsin, - deyə Ceyran nənəni nəvazişlə qucaqlayıb, saqqızını oğurlamağa çalışdı.

Cavan qız-gəlinlərdən yaxasını qurtarmağın müşkül məsələ olduğunu görən Çeyran nənə, bulaq başında əyləşdiyi yerdə yuyub suya çəkdiyi paltarları mis ləyənə atdı. Əlindəki qulplu parçı iri qaya daşın üstünə qoydu. Başını yelləyərək ərklə dilləndi:

- Ay-hay, canınız yanmasın. Mən sizə nə deyim axı. İmkan verin, yuduğumuz paltarları arxayınlıqla suya çəkək. Gün batır, istəyirsiniz ki, mən binəvanı evə buraxmasınlar?!

Ceyran nənənin yarızarafat, yarıciddi dediyi sözə qulaq asıb, pıqqıldaşan qız-gəlinlər biri-birinə baxıb bərkdən güldülər. Qıyğacı baxaraq onları süzən nənə, özü də qız-gəlinlərə qoşulub, ürəkdən güldü. Ceyran nənə bir

anlıq nəfəsini dərdi. Sanki imtahan qarşısında dayanırmış kimi, xeyli fikrə getdi. Sonra hamının ona nəzər yetirdiyini görüb, əhvalatı ucadan danışmağa başladı:

- Eh, nə deyim, bala. Həcər xanımın Heydər bulağında bir günlük köçüylə qonaq qalması haqqında o qədər söz qoşub dastan bağlayıblar ki, deyərdim, bəlkə də, hamısı bir-birindən gözəldir. O gün Həcərin ziyarətinə gedib görüşənlər, aşıq məclisinə yığılıb qulaq asanlarımız hamılıqla əhvalatı yaxşı xatırlayırlar. Görməyənlər də, ay qızım, ordan-burdan, ağızdan-ağıza eşitdiyi qondarma əhvalatları özləri necə istəyiblərsə, o cür də bildikləri kimi, söz qoşub yazıblar. Söz, vaxtına çəkər. Elə bu vədələr idi, bəlkə də, bundan bir az sonrakı vaxtlar olardı. Çünki yaxşı yadımda qalıb. Məşədi aşıq Humayın həyətində iri gövdəli badam ağacı, bağlardakı meyvə ağaclarından bir az tez oyanıb, çiçək açmışdı. Ağacın solub tökülmüş çiçəklərinin yerində cır ərik boyda xırda, tüklü meyvələri əmələ gəlmişdi. Obamızda barama saxlayan kümdarlar da ipəkqurdunu yemləmək üçün hər gün ertədən oyanıb, bağlarda tut budaqlarını budayıb, kümlərinə daşıyırdılar. Yaz vaxtı el yaylağa gedəndə Həcər xanım da köçüylə Havadərədən üzüyuxarı, güllü-çiçəkli Yazı düzünə tərəf qalxırdı. Çəmənlikdə qoyun-quzuları otaran çobanlar sürünü daş yoldan kənara, Atöldürən kəhrizinə tərəf ötürüb suvarırlarmış. Köçdə mələşən heyvanların səsindən adamın qulağı batırdı. Bir tərəfdən də Heydər dağının yamacında, Səsverən qayadan aşağı, geniş meydanda uşaqlar çilingağac oynayır, kəndin cavanları da qayalıqlarda nişana qoyub, tüfəngdən güllə atmaqla özlərini sınayırmışlar. Havadərədən üzüyuxarı, köçün qabağında gələn silahlı atlı qadın bir anlıq köhləni əyləyib güllə atan

cavanlara xeyli tamaşa edir. Tanımadıqları atlı qadının diqqətlə onlara baxdığını görən cavanlar kirimişcə arxaya dönüb diqqətlə ona nəzər yetirirlər. Nişangahları elə də yaxşı vura bilməyən cavanların naşı olduğunu aralıdan seyr edən Həcər xanım, qara çərkəzi paltarlı, ucaboylu Cümşüdü yanına çağırır. Ondan əlində tutduğu tüfəngi istəyir. Cümşüd də sağ olmuş, qadının sözünü yerə salmır. Çevik hərəkətlə tüfəngin xəzinəsini güllə ilə doldurub ona uzadır. Həcər xanım silahı alıb, xeyli diqqətlə onu gözdən keçirir. Razı qalmış kimi gülümsəyib, üzünü cavanlara tutaraq əminliklə:

- Gedin qayada nişangahlarınızı qoyun, - deyir.

Qadının amiranə səsini eşidən Cümşüd əvvəl-əvvəl Həcərin dediklərinə etinasız yanaşıb, sözünə əhəmiyyət vermir. Ancaq at belində şəstlə oturmuş Həcərin iti baxışlarla onu süzdüyünü görüb dərhal yoldaşları ilə qayalığa tərəf qaçır. Cavanlar yerdən yığdıqları alma boyda daşları otuz addımlıqda nəhəng qayanın sürahıyaoxşar çıxıntılı yerində yan-yana düzüb, geriyə qayıdırlar. Uşaqların tələsik gəlib, onun yanında dayandığını görən Həcər xanım, Heydər dağının zirvəsindən də yuxarıda, havada qiyyə çəkib süzən qoşa qartalları gözucu seyr edir. Kəndin əhatəsində olan meşəyə, meyvə bağlarına heyranlıqla baxıb başını silkələyir. Ətrafı diqqətlə müşahidə edən Həcər xanım, qəflətən nişangahlara atəş açır. Qaya üstündə yan-yana qoyulmuş daşlar, açılan güllələrin zərbindən bir-bir parçalanıb havaya sovrulur. Daşların ustalıqla vurulduğunu görüb gözlərinə inanmayan cavanlar, ona baxa-baxa təəccüblə çiyinlərini çəkirlər. Onların pərtliyini hiss edən Həcər xanım tüfəngi aşağı endirib, sakitcə sahibinə qaytarır. Təəssüflə başını tərpədib, dərindən köks

ötürür. Sonra təəccüblə ona baxan cavanların naşılığına iradını bildirərək:

- Eh, cavanlar, cavanlar! Siz indi də tüfəngdən sərrast atəş açmağı, vurmağı bacarmırsınızsa, bəs onda nə vaxt öyrənəcəksiniz? - deyir.

Həcər xanımın haqlı iradını eşidən oğlanlardan şux qamətlisi, boz rəngli çərkəzi paltar geyinmiş Məşədi Humay ona yaxınlaşıb nəzakətlə:

- Ay xala, siz kimsiniz belə, nişana qoyduğumuz daşları mahir atıcı kimi bir-bir vurub göyə sovurursunuz? - deyə soruşur.

- Ay oğul, nəyinə gərəkdir mənim kimliyim? Yoldan keçən Allah bəndəsinin biri, yol adamı.

- Axı, ay xala, hər Allah bəndəsi belə sərrast güllə ata bilməz? - gözlərinə inana bilməyən Humay, təəccübünü gizlətmədən dillənir.

Oğlanın mərifət sahibi olduğunu əvvəlcədən hiss edən Həcər xanım onu çox da intizarda saxlamır. O, əlini alnına tutaraq, səmada dövrə vurub süzən qartallara qıyqacı baxa-baxa gözünü çəkmədən, köks ötürüb sakitcə cavab verir:

- Rəhmətlik Nəbinin ömür-gün yoldaşı Həcərəm.

Qadının cavabını eşidən cavanlar özlərini itirib, nitqi kəsilmiş kimi heyrətlə Həcər xanıma baxır, nə deyəcəklərini kəsdirə bilmirlər. Bir azdan özünü ələ alıb, irəli yeriyən Humay:

- Həcər xala, belə ki, güllə atmağı bacarırsınız, bəs onda niyə qayada nişangah qoyduğumuz daşları öz tüfənginizlə vurmadınız? - deyə təəccüblə ondan soruşur.

- Düz deyirsən, oğul. Əgər mən öz tüfəngimlə nişangahı vursaydım, yəqin deyərdiniz ki, sizin silahınız

düz nişan almadığına görə daşları sərrast vura bilmirsiniz. Qərara gəldim ki, sizin tüfənginizlə nişan alıb onları bir-bir vurum.

Həcər xanımın güllə atmaqda məharətini görüb şahid olan cavanlar bilmirdilər ki, ona necə doğmalıq göstərsinlər. Diqqətlə ətrafı müşahidə edən Həcər xanım əlindəki qamçı ilə bir az aralıda qayaya söykədilmiş sədəfli telli sazı göstərib, cavanlardan təəccüblə soruşdu:

- O qayaya söykədiyiniz saz kimindir elə?

Həcər xanımın maraqla verdiyi suala dərhal cavab verən ortaboylu, qarabuğdayı oğlanlardan Rəşid cəld irəli çıxaraq həyəcanla:

- Həcər xala, saz Məşədi Humayındır. Onun elə şirin avazı, gur səsi var ki, oxuyanda adam cınqırını da çıxartmaq istəmir. Sazın tellərini iti barmaqları ilə elə gözəl dilləndirir ki, adam çalınan havaya qulaq asmaya bilmir, - deyə Rəşid əliylə Humayı göstərdi.

Həcər xanım yəhərdə yana çevrilib, Humaya tərəf baxaraq, onu xeyli diqqətlə süzdü. Sonra mehribancasına xeyir-dua verib dedi:

- Bərəkallah, yaxşı sənət seçmisən. Sazın, sözün qədrini bil, hər zaman ona hörmətlə yanaş. Saz ulu babalarımızın bizə miras qoyduğu müqəddəs bir ərməğandır. Onun tellərində çalınan, səslənən hər bir havasına qulaq asa-asa böyüyüb, boya-başa çatmışıq. El-el, oba-oba diyarımızı gəzib dolaşan ustad aşıqlarımız ürək yanğısı ilə adət-ənənələrimizi, dastanlarımızı el arasında yaşadıb, zəmanəmizə qədər gətirib çıxardıblar. Oğul, bayaqdan diqqətlə hər birinizə göz qoyuram. Sənin qamətin, geyimin, ədəblə danışığın, mərifət sahibi olduğunu ilk baxışdan duymuşdum. Kənardan seyr edəndə də başa düşdüm ki, sa-

zın sahibi sən ola bilərsən, - deyə diqqətlə Humayı süzən Həcər xanım, cavanlara xeyir-dua verib sözünü bitirir.

Həcər xanımın öyüd-nəsihətinə nəzakətlə qulaq asan Humay, ona yaxınlaşıb dil-ağız edərək:

- Xala, evimiz yaxındadır, köçünüzdə olanlarınızla birlikdə, hamınız gedək bizim qonağımız olun, - deyə kövrək səslə Həcər xanımı evlərinə dəvət edir.

- Sağ ol, oğul, gedəcəyimiz yaylaq yeri çox uzaqdır. Özünüz də görürsünüz ki, köçümüz böyükdür. Toran düşməmiş Heydər bulağından aralıda alaçıqlar qurub, gecəni burda dincəlməliyik. Səhər sübh tezdən yamac boyu otlaqlarda sürünü otara-otara Papı, Çərəkən, Əfəndilər kəndi səmtində Ziyarət dağına tərəf yolumuza davam etməliyik. Bizdən ötrü narahat olmayın, qayıdın evinizə, gün batır, yəqin evdəkilər də sizdən ötrü nigarandırlar. İnşallah, payız qabağı köçlə yaylaqdan qışlağa, Laləli təpəyə qayıdanda, mütləq gəlib sizin qonağınız olarıq, - deyə Həcər xanım cavanların qəlbini qırmamaq xatirinə nəvazişlə Humaya cavab verib razılıq etdi.

Həcər xanım cavanlarla sağollaşıb, atını bulaq ətrafında quraşdırılan alaçıqlara tərəf sürüb uzaqlaşdı...

- Ancaq o əhvalat sizə söylədiklərimlə qurtarmır, - deyə aramla danışan Ceyran nənə, bir anlıq gözləri yaşarmış halda susub, gölə tərəf baxaraq, dərin fikrə getdi.

Ağbirçək qadının kövrəlib susması, onu dinləyənləri intizarda qoymuşdu. Bir azdan nəfəsini dərib köks ötürən nənə, qurşağında saxladığı ipək dəsmalı çıxardıb, göz yaşlarını sildi. Sanki, Ceyran nənə xəyallar aləminə dalmışdı. Ətrafında olan qız-gəlinlərin məsum baxışlarla ona maraqla qulaq asdıqlarını nəzərindən qaçırmadan söhbətinin ardını davam edərək:

- Həcər xanımın uzaqlaşdığını görən Məşədi Humay, doluxsunmuş halda üzünü dostlarına tutub qətiyyətli səslə:

- Necə olursa-olsun, günbatana yaxın, Heydər bulağının ətrafında köçü ilə binə salan Həcər xanımın qarşısında saz çalıb oxumalıyam, - qəhərdən dolmuş gözlərini dostlarından gizlətməyə çalışan Humay, - indi də oxumasam görəsən bəs nə vaxt oxuyacam? Məgər bizə görə özünü oda-közə atan, sinəsini sipər təki güllə qabağına verib harın varlıların, oğruların, yol kəsənlərin əl-ayağını yığan, yaman gündə kasıbların arxa-dayağı olan bir xanımın saz havasını eşidib, sevinməyə haqqı yoxdur? Axı kəndimizin adamlarının bundan da əziz qonağı ola bilməz.

Məşədi Humayı dinləyən dostları onun haqlı olduğunu təsdiqlədilər. Bir qədər toxtayan Humay ciddiyyətlə üzünü dostu Rəşidə çevirib:

- Rəşid, kəndə qayıt, camaata xəbər elə, hamı günbatana yaxın Heydər dağının ətəyinə yığılsın. Atını min, birbaşa çökək məhləyə sür. Aşıq Abışla balabançı Seyfəlinin evinə gedərsən. Onlara mənim adımdan deyərsən ki, heç yerə getməsinlər. Heydər bulağının yanında böyük məclisimiz olacaq, - deyə Humay aşağı əyilib, Səsverən qayaya söykədiyi sədəfli sazını götürdü. Onu əzizləyirmiş kimi arxalığın cibindən dəsmal çıxardıb, sazın küpünü, qolunu sildi. Yoxlayırmuş kimi hər tərəfinə diqqətlə göz gəzdirib, çiynindən aşırdı. Fikirli-fikirli yoldaşları ilə birlikdə evlərinə tərəf yollandı.

***

Ceyran nənəni yaxşı eşitmək istəyən qız-gəlinlər özləri də hiss etmədən, yavaş-yavaş onun əyləşdiyi daşa tərəf yaxınlaşırdılar. Onun heyranlıqla əhvalatı bütün təfsilatı ilə, yerli-yataqlı yada salıb dediklərinə diqqətlə qulaq asır, razı qalmış kimi başlarının hərəkəti ilə təsdiq edirdilər. Söhbətinə ara verən ağbirçək qadın, bir anlıq nəfəsini dərdi. Nigaran baxışları ilə şırıl-şırıl axan bulaq suyundan gözünü çəkmədən köks ötürüb fikrə getmişdi. Ceyran nənə diqqətlə ona qulaq asan qız-gəlinləri çox da intizarda qoymayıb, yenidən əhvalatın ardını danışmağa başladı:

- Həcər xanımın Heydər bulağının ətrafında köç saldığını eşidib-bilən Daşkəsən camaatı, götürdükləri sovqatlarla onu görməyə tələsirdi. Tozlu-torpaqlı kənd yolunda uşaqlı-böyüklü daş yola tərəf axışan adamların üzgözündən şadyanalıq yağırdı. Bir-birini haylayıb kənd yo-

luna çıxan uşaqlar da adamlara qoşulub, sevinə-sevinə köç yerinə qaçırdılar. Kənddə böyük qələbəlik hökm sürürdü. Hamı bir-birini səsləyir, Həcər xanımın ziyarətinə getməyə hazırlaşırdı.

***

Evin artırmasından kənd yoluna baxan Bədir Cahan xanım səs-küydən səksənib irəli yeridi. Təpədən aşağı ehtiyatla enən qadını, Məşədi Gülgəz xanımı görcək:

- Məşədi xanım, hər vaxtın xeyir olsun. Nədir bu səs-küy? Elə bil kənd camaatı, uşaqdan-böyüyə, üzüyuxarı, Bacam təpəyə axışıb gedirlər. Görəsən xeyirdirmi belə, hamınızın tələm-tələsik getməyiniz? - deyə maraqla soruşdu.

- Aqibətin xeyir olsun, ay Cahan xanım, xeyirdir, - deyə Gülgəz xanım daşdan hörülmüş barıya yaxınlaşıb Cahan xanıma tərəf boylanaraq, - kəndə səs yayılıb ki, Mollu camaatının elatı Havadərəsindən, daş yolla üzüyuxarı yaylağa gedirlər. Yolüstü Atöldürən kəhrizinin yanında dayanıb, bir günlük binələşmək istəyirlər. Rəhmətlik Qaçaq Nəbinin xanımı, Həcər xanım da elatla bir yerdədir. İndi hamı ora tələsir.

- Allah saxlasın. Məni də gözləyin, bir yerdə gedək. Çoxdan istəyirdim ki, Həcər xanımı görüm, söhbət edim, - deyə sevincindən gözləri dolmuş Cahan xanım, uzaqdan görünən Heydər dağına tərəf baxa-baxa, - İlahi, sənə inanmayana lənət. Axır ki, Həcəri görə biləcəm, - dərindən köks ötürüb, artırmadan otağa keçdi.

İri qoz ağacının kölgəsində gözləyən Məşədi Gülgəz xanımı görən aşağı məhəllənin arvadları da deyə-gülə ona tərəf yaxınlaşdılar. Onlardan hamıdan qıvraq görünən Yetər arvad:

- Ay bajı, nə əcəb Həcərin köçü bizim kəndin arasından, el yolundan gəlib keçir? Axı Aran köçləri həmişə aşağı yolla, Araz qırağı karvan yoluyla gedib gəlirdilər? - deyə arxaya çönüb, Araz səmtini göstərdi.

- Düz deyirsən, Yetər arvad, nə deyim, vallah, özləri bilən məsləhətdir. Yəqin kəndin aşağı tərəfindən keçən yol uzaqdır. Bizim yol kəsədi, yolboyu içməli sular var. Ona görə də burdan gəlib keçməyi, axşamı da dağın ətəyində qalıb dincəlməyi əvvəlcədən fikirləşiblər.

- Hər nə isə, Həcər xanımın görüşünə gedəndə, səbəbini orda özündən soruşub bilərik, - deyə həyətə boylanan Gülgəz xanım təmkinlə cavab verdi.

Həyət qapısından çölə çıxan Bədir Cahan xanımı görən arvadlar, ona tərəf yaxınlaşıb qucaqlaşaraq, görüşdülər. Hal-əhval biləndən sonra kənd yoluna çıxan qadınlar üzüyuxarı yollandılar. Qadınlarla Bacam təpəyə qalxan Bədir Cahan xanım, Məşədi Gülgəzlə söhbət edə-edə yoluna davam edirdi. Arxadan gələnlər öz aralarında sakit danışırdılar. Cahan xanımın məğrur duruşu, ağayana yerişi, kənd yolunda onlara baxanların diqqətini cəlb etmişdi. Başına örtdüyü Daşkəsən ipəyindən toxunmuş saçaqlı örpəyini külək qaldırmasın deyə, uclarını əlində saxlayıb, addımlayırdı. Bacam təpəni aşan qadınlar, yol kənarında iri gövdəli tut ağacının kölgəsində bir anlıq dayandılar. Bir azdan nəfəslərini dərib yollarına davam etdilər. Bədir Cahan xanım qoltuğunda saxladığı ipək parçaya bükülü kiçik boxçanı yanındakı cavan gəlinə – Səltənət xanıma verdi. El arasında sözü keçən, kişili-qadınlı hamıya qayğı ilə yanaşan Cahan xanımın sevinci yerə-göyə sığmırdı. Yolboyu onu görənlər yaxınlaşıb salamlaşır, hal-əhval tutub xoş ovqatla nəvaziş göstərirdilər. Kənd məzarlığının

yanından keçərkən, bir anlıq ayaq saxlayan Cahan xanım, qadınlarla birlikdə məzarlıqda uyuyanların ruhuna fatihə verib, salavat çevirdi. Sonra yola davam edərək, irəlilədilər.

Heydər dağına qalxan daş yolu keçib, Hacıkəndin sıra ilə tikilmiş evlərinin arası ilə Heydər bulağına doğru hərəkət edən adamların səs-küyü ətrafa yayılmışdı. Bulağın ətrafında, gül-çiçəkli çəmənlikdə məskən salmış Həcər xanım, əqrəbası ilə gələn qonaqları gözləyirdi. Daşkəsənlilərin yaxınlaşdığını görən elat camaatı, ədəb-ərkanla onların pişvazına çıxdı. Adamların toplaşdığı yerə gəlib çatan Bədir Cahan xanım, şəstlə irəli keçib, Həcər xanıma yaxınlaşdı.

Həcərin ətrafında dayanan qohum-əqrəbası Cahan xanımın gəlişini intizarla izləyirdilər. Bulaq başında meydana toplaşanlar kənara çəkilib, hörmətlə Cahan xanıma yol verdilər. Kənardan bu mənzərəni seyr edən qız-gəlinlər yaşmaq bağlayıb, gələn qonaqları maraqla seyr edirdilər. Həcər xanımın bərabərində dayanan Cahan xanım, ərklə onu qucaqlayıb, bağrına basdı, doğma övladı kimi onun üz-gözündən öpdü. Ana ağuşuna sığınan körpətək kövrələn Həcər xanımın hönkürtüsü Cahan xanımı da kövrəltdi. Hər iki ixtiyar qadın, yanaqlarına süzülən göz yaşlarını saxlaya bilmədi. Kövrəldiklərini kənardan onları görənlərə hiss etdirmədən, xeyli bir-birinə qısılıb, dayandılar...

Bədir Cahan xanım Həcərin yaxın əqrəbası olan qızgəlinlərlə də görüşdü, mehribanlıqla qucaqlayıb boyunlarını oxşadı. Təzə boy atmış göy otların üzərində yan-yana sərilmiş gəbə üstündə əyləşən qadınlar, ətrafına toplaşan adamlarla hal-əhval tutub vəziyyətlərindən hali ol-

dular. Nəfəsini dərib, yorğunluğunu alan Bədir Cahan xanım, aramla söhbətə başladı. O, israrla Həcər xanımın qışlaqdan, Laləli təpədən köç yolunda necə gəldiklərini sorğu-sual edib, nigarançılığını dilə gətirdi.

Ağbirçək xanımın sualına nəzakətlə cavab verən Həcər:

- Bu qışı köçdə olan adamlarımız Laləli təpədə qışlayıblar. Gördüyünüz qoyun-quzu, mal-qaraların hamısı Mollu camaatınındır. Bir həftə bundan əvvəl köçümüzü yaylağa qaytarmaq üçün yoldaşım Həmzə ilə Laləli təpəyə getmişdik. İki gündür yaylağa tərəf hərəkət edirik. Əvvəl-əvvəl Ziyarət dağının ətəklərində qalacağıq, sonra isə payıza qədər Salvartı yaylaqlarına qalxacağıq. Sürüləri yol kənarında otara-otara gəlib bura çıxmışıq. Gecəni burda qalıb, dincimizi almaq istəyirik. Sabah sübh ertədən yolumuza davam etməliyik.

Həcərin dediklərinə diqqətlə qulaq asan Bədir Cahan xanım təəccüblə:

- Qızım, yol-riz qaçaq-quldurla doludur. Heç onlardan ehtiyat etmədiniz? İndi hər kolun dibində dayanan yol kəsənlərdən, pusquda durub, gəlib-gedəni soyanlardan ehtiyat etmədiniz? - deyə soruşdu.

Həcər xanım suala sualla, ötkəmliklə cavab verdi:

- Onların nəyindən ehtiyat edib qorxmalıyıq? Maşallah, köçdə olan çobanlarımızın hamısının silah-sursatı var. Yol kəsən quldurları yerindəcə əzişdirməyə cəsarətimiz çatar. Bir də ki, bu ətraf yerlərin hamısı Qaçaq Süleymanın oylağıdır. Kimin hünəri çatar ki, onun qorxusundan bir kimsə canından bezib, bu yerlərdə quldurluq etsin, yol kəsib camaatı soysun. Heç onların buna cəsarətləri də çata bilməz. Ancaq xala, sözünüzə qüvvət, bir gün

köçümüzlə yaylaqdan qışlağa, arana qayıdırdıq. Hava möhkəm küləkli idi. Qara yelin sazağı iliyimizə işləyirdi. Laləli təpədə, iki təpə arasında binə salıb, sürünü otaran çobanlarla bir dəstə atlı arasında pərtlik düşüb. Özlərini qaçaq Fərzalının silahdaşları kimi qələmə verənlər, zorgüclə köçdə olan çobanlardan yer haqqı əvəzi, beş-altı qoyun istəyiblər. Ancaq çobanlarımız atlıların danışığından, hərəkətlərindən şübhələnib, quldur olduqlarını başa düşüblər. Onların inadkarlıq edib əl çəkmək istəmədiklərini görən çobanlar silaha əl atıblar. Güllə səsinə səksənib tələsik alaçıqdan cıxdım. Təpənin yamacında tanımadığım bir dəstə atlı ilə çobanların əlbəyaxa savaşdığını gördüm. Başa düşdüm ki, nəsə xoşagəlməz hadisə baş verib. Özümü saxlaya bilməyib, dərhal atlanıb, onlara tərəf çapdım. Yaxınlaşıb nə görsəm yaxşıdır? Ayıya oxşayan pəzəvəngin biri yançıları ilə çobanlara hədə-qorxu gəlir. Mən məsələnin məğzini biləndən sonra, aynalını çevirib, çaxmağı çəkdim. Ayıya oxşayanın başının üstündən iki güllə atıb, qoyun dərisindən olan motal papağını dəlmə-deşik etdim. Məni tanıyıb pərt olan qansız quldurlar, dərhal atlarının başını çevirib, Gəyən cöllüyündə çaparaq, aradan çıxdılar. Çobanlarımız onları çomağın altına salıb yaxşı əzişdirmişdilər. Bu əhvalatdan xeyli vaxt keçmişdi ki, qoyunların arxaca yığılan vaxtı uzaqdan Qaçaq Süleymanın dəstəsi ilə köçümüzə yaxınlaşdığını gördüm. Həmişəki kimi, bizə baş çəkməyə gələn Süleyman yaxınlaşıb, salamlaşdıqdan sonra hal-əhvalımızı soruşub, nədən ehtiyacımız olduğunu soruşdu. Süleyman, sözarası gülə-gülə:

- O qanmaz ayıya oxşayanın papağını niyə dəlmə-deşik etmisən? - dedi.

- Onun zarafatla dediyi sözə gülüb, - qağa, qanmazı gərək elə o təhər də başa salasan ki, özünü qaçaq Fərzalı kimi qələmə verib, kasıb-kusuba qənim olmasın. Günün-günorta çağı çobanlarımızı sıxma-boğmaya salıb yer haqqı, qoyun tələb edənin cavabı elə o cür də olmalıdır.

Mənim sözümdən sonra Süleyman gülüb, Salvartı yaylağında köç yerində özünün başına gələn bir əhvalatı təəssüflə söyləyərək dedi:

- Dostum Mehdi ilə nişanlım Hamayılı görmək üçün onların köçünə getmişdim. Pay olaraq, özümüzlə iri bir erkək qoyun da aparmışdıq. Mənim köçdə olmadığımı bilən o heyvərə, sümsük it təki, dəstəsi ilə bizim alaçıqların yanında sülənirmiş. O yaramazın məqsədi mənim yoxluğumdan istifadə edib, sürümüzdən beş-on qoyunu yağmalayıb aparmaq olub. Nabələd adamların qəfil gəlişinə təəccüb edən nənəm onların köç ətrafında suçlu adam kimi gəzdiyini görüb kimliyini, kimi axtardıqlarını soruşur. Çünki biz dağın elə yerində köç salmışdıq ki, ora ancaq yaxın dar bir keçidi olan çınqıllı yolla qalxmaq mümkün idi. Nənəm onlardan nə lazım olduğunu soruşanda, pəzəvəngə oxşayan özünü yol adamı kimi nişan verərək, yol-rizi itirib azdıqlarını bildirir. Yazıq arvad onların dağdan aşağı düşmək istəməsinə kömək etmək məqsədi ilə dar keçidin yolunu nişan verib göstərir. Sonra yol adamlarının ac-susuz olduğunu zənn edib, alaçığa dəvət edir və qabaqlarına çay-çörək qoyub, qulluq göstərir. Yeyib doyan nanəcib oğrular alaçıqdan çıxıb atlanırlar. Ürkək nəzərlərlə ətrafa göz gəzdirib, otlayan qoyunlara müştəri gözü ilə baxan pəzəvəngin göstərişi ilə sürüdən say-seçmə erkəklərdən onunu ayırtdırıb qabaqlarına qataraq, aradan çıxmaq istəyirlər. Bunu görən nənəm onların oğru ol-

duğunu başa düşüb, üstlərinə hücum çəkir, köçdən qovmağa çalışır. Ancaq niyyətlərindən əl çəkməyən oğrular seçdikləri qoyunlarla üzü aşağı yola düşürlər. İşi belə görən nənəm naəlac qalıb, oğrubaşının atının üzəngisindən tutub ona eşitdirir ki, götürdüyün sağrısı xınalı erkəkləri Süleyman, toyundan qabaq qız evinə pay aparacaq. Ayıya oxşayan nənəmin dediklərini qulaq ardına vurub atını dəhmərləyir. Onun hərəkətlərinə dözə bilməyib, yerə yıxılmaqdan özünü güclə saxlayan yazıq arvad soruşur:

- Ay bala, sorğusuz-sualsız qoyunları yağmaladınız, halal xoşunuz olsun. Bəs yaxşı, sizlər toy edəndə qız evinə nə aparırsınız...?

Arvadın bu sualına cavab verən o qanmaz nə desə yaxşıdır?

- Ay arvad, nə aparmalıyıq? Bizim belə imkanlarımız hardadır ki, qız evinə say-seçmə erkək alıb aparaq? Çöl-biyabanda çəpişdən-çüpüşdən əlimizə nə keçərsə dərhal yağmalayıb, aparıb atırıq qız evinin xarabasına. Heyvərənin irişə-irişə, qanacaqsız sözlərini eşidən nənəm onlara bir kəlmə də söz demir. Qanmaz oğlu arsızlığına salıb erkəkləri qabağına qatıb arxasına baxmadan ensiz yolla yaylaqdan üzüaşağı düşürlər. Bu vaxt mən də Mehdi ilə atlarımızı yorğa sürüb, həmin yolu üzüyuxarı qalxırdıq. Qəflətən qarşıdakı qaratikan kolluqlarının arasında o heyvərənin dəstəsi ilə rastlaşdıq. Onların hay-küylə, irişə-irişə qabaqlarında qovduqları xınalı qoyunlarımızı görüb tanıdım. İşin nə yerdə olduğunu dərhal anladım. Ayıya oxşayan məni görən kimi təşər-təşər üstümə tüfəng çəkmək istəyirdi ki, başının üstündən iki güllə atdım. Məni tanıyan oğrular özlərini itirdilər. Pəzəvəngə oxşayanın sifəti meyit rəngi almışdı. Qorxudan atın belində tir-tir əsir-

di. Üçüncü gülləni onun təpəsinə çaxmağı qıymadım. Dedim ki, silahlarınızı yerə atın, qoyunları da birbaşa köç yerinə, alaçıqlara qaytarın. Özlərini itirən oğrular qorxularından dərhal mənim dediklərimə əməl edib tüfəngləri yerə atdılar. Çınqıllı dar yolda təpəni qalxıb öz alaçığımıza çatanda bizi görən nənəm tez atın qabağına yüyürüb, - südümü sənə halal etmərəm, əgər onlara bir xətər yetirsən, dedi. Nənəmin bu sözündən sonra, səbr edib sakitləşdim, əlim-qolum yanıma düşdü. Yazıq arvad atın yüyənini buraxıb mənim susduğumu görüb, - başqasının sürüsündən oğurluq edib çəpiş-çüpüş aparmaqla qarnını doyurub arvad alan kişidən bundan artıq heç nə gözləmək olmaz, - dedi. O hadisədən sonra papağı dəlmə-deşik olan o pəzəvəng bir daha gözümə görünmədi. İndi ay Həcər xanım, mənim kimi sən də ikinci dəfə o qanmazın papağını dəlmə-deşik edib salmısan çöllərə...

Əhvalatı danışan Həcər xanım bir anlıq susdu. Kənarda samovarı qaynadan gəlini əlinin işarəsi ilə yanına çağırdı. Astaca ona tapşırıqlar verəndən sonra sözünə davam edərək, - Cahan xala, Süleymanın danışdığı əhvalatı eşidəndən sonra başa düşdüm ki, düz hərəkət etmişəm. Qaçaq Süleymanın başına gələn əhvalatla mənim hərəkətim yerinə düşüb. Belələri canavar təki kol dibində pusquda durub soyğunçuluqla günlərini keçirirlər. Çobanlarımız da həmişə sərvaxt olub mənəm-mənəm deyənlərin qabağından qaçan deyillər. Necə lazımdır, onların cavablarını verə bilirlər. O hadisədən sonra Süleyman qağa bizimlə sağollaşıb başının dəstəsi ilə obasına doğru yollandı.

Cahan xanım Həcərin başına gələnləri diqqətlə dinlədikcə onun hünərinə heyran olmuşdu. Gözlərindən süzülən yaş damlasını örpəyinin ucu ulə silib onu süzdü:

- Eh, ay qızım, bayaq söhbət əsnasında dedim axı, bələləri ancaq kol dibində gizlənib, gəlib-gedən əlsiz-ayaqsız binəva insanları çapıb-talayırlar. O vaxtlar onların öhdəsindən rəhmətlik Qaçaq Nəbi gələ bilirdi. Şükür ki, o nanəciblərdən ütüksüz ötüşmüsünüz, - deyə Bədir Cahan xanım ürək ağrısı ilə dedi.

- Düz deyirsən, xala, yol-riz o nanəciblərlə doludur, - deyə Cahan xanıma qulaq asan Həcər, - söhbət əsnasında qışlaq yerlərində qayğılarının çətin olduqlarını yada salaraq:

- Çobanlarımız sürüləri Laləli təpədə, Haramı düzündə, ya da Mil düzünün otlaqlarında otarır, orda da qışlayırlar. Qaçaq Süleyman yay-qış tez-tez başının dəstəsi ilə o tərəflərə səfər edir və hərdən də köçümüzə təşrif buyurur. Heç zaman qayğısını üstümüzdən əskik etmir, hal-əhval bilməsə, rahat ola bilmir.

Diqqətlə qulaq asan Bədir Cahan xanım, Həcərin dediklərini başının hərəkəti ilə təsdiq edib:

- Ay qızım, sən ki, qadınlığınla bu ağır yükün altına girib köçü sağ-salamat dağdan-arana, arandan dağa aparıb-gətirirsən, vallah, çox böyük hünər sahibisən, - deyə yanaşı əyləşdiyi Məşədi Gülgəz xanıma tərəf çönüb, ona da eşitdirdi.

Məşədi Gülgəz xanım təmkinlə:

- Cahan xanım, düz deyirsən. Rəhmətlik Nəbinin də sağlığında Həcər xanım qorxu-hürkü bilməzdi, - deyə onun sözünü təsdiq edərək, cavab verdi.

Ağbirçək qadınları diqqətlə dinləyən Həcər xanım:

- Xala, köçü qışlağa aparanda yoldaşım Həmzəylə qohum-əqrəbanın yanında bir-iki günlüyə qalıram. Qalan vaxtlar kəndimizə qayıdıb, həyət-bacada çalışırıq. Külfətimiz böyükdür. İndi mənim qayğılarım, yüküm də çoxa-

lıb. Qardaşım Məhəmmədi tutub, Sibirə sürgünə göndərdilər. Bacım Mehran dəstəmizdə vuruşanda aldığı güllə yarasından dünyasını dəyişdi. İndi onların tifillərinin də dərd-səri, qayğıları mənim boynumdadır, - deyə yanıqlı danışa-danışa ailədəki vəziyyətini anlatdı.

Onu dinləyənlər deyilənləri eşitdikcə bərk mütəəssir olmuşdular. Həcər xanımı dinləyən Cahan xanım, dərindən ah çəkib:

- Qızım, bizi yaradanın hökmü belədir. Heç də özünü el-oba içində, düşmən qarşısında sındırıb xar eləmə. Hər qaranlıq bir gecənin yəqin ki, işıqlı gündüzü də var. İnşallah, o balacalar da böyüyər, hərəsi bir ev-eşik sahibi olarlar. Sənin də yükün azalar, - deyə aramla danışan Cahan xanım ona ürək-dirək verdi.

Bir azdan qız-gəlinlər məclisdə əyləşənlərin qabağına süfrə sərib, noğul-qəndlə dolu qabları süfrəyə düzdülər. Bunu görən Cahan xanım təmkinlə:

- Allah süfrənizi həmişə açıq, ruzinizi bol eləsin. Əziyyət çəkməyin. Biz bura ona görə gəlmişik ki, hamınızı bir yerdə evimizə qonaq aparaq. Qızım, səndən nə gizlədim, - deyə əlini daş yola tərəf uzadaraq, - hər dəfə istəyirdiyim ki, Mollu camaatının köçü burdan keçəndə, gəlib sənlə görüşüm. Ancaq həmişə sizin köçünüz aşağı yolla, Araz çayı boyunca karvan yoluyla ötüb keçirdi. İndi çox-çox şükürlər olsun ki, yolunuzu burdan salmısınız. Gəlişinizi eşidib-bilən kənd adamları da səni görmək eşqinə uşaqlı-böyüklü axışıblar bura. Sizi yaxından ziyarət edib, görmək istəyirlər. Ətrafda dayanıb məclisdə oturanların söhbətinə qulaq asan Daşkəsən camaatını gözucu seyr edən Bədir Cahan xanım əlinin işarəsiylə onları yaxına çağırdı.

Cahan xanımın çağırışını görənlər məclisdə oturanlara yaxınlaşdılar.

Gələnlərin üzlərində təbəssümü görən Həcər xanım, ayağa qalxıb onları süfrəyə dəvət etdi. Məclisdə qulluq edən qız-gəlinlər mis sinidə çay süzülmüş armudu stəkanları süfrəyə düzdülər. Razılıqla qızlara dua edən Cahan xanım qənd qabından noğul götürüb, çayı içməyə başladı. Həcər xanım ona gətirilən sovqatlara heç gözucu da baxmırdı. Cahan xanımın təbəssümlü işarəsini hiss edən Səltənət xanım, qucağında saxladığı ipək boxçanı astaca gətirib ona verdi. Boxçanı açıb ayağa qalxan Bədir Cahan xanım, Daşkəsən ipəyindən toxunmuş ipək saçaqlı ağ örpəyi Həcər xanımın başına örtdü. Sonra aşağı əyilib Məşədi Yusif ağanın ipək fabrikində toxunmuş allı-güllü tirmə şalı geniş açaraq, onun çiyninə saldı. Ana nəvazişini, onun isti nəfəsini hiss edən Həcər xanımın yanaqlarından süzülən göz yaşı hamını kövrəltdi. Başına örtdüyü ipək örpəyin ucu ilə Həcər xanımın yanaqlarına süzülən göz yaşını silən Cahan xanım bağlamadakı Surxay bəyin fabrikində toxunmuş bir dəst Daşkəsən qumaşını da Həcər xanıma uzadaraq: - Qızım, biz hamımız sənin görüşünə gəlmişik. Səni yaxından görmək istəyənlər - uşaqdan böyüyə axışıb bura yığılıblar. Onların gətirdikləri sovqatları, pay-püşkü almasan, qəlblərinə xal düşər. Vallah, bala, kəndimizin balaca uşaqları da bütün günü dağda-daşda, bu gördüyün bağlarda, - deyə Cahan xanım ətrafdakı meşə təki Dəhnə bağlarını əli ilə göstərib, - dərə-təpədə Qaçaq Nəbinin, sənin adına qoşulan mahnıları oxumaqdan yorulmurlar. Kəndimizdə elə bir uşaq tapılmaz ki, sənin, rəhmətlik Nəbinin şəninə qoşulmuş aşıq havalarını, bayatıları oxumasınlar. Kəndimizin toyları, el şənlikləri, yığıncaqları heç vaxt sizin mərdliyinizə qoşulan mahnısız, dastansız ötüşmür.

Cahan xanım aramla danışa-danışa, nəvazişlə gülümsünüb, sözünü bitirdi.

- Bilirəm xala, günorta Havadərədən üzüyuxarı, at belində köç qabağında Havadərədən Daşkəsən gədiyinə tərəf qalxanda, uşaqların oxuduqları mahnılara qulaq asırdım. Maşallah olsun, Allah saxlamışlar heç yorulmaq da bilmirlər. İri gövdəli qoz ağaclarının budaqlarında atılıb-düşən uşaqlar səs-səsə verib elə də gözəl oxuyurlar, elə bil ki, Qarabağ bülbülləri meşədə cəh-cəh vurur.

Həcərin uşaqlar haqqında dediklərini eşidib, gülümsünən Cahan xanım:

- Qızım, evimiz yaxındır. Köçünüzdə olan qohum-əqrəbanızla yığışın gedəyin bizə. Elimiz də, evimiz də böyükdür. Laləli təpədən bura qədər uzaq yol gəlmisiniz. Bu gün bizdə qalıb dincəlin, sonra yolunuza davam edərsiniz, - deyə - Cahan xanım ana nəvazişi ilə Həcəri yaxınları ilə birlikdə evinə dəvət etdi.

- Xala, nə zəhmətdir. Çox sağ olun, Allah sizdən razı olsun. Qonaq getmişkən varıq. Vallah, yolumuz uzaqdır. Bu gecəni burda qalsaq, yaxşıdır. Sizin haqqınızda danışılanları çox eşitmişəm. Sorağınızı sizi yaxından tanıyanlardan alıram. Bəlkə də bu, bir olan Allahın yazısıdır ki, sizinlə burda görüşürük. Qaldı ki, camaatın mənə gətirdiyi sovqatlara, vallah, xala, məndən inciməyin, onları götürmək istəmirəm. Rəhmətlik Nəbidən sonra haqqımda hərcayi söz qoşub hədyan danışanlar, qarayaxanlar dilboğaza qoymurlar. Olmazın şər-böhtanlarını yayanlar abırhəya edib utanmırlar. İstəmirəm ki, adıma çıxarılan bu söz-söhbətlər erkək qanqal kolu kimi baş qaldırsın, - deyə - Həcər xanım məğrur baxışlarla gözünü Cahan xanımdan çəkmədən haqqında şayiə yayanlara qarşı nifrətini dilinə gətirməkdən çəkinmədi.

- Ay qızım, sənin haqqında o söz-söhbətləri, şər-böhtanları kim deyibsə, deməli, əməli-saleh adam deyil. Qoy nə qədər danışırlar-danışsınlar, - "İt hürər, karvan keçər". Hərcayi söz qoşanlar, qadın dəyanətinin nə demək olduğunu anlaya bilməzlər. Sən bu dağların qartal balası, alınmaz qalası, məğrur qızı olmusan. Nəbinin sağlığında da, ondan sonra da haqqın yolunda həmişə sinəni irəli vermisən. Azğınlarla döyüşdə qayaları özünə sipər edib binəva, kasıb-kusubun mal-mülkünü çapıb-talayanların, yolunu azmış bəylərin cavabını hünərlə verəndə, şər-böhtanla yatıb-duranlar qorxularından gizlənmək üçün siçan deşiyini axtarırdılar. Bilmirdilər ki, başlarını hansı dəlmədeşiyə soxsunlar. Vallah, qızım, o hədyan danışan dil pəhləvanlarına kövşənlərdə otarmağa iki qotur keçini də etibar etmək olmaz. Ona görə ki, qurda-quşa yem edərlər. Qədimlərdən yaxşı bir məsəl var, - "Keçi qaya kölgəsində yatar, elə bilər ki, öz kölgəsidir!"

- Xala, - iti baxışlarla Cahan xanımı süzən Həcər, - Nəbinin ölümündən sonra başıma gələnləri o görünən qayaya danışsam, - deyə Səsverən qayanı göstərib, - qaya parçalanıb xıncım-xıncım olar. Bizimlə ədavəti olanlar bir müddət qisas almaq xülyasıyla gecə-gündüz uşaqlarımı, qohumlarımı izləyib öldürmək istəyirdilər. Ancaq, el-oba camaatı bizi qoruduğuna görə, alçaqlar marığa yatmış yalquzaq təki xəlvətə çəkildilər. Ağır günümüzdən xəbər tutan Qaçaq Süleyman, dəstəsiylə Molluya gəlib, camaatı məscid meydanına yığıb, sorğu-sual etdi. Onun gəlişindən sonra bizimlə ədavəti olanlar gecəykən qeyb oldular. Aralıq sakitləşsə də, Mollu ağsaqqallarının məsləhəti və təhrikiylə oğlanlarımı - Əhmədlə Xəlili Araz çayından o taya ötürməyə qərar verdim. Payızın çiskinli, dumanlı havasında si-

lahdaşlarımla birlikdə Ağrı dağının çətin keçilən aşırımından keçib uşaqları Osmanlı torpağına, Qarsa qədər yola saldım. Nəbinin orda yaşayan qohumlarını tapıb, uşaqlarımı əmanət olaraq onlara tapşırdım. Hər dəfə Qarsdan gələn tanış-bilişlər uşaqların sağ-salamat olmasından xəbər gətirirlər.

Həcəri diqqətlə dinləyən Cahan xanım:

- Bilirsən, qızım, başa düşməyən, qanmaz adamlara heç vaxt baş qoşmasan, yaxşıdır. Qədəri yazan Allahdır. Bəndə nəkarədir ki, qurban olduğumuzun hökmü qarşısında atılıb-düşsün, - deyə aramla danışan Cahan xanımın işarəsiylə aralıda dayanmış daşkəsənlilər gətirdikləri sovqatları şadyanalıqla köç əhlinə payladılar...

Söhbəti yarımçıq saxlayıb, nəfəsini dərən Ceyran nənəyə qulaq asan gəlinlərdən biri kövrəlib duruxdu. Əlindəki yaş paltarı kənara atıb səbri tükənmiş kimi həyəcanla soruşdu:

- Nənə, qurbanın olum, ardını danış, danış görək o əhvalatın sonrası necə oldu? Görüşünə gedən camaatımıza Həcər xanım mehribanlıq göstərdimi? Onu görənlər evlərinə xoş ovqatla qayıtdılar...?

- Yox, qızım. Elə yerdən kim qayıdar axı?! Orda adam əlindən tərpənmək də mümkün deyildi. Sayı-hesabı bilinməyən adam əlindən iynə atsan, yerə düşməzdi. O gecə Hacıkəndlə Heydər bulağı arasında meydana toplaşanlar bir şadyanalıq etdilər ki, gəl görəsən. Uşaqlı-böyüklü görüşə gələn insanların üzləri gülür, Həcər xanıma bəslədikləri doğmalığı, sevinci bilmirdilər ki, onunla necə bölüşsünlər. Vallah, inanın inandığınıza ki, Həcər xanımın adını eşidib, üzünü görməyən uşaqlar da sevindiklərindən atılıb-düşür, ayaq üstə tamaşa edənlərin qarşısında

bardaş qurub, ona heyranlıqla baxırdılar. Köçdə olanlardan saz çalıb-oxumağı bacaran ahıl yaşlı iki çoban da sazlarını kökləyib, balabançı ilə meydana atılmışdılar. Çalıb-oxuduqları aşıq havasıyla camaatı feyziyab edirdilər. Aşıqlara diqqətlə qulaq asan Cahan xanım, Həcərə tərəf dönüb ona nə dedisə, barmağını adamlar arasında dayanmış cavan oğlana tuşlayaraq, sədəfli sazını çiynindən aşırıb sakitcə dayanmış Məşədi Humayı göstərərək nəsə dedi. Cahan xanıma diqqətlə qulaq asan Həcər onun göstərdiyi səmtə tərəf boylanıb cavan aşığı, Məşədi Humayı görüb ani olaraq gülümsündü. Aşıqlar oxuduğu mahnıları qurtarar-qurtarmaz, Həcər xanım aşıq Humayı meydana dəvət etdi. Bu dəvəti görən Humay, sazı çiynindən aşağı endirib meydana girdi. Bu an balabançı Seyfəli də özünəməxsus qıvraq hərəkətiylə balabanını kökləyib, gəlib onun yanında dayandı. Erkən vaxtlarından saz çalıb oxumağı, aşıqlıq sənətini mükəmməl öyrənən aşıq Humayla balabançı Seyfəli o görüşdə bütün gecəni çalıb-oxudular. Yorulmaq bilmədən aşıq mahnılarını oxuya-oxuya hamını şənləndirdilər.

Meydanda var-gəl edib sazını kökləyən Humay, anidən ətrafdakı adamları seyr etdi. O, üzünü Həcər xanıma tərəf tutub, ədəb-ərkanla salamlaşdı. Sonra sədəfli sazını sinəsinə basıb, çılğınlıqla çalmağa başladı. Sevincindən yerə-göyə sığmayan Məşədi Humay, sarıtel havası üstündə şaqraq səsiylə oxumağa başladı:

Ay ellər, obalar, eşidin məni,
Humayam, əhdimə çatan günümdür.
Fəryadın, nalənin, qəmin, qüssənin,
Kədərin daşını atan günümdür.

Aşığın bədahətdən qoşduğu qoşmanı eşidənlər onu heyrətlə dinlədi. Qulaq asan adamların hay-küyü tam kəsildi. Hamının diqqəti aşığa yönəlmişdi:

Bəylər, bəyzadələr yasa batıbdır,
Zülmət gecələrim sona çatıbdır,
Sevincim göz açıb, qəmim yatıbdır,
Nəğməni nəğməyə qoşan günümdür.

Mahnını bitirər-bitirməz, meydanda elə bir gurultu qopdu ki, elə bil göy guruldadı. Ora toplaşanlar yer-yerdən Məşədi Humaya əhsən deyib qışqırışır, çəpik çala-çala onu alqışlayırdılar.

Aşığı diqqətlə dinləyən Həcərin çöhrəsində görünən heyrətamiz mənalı anlar, tamaşaçıların diqqətindən yayınmadı. Onun xoş ovqatdan yaranmış təbəssümü hamını sevindirdi.

Sarıtel üstə qoşduğu qoşmaları oxuyan aşıq Humay, dinləyənlər arasında aradığı adamı axtarırmış kimi, onları diqqətlə bir-bir gözaltı süzürdü.

Meydanın ortasında cövlan edən aşıq, Heydər dağının zirvəsində əzəmətiylə seçilən Səsverən qayanı bir anlıq heyranlıqla seyr etdi. Sazın tellərindən qopan cingiltili səsin, şirin avazla oxuduğu qoşmaların sehrinə düşən aşıq, ustad aşıqlardan bir beyti yanıqlı səslə oxudu:

Duman, gəl get bu dağlardan,
Dağlar taza bar eyləsin.
Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin.

Aşıq, nigaran baxışlarla tamaşa edənlərin arxa tərəfində, at belində onu dinləyən dostu Rəşidə tərəf baxa-baxa, nəyi isə ona anlatmağa çalışırdı.

Aşığın səsində nisgili hiss edən Rəşid, onun narahat olduğunu görüb, ucadan söylənərək:

- Məşədi, özünü darıxdırma, aşıq Abış Atöldürən kəhrizindən üzübəri gəlir, - deyə, - əli ilə onun gəldiyi səmti göstərdi.

Rəşidin həyəcanla dediyini eşidən tamaşaçılar, dərhal arxaya dönüb, kəhrizə tərəf boylandılar.

Məclisə yaxınlaşan el aşığını görənlər, dayandıqları yerdən aralanıb, hörmətlə ona yol verdilər. Kənd adamlarının göstərdiyi hörmət-izzətin müqabilində Aşıq Abış razılıq edə-edə meydana daxil oldu.

Ustadının vaxtında gəlib, imdadına çatdığını görən Humay, elə bil ki, yayından qopmuş ox kimi cövlan etməyə başladı.

Humay, ləngimədən götür sazını,
Qoy ilham pərisi meydana gəlsin!
Ucalt şirin sözlü xoş avazını,
De ki, bu büsata, cövlana gəlsin!

Sazın tellərini dilləndirən Aşıq Abış qıyğacı Humayı süzdü. Toxtaqlıq verib, onu ruhlandırdı.

O məclisdə saz çalıb oxuyan çoban aşıqlar, Məşədi Humayı dinlədikcə, onun şaqraq səsinə məəttəl qalmışdılar. Təəccüblərini gizlədə bilməyib, heyrətlənən çobanlar pərt olmuş kimi, tərəddüd edib, Humaydan sonra necə oxuyacaqlarını bilmirdilər.

Aşığın səsi o qədər güclü idi ki, elə bilirdik Səsverən qaya yeddi yerindən parçalanıb, üstümüzə töküləcək. Aşıq Valehin "Baş Sarıtel" havası üstdə oxuduğu mahnıları səsləndirən Humayın səsi məclis əhlini elə ovsunlamışdı ki, ona qulaq asanlar cınqırlarını da çıxartmırdılar. Şaqraq səsiylə oxuduğu misraların sözləri Havadərədən ətraf aləmə yayılıb, Səsverən qayada əks-səda verirdi.

Hünər diyarıdır Qarabağ eli,
Sərsəri mehmana dar bu yerdədir.
Sahibi sərkardır, bağbanı mahir,
Qeyrət bu yerdədir, ar bu yerdədir.

Aşıq Humayın səsini yaxşı eşitmək istəyən tamaşaçılar, irəliyə doğru can atıb, sıx-sıx dayanmışdılar. Onun yanıqlı səsi hamını kövrəltmişdi.

İti baxışlarıyla aşığa nəzər yetirən Həcər xanım, razılıqla başını tərpədib, onun səsindəki məlahəti bəyəndiyini və razı qaldığını bildirirdi.

Köçdə olan aşıqlarla Aşıq Abış saz çala-çala həmin mahnını ucadan səsləndirir, qoşmanın son iki misrasını birlikdə oxuyub, ayaq verirdi.

Ustad aşıq Dirili Qurbanidən yanıqlı oxuyan məşədi Humaya qulaq asanlar, onun eyhamla söylədiyi qoşmanı təəccüblə qarşıladılar:

Söylə dərdin bilənlərə,
Dərd başına gələnlərə.
Hər üzünə gülənlərə,
Etibar eyləmək olmaz.

Məşədi Humay oxuduqca hamının nəzər-diqqəti onun üzünə yönəlmişdi. O, başını sazın çanağına söykəyib, öz dünyasına qapılmışdı. Yer-yerdən, "Aşıq, halal olsun," - deyə onu alqışlayırdılar.

Valehəm, ağlım itirdim,
Dərdimi sizə yetirdim.
Bağ saldım, bara gətirdim,
Yemədim bəhri-barından.

Aşıq Humay sözünü yenicə tamamlamışdı ki, Həcər xanım əyləşdiyi yerdən ayağa qalxıb, şəstlə ona tərəf yaxınlaşdı.

Məclisdə aşığa maraqla qulaq asanlar, bu mənzərəni sükutla seyr edirdilər.

Həcər xanımın qəfil meydana girməsini təəccüblə izləyən tamaşaçılar, bu hadisənin sonluğunun nə ilə qurtaracağını səbirsizliklə gözləməli oldular.

Həcər xanım özünəməxsus hərəkətiylə aşığın bərabərində dayanıb ucadan söylədi:

- Aşıq, günorta qayalıqda nişangah qoyub, güllə atmağın o qədər də sərrast olmasa da, maşallah olsun, indi çalıb-oxumağına söz ola bilməz. Ustadların qoşmalarından yanıqlı oxumağın məni də kövrəltdi. Şaqraq səsin, şirin avazın var. Oxuyanda elə bil daş-qayanı yerindən oynadırsan. Səsinə qüvvət, onu qoru. Allah səni bu el-obaya çox görməsin. Ustadına da min əhsən, - deyə Humayla yanaşı dayanan el aşığı, Abışa tərəf dönüb, şagirdinin yolunda çəkdiyi əziyyətə görə ona da minnətdarlıq edərək, razı qaldığını bildirdi.

Aşıqları tərif edən Həcər xanım, xoş ovqatla onlardan ayrılıb geriyə qayıdaraq, ağbirçək qadınların yanında əyləşdi.

Həcərin aşıq Humaya verdiyi xeyir-duanı eşidənlər, gülə-gülə başlarını yelləyib, çəpik çala-çala onu alqışladılar.

Aşıq Humay sazı sinəsinə basıb meydanda var-gəl edir, qoşmaları bir-birinin ardınca zil səslə oxuyurdu. Ona yer-yerdən o qədər sifariş verirdilər ki, yazıq bilmirdi ki, kimin eşitmək istədiyi mahnını əvvələ salıb oxusun. Yaxşı ki, saz çalan çobanlarla aşıq Abış Humayın köməyinə çatıb bir-iki ağız deyişərək, ona soluq verirdilər.

Aşıqları müşayiət edən balabançı Seyfəli ovurdlarını şişirdib göz vura-vura məzəli hərəkətlərindən də qalmırdı. Seyfəli, adəti üzrə sazın tellərindən çıxan cingiltili səsə uyğun dəm tutur, aşığa maraqla qulaq asan məclis əhlində xoş ovqat yaradırdı. Humay oxuyub-çaldıqca Seyfəli də qıvraq yerişiylə onun ardınca gedərək, müşayiət edirdi. O, haldan-hala düşür, gah kədərlənir, gah da xoş əhvalını elə ustalıqla göstərirdi ki, meydana yığılanlar çəpik çalıb onun məzəli hərəkətlərinə qəşş edib gülüşürdülər.

Aşıq Humay meydanın ortasında bir anlıq dayanıb nə fikirləşdisə, sazın tellərini "Yanıq Kərəmi" üstə köklədi. Bir anlıq üzünü tamaşaçılara tutub, oxumağa başladı. Bunu eşidənlər kirimişcə dayanıb, ona qulaq asırdılar. O gecə Aşıq Abışla Humayın deyişməsinə qulaq asanlar səhərəcən məclisdən ayrılmaq istəmirdilər. Hamının nəzərləri onlara dikilmişdi. Ancaq bir az keçməmiş, məclisə toplaşan adamlar tələb etdilər ki, gərək Humay, "Valehlə Zərnigar" dastanını bu gecə bizə nağıl etsin. Çar-naçar qalan Humay dastanı əvvəldən axıra kimi saz havası üstündə oxuyub nağıl etməyə başladı:

Mülki-Şirvana mən yetdim,
Məcnuntək düşdüm səhraya.
Dəli-divanə mən gəldim,
Qarabağdan səfər etdim.

Humayın dastandan oxuduğu misralara rəğmən yer-yerdən eşidilən, "sağ ol aşıq" kəlmələri Səsverən qayada əks-səda verib çox-çox uzaqlara uçub gedirdi...

Daşkəsən gədiyini ötdüm,
Əcaib sehrlər etdim.
Şamaxı şəhrinə yetdim,
Sanki rövzana mən gəldim.

Aşıq oxuduqca Cahan xanım Heydər dağının dəvə belinə bənzəri olan Daşkəsən gədiyini əli ilə Həcər xanıma göstərib:

- Qızım, aşıqların oxuduğu mahnılarda adı çəkilən Daşkəsən gədiyi gördüyün Heydər dağını ikiyə bölən daş yolumuzdur. Qədimdən camaatımız bu dağdan daş qopardıb daşıyır, kənddə özünə gen-bol evlər tikiblər. Daşınan daşların hesabına iki dağın arasında dəvə belinə bənzər gədik əmələ gəlib.

Aşığa qulaq asa-asa Həcərlə xısın-xısın danışan Cahan xanım arxaya çevrilib, günçıxan tərəfdə Ala dağını barmağının işarəsi ilə göstərdi. Uzaqdan topa buludlardan aşağıda aydın seçilən Ala dağın sıldırımlı keçidlərində görünən dolanbac dar yol sanki ilantək nəhəng Ala qayanın boynuna sarılmışdı. Cahan xanım sözünə davam edərək, çətin keçilə bilən, hər iki yolun aşırımlarının qədimdən bəri Daşkəsən kəndinin gədikləri olduğunu Həcər xanıma

ətraflı izah edirdi. Bədir Cahan xanımı diqqətlə dinləyən Həcər, onun göstərdiyi Aladağın sıldırımlı şiş qayalarına baxa-baxa başını tərpədib, diqqətlə aşığı dinləyirdi.

Gəraylıları mirvaritək yan-yana düzüb oxuyan Aşıq Humay:

Xoşdu Cavanı, yaylağı,
Soyuq suyu, tər bulağı,
Bahar fəsli gələn çağı,
Əcəb xəndana mən gəldim.

Toranlığın düşməsi ilə zülmət qaranlıq yavaş-yavaş hökm sürürdü. Məclisə toplaşanların arxa tərəfində at belində tamaşa edən Daşkəsənli cavanları əllərindəki iri məşəllərlə meydanı işıqlandırır, hər tərəfi nura qərq edirdilər.

Sədəfli sazın tellərini iti barmaqları ilə pərdələrdə dilləndirən aşıq Humayın çaldığı və oxuduğu qoşmaların yanıqlı səsi tükənmək bilmirdi.

Hamının diqqəti aşığa yönəlmişdi.

Mən Valehəm, Zərnigara,
Canımı saldın odlara.
Sığındım Pərvərdigara,
Misli-pərvanə mən gəldim.

Xoş avazla dastandan şeirlər oxuyan aşığın səsi hamını valeh etmişdi. Çalınan, oxunan mahnılara heyranlıqla qulaq asan Həcər xanım, başını Cahan xanımın ciyninə söykəyib, ona elə qısılmışdı ki, sanki məsum körpə uşaqtək doğma anasına pənah gətirmişdi. Görənlər bu mənzərəni məmnunluqla seyr edirdilər.

Qaranlıqda işıq saçan məşəllər yeniləri ilə əvəz olunurdu. Dastandan söylənən qoşmalar şirin avazla səslənirdi. Dastanı sonadək nağıl edib oxuyan Aşıq Humay yorulmaq bilmədən şövqlə oxuyurdu.

Şirin söhbətini arada kəsən Ceyran nənə yorğun baxışlarıyla Heydər dağını seyr edib, bir anlıq fikrə getdi. Ətrafına toplaşan qız-gəlinlərin baxışlarına tab gətirə bilməyən ağbirçək qadın gözlərini aşağı dikib, xəyala dalaraq xeyli susdu. Hərdən də başını astaca tərpədərək, örpəyinin ucu ilə yaşarmış gözlərini silib, dərindən köks ötürdü. Bir azdan xəyallar aləmindən ayrılıb, özünə gələn Ceyran nənə, ona qulaq asanları çox da intizarda qoymayıb, təəssüf hissi ilə dedi:

- O vaxtlardan xeyli müddət keçməsinə baxmayaraq, Heydər bulağının ətrafında olan şadyanalığın, çalınıb-oxunan mahnıların səs-sədası indiyədək qulağımdan getmir. Deyərdim, bəlkə də, Heydər dağının ətrafında indiyə qədər belə bir busat, belə bir görüş olmamışdı...

Gecəni yatmayan Daşkəsən cavanları sübh tezdən Həcər xanımın köçünü atlara, dəvələrə yüklədilər. Onları Daşkəsən gədiyindən üzüyuxarı yola salıb, Papı, Çərəkən kəndləri boyunca uzanıb gedən daş yolun ətraf yamaclarında qoyun sürülərini otara-otara Əfəndilər kəndinə qədər ötürdülər. İndi, ay bala, Mirzə Məmişin qızı da o gündən bəri özünü Həcər xanıma oxşadır, - deyə Ceyran nənə keçən günləri kövrəkliklə xatırlayıb, xeyli fikrə getdi. Gözlərindən axan iki damcı yaş, yanağından üzüaşağı süzüldü. Özü də şahidi olduğu xoş anların tezliklə geri qayıdacağına, əminliklə bir daha o anların təkrar olunacağına inanırmış kimi, susurdu.

İxtiyar çağında zamanın arxada qalmasına heyfsilənən nənə peşmançılıq hissini boğa bilmir, qəmli baxışlarını gölün göz yaşıtək dumduru sularından çəkmədən, nisgilini ətrafdakı qız-gəlinlərə bildirmədən gizlətməyə çalışırdı.

Ceyran nənənin aramla danışdığı əhvalata heyranlıqla qulaq asan qız-gəlinlərin gözlərinin qəribə ifadəsi hamını əfsunlamışdı. İri gövdəli qoşa çinar ağaclarının budaqlarındakı yarpaqların xışıltılı titrəyişi ilə gətirdiyi xəfif meh insanın ruhunu oxşayırdı...

***

Səsverən qayada eşidilən mahnıların şaqraq səsi kəsilmək bilmirdi:

Yavaş yeri, əldə narı saxlaram,
Yar gəlincə, dəstə gülü bağlaram,
Küsüb getsən, mən gileyi başlaram...

Şaqraq səslə oxunan mahnıların sözləri göl qırağında paltar-palaz yuyanları da işindən ayırmışdı. Heyranlıqla ona qulaq asan qız-gəlinlər hərdən də bir-birinə baxıb göz vuraraq, başlarını razılıqla tərpədir, maraqla nəğməni dinləyirdilər...

Aman yarım, gözəl yarım, gül yarım,
Küsdürmüsən, gəl könlümü al, canım...

***

Təzə kəhrizdən aşağı su dəhnəsində səkil kəhəri suvaran cavan oğlan, oxuyan qızı görməsə də, eşidilən mahnıya diqqətlə qulaq asırdı. Özündən asılı olmayaraq, intizarla Heydər dağına tərəf boylanıb, susurdu. Suyun

gur axan şırnağında su dəyirmanının sınmış çarxını təmir edən ustalar da eşidilən mahnını dinləmək xatirinə bir anlıq əl saxladılar. Dəyirmançıya kömək edən Səlim usta, yoldaşına eyhamla eşitdirdi:

- Nəcəf, buz bulaqların gücünə bir bax? Oxuyan qızın səsi dağın zirvəsindən Havadərəyə qədər gəlib çatır. Deyirəm, nə olaydı, kaş ki, oxuyan o qız dayanmadan oxuya, biz də ona çoxlu qulaq asa biləydik.

- Ay Səlim, - deyə, - Nəcəf onun sözünə dəstək verib, - düz deyirsən, Səs verən qayanın sirrinə bax ki, səsi hardan-haralara gətirir.

Başları söhbətə qarışan Səlimlə Nəcəf, Heydər dağına baxa-baxa gördükləri işi yarımçıq saxlayıb, axıra qədər çatdırmağı unutmuşdular. Onların şirin söhbət edib dayandıqlarını görüb, özünü saxlaya bilməyən Qiyas kişi ərklə ucadan səsləndi:

- Ay Səlim, söhbəti yığışdırın, əlinizdə işinizi görün, indilərdə dən sahibləri də gəlib doluşacaqlar dəyirmana. Qonşu kəndin adamları iki gündür gətirdikləri taxıl kisələrini dəyirmanda üst-üstə qalaqlayıb, tığ vurublar. İçəridə taxıl dolu kisələrin əlindən tərpənmək də mümkün deyil, - deyə Qiyas kişi ona kömək edən Səlimi tələsdirdi.

- Yaxşı, yaxşı, ay Qiyas kişi, əsəbləşmə, - deyə Səlim gülə-gülə Nəcəfə göz vurub, - çalışarıq, su çarxını tez təmir edib qurtaraq. Burda tələsməli elə bir iş yoxdur. Özünü darıxdırıb üzmə. Bir azdan çarxın da əvvəlki kimi işləyəcək.

Nəcəfin gülə-gülə ərk edib dediklərini eşidən Qiyas kişi özünü müdafiə edirmiş kimi, ustalara eşitdirərək, - gün qızıb, səhər ertədən üzübəri bir batman da dən üyütməmişəm, çarxın taxta ərşinləri də elə bil ki, sınmağa vaxt tapdı. Onları təzələmək lazımdır, - deyə öz-özünə deyindi.

Nəcəf:

- Qiyas kişi, eşitməmisən, yaz gəldi, sel gəldi. İndi biz neyləyək? Bağ aşağı kəndimizin on bir su dəyirmanı var. Daşkəsən çayında sellə gələn lil qarışıq tör-töküntünü vaxtında təmizləmək lazımdır. Görmürsən, dəhnədən nə qədər zir-zibil çıxardıb təmizləmişik, - deyə, - çəkiclə taxta ərşinləri çarxa mıxladı, - ona görə də pərin daşı fırlatmağa gücü çatmır.

Qiyas kişi:

- Nəcəf, deyəsən, mənə dəyirmaçılığı öyrətmək istəyirsiniz? Başınız söhbətə qarışmasın, işinizi görün.

Dəyirmançının ərkyana iradını eşidən ustalar, bu sözdən sonra dərhal başlarını aşağı salıb, təmirlərini davam etdirdilər.

***

Oxunan mahnıların sehrinə düşmüş kimi, xəyallar aləminə dalan atlı oğlan, gözlərini Səsverən qaya səmtinə zilləyib, kirimişcə qulaq asırdı. Başını dik tutan kəhər də qulaqlarını şəkləyib, dağa tərəf boylandı.

Qızın səsi qəfil kəsildi. Nigarançılıqla ətrafa nəzər yetirən cavan, bir kimsənin gözə dəymədiyini görüb, könülsüz halda dəyirmana yaxınlaşdı.

Oxuyan qızın yanıqlı səsi yenidən eşidilməyə başladı.

İri gövdəli qoz ağacının budaqlarından çevik hərəkətlə aşağı tullanan dəcəl uşaqlar, bir-birini tələsdirərək, səs gələn tərəfə, Heydər dağına götürüldülər. Atlının yanından keçən uşaqlar, tanımadıqları cavanla rastlaşıb, bir anlıq dayandılar. Təəccüblü baxışları ilə kənara çəkilib, keçmək üçün ona yol verdilər. Qayğılı görünən cavan nə fikirləşdisə, atın cilovunu əlində dəstələyib dayandı.

Sahibinə tabe olan kəhər də fınxıraraq durdu. Oğlan arxaya dönüb Heydər dağının dəvə belinə bənzəyən Daşkəsən gədiyinə tərəf boylandı. Cəbrayıla gedən daş yolda, Səsverən qayada əks-səda verən mahnının səsi orda oynayan qızların haylı-küylü gülüşləri ilə əvəz olundu...

Dağa tərəf qaçan uşaqlardan boyca kiçik olanı, dayandığı yerdən qışqıraraq ərklə:

- Ə, di tez olun, gedək özümüzü qayaya çatdıraq. Maya qızları Səsverən qayanın yanına yığıb oxuyur. Xəlvəti onları qayalıqda pusaq, görək, Təhnə daşın yanında necə oxuyur?

Əlində tutduğu quzu dərili papağın arxası ilə üzgözünün tərini silən toppuş uşaq tez soruşdu:

- Ə, nə bildin ki, oxuyan odur?

- Ə, ondan başqa bu kənddə yaxşı oxuyan var ki, soruşursan? Görmürsən, onun çidarladığı ağ köhləni? Atöldürən kəhrizindən aşağıda, yamacda otlayır, - deyə sözünə haqq qazandıran balaca uşaq ucadan çımxırdı.

- Hə, deyirəm axı, o, qızlarla niyə Təhnə daşına tərəf qalxıb. Yanında oynayan qızların da səs-küyü adamın qulağını batırır.

Uşaqlara qulaq asan atlı oğlan pərişan halda, özü də bilmədən söhbətə qoşuldu:

- O oxuyan qızı tanıyırsınız?

- Niyə tanımırıq? Mayadır da, Aydolanmaz meydanında cıdırda at çapan qızdır, - deyə balaca uşaq ərklə cavab verdi.

- O qız hər gün belə oxuyur?

- Yox, qızlarla Heydər dağına çıxanda Səsverən qayanın yanında oxuyur.

- Nə əcəb qızlar kənddən uzaq düşüblər belə, məgər onlar qorxub-eləmirlər? - deyə cavan oğlan bir az da uşağa tərəf yaxınlaşıb təəccüblə soruşdu.

- Mayagil nədən qorxmalıdırlar axı? Məgər buralarda adamyeyən-zad var? Hamı Mayadan qorxub-çəkinir. Tüfəngi ilə atdığı güllələrin biri də yayınmaz. Odur ey, bir başını yuxarı qaldır bir bax gör! Gör onun başı üzərində uçan qartallar necə də dövrə vurub qiyyə çəkirlər? Hünəri olan gedib ona yaxınlaşsın, görüm, necə yaxınlaşır.

Uşaq, qız haqqında bildiklərini yaşlı adam kimi, əda ilə atlıya söylədi.

- Qızın evləri görünən o yamacdadır? - deyə cavan oğlan bir daha özündə əminlik yaratmaq xatirinə soruşdu.

- Yox, onların evləri "rus-tatar şkolu"na yaxın, Dəhnə bağına bitişik yerdə yerləşir. Sənin göstərdiyin daş yoldan yuxarıda gördüklərin, Hacıkəndin evləridir. Maya kəhrizdən aşağıda, toxmaçarlıqda tut budaqlarını budayan atasına, qardaşına kömək edir. Səhər ertədən qırdıqları tut qomlarını dəstələyib kümlərinə daşıyıblar. İndi də yavaş-yavaş qırdıqlarını arabaya yükləyirlər ki, gün batmamış evlərinə aparsınlar, - deyə uşaq ürkək nəzərlərlə ona baxa-baxa cavab verdi.

Təəccübünü gizlədə bilməyən atlı oğlan, maraqla soruşdu:

- Bəs o oxuyan qız da tut budaqlarını qırır?

- Nə danışırsan? O, niyə tut budaqlarını qırmalıdır? Atasına, qardaşına nə gəlib ki? Odur ey, daş yolun yanında, görmürsən, arabalarını yükləyirlər? - deyə uşaq uzaqdan görünən yüklü at arabasını əli ilə oğlana göstərdi.

Cavan atlı qısa sorğu-sualdan sonra uşaqlarla sağollaşaraq, kəhəri yedəyində çəkə-çəkə onlardan ayrılıb, su

dəyirmanına tərəf yollandı. Atlı oğlanın ardınca baxıb, bir-birinə göz vuran uşaqlar bic-bic irişərək, Heydər dağının yamacına tərəf götürüldülər. Könülsüz halda dəyirmana yaxınlaşan cavan oğlan, atın yüyənini iri qoz ağacının budağına bağlayıb, bir anlıq fikirli-fikirli dayandı.

Cavanı görən dəyirmançı Qiyas kişi nəvazişlə:

- Hə, gəldin, bala? Gəl otur, bir az dincini al, çarxın sınmış taxta ərşinlərini dəyişib qurtarırıq. Təmir qurtaran kimi, birinci sənin dənini üyüdüb evinizə yola salacam.

Cavan oğlan gülər üzlə:

- Nə deyirəm, əmi, olan işdir, - dedi, - mənə görə elə də narahat olmayın. İstəsəniz, axşamı da burda, sizin yanınızda qalıb gözləyərəm.

Oğlanın təmkinli, bir az da ərklə verdiyi cavab, səhərdən çarxla əlləşən ustaların ürəyincə oldu.

- Ay səni sağ olasan, yaxşı ki, bizi başa düşdün, - deyə qoca dəyirmançı başını yuxarı qaldırıb razılıqla üzərindən yük götürülmüş adam kimi, dərindən nəfəs aldı.

Cavan da tənbəllik etmədən cəld ustalara yaxınlaşıb onlara kömək əlini uzatdı.

Onun bu hərəkətindən razı qalan Səlim kişi astadan dedi:

- Ay bala, de görüm bu qədər dəni üyütdürüb bir atın belində obanıza necə aparacaqsan axı? Kəndiniz Ala dağın ətəyində yerləşir. Yolunuz da burdan xeyli uzaqdır.

- Narahat olmayın, əmi, günorta böyük qardaşım at arabası ilə dalımca gələcək. Siz arxayınlıqla işinizi görün, - deyə oğlan mülayim səslə cavab verdi.

Ustalar suyun güclü şırnağında dəyirman çarxını çətinliklə saxlayıb, fırlanmağa qoymurdular. Bunu görən cavan, cəld onlara yaxınlaşıb, güclü əlləri ilə çarxı saxla-

yıb, ustaların imdadına çatdı. Hərdən də ötəri yana çönüb, uzaqdan görünən Heydər dağını oğrun-oğrun seyr edirdi. Oğlanın nigarançılıqla dağ səmtinə boylandığını görən dəyirmançı, bir anlıq ona nəzər salıb, əlini saxladı. Sonra nəvazişlə dilləndi:

- Ay oğul, elə bil ki, kiminsə xiffətini çəkir, nigarançılıqla yolunu gözləyirsən? De, bəlkə, biz onu tanıyırıq?

Oğlan bir qədər karıxsa da, özünü itirmədən:

- Heç, əmi, - deyə qoca dəyirmançının diqqətini yayındırmağa çalışaraq, - elə-belə, dağa tərəf baxıram.

Duyuq düşən qocanın eyhamından pərt olan cavan, sakitcə başını aşağı saldı.

Bayaqdan oxuyub susan qızın yanıqlı səsi yenidən eşidildi. Onun məlahətli səsinin cazibəsindən xəyallar aləmindən qopa bilməyən cavan, sükutla mahnını dinləyirdi. Keçirdiyi həyəcanlı anları ətrafındakılara hiss etdirmədən çarxı möhkəm tutmuşdu. Ancaq gec idi, dəyirmançılar cavanın keçirdiyi həyəcanlı hissləri duyub, niyyətini başa düşmüşdülər.

Dəhnə bağında səs-səsə verib oxuyan uşaqlar da, qızın məlahətli səsinə heyran olmuşdular. Onu yaxından dinləmək istəyi ilə ağaclardan yerə atılıb, daş yolla üzüyuxarı qaçan uşaqların ardınca götürüldülər.

Hay-küylə qaçan uşaqların səsi ətrafa yayılmışdı. Qarşıdakı böyürtkən kolluğuna çatan uşaqlar, bir anlıq dayanıb baş-başa verərək, xəlvəti öz aralarında məsləhətləşdilər. Sonra böyürtkən kollarının arxasında gizləndilər. Yamacdan üzüaşağı bir dəstə qızın deyib-gülə yaxınlaşdığını görən uşaqlar, kolluqdan çıxaraq, əyilə-əyilə üzüaşağı – Xiyabana tərəf qaçdılar.

Qızlarla deyə-gülə gələn Maya, onları görüb, əlindəki qamçını havada yellədərək, acıqlı səslə:

- Yaxşı, ay dəcəllər, baxarsınız bizi pusmaq necə olar, - deyə tut bağına yaxın saxlanılan yüklü arabaya tərəf yaxınlaşdı...

***

Taxta ərşinləri təzələyib qurtaran Qiyas kişi, ona kömək edən yoldaşlarına tərəf səsləndi:

- Hə, kömək edin, dirəyi çarxın altından çıxardaq.

Bunu eşidən ustalar dərhal çarxı möhkəm tutub, onu yerindən tərpənməyə qoymadılar.

Dəhnədə qabağı kəsilmiş su bəndi aşıb, bağa tərəf sürətlə axırdı. Vaxtında köməyə gələn cavan oğlan, çarxa pərçim edilmiş iri dirəyi çıxardıb, kənara atdı. Kəhrizin dəhnəsində yığılıb qalan su, gurultu ilə axıb çarxı hərəkətə gətirdi. Dəyirman daşlarının xırçıltılı səsini eşidən Qiyas kişi, ona kömək edən ustalara, cavan oğlana dil-ağız edib cəld dəyirmanın içərisinə keçdi. Fırlanan daşın sürətini qaydaya saldığına əmin olan dəyirmançı, iki pudluq taxıl kisəsini dəyirmanın taxtadan düzəldilmiş arvasına boşaltdı. Xırçıltı ilə üyüdülən dənin xoş iyi ətrafa yayıldı. Dəyirmançıya kömək edən Səlim, içəri keçib, təknəyə tökülən narın unu diqqətlə nəzərdən keçirdi. O, fırlanan daşın üstündə ağac çax-çaxın ipini bura-bura tənzimləyib dedi:

- Qiyas kişi, göz dəyməsin, daşların çox yaxşı fırlanır. Elə bil ki, hər ikisini təzə qoşmusan. İndi isə, icazə verin, biz də gedək öz işimizin dalınca. Aşağıda dəyirmanlarımız yiyəsiz qalıb.

Təknədən başını yuxarı qaldıran dəyirmançı, ona köməklik göstərən yoldaşlarına razılığını bildirib, onları yola salmaq istəsə də:

- Ağsaqqal, sən işinlə məşğul ol, biz özümüz yolumuzu yaxşı tanıyırıq, bizdən ötrü narahat olmayın. Gözün fırlanan daşda olsun. Çalış çarxın qabağı bir də tutulmasın. Salamat qalın, bərəkətli olsun, - deyən Səlimlə Nəcəf qapıdan çölə çıxıb, dəyirmanlarına tərəf yollandılar.

Yamacboyu köhnə yurd yerlərindən axan Daşkəsən çayının sahili ilə hərəkət edən Səlimlə Nəcəf, öz aralarında şirin söhbət edə-edə dəyirmanlarına tərəf tələsirdilər.

Səlim:

- Nəcəf, çayın yatağı da selin gətirdiyi tör-töküntü, lillə dolub. Gərək camaata xəbər edib, Atöldürən kəhrizindən Quycaq yatağına qədər axan çayın məcrasını təmizlətdirək. Yoxsa belə getsə, bu gün-sabah bizim dəyirmanlarımız da sıradan çıxıb dayanacaq.

Nəcəf:

- Düz deyirsən, qağa. Onsuz da mən yazıq dəhnəni təmizləməkdən bezmişəm. Üç dağ arasında məskən salıb, yaşamaq da çox çətindir. Dağlarda yağışın yağması ilə selin gəlməsi işimizi çətinləşdirir. İllah da çay məcrasından çıxanda, bağ-bağatlardan ziyansız keçmir.

- Bəs nə bilmişdin ay Nəcəf? Elə bilirsən selabın tutduğu yerdə yaşamaq asandır? Bəxtimiz gətirib ki, selabın gətirdiyi tör-töküntü Xiyaban dərəsində, Göy göldə ram olub suda çökür. Yoxsa, ətrafımızdakı bağlar çoxdan lil qatının altında qalıb, quruyub, məhv olmuşdu.

- Elə düz deyirlər ki, yaz gəldi, sel gəldi. Üç gündən bir, beş gündən bir dəhnəni təmizləməsək, çayboyu on bir dəyirmanın hamısı dayanacaq.

***

Cavan oğlan könülsüz halda, fikirli-fikirli gəlib, dəyirmanın qapısı ağzında dayanmışdı. Başı unluğa qarışan Qiyas kişi cavanın qapı ağzında dayandığını görüb, onu içəri dəvət edib dedi:

- Hə, oğul, keç içəridə əyləş. İnşallah, axşama yaxın dənini üyüdüb səni yola salacam, - deyə həlim səslə oğlanın könlünü almağa çalışdı.

- Çox sağ ol, əmi, mən tələsmirəm, siz işinizlə məşğul olun, - deyə oğlan sakitcə cavab verdi.

Oğlana diqqətlə nəzər yetirən dəyirmançı, nə fikirləşdisə, təəccüblə soruşdu:

- Bayaq da belə ədəblə danışırdın, de görüm, ay oğul, sən kimlərdənsən? Belə görürəm, ədəb-ərkan sahibisən.

- Atamı yaxşı tanıyırsınız. Süleymanlı Nəcəf kişinin kiçik oğluyam.

- Bay, qardaş oğlu, deyirəm axı, bu cür mərifət sahibi ancaq yaxşı kişinin övladı ola bilər. Atan tək bu dəyirmana yox, kəndimizə də çox gəlib-gedib. O, bizimlə həmişə xeyir-şər adamı olub. Allah saxlasın, atan ağsaqqal adamdır.

Dəyirmançının danışığında doğmalığı hiss edən cavan:

- Sağ ol, əmi, Allah sizi həmişə mehriban etsin.

Əlindəki kiçik un kürəsini təknənin küncünə pərçim edən Qiyas kişi maraqla soruşdu:

- Bəs nə əcəb kəndinizdə iki su dəyirmanı ola-ola, dəni üyütməyə ordan bura gətirmisiniz?

- Baxmayaraq ki, iki kəhrizin suyunu dəhnəyə yönəldiblər, bu yay su dəyirmanlarıımız yaxşı işləmir. Ancaq kəhrizlərdə su azalıb, ona görə də çarxı fırlatmağa gücü çatmır. Kəndin ağsaqqaları bu yayı kankan gətizdirib kəhrizləri lığdan təmizlətdirəcəklər. Onlar deyirlər ki,

kəhrizlərin gözləri lığla tutulub. Ona görə də, su azaldığına görə, dəyirmanlar yaxşı işləmir. Qağam dünəndən mənə tapşırıb ki, dəni üyütmək üçün kəndimizdən bura gətirim. Onun dediyinə görə, sizin dəyirmanda üyüdülən unu ələmək lazım gəlmir, tər-təmiz, kəpəksiz olur.

- Bilirəm, suyun güclü şırnağı hesabına fırlanan daşların üyütdüyü dənin unu narın, kəpəksiz çıxır. Nə əcəb atan un üyütməyə səni göndərib?

- Atamın işi-gücü çoxdur. Bu il ötən ildəkindən çox barama verməliyik. İndi atam böyük qardaşımla toxmaçarlıqda tut budaqlarını qırıb, araba ilə kümlərə daşıyırlar. Arada vaxt olanda, ağacların arasında bitən göy otları da biçib, mal-qaranın qış yeminə tədarük görürük. Cəmisi bir-iki günlük işimiz qalıb. Bir azdan ipəkqurdu öz yuvasını hörməyə başlayacaq. Evdə belə məsləhət oldu ki, dəyirmana bu gün mən gedim.

Oğlana diqqətlə qulaq asan Qiyas kişi dedi:

- Heç soruşmadım, de görüm, sənin adın nədir?

Cavan oğlan qocanın sualından karıxmış adam kimi, başını aşağı salıb sakitcə:

- Adım İbaddır.

İbad könülsüz danışsa da, hərdən bir Səsverən qaya tərəfə boylanır, oğrun baxışları ilə o ətrafı seyr edirdi. Onun xəyal aləmi bayaq dağda yanıqlı səslə oxuyan qızın yanına uçmuşdu.

- Ay saqqalı ağarmış, bir kömək əlini uzatsana, - deyə əlindəki kisəni arvaya güclə qaldıran Qiyas kişi, İbada səsləndi.

Fikirli-fikirli gözlərini günbatan səmtinə zilləyən İbad, dəyirmançının səsini eşidib, balaca taxta pilləkənlə yuxarıya qalxdı. Onunla birlikdə buğda kisəsini qaldırıb arva-

ya boşaltdılar. Bir azdan arvadan aşağı düşən Qiyas kişi, təknədə narın üyüdülüb, qalaqlanmış undan bir ovuc götürüb diqqətlə baxandan sonra, qoxulayıb razılıq hissi ilə:

- Təmiz sarı kəhrəba buğdasının unudur, - deyə, ovcunda tutduğu unu oğlana göstərdi. İbad dəyirmançının sözlərini başının hərəkəti ilə təsdiqlədi.

- Ay oğul, bayaqdan fikir verirəm, diqqətini Heydər dağı səmtinə yönəldib, elə hey Səsverən qayada oxuyan qızın səsinə qulaq asırsan. Olmaya...?

Qiyas kişi gülümsünərək, İbada zarafatla andırdı. İbad pörtmüş halda çaşıb qaldı, pərtliyini büruzə vermədən, başını aşağı salıb, sakit-sakit təknəyə tökülən narın una tamaşa edirdi.

- Bilirsən, ay oğul, o oxuyan qızın səsi hərdən bir eşidilir. Özünə yaxın bildiyi qızları başına yığıb, Səsverən qayadan yuxarıda Təknə daşına tərəf qalxırlar. Oradan da hər tərəfi seyr edirlər. Uzaqdan görünən Araz çayının günəş şüası ilə parıldayan sularına baxmaqdan doymurlar. Onlar hər dəfə dağa çıxanda özləri ilə dağda yuva qurmuş quşlara da yem aparırlar, - deyə Qiyas kişi barmağı ilə səmada uçan qartalları göstərdi. Apardıqları yemləri yuvaya yaxın bir yerə qoyurlar. Səsverən qayanın arxa tərəfində, sıldırımlı, əlçatmaz yerdə yuva salan qartallar, onu yemləyən uşaqlara isinişiblər. Kəndin dəcəl uşaqları yay-qış qartalları yemləyirlər. İndiyə qədər eşitməmişəm ki, qartallar kəndimizdə toyuq-cücələrin üstünə şığıyıb, ziyanlıq etsinlər. Baxma ki, səmada qiyyə çəkib, hey süzürlər. Ancaq bizə qənim kəsilən çalağanlara, quzğunlara bu tərəflərdə uçmağa imkan verməzlər. Balaca vaxtımdan bu dəyirmanda əlləşirəm. Nə sirrdisə, qartallar bu ətrafda iki yerə qonub su içirlər. Havadərənin çökəyində qı-

jıltı ilə axan Daşkəsən çayının üstündə salınmış daş körpünün aşağı tərəfində, bir də bizdən aralı, Təzə kəhrizin gözünə qoyulmuş daşın üzərinə qonur, su içə-içə qaz kimi qanadlarını yellədib qiyyə çəkirlər. Hər dəfə onlara fikir verirəm, su içəndən sonra, kəhrizdən aralı, təpəlikdə mamır bağlamış qayalığa qonub, dimdiklərini şaqqıldadaraq atılıb-düşürlər. Uşaq vaxtı onları qayalıqda görəndə mən elə bilirdim ki, həmin quşlar Həştərxan toyuqlarıdır. Ancaq, ətrafda bir kimsəni görən quşlar, dərhal yerlərindən sıçrayıb, havaya qalxırdılar. Onların qiyyə çəkib uçmağından başa düşdüm ki, həştərxan toyuğu bildiyim quşlar qartaldırlar, - deyə, Qiyas kişi qartallar haqqında bildiklərini İbada danışdı.

Dəyirmançını maraqla dinləyən İbadın üzündə təbəssüm dolu sevinc hissi sübh ertədən qalxan günəşin şəfəqinə bənzəyirdi. Səhərdən xəyallar aləminə qapılıb, fikirli görünən İbad həvəslə danışmağa başladı:

- Bilirsiniz, Qiyas əmi? Atam ömrü boyu dağlarda ovçuluq edib. O, söz düşəndə deyir ki, qartal ömrü insan ömrü qədər uzundur. Onlar gec qocalırlar. Qartımış dimdikləri, ayaqları ilə ov edə bilməyəndə, bir müddət yuvalarını tərk etmirlər. Qartallar əvvəlcə qartımış əyri dimdiklərini qayaya döyəcləyib onu qopardırlar. Təzə dimdik əmələ gələndən sonra ayaqlarının qartımış qabıqlarını təmizləyirlər. Bu təmizlikdən sonra elə bil ki, cavanlaşan qartallar səmada qiyyə çəkib, ov dalınca uçurlar, - deyə İbad, atasının dağlarda uzun müddət qartalları müşahidə edib gördüklərini ətraflı izah etdi.

Maraqla qulaq asan Qiyas kişi, İbadın söylədiyi əhvalatı başının hərəkəti ilə təsdiqləyib, dəyirmanın açıq qapısından Heydər dağına tərəf boylandı:

- Bax, bir azdan oxuyan qızın atası, oğlu ilə budanmış tut budaqlarını arabaya yükləyib, evlərinə gedəcəklər. Onlar hər gün ertədən Dəhnə bağında çalışırlar. Gündə iki dəfə qırdıqları tut budaqlarını arabaya yükləyib, kümlərinə daşıyırlar. Sən demişkən, bir-iki günə ipəkqurdu özünə yuva sarıyıb, bağlayacaq. O qızı uşaq vaxtlarından tanıyıram, mərifətli ailədəndir. Atası Mirzə Məmiş, Nəcəfdə təhsil almış alim adamdır. Kəndin mədrəsəsində uşaqlara şəriət dərsi verir, - deyə Qiyas kişi, qız haqqında bildiklərini ürəkdolu, təmkinlə danışdı.

Dəyirmançının şirin söhbətinə qulaq asan İbad, başını qaldırmadan təknəyə tökülən unu gözdən keçirdi. Əl boyda kürə ilə unu təknədən yığıb, ağzı açıq kisəyə boşaldan Qiyas kişi soruşdu:

- Deyəsən, araban gəlib çıxmayıb hələ?

- Kəndimizdən bura gələndə qardaşıma tapşırmışdım ki, toxmaçarlıqda budanmış tut budaqlarını araba ilə həyətə daşıyandan sonra birbaşa bura – dəyirmana gəlsin. İndilərdə gəlib çıxar, hələ tezdir...

Əminliklə cavab verən İbad, bir anlıq çölə çıxıb, qoz ağacına bağladığı kəhərə tərəf boylandı.

***

Çinarlı gölün sahilində yuduqları paltarları kolların, kiçik ağacların üstünə sərib, qurumasını gözləyən qız-gəlinlərin səs-küyü ətrafa yayılmışdı. Qəflətən böyürtkən kollarının arası ilə Çinarlı gölünə yaxınlaşan qızı görüb ucadan:

- Ceyran nənə, gör kim gəlib? - deyə - hamılıqla ona tərəf qaçdılar.

Oğlansayağı geyinmiş qızı hər tərəfdən əhatəyə alanlar, onu qucaqlayıb öpdülər. Qızların qəfil qopardığı hay-

küydən səksənən Ceyran nənə, ona tərəf boylanıb, sevincək ayağa qalxdı. Gülə-gülə qıza yaxınlaşdı, boynunu qucaqlayıb yanağından öpdü:

- Allah səni bizlərə çox görməsin, qızım. Səhərdən hamımız o gözəl səsinə qulaq asırdıq. Vallah, bala, yaşım səksəni haqlasa da, elə bil ki, anadan indicə doğulub, dünyaya gəlmişəm. Maşallah, göz dəyməsin, özün də bədirlənmiş ay parçasına bənzəyirsən...

Ceyran nənənin şirin sözlərini eşidib, sifəti allanan qız, gözlərini aşağı dikib deməyə söz tapmırdı.

- Maya, kaş ki, oxuduğun mahnılardan birini də burda yanımızda oxuyasan, biz də hamımız sənə qulaq asaq, - deyə cavan gəlin ərklə ona eşitdirdi.

Maya əlindəki balaca mis səhəngi çinar ağacına yaxın yerə qoydu. Karıxmış adam kimi, özü də bilmirdi ki, ətrafına toplaşanlara nə cavab versin. Gəlinin istəyinə biganə qala bilməyən Maya ürkək-ürkək onu əhatəyə alan qız-gəlinləri süzüb, gülümsündü:

- Yaxşı, yaxşı. Nə deyirəm, oxuyaram. Siz ki, canı dilnən məni dinləmək istəyirsinizsə, onda qulaq asın, oxuyum.

Bunu eşidən qızlar, sevincdən atılıb-düşərək, bərkdən əl çaldılar. Utancaq baxışları ilə gölün büllur sularına nəzər yetirən Maya, hamının xoşladığı mahnını ürək göynədən səsi ilə oxumağa başladı:

Arpa çayı aşdı, daşdı,
Sel Saranı aldı, qaçdı.
Ala gözlü, qələm qaşlı,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Qızın şaqraq səsinə qulaq asıb, heyran olanların üzgözündən təbəssüm yağırdı. Çinarlı gölün sahilini kölgəsi ilə ağuşuna almış iri gövdəli qoşa çinar ağacının tər yarpaqları, əsən mehin təsirindən titrəyirdi. Sanki yerlə göyün, ayla günəşin sevdasını yaşayıb puç olmuş iki haqq aşiqinin, Sara ilə Xançobanın vüsalına qovuşmayan nakam eşqinə acıyırdı...

Dəyirmanın qapısı ağzında dayanıb qızın yanğılı oxuduğu mahnının sehrinə düşmüş Qiyas kişi ilə İbad sakitcə ona qulaq asırdılar. Mayanın məlahətli səsini eşidən kənd uşaqları, onu pusmaq istədikləri böyürtkən kollarını tərk edib, qaça-qaça gölün kənarına tərəf gəldilər. Qızın yanıqlı-yanıqlı oxuduğu mahnı dinləyənləri məftun etmişdi:

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana.
Muğan batıb nahaq qana,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı!

Onun qəlbi riqqətə gətirən səsinin təsirindən qız-gəlinlər də bərk kövrəlmişdilər. Bəzilərinin göz yaşları mirvari dənəsitək yanaqlarından süzülürdü:

Arpa çayı dərin olmaz,
Axar sular sərin olmaz,
Sara kimi gəlin olmaz,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Dinləyənlərin kövrək və kədərli baxışlarını gözünün ucu ilə seyr edən Maya, oxuduğu mahnını başqa birisi ilə əvəz etdi:

Vətən bağı al-əlvandır,
Yox içində xarı bülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin barı, bülbül.

Çinarlı gölün ətrafına yığılıb, ona qulaq asanların sevincinin həddi-hüdudu yox idi. Mahnını sonuna qədər dinləməyə səbri çatmayan Ceyran nənə qəfil oturduğu daşın üstündən ayağa qalxıb, qıza yaxınlaşdı. Ana nəvazişi ilə onun boynunu qucaqladı. Gözləri yaşarmış halda hayqırtı ilə:

- Ay Allahı sevənlər! Belə də gözəl səs olar?! Allah səni qorusun, qızım, bundan sonra ölsəm də, nisgilim, dərdim-sərim qalmaz, - dedi.

Ceyran nənənin xeyir-duasına başının hərəkəti ilə razılığını bildirən Maya, sanki oxuduğu mahnıların tilsiminə düşmüş, öz aləminə qovuşmuşdu. Yalnız bulaq kimi qaynayan səsinin gücünə güvənib, oxumağına davam edirdi:

Oxu, quşlar dilə gəlsin,
Xoş nəfəsin elə gəlsin.
Yarım gülə-gülə gəlsin,
Mən çalanda tarı, bülbül.

Əfsunlanmış bir aləmə düşən qız-gəlinlər, həzin-həzin səslənən mahnıya kirimişcə qulaq asırdılar. Maya, mələhətli səsi ilə hamını ovsunlaya bilmişdi:

Bülbül, sənin işin qandı,
Aşiqlər oduna yandı.
Nədən hər yerin əlvandı,
Köksün altı sarı, bülbül?..

Qızın səsini eşidənlər gölün ətrafına yığılırdılar. Qulaq asan adamların sayı artdıqca, böyük qələbəlik yaranmışdı. Qız-gəlinlər hamılıqla Mayanı ürəklərindən keçən şirin sözlərlə öyüb-oxşayırdı.

Maya oxuya-oxuya dəyirmandan aşağıda Səlim kişinin iri qoz ağacını gözucu seyr edərkən, səsini ani olaraq xırp kəsdi. Ağac kölgəsində ona qulaq asan Qiyas kişi ilə yanaşı dayanmış cavan oğlanı görüb təəccübləndi. Tanımadığı adamın ona heyranlıqla baxdığını görən Maya, süst düşmüş adam kimi başını aşağı dikib, sakitcə yerində duruxub qaldı. Pərtliyini biruzə verməsə də, Mayanın üzündəki təbəssüm, ani olaraq qızartılarla əvəz olundu. Sifəti pörtmüş halda, başını dik qaldırmadan, dərhal arxaya dönüb meydandan uzaqlaşmağa çalışdı. O, heç nə demədən ətrafına yığılan qız-gəlinlərlə sağollaşıb ayrıldı. Çinar ağacının yanındakı mis səhəngi götürmək istəyirdi ki, yanında dayanan balaca qız uşaqlarından biri şirin ləhcə ilə:

- Bajı, sən mahnı oxuyanda səhəngi bulağın soyuq suyu ilə doldurmuşuq. Əziyyət çəkmə, biz özümüz onları bağınıza aparıb qoyarıq, - dedi.

Qızcığazın hərəkətindən gözləri yaşaran Maya, əyilib, onun yanaqlarından öpüb, qızlarla sağollaşaraq, iti addımlarla böyürtkən kollarının arxasında gözdən itdi.

Qızın ovsunlu səsinə, qənirsiz gözəlliyinə vurulan İbad, könülsüz halda Qiyas kişinin ardınca dəyirman tərəfə getdi. Xəyal aləminə qapılan cavanın qəlbində baş qal-

dırdığı sevgi duyğularını gözlərindən oxuyan Qiyas kişi təmkinlə:

- Bizim qızımızın gözəlliyi nar çiçəyinin təravəti kimi könüllərə məlhəmdir. Onun səsi olmasa, bizim bu bağ-bağatlar da günəşlə birgə oyanmaz. Kaş ki, ay oğul, ilin axır çərşənbəsində kəndimizə gələydin. Onda görərdin ki, bu dağlar maralı, Aydolanmazın güllü-çiçəkli çəmənliyində, cıdıra çıxan cavanlara qoşulub, ağ köhləni necə çapır, - səsinin ahənginə şirinlik qatan qoca, un kisəsinin ağzını balaca iplə bağlayıb, bir kənara çəkə-çəkə İbad eşitsin deyə, xüsusi vurğuladı.

Qəlbində qığılcım saçan eşq macərasının yenicə başlandığını hiss edən İbad, həvəslə işə girişib, qoca kişiyə kömək əlini uzatdı. Oğlanın üz-gözündən yaz yağışı kimi yağan sevinci görən dəyirmançı, hiss edilmədən bığaltı gülümsündü.

Bayırda araba təkərlərinin küt səsini eşidən Qiyas kişi:

- Deyəsən, qardaşındır, gəlib çıxdı, - deyə çönüb oğlana baxdı.

Açıq qapıdan arabanın dəyirmana yaxınlaşdığını görən İbad, tez çölə çıxdı.

Təkatlı arabanı tut ağacının yanına sürən Səməd, onu saxlayıb, cəld yerə atıldı.

Atın cilovunu ağacın budağına bağlayıb, qardaşı İbadla salamlaşdı. Sonra yorğun halda addımlayaraq, su dəhnəsinə yaxınlaşıb, əl-üzünü soyuq suda yuya-yuya bir-iki ovuc içib azacıq toxtadı.

Dəhnədə yuyunan qardaşına səslənən İbad:

- Vaxtında gəlib çıxdın, üyüdülməmiş bir kisə taxılımız qalıb, kölgəlikdə bir az dincini al, - deyə ona eşitdirdi.

Dəhnə sahilində ayağa qalxıb belini dikəldən Səməd, dəyirmanın açıq qapısından içəri girib, Qiyas kişi ilə görüşdü. O, təknəyə tökülən narın undan bir çimdik götürüb, qoxuladı. Dəyirmanda gurultulu axan suyun şırıltısı ilə fırlanan daşların xırıltılı səsi bir-birinə qarışmışdı.

- Hə, necədir, oğul, dəni yaxşı üyüdə bilirikmi? - deyən Qiyas kişi ucadan soruşdu.

- Allah razı olsun. Yaxşı olmasa, bu istidə Süleymanlı kəndindən basa-basa bura gəlməzdik ki, - deyə ərklə cavab verdi.

Cavanın cavabından həzz alırmış kimi, Qiyas kişi bərkdən gülüb, məmnun halda ucadan dedi:

- Ay saqqalı ağarmış, sən elə bil ağsaqqal kişilər kimi danışırsan. Deyəsən, axı dilli-dilavər adama oxşayırsan? Keç, bəyəndiyin yerdən əyləş. Cəmisi bir kisə taxılınız qalıb. Onu da üyüdüb qurtaran kimi, sizi dərhal yola salacam, - deyə dəyirmançı hisə batmış qara çaydanı gur yanan ocağın üstünə qoydu. Səmədin ona ərklə cavab verməsindən razı qalan dəyirmançı divardan asılmış taxta taxçaya yaxınlaşdı. Üstü üyüdülmüş dənin havaya qalxan un dənəcikləri ilə basmış pərdəni açaraq canfəşanlıqla:

- İndi isə keçin, bəyədiyiniz yerdə əyləşin, sizə Təbrizdən gətirdiyim ətirli çaydan bir çay dəmləyim ki, gəl görəsən. Dadı damağınuzdan, iyi burnunuzdan heç vaxt getməsin.

Şəstlə danışan Qiyas kişi, taxçada saxladığı, içərisi noğulla dolu mis qənddanı, bir cüt armudu stəkanı götürüb, masanı əvəz edən iri ağac kötüyün üzərinə yığdı.

- Qiyas əmi, nə zəhmətdir çəkirsiniz, vallah, biz elə çay içmişkən varıq, - deyə İbad yaxınlaşıb, ona razılığını bildirdi.

- Ay oğul, nə zəhməti var, dəyirmana gəlmisən, çay içməmiş getsən, yaxşı deyil axı, - deyə əyilərək, dəyirman daşının üstündə taqqıldayan çax-çaxın unlu ipini bura-bura cavab verdi.

Dəyirmançı ocağa yaxınlaşıb, qaynayan çaydana bir xışma quru çay atıb, dəm almasını gözlədi. Gözucu təknəyə tökülən una nəzər yetirən Qiyas kişi Səmədlə şirin söhbət edirdi. Bir azdan dəm almış çaydandan stəkanlara çay süzərək:

- Hə, indi isə bir az yaxın oturun, götürün çayınızı isti-isti için, - dedi, mən də gedim dəhnəyə baş çəkim, görüm çarx necə fırlanır.

Sonuncu kisədən boşaldılan buğda da üyüdülüb qurtarmaq üzrə idi. Bir azdan razılıqla içəri daxil olan Qiyas kişi:

- Şükür ki, çarx indi yaxşı fırlanır, suyun qabağı hələ ki tutulmayıb, - deyə navaldan tökülən narın unu gözdən keçirdi.

Qoca dəyirmançıya yaxınlaşıb razılığını bildirən İbad:

- Qiyas əmi, çox sağ olun, dəmlədiyiniz çayın ətrinə söz ola bilməz. Adam içdikcə içmək istəyir.

Oturduğu kötüyün üstündən ayağa qalxan İbad, ağızdolusu onu tərif etdi.

- Hə, indi arabanızı gətirin, qapıya yaxın yerdə saxlayın. Un taylarını birlikdə yükləyək. Bilirəm, obanız uzaqdadır, toranlıq düşməmiş, yola düşmək lazımdır, - deyə, təmkinlə cavanlara eşitdirən Qiyas kişi əlində dəstələdiyi kiçik iplə sonuncu kisənin də ağzını bağladı. Arabanı dəyirmanın qapısının ağzına sürüb saxlayan Səməd, aşağı düşüb, kömək etmək istəsə də, İbad razı olmadı. Un taylarını daşıyan İbad, arabanı az bir vaxtda yükləyib qurtardı.

- Şadyanalıqla bişirib, şirin ağızla yeyəsiniz. Hər zaman təknəniz dolu olsun, heç vaxt boşalmasın, - könül xoşluğu ilə İbada xeyir-dua verən dəyirmançı, onlara yaxşı yol arzuladı.

Ağaca bağladığı kəhərin yüyənini açıb, Qiyas kişiyə yaxınlaşan İbad, əlmuzdunu – şahadını verəndən sonra onu qucaqlayıb:

- Zəhmətinizi halal edin, Qiyas əmi. Mən tezliklə bura qayıdıb, yenə də dəyirmanınıza dən üyütməyə taxıl gətirəcəm, - deyə, özündən asılı olmayaraq, gülə-gülə sözünü bitirdi.

İbadın eyhamla dediklərini duyan Qiyas kişi, bığaltı gülümsünərək:

- Nə vaxt gəlirsən, gəl. Gözümüz üstə yeriniz var. Qapımız həmişə üzünüzə açıqdır. Bu dəyirman da sənin kimi oğula peşkəşdir. Dədən Nəcəf kişiyə də məndən salam söylə. Dədənlə ikilikdə olanda, mənim "ismarıcımı" da ona çatdırmağı unutma. Söz arası ona eşitdir ki, Qiyas əmi deyir, dağlar qoynunda, ağacların koğuşunda məskən salıb sığınan quşların həyat eşqini öyrənməyi çox yaxşıdır. Ancaq hərdən cavanların da qəlbini bir az anlasın, duysun, - deyə İbadı bağrına basıb, bərk-bərk qucaqladı.

İbad:

- Qiyas əmi, Allah sizi qorusun. Xeyir-dua verdiyiniz üçün çox sağ olun. Zəhmətinizi halal edin.

Qiyas kişi ilə görüşüb atlanan İbad, yüklü arabanın ardınca kəhəri dəhmərləyib kiçik təpəni qalxaraq, daş yola tərəf çapdı.

Yamac boyu irəliləyən cavanlar, Havadərə çökəyində atları saxladılar. Daş körpüyə yaxın kiçik təpə üstün-

də dayanmış ağ atlı qızı görüb, təəccüblə ona baxdılar. Yəhərdə şəstlə oturan qız gözucu onları seyr edirdi. Qoşa çinar ağacının kölgəsində oxuyan qızı tanıyan İbad, ani olaraq, atın yüyənini dartıb əylədi. Pörtmüş sifəti allanıb qızaran oğlan, köksündə döyünən ürəyin çırpıntısını hiss etsə də, don vurmuş adam kimi, sükutla qıza baxırdı. Daş körpünü keçib, uzaqlaşan arabaya əhəmiyyət verməyən İbad, özü də bilmədən karıxıb, çıxılmaz vəziyyətə düşmüşdü. Sükutu pozan qız utancaq səslə:

- Gedirsiniz? - deyə, - gülümsünərək, - sizə yaxşı yol.

Qızın nəzakətlə dediyi sözə cavab tapa bilməyən cavanın sifəti dan yerini qızartmış günəş şəfəqi kimi allandı. Nitqi qurumuş halda bir azdan özünə gələn İbad, qeyri-ixtiyari olaraq başını astaca tərpədib boğuq səslə:

- Gedirəm, ancaq tezliklə qayıdacam! - dedi.

Bu sözü eşidən Mayanın çöhrəsi göy çəməndə xalıya bənzəyən gözəllik aşiqi lalə təki qızardı. Utancaq baxışlarını ona yönəltsə də, çox da duruş gətirə bilmədi. Göz qapaqlarını aşağı endirib, qıjıltı ilə körpünün altından axan Daşkəsən çayının büllur sularına baxdı.

Daş körpünü keçən İbad, üzüyuxarı - kəndə tərəf atını çaparaq uzaqlaşdı. Yolda sürətlə qaçan atın cingiltili nal səsi aydın eşidilirdi. Dolanbac keçiddə sürətini azaldan atlı, arabaya yetişib toxtadı.

İbadla qardaşı, Ala dağdan aşağı yaşıllıqlarla əhatə olunmuş qədim Süleymanlı obasına tərəf yol aldılar.

Atlının ardınca baxan Maya, onları gözdən itənədək izlədi. Daxilində baş qaldıran təlatümü ram edərək, atın başını çevirib, Dəhnə bağına tərəf çapdı.

Mayanın Çinarlı gölün sahilində oxuduğu yanıqlı mahnılardan təsirlənən qız-gəlinlər, yuyub-sərdikləri paltarları kol-kos üzərindən, ağaclara bağladıqları ipdən yığıb, evlərinə qayıtmağa hazırlaşırdılar. Onların şaqraq gülüşləri, şən səsləri Dəhnə bağının hər tərəfinə yayılmışdı. Bağda oynayan dəcəl uşaqlar da qızın oxuduğu mahnıları öz aralarında oxuya-oxuya atılıb-düşür, şənlənirdilər.

Xiyabanda işləyən kümdarlar qırdıqları tut budaqlarını arabalara yükləyirdilər.

Əlindəki dəhrəni arabanın sandığına atan Mirzə Məmiş, oğlu Alışa səsləndi:

- Bu günlük işlədiyimiz bəs edər, budadıqlarımız tut şaxlarıyla ipəkqurdunu bir-iki gün yemləmək olar.

Atasının dediyini eşidən Alış, dəstələyib qucağına yığdığı tut şaxlarını da gətirib arabaya yüklədi. O, nəfəsini dərib, sicimlə arabanın yükünü bir neçə yerdən möhkəm bağladı. Sonra üst-başının tozunu çırpıb, arabaya qoşulmuş kəhərin qayışlarını diqqətlə gözdən keçirdi.

Günorta naharını hamılıqla bulaq kənarında yeyəndən sonra, Maya yır-yığış edib, qab-qacaqları bulaq başında yuduqdan sonra, ipək parçadan toxunmuş allı-güllü heybəyə yığıb, arabanın oturacaq yerində iri taxta sandığa qablaşdırdı.

Heydər bulağının ağuşundan gecə-gündüz şırıltı ilə üzüaşağı – Dəhnə bağlarına axan suyun zümzüməsi insan qəlbinin məlhəmitək tükənmək bilmirdi.

Çuxasını çiyninə aşıran Mirzə, üzünü qızına tərəf çevirib:

- Ay qızım, səhəngləri doldur, evə də sərin su aparaq. Yaz vaxtı axşamlar bulaq suyu içib sərinlənmək ada-

mı gümrah saxlayar, ömrü uzadar, - deyə qayğı ilə Mayanın yadına saldı.

- Qağa, narahat olma, səhəngi Qoşa çinar ağacının dibindən axan bulağın suyu ilə doldurub götürmüşəm, - deyə iri tut ağacının budağına bağladığı ağ köhlənin yüyənini açaraq, cavab verdi. Atın başına sığal çəkən Maya yəhərin qayışını yoxlayıb, bərkitdi. Arabanın hazır olduğunu görən Mirzə:

- Yola düşün, mən ardınızca yavaş-yavaş piyada gələcəm. Dəhnə bağında Məşədi Yusif ağa ilə söhbətim var. Öyrənim görüm, baramanı hansı vaxt təhvil versək, yaxşıdır, - deyə toxmaçarlığın arası ilə Köhnə kəhrizə tərəf getdi. Arabaya qalxıb sandığın üstündə əyləşən Alış, atın cilovunu bərkdən çəkərək, hayladı.

Arabanı yerindən tərpədən kəhər irəliyə atıldı.

Bir göz qırpımında atlanan Maya da köhləni araba ilə yanaşı yorğa sürərək, kəndə doğru yollandılar. Evlərinə yaxın yerdə atdan yerə düşən Maya, yüyəni çəpərə bitişik olan qarağacın kəsilmiş budağına keçirib, həyət qapılarını taybatay açdı. Qapıların cırıltı ilə açıldığını görən Gözəl arvad, həyətə girən yüklü arabaya yaxınlaşdı. O, tut şaxlarını boşaltmaq istəyirdi ki, bunu görən Alış tez arabadan yerə atılıb, ərklə dilləndi:

- Ay nənə, sən əziyyət çəkmə, kənarda dayan, arabanı özüm boşaldacam.

Boşaldılmış tut şaxlarını səliqə-sahmanla evə bitişik olan balaca dama daşıyıb qurtaran Alış, bir azdan dəhlizin pilləkənində oturub dincini aldı.

Kümlərdə bəslənilən ipəkqurdunun künalını təzə tut şaxları ilə əvəz edən anasına eşitdirərək:

- Nənə, deyəsən, hələ bir-iki günlük yarpaq lazım olacaq. Gərək bağda budanmamış çəkillərin şüvüllərini də qırıb daşıyaq, - deyə bildirdi.

- Darıxma, bala, hələ ki, bir-iki günlük yem payını gətirmisiniz, - deyə əminliklə danışan Gözəl arvad, künalları dəstələyib, həyətdə qalaqlanmış odunluğa aparıb, səliqə ilə yığdı.

- Bu günlük bəsdir, axşam tərəfi yem paylarını bir də verərik, - deyə həyətə təzəcə girən Mirzə kişi, kümlərə yaxınlaşıb, ipəkqurduna diqqətlə baxıb, - hələ yenə də tut şaxlarını qırıb gətirmək lazımdır, - dedi.

Evin kandarında daş təknədən axan su ilə yuyunub nəfəsini dərən Mirzə, yavaş-yavaş pillələrlə dəhlizə çıxdı.

***

Günəşin üfüqdə qızartısı Heydər dağının arxasında yavaş-yavaş qürub edib, görünməz oldu.

Naxırı kəndin ara yolunda qovan çobanın xırıltılı səsini eşidənlər, gəlib sürüdən ayrılan qoyunları həyətə ötürürdülər. Mal-qaranın ayaqları altından qopan toz qatı hər tərəfi bürümüşdü. Qaya daşları ilə hörülən barıya dırmanmış keçilər, ağacların aşağı əyilmiş budaqlarının tər-təzə zoğ atmış uclarını qoparıb, gəmirirdilər. Həyətlərdən gələn səsdən hürküb yerə sıçrayan keçilər, balaca quyruqlarını bulaya-bulaya, saymazyana uzaqlaşan naxırın ardınca götürüldülər.

***

Toranlıqda bərq vuran bədirlənmiş Ay işığı, ətrafı nura qərq etmişdi. Bəyaz gecədə hökm sürən sükutu pozan cırcıramaların zəhlə tökən cırıltısı, köpəklərin boğuq səsləri kəsilmək bilmirdi.

Kürsülü evin geniş eyvanında, sürahıya söykənib uzaqdan qara buluda oxşayan Ala dağın zirvəsini seyr edən Mayanın çöhrəsindəki təbəssüm dolu məna, sanki ona yorğunluğunu unutdurmuşdu. Dağın zirvəsində aydın seçilən Ala qayanın əzəmətli görüntüsü, Səsverən qayanı xatırladırdı. Çinarlı gölün sahilində ilk dəfə gördüyü cavan oğlanın heyranlıqla ona baxdığı anları unuda bilməyən Maya, şirin xəyallara dalır, gözlərini dağ səmtindən çəkmədən fikirləşirdi. Havadərədə daş körpünü keçmək istəyərkən, qəfil kəhərin cilovunu çəkib dayanan atlı oğlanın özünü itirərək çaş-baş qaldığını və boğula-boğula dediyi kəlmələrin sehrinə düşmüş kimi, - ...gedirəm, ancaq, tezliklə qayıdacam! - deyə, qətiyyətli sözləri sanki qızı ovsunlamış, bu aləmdən ayırmışdı.

Yazın ilk çağında sərin mehin giziltili, soyuq üşüntüsünü hiss edən Maya, çiyninə örtdüyü şala bürünüb, öz otağına keçdi.

***

Sübh tezdən Bacam təpədən yuxarı mal-qarasını naxıra ötürüb, meydana yığılan barama saxlayan kümdarlar arasında gedən söhbətlərin ardı-arası kəsilmək bilmirdi. Səsli-küylü mübahisələrə qoşulanlar da, kümxanalarda günlərlə bəslədikləri ipəkqurduna çəkdikləri əziyyətin müqabilində alacaqları zəhmət haqqının dəyərini öz aralarında götür-qoy edirdilər.

Söhbəti uzaqdan müşahidə edən naxırçı Musa, başını silkələyərək, əlində hərlədiyi şümal çomağı başı üzərində havada yellədib, naxırı qədim insan məskəni sayı-

lan Kültəpədən enişə, Qanlıdərəyə tərəf qovdu. Mübahisəyə baş qoşmayan çoban, atını naxırın ardınca sürüb, oradan uzaqlaşdı. Onun gur səsi bir azdan dərədə eşidilməz oldu.

Evlərinə qayıdanlar yolboyu yenidən söz-söhbəti çözməyə başladılar. Tezliklə baramanı yığıb, təhvil verilmə gününü təyin edirdilər. Altı həftə əziyyət çəkib bəslənilən ipəkqurdu, yuvasını sarımağa başlamışdı. Ağır zəhmətdən sonra, əkin-biçində görüləcək işlər öz sahibini gözləyirdi. Yazın son günlərində ərsəyə gətirib dərdikləri baramanı iri xaşalarda otağın bir küncünə yığan kümdarlar, kənddə yerləşən baramaqurutma məntəqələrinə aparıb təhvil verməyə hazırlıq görürdülər. İri xaşalara yığılmış barama bükümlərini nəmli-nəmli, at belində, arabalarda Məşədi Yusif ağanın ipək fabrikinin qəbul məntəqələrinə aparan adamlar, tələsirdilər. Təzə kəhrizdən yuxarı məntəqəyə daşınan xaşalar, fabrikin həyətində sıra ilə yığılmışdı. Məntəqədə quraşdırılmış iri dəmir tərəzi yanında məhsulu çəkdirənlərin uzun növbəsi yaranmışdı.

Kümdarlarla söhbət edən Məşədi Yusif ağa, təhvil verilən məhsulun müqabilində, tam əminliklə tezliklə haqlarının artıqlaması ilə ödəniləcəyini həyətə yığılanlara eşitdirib, onları arxayın etdi.

- Məşədi, Allah səndən razı olsun. Sən həmişə bizim zəhmətlə yetişdirib, ərsəyə gətirdiyimiz barama bükümlərini düz çəki ilə qəbul edib, haqqımızı da son quruşuna qədər ödəmisən, - deyə, ucadan danışan Savalan kişi ağız dolusu razılığını bildirdi.

- Savalan kişi, mən də sizin kimi kümxanamızda əzab-əziyyətlə ipəkqurdunu bəsləyirəm. Vallah, bu işin

nə qədər çətin, əzablı olduğunu hamınızdan da yaxşı bilirəm. Əziyyətlə ərsəyə gətirilən məhsulun haqqını kəsən bir kimsənin əməllərində heç zaman xeyir-bərəkət olmaz. Şəriətimizdə də dönə-dönə deyilir ki, rəncbərin təri soyumamış, haqqını ver. Düz qırx gündür övladlarımla birlikdə tut budaqlarını qırıb, kümlərimizə daşıyırıq. Külfətim də bütün günü kümxanada gecə-gündüz ipəkqurdunun nazını çəkib, bəsləyibdir. Ataların müqəddəs bir kəlamı var, - "Əkib becərməsən, bəhrəsini də görməzsən", - deyə Məşədi Yusif ağa ətrafına yığılan kümdarlara özləri ilə gətirdiyi məhsulun təhvil verilməsindən zərrəcə narahat olmamalarına söz verdi.

- Məşədi, vallah, bu kənddə uşaqdan-böyüyə hamı sənin insafına, düzlüyünə bələddir. Baxmayaraq ki, kəndimizdə sizin fabrikinizdən savayı, iki fabrik də var. Ancaq biz kəndin o başından bu başına məhsulumuzun hamısını son qramına qədər yığıb, sənin məntəqənə gətiririk, - deyə Ağalar kişi ərklə Məşədiyə eşitdirdi.

- Sağ ol, Ağalar kişi, elə deyilən kimi də varsan. Kənd camaatının çətin günlərində, dar günümüzdə də dəyənəyinlə quldurlara layiqli cavab verməkdə həmişə bizimlə bir yerdə olmusan, - deyə, Yusif ağa əlini Ağalar kişinin çiyninə qoyub, fərəhlə bildirdi.

- Ay Məşədi, adam olan kəs gərək ölümündən zərrəcə qorxmasın. Həmişə elin-obanın təəssübünü saxlasın. Biz bisavad adamlarıq. Ancaq hünərimizi də əlimizdən almayıblar axı. Nə qədər ki, nəfəsimiz gəlir, el-obanın yolunda heç vaxt canımızı, malımızı əsirgəmərik, - deyə, Ağalar kişi Məşədi Yusif ağaya baxaraq, dərindən köks ötürüb cavab verdi.

- Elədir ki, var. Ona görə də hər zaman istəmişəm ki, kəndimizdə camaatın güzəranı, dolanışıqları yaxşı olsun. Mən bir kimsənin haqqını kəsmərəm. Ocağıma da haram mal, haram qazanc aparmaram. Başqası necə işləyir, hansı yolla qazanır, babalı öz boyunlarına. Yüz cür bəd əməllə varlanmaq eşqinə düşənlərdən mərifət, izzət gözləməsən yaxşıdır. Onların öz aləmində, kasıb-kusubun malmülkü bir quruşa dəyməz. Obada etdikləri bəs deyil, başqa yerlərdə də əndazədən çıxıb, bir çox qələtlər qarışdırırlar. Siz işinizdə olun, ilan ulduz görməsə ölməz. Onların ipini həmişə rəhmətlik Əli ağa yığıb. Bir balaca gözünü ağardanda, qorxudan gizlənməyə siçan deşiyi axtarırdılar, - deyə, Yusif ağa fikrini yekunlaşdırdı.

Fabrikin həyətində barama taylarını daşıyanların sayı durmadan artırdı. Tərəziyə yaxın qoyulan mizin arxasında əyləşən hesabdar, çəkdiyi tayların hesabını nəzərdən keçirirdi. Sahibindən aldığı barama tayının müqabilində haqqını da elə tərəzinin yanında ödəyirdi.

***

Dəhnə bağında qoşa çinar ağacına yaxınlaşan üç atlı, deyə-gülə hər tərəfdən meyvə bağları ilə əhatəyə alınmış Çinarlı gölün sahilində atlarını əylədilər.

Gözucu hər tərəfi seyr edib susan Nəcəf kişi, qamçının dəstəyi ilə bağın yuxarı tərəfində görünən kürsülü ömürgün yoldaşı Dürnisə xanıma nişan verib göstərərək qətiyyətlə:

- Ay arvad! İstəyimiz bax o evdədir, - dedi.

- Allah xeyir versin! Bir qız bir oğlanındır, mən də soraqlaşıb öyrənmişəm. İstədiyimiz qız mərifətli ailədən-

dir. Təki onların bəxtləri işıqlı olsun, - deyə könül xoşluğu ilə danışan Dürnisə xanım ağızdolusu dua etdi.

- Amin! İnşallah, axırı yaxşı olar. İki gün bundan əvvəl Qiyas kişi ilə dəyirmanda görüşmüşük. Söhbət əsnasında həmişə olduğu kimi, qızın ailəsi haqqında çox danışdı, - deyə, qamçını aşağı yendirən Nəcəf təmkinlə cavab verdi.

- Qiyas kişi baxma ki, dəyirmançıdır. Elə bir məclis yoxdur ki, orda hörmətlə yad edilməsin. Onun bizim xeyir işimizə məsləhət bildiyinin axırı xeyrə calanar.

- Nəfəsimizi dərib dincəldik, bəsdir. Burdan pay-piyada həyətlərin arası ilə getməliyik. İbad, atları cidarla, burax, gölün qırağında otlasınlar. Biz də qız evindən bir xəbər bilib qayıdırıq. Bir halda ki, bir-birinizi bəyənmisiniz, mənim sizə başqa sözüm-söhbətim ola bilməz. Allah mübarək eləsin, xoşbəxt olun, - atından düşən Nəcəf kişi, İbada baxa-baxa xeyir-dua verdi.

Yüyəni yəhərin qaşına atıb, cəld yerə düşən İbad, anasının qolundan tutub, atdan düşməsinə kömək etdi.

- Xoşbəxt olun, ay oğul. Yaxşı yerdən gözaltı etmisən. İnşallah, bu payız toyunu da edərik, - Dürnisə xanım başına örtdüyü Daşkəsən fabrikində toxunan saçaqlı ipək örpəyi sahmana salıb, oğluna xeyir-dua verdi.

İbad, atın tərkinə aşırdığı xurcundan ipək boxcanı anasına verdi. Özü isə atları gölün qırağına tərəf aparıb, bir-bir cidarlamağa başladı.

Üst-başını səliqə-səhmana salan Nəcəf kişi Dürnisə xanımla alma bağından aralanıb, asta addımlarla evə tərəf yol aldılar. Qaya daşından hörülmüş barının taxta qa-

pısı ağzında dayandılar. Nəcəf kişi astaca qapını taqqıldatdı. Bir azdan qapını açan cavan oğlan küçədə dayanan yaşlı qonaqları görüb, nəzakətlə salamlaşdı.

- Ay oğul, qonaq qəbul edirsinizmi? - deyə Nəcəf kişi ərklə oğlandan soruşdu.

- Buyurun, əmi, qapımız əziz qonağın üzünə həmişə açıqdır, buyurun, keçin içəri, - deyə, oğlan onları hörmətlə həyətə dəvət etdi.

Daş pilləkənin aşağısında dayanmış Mirzə Məmişlə Gözəl arvad qonaqların pişvazına çıxıb, onlarla mehribanlıqla görüşdülər.

Mirzə, qonaqları kürsülü evin eyvanında xalça-gəbə ilə döşənmiş yerə dəvət etdi. Dəhlizdə əyləşmiş cavan kişi, qonaqların pillələrlə qalxdığını görüb, ayağa durdu. Onlara xoş gəlmisiniz, - deyib, ədəb-ərkanla görüşdü.

Mirzə Məmiş, Nəcəflə görüşən kişini təqdim edərək, təmkinlə:

- Bu mənim böyük kürəkənim Mirzə Mehdidir, Nəcəfdə, mədrəsədə təhsil alıb. Bir müddət təhsil aldığı Nəcəfdə, sonra Şam şəhərində mədrəsədə mirzə işləyib. İndi isə kəndimizdə məscidin axundu, mədrəsəmizin isə mirzəsidir. Onun yanında dayanan, böyük qızım Mələkdir. Gördüyün balaca qızlar isə nəvələrim Səltənətlə Xatındır. Hər ikisi kəndimizin məscidində – qızlar oxuduğu mədrəsədə şəriət təhsili alırlar.

Mirzə Məmiş, gələn qonaqlara ailəsini bir-bir təqdim edib, əyləşmələri üçün dəhlizdə gəbə ilə döşənmiş yerə dəvət etdi.

Ev sahibi ilə qonaqlar əyləşərək, yerlərini rahatladılar.

Bir azdan rahatlanıb dincini alan Nəcəf kişi söz boxçasını açaraq, keçmişi xatırlayıb, söhbətə başladı. Hərdən də gəlişinin səbəbini eyhamla bildirib, yavaş-yavaş mətləb üstünə gəldi:

- Mirzə, qədim zamanlardan üzübəri, müdrik bir kəlamda deyildiyi kimi, bir qız bir oğlanındır. Doğrudan da, bu kəlamın müqəddəs olduğunu hamımız şahidi olaola, bu yolu keçmişik. İndi biz də bu kəlama itaət edib, sizi sayıb, qapınıza elçiliyə gəlmişik.

Nəcəf kişiyə diqqətlə qulaq asan Mirzə, başını yuxarı qaldırmadan, dəhlizdən aşağıda görünən alma ağacının budağında al-qırmızı rəngə çalan bir cüt almadan gözünü çəkmədən:

- Bilirsən, Nəcəf! Gediş-gəlişimiz az olsa da, bir-birimizi yaxşı tanıyırıq. Sənin oğluna o qədər də yaxşı bələd deyiləm. Deyilənə görə, pis uşaq da deyil. Bizim uşağın qəlbi təmiz olsa da, bir az ərköyün böyüyüb. Özünü həmişə oğlansayağı aparır. Bilmirəm, sonrası necə ola bilər? Ancaq onu deyə bilərəm ki, Allah bilən məsləhətdir. Mən sənə bu haqda qəti bir söz deyə bilmərəm.

Aramla danışan Mirzənin nəyə işarə vurduğunu başa düşən Nəcəf kişi:

- Mən də bildirirəm ki, gəlişimiz məqsədsiz deyil. İstəyimizi, niyyətimizi sənin ocağında açıb dedik. Qapınızı elə-belə açmamışıq. Necə deyərlər, - "Qız ağacı, qoz ağacı. Hər gələn bir daş atar," - məsəli ilə bu ocağa ayaq basmamışıq. Ona görə bu qapıya təşrif buyurmuşuq ki, övladlarımız bir yerdə ailə qurub, xoşbəxt olsunlar, - deyə, Nəcəf kişi əminliklə danışırdı.

Sakitcə deyilənlərə qulaq asan Mirzə, ciddiyyətlə Nəcəf kişiyə tərəf dönüb:

- Qızın dilini anası bilər. Vaxt verin, biz də evdə bir məsləhətləşək, sonra qərarımızı, fikrimizi sizə çatdırarıq, - deyə, sakitcə cavab verdi.

- Ay Mirzə, - "Yüz fikir bir borcu ödəməz". Biz sizi ağsaqqal sayıb, qapınıza elçi gəlmişik. Özün ki, məni yaxşı tanıyırsan. Elə bilirəm bizim ailəmiz haqqında həmişə yaxşı sözlər eşitmisən. Özümə, külfətimə, uşağıma yaxşı bələd olmasam, bu xeyir işdə qapınızı açıb, içəri keçmərəm. Evimizdə bu barədə söhbət düşəndə elə birinci mən özüm sevinə-sevinə demişəm ki, Allah xeyir versin, Mirzənin övladı qanacaqlı, bacarıqlı, evini dolandıran olar. Bundan artıq mən nə deyim axı, sən razı qalasan? - bir qədər ucadan danışan Nəcəf kişi üzünü Mirzəyə tərəf çevirib, qətiyyətlə fikrini tamamladı.

- Nəcəf, elimizin adət-ənənəsi var. Gəlişiniz elə indidir. Dedim axı, biz də yığışıb evdəkilərlə məsləhətləşib bir qərara gələk.

- Ay qağa, atalarımız düz deyib ey, - "məsləhətli don gen olar". Sizli-bizli hamımız yığışıb, oturmuşuq burda. İndi yanımızda kənar bir adam da yoxdur ki, nədənsə ehtiyat edək. Allah xeyir versin de, bir stəkan şirin çayımızı içib, könül xoşluğu ilə amin deyək, - deyə, ərklə danışan Nəcəf kişinin üzündən sezilən təbəssüm, sevinc yağışı hamının diqqətini cəlb etdi.

Nəcəfi dinləyən Mirzə, qəti fikir deməkdə çətinlik çəkirdi. Nəzərlərini ömür-gün yoldaşı Gözəl xanıma tərəf dikib, boğuq səslə:

- Qızın fikrini də bilsək, pis olmaz, - dedi.

Mirzənin sakitcə dediyi sözü eşidən Dürnisə xanım, oturduğu yerdəcə Gözəl xanıma işarə edib, ayağa qalxdı. Onlar dəhlizin sonunda qoşa pəncərəli otağa tərəf getdilər.

Otaqda xeyli söhbətdən sonra gülə-gülə çölə çıxan Dürnisə xanım, sevincək halda gəlib yerində əyləşdi. Təbəssümlə hər şeyin yaxşı olduğunu ərinə anlatdı.

Bunu görən Nəcəf kişi də bığaltı gülümsünərək:

- İndi isə bizim çayımızı gətirin, şirnimizi içək, - deyə, əllərini göyə qaldırıb dua etdi.

Gözəl xanım, qızı Mələklə gəlini Marala çay dəstgahını başlamalarına işarə verdi.

Bir azdan qızla-gəlin, gümüş sinidə içi qəndlə dolu qabları süfrəyə düzdülər. Sonra da çay süzülmüş armudu stəkanları süfrə arxasında əyləşənlərin qarşısına qoydular.

Nəcəf kişi sevincək halda qənd qabından bir ovuc qəndi ərklə ovuclayıb, stəkanına tökdü. Sonra onu gümüş çay qaşığı ilə qarışdırdı. Məclisdə oturanlar da çaylarını şirin etdilər. Çayını şirin edib, stəkanı əlində tutan Nəcəf kişi qürur hissi ilə:

- Allah mübarək eləsin, Mirzə. Xoşbəxt olsunlar. Allahdan təvəqqem budur ki, hər iki cavanın bəxt ulduzları həmişə bir yerdə parlasın.

Hamı Nəcəf kişinin xeyir-duasına könül xoşluğu ilə "amin", - dedi.

Çay içiləndən sonra Gözəl xanımın işarəsi ilə Mələklə Maral, əvvəlcədən tədarük gördükləri ləziz yeməkləri, nemətləri süfrəyə gətirdilər.

Nəcəf kişi ilə Mirzə təamlardan nuş edərək, astaca söhbət edirdilər.

Yeməkdən sonra şükranlıq edən hər iki tərəfin adamlarının üzlərində sevinc dolu şadyanalıq, toxtaqlıq hiss olunurdu.

Dürnisə xanımı ötəri süzən Nəcəf kişi, ona nəyi isə andırmağa çalışdı.

Ərinin niyyətini duyan Dürnisə xanım dərhal ayağa qalxdı, divara yaxın qoyulan mizin üstündən ipək boxçanı götürüb, dəhlizin sonundakı otağa keçdi. Bir azdan otaqda eşidilən xeyir-dua səsləri ətrafa yayıldı. İçəridə xeyli söhbət edəndən sonra gəlini Mayanın əlindən bərk-bərk tutub, dəhlizə çıxaran Dürnisə xanım, gülə-gülə ağsaqqalların əyləşdiyi yerə – məclisə gətirdi.

Mayanı görən Nəcəf kişi, oturduğu yerdən ayağa qalxdı. Yaxınlaşıb gəlininin alnından öpüb riqqətlə:

- Xoşbəxt olun, qızım. Bəxt ulduzunuz həmişə bir yerdə olub parıldasın, bir yerdə qarıyasınız, - deyə, sidq-ürəklə xeyir-dua verdi.

Qayınatasının xeyir-duasını eşidən Maya, səhər doğan günəş kimi allandı.

O, başını aşağı salıb, hərəkətsiz dayanmışdı. Həya və sevincinin təsirindən yaşaran gözlərini əlinin arxası ilə silərək, səssizcə arxaya çəkilib, öz otağına keçdi.

- Maşallah, elə bil ki, ay parçasıdır. Necə də bir-birilərinə yaraşırlar, - deyə, sevincini büruzə verən Nəcəf kişi, - demək, yolumuzu düz seçib, bu qapıya gəlmişik. - Atalar necə deyiblər: - "Niyyətin hara, mənzilin də ora!" - deyə, sözünü bitirən Nəcəf kişi, gəlini gedəndən sonra yerində əyləşib, söhbətinə davam etdi.

Məclisdə bir anlıq hökm sürən sükutdan sonra boğazını arıtlayan Nəcəf kişi: - Mirzə, istəyirik elə bu payız cavanların toylarını edək. Siz necə məsləhət bilirsiniz?

- Məsləhət sizindir, xoşbəxt olsunlar. Mən nə deyə bilərəm? - deyə, Mirzə başını qaldırmadan, təmkinlə ona cavab verdi.

- Onda icazə verin, biz də mürəxxəs olaq. İbad da Çinarlı gölün sahilində nigarançılıqla bizim yolumuzu gözləyir.

Məclisdə əyləşənlər ayağa qalxdılar. Nəcəf kişi Mirzə ilə əl verib görüşüb, onu bağrına basdı. Təzə qohumlar birlikdə dəhlizin artırmasından pilləkənlə həyətə düşdülər.

Çəkmələrini geyinən hər iki ağsaqqal, budaqları barla dolu olan alma ağacına yaxınlaşdılar. Ağacın barına baxa-baxa öz aralarında xeyir işi müzakirə edərək, həyət qapısına tərəf getdilər. Dürnisə xanımla Gözəl xanım, onların ardınca sakitcə danışa-danışa gəlirdilər.

- Hə, yolçu yolda gərək, Gözəl bajı, hər iki cavana xoşbəxtlik diləyirəm. Sağ olun, salamat qalın, icazə verin biz gedək, - deyən Nəcəf kişi həyət qapısından çölə çıxıb, qabağa düşdü.

Təzə qudalar bağa tərəf yollandılar.

Çinarlı gölünə yaxınlaşan Nəcəf kişi, atların yanında dayanan İbada:

- Allah mübarək eləsin, oğul. Xoşbəxt olun. Qoşa qarıyasınız, - deyə, onu qucaqlayıb, alnından öpdü.

Onlara yaxınlaşan Mirzə Məmiş də İbadla nəzakətlə görüşüb, onun boynunu qucaqladı. Həyəcanından pörtmüş İbad, başını aşağı salıb, kirimişcə dayanmışdı.

Gülə-gülə yaxınlaşan Dürnisə xanım, oğlunu qucaqlayaraq: - Xoşbəxt olun, ay bala. Gəlinimiz, elə bil mələkdir, - deyə, qürürla oğluna xeyir-dua verdi.

Ağsaqqallardan ayrılan İbad, atları onların yanına gətirdi. Bürkülü havada Çinarlı gölünə axan soyuq suların ətrafa yaydığı sərinlik adamın qəlbinə rahatlıq gətirir, sakitləşdirirdi. Haqqın dərgahında neçə-neçə gəncin əhdpeymanına şahidlik edən qoşa çinarın əzəmətli görünüşü Maya və İbadın taleyinə yaşıl budaqların xəfif tərpənişi ilə sanki gözaydınlığı verirdi. Ulu keçmişimizin yadigarı, saysız-hesabsız qovğalara şahidlik edən, qollu-budaqlı qoşa çinar ağacı öz gözəlliyi ilə insanı valeh edirdi. İllərlə isti havalarda kölgəsində dincəlib sərinlənən insanların etibarlı sirdaşı kimi gələnə qucaq açmış, gedənə əl etmişdir.

Şirinağızla bir-birinə xeyir-dua verən ağsaqqallar, çinar ağacının kölgəsində dayanıb, xeyli danışdılar.

Mehribanlıqla görüşüb, sağollaşan təzə qudalar evlərinə tərəf yol aldılar. Kefi kök qayıdan elçilər Dəhnə bağında bəhrəli alma ağaclarını gözaltı seyr edərək, Heydər dağına sığınmış bağlar diyarı Daşkəsən kəndinin qəlb oxşayan füsunkar mənzərəsindən zövq alırdılar. Təbiətin nemәti sayılan bu gözəllikdən gözlərini çəkmədən, xoş ovqatla atlarını dəhmərləyib, yola düşdülər. Dəhnə bağında ağacların arası ilə üzüyuxarı, daş yola tərəf çıxdılar. Havadərə çökəyində daş körpüdən üzüaşağı qıjıltı ilə bağlara tərəf axıb gedən Daşkəsən çayını keçən atlılar yollarına davam etdilər. Qəfil geriyə boylanan İbad, təbiətin mirvarisi sayılan Çinarlı gölün büllur sularını heyranlıqla seyr edib, ilk dəfə burda görüb-bəyəndiyi qızın, nişanlısı Ma-

yanın ürək yanğısıyla oxuduğu mahnının sözlərini xəyalında canlandırdı. Bir də onda hiss etdi ki, sakitcə zümzümə etdiyi mahnının sətirləri onun dodaqlarından süzülüb gəlməkdədir:

Vətən bağı al-əlvandır,
Yox üstündə xarı bülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin barı, bülbül.

Daş yoldan üzüyuxarı, Aladağın ətəyində yerləşən qədim Süleymanlı obasına doğru ensiz torpaq yolla atları yorğa sürən üç atlı, şad xəbəri əzizlərinə çatdırmaq istəyi ilə evlərinə tələsirdilər...

DÜLDÜL OCAĞI

(İkinci fəsil)

Yayın qızmar havasına sərinlik gətirən payızın bəhrəli çağları bol müjdəsi ilə gəlmişdi. Bağlarda yetişən meyvələri dərib, qışa tədarük görən adamların şən səsləri aydın eşidilirdi. Bağçada sarı kəhrəba təki üzüm salxımlarını ehtiyatla dərən Gözəl arvad, iri qoz ağacına çıxan oğlu Alışa tərəf boylandı. Alış budaqları bir-bir silkələdikcə, cıbrıqlı qozlar tappıltı ilə yerə tökülürdü. Yerə düşən qozları kisəyə yığan Maya ilə Maral bir-biri ilə xısınlaşırdılar.

Nişanlısı İbadı ağızdolusu tərif edən gəlinlərinə qulaq asan Maya, ürkək baxışları ilə xəlvəti ətrafını seyr edib, qorxa-qorxa pıçıltı ilə:

- Niyyət etmişəm ki, nişandan sonra Düldül ocağına ziyarətə gedim.

Gizli saxladığı sirrini gəlinlərinə açan Mayanın çöhrəsinin alma kimi qızardığını görən Maral:

- Allah niyyətini qəbul etsin. Xoşbəxt olun, qoşa qarıyasınız. Nənənə bu haqda bir söz demisən? Deməmisənsə, istəyirsən, sözarası mən ona eşitdirim.

- Yox, sirrimi elə birinci sənə açıram, - deyə, Maya heç kim eşitməsin deyə, pıçıltı ilə cavab verdi.

Cıbrıqdan çıxan qozları kisəyə yığan qızla gəlin sakitcə danışır, hərdən də ətrafa boylanıb gülüşürdülər.

Üzüm dərən Gözəl arvad, qızlara tərəf səslənib:

- Yerə tökülən qozların hamısını yığa bildiniz?

- Hə, xala, yığmışıq, hələ üstəlik cıbrıqlarını da təmizləyib, kisəni doldurmuşuq.

Fürsəti əldən verməyən Maral, qayınanasına yaxın gəlib, şirin dilini işə salaraq:

- Xala, bilirsən, Maya niyyət edib. Düldül ocağını ziyarət etmək istəyir.

O, sözünü bitirər-bitirməz, qayınanasından ehtiyat edib, bir az kənara çəkildi.

Gəlinin dediklərini eşidən Gözəl arvad, əl saxlayıb, diqqətlə ona baxaraq:

- Nə niyyət edib, Allah qəbul eləsin, mən nə deyə bilərəm? Niyyət edib, inşallah, gedib ziyarət edərik. Ancaq evin ağsaqqalı da eşidib bilsə, pis olmaz.

Anasının tərəddüdlə cavab verdiyini eşidən Maya:

- Nənə, qağamla sən özün danış, onun razılığını al.

- Ay qızım, dədən bizim hamımızdan çox sənin xətrini istəyir. Nə niyyətin var, yaxınlaş, özün ona danış, gör nə məsləhət bilir?

- Xalam düz deyir, əmim hamımızdan çox səni əzizləyir. Birdən-ikiyə bir sözünü iki eləməyib. Burda nə qəbahətli iş var? Hamı niyyət edib, o ocağa ziyarətə gedir.

- Vallah, bala, sən çoxbilmişsən, elə düz də deyirsən.

- Nənə, qorxuram qağam sözümü yerə sala, onda gərək, bir də onun gözünə görünməyim.

- Yaxşı, deyərəm, nə cavab versə, sonrasını özün gedib, başa salarsan.

Gözəl arvad bağda əlləşən ömür-gün yoldaşı Mirzəyə tərəf boylandı. Alma ağaclarının yerə dəyən barlı budaqlarına iri payadan dayaq verən Mirzə, ağaclara qulluq edirdi. Nar ağaclarının əyilmiş budaqlarına dirək qoyub, bir anlıq nəfəsini dərdi. İşini bitirən Mirzə, üst-başının to-

zunu çırpıb, evin qabağında qoyulmuş iri daş təknədə navalçadan tökülən suda yuyunub, sərinləndi.

Bir azdan evin kandarında pillələrlə eyvana çıxıb, döşəmədə sərilmiş gəbənin üzərində əyləşdi. Navalçada əllərini yuyan Gözəl arvad da geriyə, bağa tərəf boylanıb, uşaqlara ucadan səslənərək:

- Yığdıqlarınızı gətirin, evə bitişik damda taxtın üstünə sərib, üstünü kisəylə örtün.

Sonra ertədən hazırladığı nemətləri səliqə ilə gəbə üzərində sərilmiş süfrəyə düzən Gözəl arvad, uşaqları da nahara səslədi.

Hamılıqla süfrə arxasında əyləşənlər, iştahla nahar edirdilər. Yeməkdən sonra şükranlıq edib, çay içə-içə söhbəti açan Gözəl arvad, üzünü ərinə tərəf çevirib:

- Mirzə, Maya niyyət edib, Düldül ocağını ziyarət etmək istəyir, - deyə, ehtiyatla ona tərəf baxıb, qızın niyyətini eşitdirdi.

- Allah qəbul etsin, nə niyyət edibsə, istəyi müstəcəb olsun. Düldül ocağı Peyğəmbər Salavatullahın sevimli atının adıdır. O, atını əmisi oğlu Əli Abutalıb oğluna bəxşiş kimi verib. At muraddır, müqəddəs heyvan olmaqla bərabər, həmişə insanların vəfalı dostu olub, - deyə, təmkinlə cavab verdi.

Mirzənin razılığını eşidən qızlar, sevincək ayağa qalxıb dəhlizin sonundakı otağa yollandılar. Eyvandan üzüaşağı, uzaqdan görünən Teştək bağlarına baxıb, xəyala dalan Mirzə, saqqalına sığal çəkib, əminliklə:

- İnşallah, hazırlaşın, şənbə günü sübh tezdən hamılıqla Düldül ocağının ziyarətinə gedərik.

Dərin fikrə gedən Mirzə, həyətdə araba ilə əlləşən oğluna tərəf boylanıb:

- Alış, gün batmamış fayton məntəqəsinə yollan. "Rus" Camalı tap, ona de ki, şənbə günü sübh tezdən bizə bir fayton göndərsin, hamılıqla Düldül ocağını ziyarət etməyə gedəcəyik.

Atasının dediklərini eşidən Alış:

- Yaxşı, qağa, təkərləri yerinə bağlayım, bir azdan gedərəm.

Mirzəyə diqqətlə qulaq asan Gözəl arvad təəccüblə:

- Mirzə, qapında araban, iki atın ola-ola o boyda fayton nəyinə lazımdır ki, gətizdirirsən?

Ömür gün yoldaşının iradını eşidən Mirzə, başını astaca tərpədib:

- Rəhmətliyin nəvəsi! Özümüz elə bir orduyuq. Bu qədər külfətlə uzaq yolu bir arabada necə getmək olar? El var, oba var. Kənardan bizi görənlər nə deyər? Yaxşı deyil axı. Qızınla gəlinin atlarımıza süvar olub getsələr yaxşıdır. Biz də hamılıqla faytona əyləşib rahatlıqla gedərik. Yaxşısı budur, yol üçün tədarükünü indidən gör ki, yadından heç nə çıxıb qalmasın. Elə ziyarətə götürəcəyimiz paltar-palaz, qab-qacaq bir faytonun yüküdür. Gün batana qədər orda qalıb, dincimizi alsaq, bir stəkan da çay içsək, pis olmaz.

Mirzənin haqlı iradına söz tapıb deyə bilməyən Gözəl arvad:

- Yaxşı, yaxşı! Vallah, sən verən məsləhət düzdür.

Mirzə fikrini əsaslandırmağa çalışaraq:

- İndi payız şumu edənlər Teştək düzündədirlər. Niyyətimiz qəbul olunsun deyə, Düldül ocağında erkək qoyun kəsib bişirməliyik. Cütçüləri də, onlara kömək edən uşaqları da, yoldan gəlib-keçənləri də süfrəmizdə bir loxma çörək kəsməyə dəvət edərik.

Mirzənin cavabından razı qalan Gözəl arvad:

- Vallah, hər şeyi yüz ölçüb, bir biçirsən. Mənim daha heç bir iradım yoxdur.

Ərinin sözünü təsdiq edən Gözəl arvad, dəhlizdən aşağı əyilib, Alışa səsləndi:

- Alış, fayton məntəqəsindən qayıdanda Daşkəsən bazarına da gedib şirnidən, noğuldan, hərəsindən bir-iki girvənkə alıb gətirərsən. Yolüstü bacın Mələyə də baş çək. Onlara da xəbər elə ki, şənbə günü səhər ertədən gəlib, bizimlə Düldül ocağına getsinlər, - deyə, oğluna eşitdirdi.

- Yaxşı, nənə, gedib deyərəm, - deyə Alış dilucu cavab verdi.

Əlində çevirdiyi kəhrəba təsbehlə istixarə edən Mirzə:

- Alış, sürü gələndə erkək qoyunlardan birini ayır, bağçada ərik ağacına bağlayarsan, pirə gedəndə aparıb, orda kəsərik.

- Yaxşı, qağa, sürü gələn kimi ayıraram, - deyə, təkəri yağlayıb, arabanın oxuna keçirən Alış tez cavab verdi.

***

Ala dağın ətəyində, qədim Süleymanlı obasında ot biçimi başlamışdı. Kənd adamları bağlarda, yamaclarda biçdikləri otu, tez qurusun deyə, yaba ilə altını-üstünə çevirir, hərdən də əl saxlayıb, dinclərini alırdılar. Qurumuş otlardan sıra ilə qalaqlanan xotmanlar, çoban komalarına bənzəyirdi. Otun təravətli qoxusu adama xoş təsir bağışlayırdı. Bəslədikləri baramanı təhvil verən kümdarlar son günlər aramsız yağan yağışlardan sonra yamaclarda tut bağlarının arasında boy atmış göy otları yenidən kərənti ilə biçib, mal-qaranın qış yeminə tədarük görürdülər. Otu çevirən bir dəstə cavan da hərdən Armudlu təpədə Məşə-

di Abbasın meyvəli bağına boylanıb, bir-biri ilə xısınlaşırdılar. Ətrafı qaratikan kolları ilə çəpərlənmiş bağda, tikanlı armud ağacında yetişmiş sulu armudlara tamah salan cavanlar, gözlərini ağacdan çəkmirdilər.

Uca, şişman boyuna, zağal qarnına görə tay-tuşlarından seçilən Kərəm, bir kimsənin gözə dəymədiyinə əmin olub, əlindəki yabanı bir tərəfə atdı. Xəlvəti biçilmiş otların arası ilə armudluğa sarı yaxınlaşdı.

Kərəmin xəbərsiz aradan çıxdığını görən Hüseyn:

- Ə, əyilə-əyilə xəlvəti hara gedirsən belə?

- Ə, səs salma. Armudluğa gedirəm, səhərdən bağa boylanıram, Məşədi Abbas gözümə dəymir. İnanmıram bu istidə o, buralara gələ. İstəyirsən, sən də gəl.

- Yaxşı, onda mən də gəlirəm, - deyə, yabanı otluğa atan Hüseyn, Kərəmin ardınca götürüldü.

Ətrafına boylanan Kərəm, bir göz qırpımında çəpəri aşıb, tikanlı armud ağacına yaxınlaşdı. Kərəm armud ağacına çatmamış, Hüseyn ondan qabağa düşüb, iri gövdəli ağacın haçalanmış budağından tutub, pişik kimi yuxarıya dırmandı.

Kəndin dəcəl uşaqları ağacın aşağı budaqlarında olan meyvələri kal-kal dərib, yemişdilər. Yuxarı budaqlarda isə dərilməyən yetişmiş armudlara əl dəyməmişdi.

Hüseynin dərib, aşağı atdığı meyvələri göydə tutan Kərəm, onları otluğa yığır, hərdən də birini bəh-bəhlə yeyirdi.

Kənd tərəfdən dərə yuxarı qalxan kəhərin fınxırtısını eşidən Hüseyn, tez budağı aralayıb aşağı əyilərək, Kərəmə səsləndi:

- Kərəm, İbad gəlir, armudların axırına çıxma, onun da payını saxla.

Hüseynin sözünə məhəl qoymayan Kərəm armud yeyə-yeyə:

- Ə, niyə saxlayıram? İbad uşaqdır bəyəm? Könlü armud istəyir, gəlsin özü çıxsın ağacın təpəsinə, nə qədər istəyir, dərib yesin.

Yorğa sürdüyü atla bağlarına yaxınlaşan İbad, özü ilə gətirdiyi yabanı tut ağacına söykəyib, yalın mindiyi atın belindən yerə sıçradı. Atın boğazına bağladığı örkəni bağdan kənarda, iri gövdəli qarağacın kəsilmiş haçasına keçirib sarıdı. Armudluqda deyib-gülən yoldaşlarının səsini eşidən İbad, onları əli ilə salamlayaraq, bir anlıq ətrafını seyr etdi. Təzə geyindiyi köynəyin qollarını çırmalayıb, ağacların arasında biçilib sərilmiş otu yaba ilə çevirərək, ətrafa nəzər yetirdi. Bir azdan bağda işini bitirib nəfəsini dərən İbad, təpəyə tərəf qalxıb, əvvəlcədən atası ilə biçdiyi qurumuş otu xotmanlayıb, taya vurdu. Yamacdan aşağıda, Atçılıq düzündə kəndin naxırını otaran naxırçı Mirzalının gur səsi iki dağ arasında əks-səda verirdi. Başları armud yığmağa qarışan Kərəmlə Hüseyn, bir anlıq əl saxladılar. Mirzalının səsini eşidən Kərəm:

- Ay indi nə olar, Mirzalı naxırı qova-qova üzü bəri suada gətirə. Biz də armud yeyə-yeyə onu danışdıraq, - deyə irişə-irişə, zarafatla Hüseynə eşitdirdi.

Hüseyn:

- Ə, deyəsən sataşmağa adam tapmadın?

Kol-kos arasında otlayan heyvanları səsləyən Mirzalı, əlində yellədiyi çomaqla naxırı aşağıya, suada tərəf qovurdu.

Kərəm naxıra tərəf boylanıb onu çağırmaq istəyirdi ki, İbad ciddiyyətlə:

- Mirzalıyla işiniz olmasın. Durun otunuzu yığın, tayalarınızı vurun. O, onsuz da bir azdan sürünü su arxına, suada gətirəndə ağac kölgəsində oturub dincini alacaq.

Zarafatından qalmayan Kərəm:

- Armud payını saxlamışıq, əlindəki yabanı at bir tərəfə. Gəl görək, kənddə nə var nə yox? Ot qaçmır, axşam sərinində durub, hamımız işləyərik, - deyə, armud yeyə-yeyə İbadı yanına çağırdı.

Kərəmin əl çəkməyəcəyini görən İbad, yabanı da çiyninə aşırıb, yavaş-yavaş ona tərəf yaxınlaşdı. Yerdə cəmisi əzik bir armudun qaldığını görən İbad, pərt halda Kərəmə baxıb israrla:

- Səhərdən qurumuş ağac budağına qonan payız sağ-sağını kimi qırıldayıb, səsini heç kəsmirsən. Budur mənim armud payım?

İbadın cırnadığını görən Kərəm:

- Ə, hələ sevin ki, əzilmiş bu armudu da səndən ötrü saxlamışıq. Yoxsa, bir az da gec gəlsəydin, heç onu da yeyə bilməzdin. Dəcəl uşaqlar ağacda olanların hamısını sovub aparıblar.

Naəlac qalan İbad, yerdən əzilmiş armudu götürüb yemək istəyirdi ki, Kərəm otun altında gizlətdiyi bir qalaq meyvəni ona göstərib:

- Buyur, öz malın kimi rahat oturub, yeyə bilərsən.

- Hə, bu başqa məsələ, çox dərə bilməzdiniz?

Barmağı ilə ağacın yuxarı budağında armud dərən Hüseyni göstərən Kərəm zarafatla:

- Armudu dərən odur, ona de, dərib aşağı atsın, sən də nə qədər istəyirsən ye, xaşalını doldur.

İbad oturduğu yerdə kürəyini iri armud ağacına söykəyib, armud yeyə-yeyə:

- Kərəm, bəsdir, zarafata salıb, özündən böyükləri dolama. Mirzalı kişi ilə də sənin işin olmasın. Yaxşı olar ki, bir də onunla şit zarafat etməyəsən. Ağsaqqal adamdır, atan yerində kişidir. O sənin tayın-tuşun deyil. Axırı bir gün onun qəzəbinə tuş gələcəksən. Onda da gec olacaq. Bədheybət bədəninə bir-ikisini ilişdirsə, beş-on gün yorğan-döşəkdə sərili qalıb, zarıldaya-zarıldaya qalacaqsan. Məndən sənə xəbərdarlıq etməkdir. Gerisini də özün bilərsən, - deyə, təmkinlə danışan İbad, məzəmmətlə dostuna eşitdirdi.

- Qoysana onu çağırıb, bir az danışdıraq. Görək naxıra soxulan yalquzaq bozqurdu necə vurub, onu necə boğazlayıb öldürüb? - deyə, xasiyyətindən əl çəkməyən Kərəm, dil-boğaza qoymadan naxırçının qarasınca danışıb şit-şit irişirdi.

Ağacdan aşağı düşən Hüseyn:

- Ay Kərəm, Mirzalı əmi sənin tayın-tuşundur? Niyə dilini farağat qoyub, otunu çevirmirsən. Deyəsən axı, Mirzalının çomağının dadını-duzunu hələ görməmisən. Yaxşısı budur, onu ələ salmağını, lağlağını qurtarasan. Yoxsa, o kişinin "kəramətini" bilirsən də, necə görəcəksən? Səni boz qurdun gününə salıb, çomaqla kürəyinə birini ilişdirsə, ömür boyu Kazımın axsaq, ala öküzü təki bütün il boyu kəndarası yolda əyri yeriyəcəksən.

Hüseynin zarafatla çəkdiyi misala qəşş edib, qəh-qəhlə gülən İbad:

- Ay nə dedin, elə bil ürəyimdən tikan çıxartdın.

Zarafata salıb, Kərəmi dolayan Hüseyn:

- Bildin də, qağa, deyəsən, özündən razısan? Dilini dinc qoymasan, işin fırıqdır.

Ağacın kölgəsində əyləşib, ötüb-keçən günləri yada salaraq, deyib-gülən cavanlar, bir azdan ayağa qalxıb biçilmiş otları çevirməyə getdilər.

Naxırı, kəhrizdən üzüaşağı axıb gedən su arxına, suada qovan Mirzalı, at belində hay-küylə mal-qaranı bir yerə yığmağa çalışırdı.

Bunu görən İbad, Hüseynə göz vurub məzə ilə ucadan:

- Dədə vay, Mirzalı gəlir. Kərəm, indi gedib arxayınçılıqla ondan soruşa bilərsən. Mirzalı əmi boz qurdu necə öldürdüyünü yerli-yataqlı sənə danışacaq.

İbadın dediklərini qulaqardına vuran Kərəm, cavab vermədi. Hüseyn gülə-gülə:

- Hə, nə oldu, qağa? Deyəsən, yediyin o armudlar kəkliyini azdırıb, cavab verməyə taqətin, cəsarətin qalmayıb?

Pərtliyini büruzə verməyən Kərəm:

- Ə, nə demişəm axı? Sizin kimi mən də istəyirdim bilim, görüm Mirzalı əmi boz qurdu necə öldürüb? Mən yazıq onun haqqında başqa bir söz demişəm heç? Səhərdən ikiniz də cütləşib məni ələ salıb dolayırsınız, - deyə Kərəm cırnamış adam kimi mızıldanaraq, yazıq-yazıq naxıra tərəf boylanıb, otu çevirirdi.

Arxdan su içib, doyan mal-qara, yamacdan aşağıda iri gövdəli çinar ağaclarının kölgəsində yatışıb kövşək vururdu.

Çoban Mirzalı naxırın qabağında dayanıb, heyvanların dağılışmasına imkan vermirdi. Bir azdan o da atın tərkindən heybəsini götürüb, kölgəliyə tərəf getdi.

Yamacda qollu-budaqlı çinarın kölgəsində oturub bir az nəfəsini aldı. Yorğun adamlar kimi sakitcə heybəsindən çıxartdığı dəstərxanı açıb, yerə sərdi. Bir xısma motal pendir götürdü, yuxadan dürmək büküb, iştahla yeməyə başladı.

Uzaqdan bunu görən İbadla Hüseyn, bir-biri ilə sözləşib, yavaş-yavaş naxırçıya yaxınlaşdılar. Naxırçının yanında çöməltmə oturan ala köpək cavanları görüb hürməyə başladı. Onları tanıyan Mirzalı kişi itə acıqlandı.

Mirzalı ilə nəzakətlə görüşən cavanlar, onun yanında əyləşdilər. İbadla yanaşı oturan Hüseyn, kənardan onlara tərəf yazıq-yazıq baxan Kərəmi də əlinin işarəsi ilə çağırdı.

Köpəkdən qorxan Kərəm, suçlu adam kimi ehtiyatla onlara yaxınlaşdı. Mirzalı kişi ilə görüşüb, pörtmüş halda sakitcə dostlarının yanında oturdu.

Naxırçı, süfrəni geniş açaraq, cavanlara bir parça çörək kəsməyi təklif etdi.

- Sağ ol, Mirzalı əmi. Allah süfrənizi həmişə bol eləsin. Evimiz yaxındır, günorta biz yeyib gəlmişik. Sən özün arxayın çörəyini ye, - deyə, İbad ona dil-ağız edib, razılığını bildirdi.

Yuxa dürməyini yeyə-yeyə astaca danışan Mirzalı kişi:

- Ay oğul, eşitmişəm nişanlanmısan? Çox mübarəkdir, Allah xeyir versin. Bir yerdə qarıyasınız. De görüm, nişanlın kimlərdəndir?

İbad gözlənilmədən ona verilən sualdan utanıb, başını aşağı saldı. Dostunun utancaq olduğunu bilən Hüseyn, tez onun əvəzindən cavab verdi:

- Mirzalı əmi, o ailəni yaxşı tanıyırsınız. İbadın adaxlısı Daşkəsənli Mirzə Məmişin kiçik qızıdır.

Bu xəbəri eşidib sevinən çoban, gülə-gülə, şirinağızla xeyir-dua verib:

- Hə! Çox yaxşı. Xoşbəxt olun. Yaxşı yerdən qohum olmusunuz. Daşkəsən kəndinin camaatı yaxşı adamlar-

dır. Onlara ki, kürəyini dayadın, heç vaxt sənə zaval yoxdur. Daşkəsənlilərin uşaqdan-böyüyünə kimi, hamısını çox yaxşı tanıyıram. Mərd, qorxusuz-hürküsüz adamlardır və həm də çox qeyrətlidirlər. Ötən illərdə erməni-müsəlman davasında camaatımızı, arvad-uşaqları düşmən həmləsindən qorumaq üçün o kəndə göndərmişdik. Özümüz isə səngərlərdə dığalarla vuruşurduq. Bir də gördük ki, Daşkəsənli Məşədi Yusif ağa, Kərbəlayi Behbud bəylə Xanlar ağanın silahlı atlıları Xiyabandan yuxarı bizim köməyimizə gəlirlər.

Keçmişi xatırlayan naxırçı bir anlıq söhbətinə ara verib, ağac kölgəsində kövşək vurub, yatışan naxıra tərəf boylandı. Mirzalının yorğun çöhrəsini gözaltı seyr edən Hüseyn:

- Mirzalı əmi, sən bir az dincini al, naxırı biz aparıb, otararıq.

Cavanların ona kömək etmək istəyini başa düşən naxırçı, köks ötürüb duruxdu. O, yatışan mal-qaranı gözdən keçirib, cavanlara dil-ağız edərək, razılıqla:

- Sağ olun, Allah sizdən razı olsun. Yaxşı olardı ki, gedib otunuzu çevirəydiniz, mən də bir az dincimi alım. Bir azdan durub, naxırın dalınca hərlənəcəm. Dədə-baba peşəmiz yay-qış kövşənlərdə kəndimizin heyvanlarını otarmaq olub. Gərək onları elə otarasan ki, camaat da sonra səni qınamasın. Naxırı günorta vaxtları gətirib, burda suvarıram. Görürsünüz də, su içəndən sonra çinar ağaclarının kölgəsində necə yatışıblar? Bu vaxtlar mən də burda əyləşib, bir loxma çörək yeyirəm. Sonra da gördüyünüz o qayaya söykənib, mürgü vura-vura gözümün acısını alıram. Ancaq heyvanları yuxarılarda, yamaclarda otaranda əziyyətim çox olur. Onda da gərək at belindən düşüb pay-

piyada dərə-təpədə gəzə-gəzə, hər tərəfdən naxırı gözləyim ki, kol-kosda it-bata düşüb, qurd-quşa yem olmasınlar, - deyə, yatışmış mal-qaranı gözucu seyr edən Mirzalı kişi, cavanlarla sakit danışırdı.

Naxırçıya diqqətlə qulaq asan İbad maraqla:

- Mirzalı əmi, heç olubmu ki, mal-qaranı kövşənlərdə otardığın ərəfədə oğrular xəlvətə salıb, naxırdan heyvan oğurlayıblar?

- Yadıma gəlmir. Çoban gərək sayqulu ola. O, otardığı heyvanı oğurlatdırırsa, onda nə günün çobanıdır. Yad adamların naxıra yaxınlaşdığını görən alabaş, o andaca mırıldayıb hürür, - deyə əli ilə aralıda çöməltmə oturub, ləhləyən iti göstərərək, - it sahibinə çox vəfalı, sədaqətli heyvandır. Gələn adamın niyyətini əvvəlcədən hiss edir. Əgər itin nəyə və kimə hürdüyünü başa düşdünsə, naxıra zaval yoxdur. Yox, onun hürməsinə o qədər də əhəmiyyət verməmisənsə, onda işlərin fırıqdır. Mal-qara kol-kosda it-bata düşəcək, qurd-quşa yem olacaq, - deyə, dəstərxanı bağlayıb, heybəsinə yığan Mirzalı kişi, vəfalı iti Pələngə baxa-baxa, həvəslə danışırdı.

Naxırçının aramla danışığına qulaq asan İbad:

- Mirzalı əmi, yaxşı yadımdadır. Uşaq vaxtı Aralıq meydanında gün batana yaxın naxırı kəndə qaytarmışdın. Kənd camaatı da sizi qan içində görüb, başınıza yığışmışdı. Paltarların cırılmışdı, üst-başın, sifətin, əllərin al qana bulaşmışdı. Aralıq meydanında, kəhriz başına yığılanlar sizə təskinlik verirdi. Adamlar sizin şücaətinizdən danışır, yaralarınızı sarıyıb qayğı göstərirdilər. Siz də üst-başınıza çilənmiş qan ləkələrini kəhrizin suyunda yuyurdunuz. Arxa ayaqlarını sicimlə bağlayıb sürüyə-sürüyə atın yedəyində boğub gətirdiyiniz yekə boz qurdun le-

şini də çinar ağacının yanına atmışdınız ki, gəlib-gedənlər görsünlər. İkrah hissi ilə boz qurdun leşinə baxanlar, sizi sorğu-suala tutmuşdular, - deyə İbad əliylə yanında sakit əyləşən dostunu göstərib, - o əhvalatı yadınıza salıb, danışın. Bizim bu Kərəm də o əhvalatla çox maraqlanır, - deyə İbad yanında əyləşən Hüseynə göz basaraq, - istəyir ki, boz qurdu necə öldürdüyünüzü sizin dilinizdən eşidib, bilsin.

Adını eşidən Kərəm, ani olaraq, özünü itirdi, sifəti zoğal rəngi kimi qızardı. Pərtliyini biruzə vermədən, başını aşağı saldı.

Saralmış kiçik kağız parçasına bir çimdik tənbəki qoyub, eşmə düzəldən Mirzalı kişi, onu ehmalca alışqanla yandıraraq, bir qullab vurdu. Sonra xəyala dalmış kimi, Aladağın uzaqdan görünən zirvəsinə baxa-baxa başını tərpədib, xırıltılı səslə danışmağa başladı:

- Payızın əvvəli yaylaqdan Arana doğru qayıdan elat köçlərinin ardı-arası bitmək bilmirdi. Yol boyunca mal-qaranı, qoyun sürülərini yamaclarda otara-otara gələn elat camaatı, üzüaşağı hərəkət edirdi. Belə qarışıq vaxtlarda naxırı el yolundan bir az kənar yerlərdə otarıram ki, mal-heyvan köç mallarına qarışıb, it-bata düşməsin. Bir də, ay oğul, elat dağdan qayıdanda canavarlar da köçlə birlikdə gecə-gündüz sürünün izinə düşüb, ardınca gəlirlər. Yalquzaqlar fürsət düşən kimi sürüyə soxulub, tutduğu heyvanı bir andaca parçalayır, çoxlu ziyankarlıq edirlər. Gündüzlər sürüyə yaxın gəlməyib, ətrafda, kolkosda sümsünən canavarlar, gecələr köç yataqlarına yaxın yerdə pusquda durub, gizləndikləri yerdən qəfil heyvanların üstünə hücuma keçirlər. Elə ki, gün batdı, toranlıq düşdü, bir də görürsən ki, canavar sürüsü mal-qara-

nın ətrafında fırfıra kimi fırlanır, bədheybət səsləriylə ulayırlar. Payız vaxtı bir gün naxırı Əfəndilər kəndinə yaxın el yolunun kənarında kol-kos arasında otarırdım. Orda qaratikan, böyürtkən kollarının ətrafı göy otla bol olur. Tərslikdən həmin gün iti həyətdə saxlayıb, özümlə gətirməmişdim. Bir də gördüm ki, yolun üst tərəfində - kolluqda otlayan mal-qara pərən-pərən olub, hərəsi bir tərəfə dağılışdı. Tez özümü qaçan mal-qaranın arasına çatdırdım. Gözlərimə inanmadım. Nə görsəm yaxşıdır? İri boz canavar kök bir dananın boğazından yapışıb, onu xırxalamışdı. Özümü tez çatdırıb, əlimdəki bu çomaqla, - deyə, Mirzalı kişi yanına qoyduğu iri çomağı göstərib, - canavarın sarğısına var gücümlə birini ilişdirdim.

Ona maraqla qulaq asan cavanlar, bir-birinin üzünə baxıb, həyəcanla başlarını tərpədirdilər. Mirzalı kişini ələ salıb dolamaq istəyən Kərəm də əməlindən peşman olmuş kimi, başını aşağı dikib, sakitcə çobanı dinləyirdi. Mirzalı kişinin sözlərindən təsirlənib, utandığından başını yuxarı qaldırmırdı.

Qarağacın kölgəsində yatışan naxıra tərəf boylanan Mirzalı kişi aramla sözünə davam edərək:

- Çomaqla vurduğum zərbədən qıvrıla-qıvrıla xırıldayan canavar arxası üstə tullanıb özünü yerə çırpdı. Bunu görəndə mən elə başa düşdüm ki, onun işini bitirmişəm. Sən demə, mən yanılmışdım. Yerdə çapalayan canavar başını dik qaldırıb, qəzəblə dişlərini qıcırda-qıcırda düşdüyü yerdən sıçrayıb, mənim üstümə atıldı. Onun güclü həmləsindən müvazinətimi itirdim. Ləngər vurub, səntirlədim. Qorxudan çomağım da əlimdən yerə düşmüşdü. Özümü qorumaq üçün sol qolumu yuxarı qaldırdım ki, üz-gözümü didib-parçalamasın. Ancaq canavar

qəfil qolumu ağzına alıb gəmirməyə başladı. Yaxşı ki, hava soyuq olduğuna görə əynimə qalın sırıqlı geyinmişdim. Onunla əlbəyaxa olub, süpürləşəndə tez özümü ələ aldım. Sağ əlimlə canavarın hulqumunu əlimə keçirib onu var gücümlə boğmağa başladım. Əlimdə çırpınaraq çapalayıb xırıldayan canavar iti dırnaqları ilə üst-başımı cırıq-cırıq etmişdi. Havada qalan qabaq ayaqları ilə sinəmi, sifətimi, alnımı didib, al-qana batırmışdı. Bir azdan, boğub öldürdüyüm canavar hərəkətsiz qaldı. Onun leşini qaratikan kolunun yanına atdım. Tez aşağı əyilərək, yerdən çomağımı götürüb, həyəcanla ətrafıma baxdım. Qorxurdum ki, boğduğum canavarın sürüsündən digəri də üstümə atılıb, məni parçalaya bilər. Ancaq mal-qaranın sakit-sakit kövşək vurub qulaqlarını tərpədərək, mənə tərəf baxdığını görüb, başa düşdüm ki, yan-yörəmdə canavar sürüsü yoxdur. Boğduğum o canavarın yalquzaq olduğunu anladım. Yalquzaqlar həmişə canavar sürülərindən ayrı gəzər. Çöl-biyabanda tənha sümsünər, mal-qaraya, qoyun sürüsünə də tək hücum edib, ovunu parçalayar. Mən ətrafımı diqqətlə gözdən keçirib, xeyli sakitləşəndən sonra özümə gəldim. Alt köynəyimi çıxardıb, üz-gözümün qanını təmizlədim. Başımı yuxarı qaldıranda uzaqdan alabaşın mənə tərəf qaçdığını görəndə özümdən asılı olmayaraq kövrəldim. İtin vəfalı dost olduğunu bir daha onda anladım. Ağır da olsa, həmin gün naxırı alabaşın hesabına kol-koslar arasından yığıb birtəhər otara bildim. Çox şükürlər olsun ki, canavar kol dibindən qəflətən soxulub boğazladığı danaya o qədər də xətər yetirməmişdi. Gün batana yaxın heyvanları kəndə tərəf qaytaranda canavarın da leşini örkənlə bağlayıb, atın yedəyində sürüyə-sürüyə gətirib Aralıq meydanında, kəhrizə yaxın çinar

ağacının yanında yerə atdım. Kənd camaatı da sağ olsun ki, dava-dərmanla yaralarımı sarıyıb, üst-başımı sahmana saldı. O gündən bəri mən bir daha Pələngi naxırdan ayırıb həyətdə saxlamıram, - deyə Mirzalı kişi bir az aralıda çöməltmə oturub, ləhləyən itinə baxıb, danışdığı əhvalatı sona yetirdi.

Mirzalının hekayəsinə qulaq asan cavanlar, sakitcə onu dinləyir, səslərini də çıxarmırdılar. Sakit baxışları ilə onu dinləyən İbad:

- Mirzalı əmi, allah sizi qorusun. Kəndimizin camaatı sizin zəhmətinizə, igidliyinizə həmişə hörmətlə yanaşır. Bir ağızdan hamı sizdən arxayın olub, razılıq edir.

Söhbətini bitirib, ayağa qalxan Mirzalı kişi, əyilib, yerdən dəyənəyini götürdü.

Heybəsini çiyninə aşıraraq, cavanlarla sağollaşıb, üzüaşağı, Aralıq meydanına endi. Bir azdan naxırı haylayıb, kövşənə qovan naxırçının gur səsi, ətrafa yayıldı.

Naxırçının danışdığı ibrətamiz hekayəsini dinləyib, pərt olmuş cavanlar, geriyə qayıdaraq, yabalarını götürüb sərilmiş otları çevirməyə başladılar.

Qurumuş otları yaba ilə yığıb, xotmanlayan İbad, yoldaşlarına eyhamla eşitdirərək:

- Görürsünüz də, kəndimizin belə hünərli, qorxmaz kişiləri də var. Biz isə günün-gündüz vaxtı abır-həya etmədən gözümüzü dikmişik Məşədi Abbasın armud bağına ki, oğurladığımız armudla qarnımızı doyuraq. Naqis əməlimizi görən balaca uşaqlar haqqımızda nə fikirləşərlər. Bizdən hansı mərifəti öyrənə bilərlər? - deyə, qurumuş otu qalaqlayan İbad, - Kərəmə, Hüseynə tərs-tərs baxıb, pərtliyini gizlətmədən söyləndi.

İbadın dediklərinə biganə qalmayan Kərəmlə Hüseyn, başlarını aşağı salıb, xəcalət çəkirmiş kimi, sakitcə otu çevirirdilər.

***

Fayton məntəqəsinə yollanan Alış, yolüstü rus-tatar məktəbinə yaxın böyük bazar meydanına girdi. Qələbəlik olan bazarda pal-paltar, qab-qacaq, şirniyyat, ləziz ədviyyatla dolu olan piştaxtalarda hər nə desən, tapıb almaq olardı. Piştaxta arxasında, yerə sərdiyi palaz üstünə səliqə ilə yığdığı matahlarını tərif edən tacirlər, səs-səsə verib, alıcı çağırırdılar. Ağac dirəklərdən asılmış gəbələr, kilim və farmaşlar müştəriyə gəl-gəl deyirdi. Alıcılarla satıcılar arasında mal üstündə çək-çevir edənlərin səsindən ağız deyənin qulağı eşitmirdi. Ətraf kəndlərdən at, ulaq, araba və pay-piyada gələnlər də bazarda Daşkəsən kəndinin fabriklərində toxunan ipək parçaları, corabları, paltarları sərf edən qiymətə alıb, heybələrinə yığırdılar. Bazarı gəzən Alış, noğul-şirni satılan baqqal dükanına girdi. Anasının tapşırdığı şirniyyatlardan alıb, heybəsinə yığaraq, fayton məntəqəsinə tərəf yollandı.

Poçtla yanaşı olan fayton məntəqəsində qoca bir kişi ilə söhbət edən "rus" Camala yaxınlaşıb, hal-əhval biləndən sonra, gəlişinin mətləbini ona anlatdı.

Rus Camal ağız dolusu:

- Ziyarətiniz müstəcəb olsun. Allah qoysa, şənbə günü sübh tezdən atları babat bir faytona qoşub, sürəcəm qapınızın ağzına, - deyə əli ilə boş faytonları göstərib, Alışı arxayın etdi.

***

Sübh tezdən oyanan Gözəl arvad yol üçün tədarük gördüyü bağlamaları bir-bir gözdən keçirir, qablaşdırdıqlarını səliqə ilə bir yerə yığırdı. Yuxudan erkən oyanan uşaqlar da, hərəsi bir tərəfdən, Gözəl arvada kömək edirdilər. Artıq hamılıqla yola çıxmağa hazır idilər. Bir azdan həyət qapısından içəri keçən Mələklə qızları da gəlib çıxdı. Həyətdəkilərlə görüşüb, şirin ağızla xeyir-dua verən Mələk, yükləri dəhlizdən aşağı endirən Alışdan soruşdu:

- Çöldə qapının ağzında dayanan fayton bizi aparmağa gəlib?

- Hə, deyəsən, bir az vaxtından tez gəlib. Ziyarətə getmək üçün qağamın tapşırığı ilə gətizdirmişəm, - deyə bacısı ilə həyətdə görüşən Alış cavab verdi.

- Allah ziyarətinizi qəbul eləsin, qağa. Nə niyyətlə gediriksə, müstəcəb olsun, at muraddır, inşallah, bacım da istəyinə çatar, - deyə Mələk, həyətdə dayanan atasını qucaqlayıb, salamlaşdı.

- Amin! Vaxtında gəlmisiniz. Bir azdan yola düşürük, - deyə Mirzə cavab verdi.

Ziyarətə aparılacaq bağlamaları faytonun yanına daşıyan Alış, zarafatla rus Camala sataşdı:

- Camal, bu faytondan böyüyü yox idi? Maşallah kəndin camaatını bu faytona yığmaq olar.

- Alış, faytonumu şərikimə verib müştəri ilə qəza mərkəzinə, Cəbrayıla göndərmişəm. Sizin də ailəliklə getdiyinizi nəzərə alıb, böyük faytonla hüzurunuza gəldim. Fikirləşdim ki, bu faytonla rahat gedərsiniz.

- Ə, zarafat edirəm, kömək elə, bağlamaları daşıyıb, faytona yığaq.

Həyətə keçən Camal yerdə səliqə ilə yığılmış bağlamaları görüb təkidlə:

- Alış, birinci doğranmış odunları yığaq. Sonra da bağlamaları yükləyək, üstündən də palaz-kilimləri, döşəkçələri atarıq.

Yükləri səliqə ilə faytonun arxasındakı yük sandığına qablaşdırıb qurtaran Alış, su ehtiyatı götürmək üçün boş səhəngləri də faytonun ayaqaltısına qoyub, ucadan həyətdəkilərə səsləndi:

- Qağa, hər şey hazırdır. İndi yola düşmək olar.

Bunu eşidən Mirzə, faytona yaxınlaşıb, Camalla görüşdü. Əvvəlcə Gözəl arvadla Mələk uşaqları ilə arxa oturacaqda əyləşdilər. Sonra Mirzə də faytona qalxıb, qabaq oturacaqda yerini rahatladı.

Həyətə keçən Alış, qucağında gətirdiyi ayaqları bağlı iri erkək qoyunu faytonda ayaqaltısına uzatdı. Özü də bir göz qırpımında faytonçunun yanında əyləşdi. Atlarına süvar olan Maya ilə Maral, hərəkət edən faytonun ardınca düşdülər. Təzə kəhrizin gözünə yaxın, atları əyləyən Camal, Alışa tərəf çönüb:

- Su səhənglərini burda doldursaq, yaxşıdır, - dedi.

Cəld aşağı düşən Alış, səhəngləri kəhrizin soyuq suyundan doldurub, faytonda ayaqaltına qoydu.

Atların başını günçıxan səmtə çevirən faytonçu, qırmancı havada şaqqıldadaraq, - hə, tərpənin görüm, - deyə atları haylayıb, qovmağa başladı.

Torpaq yolda irəliləyən faytonun təkərləri altından çıxan toz qatı duman təki arxada qalırdı. Teştək düzündə biçilib yığılan taxıl yerində cütçülər payız şumunu edirdilər. Əkin yerindən gələn səsləri uzaqdan eşidilirdi. Öküzləri hoylayan qoca cütçü, şumlanmış sahənin kənarıyla

irəliləyən faytondakıları görüb, başının işarəsi ilə onları salamladı.

Yolboyu ətrafı seyr edən Mirzə, fikrə getmişdi. Hərdən atları haylayan Camal, yoldan bir az aralı dərin, uçurumlu dərəyə çatmamış, faytonu yavaş sürməyə başladı. Aşağıda meyvə, tut ağaclarının qurumuş budaqları, kötükləri görünürdü. Dərədə sısqa axan bulaq suyunun əmələ gətirdiyi gölməçələr, günəş şəfəqində bərq vururdu. Bir zamanlar bu yerlərdən yuxarı tərəfində çal-çağırlı kənd olduğunu xatırlayıb, yada salan Mirzə dərindən köks ötürdü. Uzaqdan, Alıbağı səmtində görünən qədim yurd yerlərinin kol-kos basmış kalafalarına baxıb, təəssüflə seyr edir, başını yelləyirdi.

Uçurumlu dərəni uşaqlarına göstərən Mirzə:

- Dərənin yuxarı tərəfindən axan Quylu bulağın suyu soyuq, həm də tamlıdır. Ancaq bir o qədər də icməli deyil. El arasında ağsaqqallarımız da o sudan içməyi bir kimsəyə məsləhət bilməzdilər. Deyilənlərə görə, o tamlı sudan içən adam tez xəstəlik tapar, ətrafında olan adamlara, el-obasına soyuq, biganə yanaşar. Ancaq kövşənlərdə otlayan naxırı, qoyun-keçini bu yerlərə – suada gətirirlər. Suyu axarlı olduğundan, xəznəsində zəli də olmaz. Yarğanın günçıxan səmtində görünən bulaq isə Xatın bulağıdır. Suyu saf, buz kimi soyuq, şirindir. İçməklə doymaq olmur. Bu yerlər başdan-başa böyük meyvə, tut bağları ilə tanınırdı. Çovğun, qarayel dərəni heç vaxt tutmazdı. Dərədə görünən meyvə ağaclarının barını kəndimizin adamları gəlib, yığıb, aparardılar. Hər iki bağ keçmişdə Gül Qasım ağanın birinci bağ yeri olub. Onu vaxtı ilə qızı Xatın xanıma cehiz olaraq verib. Kənd camaatı bu yerləri Quylu bulağın dərəsi, ətraf ərazisini isə Xatın bulağı ad-

landırırdılar. Dərəboyu Daşkəsən kəndinin köhnə yurd yerlərində – Gül Qasım ağa ilə İsmayıl Fərzalı oğlu həmişə deyərdilər ki, bu ərazidə yeddi yüzə qədər ev olub. Bir tərəfi Heydər dağının ətəyində yerləşən Hacılı kəndi (Hacılı), Bir tərəfdən də kəndin aşağı tərəfində Quycaq yatağı sayılan yurd yerlərində insanlar yaşayırdılar. Doğrudan da, üzüyuxarı təpə boyu yerlərdə görünən kalafalar, qədim yurd yerləridir.

Ötən illəri qəmginliklə yada salan Mirzə, bir anlıq susdu. Yolboyu faytonu yavaş sürən Camal, bir az aralı, yamacda tənha görünən üzüm ağacını diqqətlə seyr edib, qamçı ilə onu göstərdi:

- Mirzə, deyilənə görə, Gül Qasım ağanın bağları bura qədər olub?

- Xeyr. Əvvəla, bu yerlər əzəldən Muğum ağanın birinci bağ yeri olub. Rəhmətlik, sağlığında böyük oğlu Hüseynxan ağanı evləndirəndən sonra, bağı miras olaraq, ona vermişdir. Bağa Hüseynxan ağa özü qulluq edib, əkib-becərirdi. O yamacda görünən tənha üzüm ağacından bir az aralıda - yerin təkindən bulaq qaynayırdı. Artıq, bulaq da qurumaq üzrədir. Gözündən ancaq sısqa su axır. Beş-on addımlıqda axan su elə bil ki, yerin təkinə girib, yoxa çıxır. O bulağın hesabına da üzüm ağacı qurumayıb, salamat qalıb. Camaatımız əvvəllər o çeşməni, - "Hüseynxan bulağı" adlandırırdılar. Ağacın ətrafında olan kəsilmiş ağac kötükləri isə susuzluqdan quruyub, o kökə düşüb. Yaşı bəlli olmasa da, deyilənə görə, o üzüm ağacının üç yüz ildən çox yaşı var, - deyə, aramla danışan Mirzə, o illəri xatırlayıb, yol boyu ətrafda görünən yamaclara baxa-baxa söyləndi.

Arxa oturacaqda anası ilə yanaşı əyləşib, yamacda tənha üzüm ağacını əli ilə göstərən balaca Səltənət, maraqla dedi:

- Baba, o ağac ocaqda yanıb kösövə dönüb, hə?

- Yox, bala ağacın yaşı çox olduğuna görədir ki, elə görünür. Kənardan ona baxanda yanıb qaralmış kösövə oxşayır, - deyə nəvəsinin marağına aydınlıq gətirən Mirzə cavab verdi.

Oturduğu yerdən arxaya çevrilən Camal:

- Mirzə, faytonla bu yolda Pirəhmədli, Dördçinar kəndlərinə çox gedib-gəlirəm. Hərdən də getdiyim yerdən tək qayıdanda faytonu üzüm ağacının yanına sürüb, bir anlıq orda saxlayıram. Ağaca baxanda ulu babalarımızın əzab-əziyyətlə ərsəyə gətirdiyi bağ-bağatlarımızı gözümün qabağına gətirib, kövrəlirəm. Zoğlarında bir-iki toz basmış balaca üzüm yarpaqlarından başqa heç nə yoxdur. Meyvəsi olmasa da gövdəsi o qədər hamardır ki, elə bil ağacın qabığı yoxdur. O ətrafı pay-piyada yaxşı-yaxşı gəzmişəm. Sayı-hesabı bilinməyən yurd yerlərinin kalafalarında ancaq kol-kos basmış çala-çuxur qalıb, - deyə, Camal təpədə, köhnə yurd yerlərində gəzib, dolaşdığı yerləri təsvir etdi.

Camala maraqla qulaq asan Mirzə:

- Bayaq söylədim ki, o cala-çuxurlu kalafalar ötən əsrlərdən bizə "miras" qalıb. Ziyarətinə getdiyimiz yol, bizim əzəli el yolumuzdur. Kəndimizdən Arana doğru iki yol var – alt yol, üst yol. Araz çayının sahili ilə günçıxana uzanıb gedən alt yol karvan yoludur. Getdiyimiz bu yol isə üst yoldur, Dördçinar kəndi tərəfə uzanıb, gedir. İki tərəfdən təpəliklərlə əhatələnmiş Düldül ocağına qədər olan bu düzəngah, uzunsov mis teşti xatırladan Teş-

tək tut bağlarının yeridir. Bağlar diyarı kimi tanınan Daşkəsən bağları, Aladağın aşağı yamacından Quycaq yatağına qədər əraziləri əhatə edir. Bu yerlər dəfələrlə müharibə meydanına çevrilib, kəndimizin evləri başdan-başa bir neçə dəfə yandırılıb viran qoyulub. Qarabağ ərazisinə dəfələrlə hücum edən İran şahlarından Nadir şahla Qacar şah, sonralar Rus-İran dövlətləri arasında baş verən qanlı müharibələrdə bu yerlərdə daş-daş üstündə qalmamışdı. Çayzəmi ilə Xiyaban arasında, Qanlı dərədə, Teştək bağlarında gedən döyüşlərdə, uşaqlı-böyüklü şəhid olanlar çox olub. Müharibələrdə şəhid olanlarımız köhnə kənd məzarlığında dəfn ediliblər. Rəhmətliklərin qəbri üstündə qoyulan başdaşlarında şəhidlik tarixi eyni ildə olduğu kufi əlifba ilə aydın göstərilib. Ağır toplarla silahlanmış rus ordularının güclü həmləsi qarşısında tab gətirib geri çəkilən Vəliəhd Abbas Mirzə, ordusu ilə Araz çayını o taya keçməli olub. Müharibədə pərən-pərən düşən camaatımız Gəncədən yuxarıda - Dizaq mahalının dağlarında, Dəmir qapı Dərbənd və Şamaxı xanlığının ərazilərinə köç edib, məskunlaşıblar. Sağ qalanlarımız təzədən minbir əzabla ev tikib, gorgah yaratmışdılar. Çarın fərmanı ilə rus əsgərləri Heydər dağının yamacından Düldül ocağına qədər ərazilərdə, yerdən qazdıqları üstü torpaqla örtülü qazmalarda yaşayırdılar. Ordunun qərargahı Atöldürən kəhrizinin yanında yerləşirdi. "Karantin" deyilən o qərargah, Xudafərin körpüsündən bu tərəfə köçürülən erməni köçlərinin Ziyarət dağından yuxarı tərəflərə köçürülən ermənіləri yerli əhalinin qəzəbindən qorumaq üçün yaradılmışdı. Sonralar çarın göstərişi ilə "karantin" qərargahı və ordunun bir hissəsi Maralyan kəndi ilə Cəbrayıl kəndinə köçürüldü. Qışda soyuqlar düşəndə

rus əsgərləri ətrafımızda olan meşələrdə, tut bağlarında ağacları dibindən baltalayıb, qızınmaq xatirinə tonqallarda yandırırdılar. Bir də onda gördük ki, ətraf meşələrdə, bağlarda ağaclar seyrəlib, kötükləri qalıb. Elə bil ki, çəyirtkə taxıl zəmisinə daraşıb sovurduğu kimi, əsgərlər də bu ətrafın ağaclarının yerli-dibli axırına çıxdılar. Ordu tərəfindən yaradılmış "karantin" qərargahı bu ətraflarda hər bir sahəyə nəzarət edirdi. Kəndimiz də nahiyə kimi on doqquz kəndi özündə birləşdirmişdi. Rus çinovniklərinin rəsmi hesablamalarında, o illərdə kəndimizdə guya otuz ev olduğu göstərilir. Rus məmurları topların zərbindən dağılan evləri, qırılan insanları, baş götürüb, köç edənləri bilərəkdən siyahıya salmamışdılar.

İrəliyə doğru hərəkət edən fayton, payızlıq şum edən cütçülərin yanında sürətini azaltdı. Faytonun yanı ilə atları yorğa sürən Maya ilə Maral, bir-biri ilə zarafat edib, deyib-gülürdülər.

Qəflətən qızların göy çəmənlikdə atlarını dəhmərləyib dördnala çapması, faytondakıları təəcübləndirdi. Qızların çılğın, ərkyana hərəkətlərini görən Alış tənə ilə:

- Bunlar da cıdıra çıxmağa vaxt tapıblar deyəsən, - deyə başını narazılıqla yellədi.

Arxa oturacaqlarda əyləşənlər, Alışın tənəli sözünə bərkdən güldülər. Alışın könlünü almaq istəyən Camal, əlini onun çiyninə qoyub qucaqlayaraq, gülə-gülə:

- Qoysana atları çapsınlar, işin olmasın, - deyə Camal söhbətinə davam edərək, - Mirzə, onda belə çıxır ki, Qanlı dərədə, dərəboyu salınmış bağlar, burda gördüyümüzdən çox-çox sonralar salınıb, becərilib?

- Düz deyirsən. Qanlı dərədə yanaşı olan bağlar, Gül Qasımla, Muğum ağanın ikinci bağlarıdır. Dərədə Ən-

cirlik deyilən yerin ətrafı Cül Qasım ağanın bağ yeridir. Rəhmətlik bağda kəhriz vurdurmuşdu. Ordan üzüaşağı – Şahverdili dərəsinə qədər isə Muğum ağanın bağları olub. Qanlı Dərədən Quycaq yatağı səmtinə qədər dərəboyu yerlər isə Kəlbalı oğlu Ələsgərin əkin, bağ yerləridir.

Hər üç bağda sısqa axan bulaqların yerindən kəndimizin kankanları kəhriz qazıb, yerin təkindən suyu üzə çıxardıblar, - deyə, Mirzə bir anlıq nəfəsini dərib susdu.

Tənha saqqız ağacına doğru yaxınlaşan faytonu torpaq yoldan kənara çəkib, ziyarətgahın beş addımlığında atları əyləyən Camal, arxaya dönərək, əyləşənlərə nəzakətlə eşitdirdi:

- Hə, gəlib ziyarətgahımıza çatdıq. İndi isə arxayın yerə düşə bilərsiniz.

Atları dördnala çaparaq hamıdan əvvəl Düldül ocağına çatan Maya ilə Maral, pirin yanında dayanıb, onları gözləyirdilər.

Qabaq oturacaqdan ayağa qalxan Mirzə də Camala razılıq edib, aşağı düşdü. Alış faytonda ayaqaltına uzatdığı qoyunu aşağı endirib iplə bağlı ayaqlarını açaraq, çəmənliyə ötürdü. Düldül ocağının ziyarətinə gəlib niyyət edən adamların nəzir-niyazları səliqə ilə daşlar üzərində yan-yana qoyulmuşdu. Atın nalının zərbindən üç yerə bölünən qaya daşının ətrafında görünən kiçik ocaq yerində hisə batmış daşların qaraltısı saca bənzəyirdi.

Yaşı bəlli olmayan iri saqqız ağacının görünüşü qeyri-adı bir mənzərəni andırırdı. Budaqlarında bağlanmış müxtəlif rəngli parça, ipək kələğayıların öz-özlüyündə hərəsi bir niyyətin, bir istəyin təcəssümü idi. Alışla Camal faytonun yükünü boşaldıb, pirdən bir az aralı səliqə ilə yerə yığırdılar. Maya ilə Maral da özləri ilə gətir-

dikləri şirnini, noğulla dolu kiçik torbanı ziyarətgahın ətrafında daşların üstünə qoydular.

Maya niyyət duasını pıçıltı ilə dilədi. Əlində saxladığı bükülü Daşkəsən ipəyindən toxunmuş örpəyi saqqız ağacının budağına bağladı. Ocağa yaxınlaşan Gözəl xanımla Mələk də dua edib daşın ətrafını təmizləyib, səliqə-səhman yaratdılar.

Atların boyunduruğunu açan Camal, Mirzəyə tərəf dönüb təmkinlə:

- Bilirsiniz, Mirzə, atlara vaxtlı-vaxtında qulluq etmək lazımdır. Onu tumarlayıb bəsləməsən, heç vaxt sahibinə sadiq qalmaz. At, yaşadığı evə xeyir-bərəkət gətirən vəfalı heyvandır.

Camalı təmkinlə dinləyən Mirzə, ziyarətgahda səliqə-sahman yaradan külfətinə baxa-baxa dedi:

- Oğul, qədim zamanlardan üzübəri insanlara sadiq olub, vəfalı dostu sayılan "at muraddır" kəlamı elə-belə deyilməyib. Atı, onun nalını uğurlu müjdə bilib, inananlar tezliklə arzu-istəyinə çatarlar. İnamla yad etdiyimiz Həzrəti Əlinin istəkli atı Düldülün adı ilə bağlı olan bu ocaq yerinin ətrafı vaxtilə bağ-bağatlı olub. Camaatımız yamacda qaynayan Hüseynxan bulağından bura su arxı çəkmişdilər. Ocağın ətraf yerlərində hər il ehsan olaraq, çoxlu meyvə ağacları əkilərdi. Niyyət edib ziyarətgaha gələnlər, ağacların dibini belləyib, qulluq edər, suvarardılar. Gələnlər burda təmənnasız işləyər, qəlbən təzələnib, pak olardılar. Bilmirəm, nə sirdirsə, Düldül ocağına gələnlərin niyyətləri hər zaman müstəcəb olub. Qanlı-qadalı müharibələrdən qabaq buralar cənnət-məkan sayılardı. Düldül ocağı haqqında eşidib, bura pənah gətirən ziya-

rətçilər, öz obalarına qayıdarkən gördüklərini, söylədikləri rəvayətlərdə, yazdıqları salnamələrdə qələmə alıb, dönə-dönə vəsf edirdilər. Teştək bağları Dörd çinar kəndindən Ziyarət dağına qədər yerləri əhatə edirdi. Ucsuz-bucaqsız bağlarımızda sayı-hesabı bilinməyən tut ağacları becərilirdi. Burdan gəlib-keçənlər, yol adamları bağlarda yetişən meyvələri ehsan olaraq dərib yeyər, ağacları əkib-becərənlərə, onların ulularına rəhmət oxuyardılar. Hələ desəm, bu bağlardan bəhrələnib, evinə pay aparanlar da çox olurdu. İki yüz il bundan əvvəl yaşamış, kəndimizin şeyxi, Şeyx Sübhü Murad oğlu, Həzrəti Əlinin bu yerlərdə olması haqqında deyilən rəvayətlərin doğru olduğunu söyləyərdi. O, özündən əvvəl yaşamış ulu babalarının Düldül ocağı ilə bağlı fikirlərini də xatırlayıb danışarmış. Yaşayış yerimiz olan köhnə yurd yerlərindən bura pay-piyada gəlib-getmək o qədər də çətin deyildi. Yaz-payız vaxtları ulularımız burda əkilən meyvə ağaclarına qulluq göstərməyi də özlərinə borc bilirdilər. Həzrəti Əlinin ağ köhləni haqqında dönə-dönə deyilən, yazılan hekayələr danışmaqla qurtaran deyil, - deyə, Mirzə sözünə bir an ara verib, qızının çəmənlikdə otlayan ağ köhlənini gözucu seyr edib, qəlbindən keçən bir el bayatısını dilinə gətirdi:

Ocağı sönən dağlar,
Tufanı dönən dağlar.
Səni dardan qurtarsın,
Düldülə minən dağlar.

Faytondan yükləri boşaldan Alışa səslənən Mirzə:

- Balaca səhəngi götür, Hüseynxan bulağının soyuq suyundan doldur, gətir içək. Belə isti havalarda uzaq yolu qət etmək, deyəsən, hamımızı susadıb.

Faytondan açıb, cidarladığı atları çəmənliyə ötürən Camal, Mirzəyə yaxınlaşıb:

- Mirzə, nə əcəb Qanlı dərədə olduğu kimi, Gül Qasım ağa ilə Muğum ağanın bağları burda da bir-birinə yaxındır?

- Bilirsən, camaatımız dədə-babadan ipəkçilik sənəti ilə məşğul olublar. Ancaq peşəmiz bununla bitmir. Keçmişdən daşyonma, əkinçilik, maldarlıq və bağçılıqla məşğul olan adamlarımız ipəkçiliyə də daha çox maraq göstəriblər. Tut bağlarının sayını artırıb, ərazilərini isə genişləndiriblər. Osmanlı sultanlığı dövründə bizim kəndimiz bu ətrafda olan kəndlərdən beş-altı dəfə çox barama bəsləyib təhvil verirdilər. Osmanlıların hesabladığı dəftər-kitablarda yazılanlara görə, hər il on beş min axça, məhsullarımuz bol olan illərdə isə daha çox axça ilə vergi ödənilirdi. Münbit ərazidə torpaqlarımız taxılçılıq, bostançılıq, bağçılıq, tut toxmaçarlıqları üçün əlverişli idi. Ulularımızın bu yerlərdən götürdükləri bol məhsul onların firavan yaşamasına gen-bol bəs edərdi, - deyə, Mirzə bir az aralıda xalça-palazı çəmənliyə döşəyən qız-gəlinə nəzər yetirdi.

Zirvəsi topa-topa buludlardan ağ örpəyə bürünmüş Aladağın yamacında, nəhəng qayalıqların günəş şəfəqində parıltısı, adamın gözünü qamaşdırırdı.

Qayalardan aşağıda kol-kos arasında otlayan keçilər qaratikan kollarının ətrafında fırlanırdı. Arxa ayaqları üstə qalxıb, qol-budaqların uclarında olan yarpaqları yeyir, hərdən də aşağı atılaraq bir-biriylə kəllələşib, buynuzlarını şaqqıldadırdılar. Yuxarıda, günçıxan tərəfdə güclə se-

çilən daş yolu şəhadət barmağı ilə göstərən Mirzə, sözünə davam edərək:

- Havadərədən üzüyuxarı – Ala dağa tərəf uzanıb gedən yol, dağın arxasında yerləşən Rəfəddinli kəndinə qədər davam edir. Elə də böyük olmayan kənddə iyirmi-otuz ailə yaşayırdı. Əvvəllər o kəndə araba ilə getmək müşkül məsələ olub. Kəndimizin adlı-sanlı varlısı, sayılıb-seçilən bəyi olan Əli ağa o kənddə Zəhra adlı qızı görüb ona aşiq olur. Kəndə qayıdan Əli ağa öz sevgisini anasına açıb deyir. Bu məsələdən hali olan Əli ağanın atası Bahar ağa kiçik qardaşı Həzrətqulu ağa ilə Rəfəddinli kəndinə, qız evinə elçi gedir. Hörmət-izzətlə qarşılanan Bahar ağanın gəlişinin məramını bilən qızın atası sözarası ona eşitdirir ki, xeyir işə etiraz etmir. Ancaq yolları çox narahatdır. O yerlərdən faytonla gedib-gəlmək qorxulu, həm də mümkün deyil. Bərbad yollarda onlar özləri də əziyyət çəkirlər. Qohum olandan sonra çətin keçilən yollarda bir-birilərinə qonaq gedib-gəlmək narahatçılıq törədəcək. Gözünün ağı-qarası olan qızının hər dəfə dar yollardan, dağ keçidlərindən atla gedib-gəlməsi atasını intizarda saxlayacaq. Yolu genişləndirib rahatlıq yaratmağa da hələ ki, kənd camaatının nə gücü, nə də elə imkanları yoxdur, - qəlbindən keçənləri dilinə gətirən qızın atası, heç də çəkinmədən istəyini gələn elçilərə bildirir. Keçib gəldikləri yolların təhlükəli olduğunu bilən Bahar ağa qızın atasının məramını anlayır, bir an duruxub fikrə gedir. Xeyli sükutdan sonra Bahar ağa söhbət əsnasında deyir, - dediklərinizlə mən də şərikəm. Bizim özümüz də obanıza elçiliyə gələndə o yollardan ehtiyatla keçmişik. Düzünü bilmək istəsəniz, o yolda iki atlının yanaşı sürüb, getməsi çox xatalıdır. Sizin istəyinizi biz yaxşı başa düşürük. İnşallah,

Allah qoysa, bu işin sonluğu yaxşı qurtarar. Bu məsələni evimizdə məsləhətləşib, götür-qoy edərik. İndi isə bizə icazə verin, mürəxxəs olub, qayıdaq obamıza, - deyə qərara gələn Bahar ağa, qızın atası ilə sağollaşıb, ayrılandan sonra elçilərlə birlikdə geriyə qayıdır.

Elçilikdən incik düşməyən Bahar ağa, evinə qayıdanda qız evinin istəyini Əli ağaya, külfətinə olduğu kimi bildirərək, deyir:

- Oğul, yolun yaxşı olması can rahatlığıdır. Biz özümüz də o yolla dağın sıldırımlı aşırımından, çətin keçilən ensiz yolu ilə yuxarıya, Daşkəsən gədiyinə qalxanda çox əziyyətlər çəkdik. Yollar narahat olsa da, birtəhər keçib, yamacda görünən kiçik obada qız evini tapıb, onlara tərəf yollandıq. Hörmətlə qarşılanıb, xoş-beş edəndən sonra gəlişimizin səbəbini bilən qızın atası, elə də çətin olmayan istəyini dilinə gətirib açıqladı. Onun aramla danışığından anladım ki, dağ keçidinin cığıra oxşayan yolları ilə gedib-gəlmək təhlükəlidir. Yolu qısa bir müddətdə genişləndirib abad etmək imkanlarının olmadığını söhbət əsnasında hiss etdim. Ona görə də yolları bəhanə edib, qızını gözündən uzaq yerə ərə vermək istəmir. Kişinin etirafı mənə də xoş gəldi. Elə bilirəm, bu istəyi yerinə yetirməyə imkanlarımız gen-bol çatar. Maşallah, sənin vəziyyətin bu işin öhdəsindən gəlməkdə çətinlik yaratmaz, - deyən Bahar ağa, elçilik təfsilatını, gəldiyi qərarı hamıya eşitdirdi.

Atasının dediklərinə diqqətlə qulaq asan Əli ağa:

- Qağa, Səsverən qayada, karxanada işləyən daş kəsən ustaları yol çəkilişinə aparsaq yaxşıdır. Onların əlmuzdunu artıqlaması ilə mən özüm ödəyəcəm.

Oğlunun dediklərini başının işarəsi ilə təsdiq edən Bahar ağa:

- Yaxşı fikirdir. Karxanalarda bir-iki nəfər usta qalıb işləsə, kifayət edər. Yerdə qalan ustaları, əhəng quyularında işləyənləri, gəc bişirən sənətkarların hamısını yol çəkilişinə aparsaq, işimiz asanlaşar, həm də tez başa çatdırarıq. O yollarla gedəndə də, gələndə də hər addımbaşı keçilməz sədlərə çox yaxşı bələd olmuşam. Ora çox adam lazım olacaq. Kəndin başqa adamlarının da razılığını alıb, halallıqla onları yol çəkilişinə cəlb etməliyik. Çəkilişi tez başlamaq lazımdır ki, payıza qədər yol hazır olsun.

Daş karxanasında işləyən və bu işi yaxşı bilən usta Fərman:

- Ağa, bizə çoxlu külüng, düsər, ağır çəkic lazım olacaq. Onları tapıb gətizdirmək pis olmaz.

- Fərman əmi, narahat olma, anbarımızda, dəmirçixanada nə qədər istəsən daş işlərini görməyə avadanlığımız var, - deyə ustanı təmkinlə dinləyən Əli ağa ona cavab verir.

Söhbətə qoşulan Bahar ağa:

- Oğul, yolda işləyənlərə gündəlik yemək verməliyik. Qalmaq üçün yolun başlanğıcında alaçıqlar yerləşdirməlıyik ki, iş başında çalışan ustalarımız gecələr orda yatıb dincəlsinlər.

- Qağa, yolun çəkilişi zamanı neçə alaçıq lazım olsa, o qədər də Kəlbalı ağaya sifarış verib, fabrikində tikdirəcəm.

Bahar ağanı diqqətlə dinləyib, söhbətə müdaxilə edən Həzrətqulu bəy:

- İşi elə qurmalıyıq ki, Rəfəddinlilər kəndinə gedibgələnlər, yolun yarısından geriyə qayıtmasın. Onların aşağı kəndlərlə əlaqəsi yalnız o yolun hesabınadır. Onu da bağlasaq, orda yaşayanların vəziyyəti çətin olacaq.

Qardaşının fikrini dinləyən Bahar ağa:

- Biz o yolu gedəndə keçidlərin sıldırımlı yerlərinə fikir verirdim. Qızın atasının istəyini eşidib geri qayıdanda isə, yolu bir daha gözəyarı bələdləyib, döngələrdə nə etmək lazım olduğunu özlüyümdə götür-qoy etmişəm. Qayıdanbaş cəmisi üç yerdə, hər birisi on beş-iyirmi arşın olan narahat yerlər var. O yerlərdə kiçik qayaları çapıb yerindən qopartmaq lazım gələcək ki, yol genişlənsin. Qalan enişli-yoxuşlu yerlər elə də qorxulu və çətin deyil. Allah saxlasın, usta Fərman daş ustaları ilə o işlərin öhdəsindən gələ bilər. Qaldı ki, Rəfəddinlilərin gəlib-getməsinə mane olmağımız, mən burda elə bir çətinlik görmürəm. Rəfəddinli camaatının aşağıdakı kəndlərə, yaxud da Xocavəndə gedən yolları elə də çətin, qorxulu deyil. Biz o yolun çəkilişini uzağı üç aya qurtara bilərik, - deyə, Bahar ağa Fərman kişiyə baxıb, əminliklə dedi.

- Bilirsiniz, bəy, - deyə usta Fərman Bahar ağaya təskinlik verirmiş kimi, - o yolla çox gedib-gəlmişəm. Dediyiniz o üç keçidi barıtla da partladıb dağıtmaq olar. Ancaq məsləhət bilmirəm. Buna ehtiyac da yoxdur. Bizim elə dədə-baba işimiz-peşəmiz qayalıqlardan daşları kəsib qopartmaq olub. İnşallah payıza qədər, bəlkə də, vaxtından da bir az tez, o yolu çəkib qurtararıq.

- Fərman əmi, yolu Rəfəddinlidən Quycaq yatağının çökəyinə, Üç qoz ağacına qədər çəkməliyik. İşə başlamışkən, kəndin içərisindən keçən yola da əl gəzdirsək, pis olmaz. Adamlar Cəbrayıla gedib-gələndə, yol sarıdan əziyyət çəkirlər. Kəndin günçıxanından-günbatanına iki gədiyi var. Çox vaxt da, qarlı-çovqunlu günlərdə adamlar Heydər dağının dəvə belinə oxşayan Daşkəsən gədiyini qalxa bilmirlər. Məcbur olurlar, Kül təpədən Qanlı dərəyə düşüb yollarına davam etsinlər. Təzədən dərədəki Əncirlikdən diki qalxıb, Horovlu gədiyinə qədər əziyyətlə o tə-

rəfə, el yoluna keçirlər. Bu yolların çəkiliş xərcini mən öz boynuma götürürəm. Bir halda ki, əlimizi bu işə bulamışıq, işi hərtərəfli görək ki, sonra el-oba bizi qınamasın.

Oğlunun dedikləri ilə razı olduğunu bildirən Bahar ağa, danışıqları sona çatdırıb, xidmətçiyə şam yeməyi gətirilməsini tapşırdı.

Bahar ağa ilə oğlunun yol çəkilişi təəssüratlarını yerli-yataqlı danışan Mirzə, sözünü yarımçıq kəsib, Alışın ona uzatdığı dolu su parçını alıb içəndən sonra:

- Sağ ol oğul! Su qədər ömrün olsun, - dedi.

Mirzənin söylədiyi hekayəni dinləyən Camal:

- Mirzə, Allah razı olsun. Əhvalatın ardını sonra danışarsan, biz də sizi həvəslə dinləyib, ötüb-keçən hadisələri yadımızda saxlayarıq. İndi isə icazə verin, sizin xeyirduanızla niyyət qoçumuzu kəsək, - dedi.

Camal niyyət üçün gətirilmiş qoçu bir qədər kənarda kəsib soya-soya Alışa:

- Sən ocağı qala, samovarı da qaynat. Mən özüm qoyunu soyub, kabablıq doğrayacam.

Bu sözdən sonra Alış daşlardan düzəldimiş köhnə ocaq yerində tonqal qalamağa başladı. Gözəl arvad qızların hərəsinə bir iş tapşırıb, onlara nəzarət edirdi. Yerə sərilmiş xalça-palazın üstündə bir-birindən aralı nemətlə dolu iki süfrə açılmışdı. Bir azdan kabablıq üçün doğranıb vən çubuqlarına çəkilən ət tikələrini ocaqda bişirən Alış, hərdənbir dəmir maşa ilə ocaq yerindən götürdüyü közləri samovara atırdı. Hamı süfrə arxasında əyləşmişdi. Bişmiş kababı süfrəyə gətirən Alış ucadan:

- Kabab qanlı, igid canlı! Buyurun, nuş edin, - Camalı da çağırıb, atasının yanında otuzduran Alış, gülə-gülə dedi.

Gözəl arvadla uşaqlar, bir az aralıda sərilmiş süfrə başında əyləşib, nahar edirdilər. Nahar edən Mirzə Alışa səslənərək:

- O cütçüləri də süfrəyə dəvət et, gəlsinlər bizimlə əyləşsinlər, günahdır.

- Yaxşı, qağa. İndi gedib dəvət edərəm, - deyə, ayağa qalxan Alış əkin yerinə yollandı.

Alışın getdiyini görən Camal, ayağa durub, yerdə qalan şişlikləri də köz üstə qoyub bişirdi. Bir azdan Alışla yanaşı gələn cütçü ilə iki balaca uşaq, Mirzə ilə salamlaşıb xeyir-dua verdilər. Onlardan yaşlısı:

- Mirzə, nə niyyətlə gəlmisinizsə, istəyiniz qəbul, müstəcəb olsun.

Alış tez səhənglərdən birini götürüb, onların əlinə su tökdü. Yuyunub, süfrə başında əyləşən qonaqlar "bismillah" deyib, nemətlərdən nuş edərək, razı qalmış halda başlarını tərpədirdilər. Nahardan sonra cütçü ilə uşaqları, şükranlıq edib, süfrədən əllərini çəkdilər, xeyir-dua verib, alqış edə-edə ayağa qalxaraq, şum yerinə tərəf getdilər. Mirzə, süfrəyə gətirilən çayı içə-içə gözlərini Ala dağdan çəkmədən, dərin xəyallara dalmışdı. Onunla yanaşı əyləşən Camal, ərklə müraciət edərək:

- Mirzə, bayaq söhbətiniz yarımçıq qaldı, indi isə ardını davam edə bilərsən.

Ətrafına nəzər yetirib, fikrə gedən Mirzə:

- Yol çəkilişi kənd camaatının ürəyincə oldu. Eşidib-bilənlər, Quycaq yatağında yaşayanlar Rəfəddinli yoluna axışmışdı. Hərə bir işin qulpundan yapışıb, gecə-gündüz işləyirdi. Əli ağa orda işləyən işçilərin, kənd adamlarının məvacibini günəmuzd, artıqlaması ilə ödəyirdi. Daşkəsənin daş kəsən ustaları yolu payıza qədər çəkib qurtarmaq

qərarına gəlmişdilər. Yol çəkilişinin sürətlə getdiyini görüb tamaşasına gələn Rəfəddinlilər özləri də təəccüb edirdilər. Geniş, rahat yolun çəkilməsi, orda çalışan ustaların hesabına iki aydan bir az keçmiş başa çatdı. Usta Fərman Fərhad kimi külüng çalırdı. Fərmanın adamları yolu elə ustalıqla enləndirib böyütmüşdülər ki, iki fayton ordan qabaq-qənşər gəlib keçə bilərdi. Çəkiliş qurtaran günü böyük şadyanalıq oldu. O yol el arasında Əli ağanın şəninə "Alağa qayası" kimi dillərə düşdü. Bütün kənd camaatı sevinirdi.



Yol çəkilişindən sonra usta Fərman iri qaya daşının üstünə çıxıb, camaata ərklə eşitdirdi, - camaat, yolu çəkib qurtardıq. İndi isə aşağıda, Havadərənin çökəyində uçulub dağılan daş körpünü söküb, təzədən qurmalıyıq. Yaz vaxtlarında orada yağıntı çox olanda dağlardan gələn sel suları gurultuyla körpünün üstündən axıb keçir. Adamlarımız, mal-qaramız ordan gəlib keçəndə ehtiyat edirlər.

Fərmanı eşidən kənd camaatı canı-dilnən işə girişdilər. Payıza qədər körpü ilə kəndin ara yolu hazır oldu. Ata ocağında Əli ağanın ikimərtəbəli imarəti də tikilib, qurtarmışdı. Sifarişlə Gəncədə düzəltdirdiyi faytonu bir cüt ağ atla gətizdirərək, öz həyətlərində saxlatdırmışdı. Toya Qarabağın məşhur xanəndə və sazəndələri dəvət edilmişdi. Toyun sonuncu günü Əli ağa nişanlısı Zəhra xanımı təmtaraqla ata ocağından iki atlı təzə faytonunda Rəfəddinli kəndindən gəlin gətirdi. Qız evindən Əli ağanın imarətinə qədər yollar elə bəzədilmişdi ki, hamı sevinirdi. Əli ağa toy günü gələnlərin hamısına bəxşeyiş paylatdırdı.

Aramla danışan Mirzəyə qulaq asan ailə üzvləri, sükutla ona baxırdılar. Camal başını yelləyib, cavab verməyə söz tapmırdı. Düldül ocağını ziyarət edənlər dincini alıb, günbatana yaxın geriyə, kəndə qayıtmağa hazırlaşırdılar.

***

Köhnə kəhrizin yaxınlığında bağ-bağatlı həyətdə qurulan mağarda qara zurnanın səsini eşidib-bilənlər, hamılıqla Mirzə Məmişin evinə tərəf axışırdı.

Qarabağın el aşığı, aşıq Məşədi Humayın çalğıçılar dəstəsi məclisə ayrı bir rövnəq verirdilər. Veysəlli Fərruxla Vəlinin qara zurnada çaldıqları oynaq el havaları, meydanı qızışdırmışdı. Mağara doluşan kəndin dəcəl uşaqları, aşıqların məharətinə sakitcə tamaşa edirdilər. Toy şənliyinə yığılanlar nemətlərdən dadıb, şənlənirdilər. Mağardan kənarda, iri tut ağacının kölgəsində çəmənliyə gəbələr döşənmişdi. Süfrə arxasında əyləşənlər, təamlardan nuş edir, deyib gülürdülər. Hamının diqqəti çalıb oxuyan aşıqlara dikilmişdi. Meydanda var-gəl edən aşıq Humay, sədəfli sazını sinəsinə basıb, şaqraq səslə bədahətən qoş-

duğu qoşmaları oxuyurdu. Ona tamaşa edənlər aşığın məlahətli, şaqraq səsinə heyranlıqla qulaq asır, yer-yerdən aşığa tərif yağdırırdılar.

Məşədi aşıq Humay:

Humayam, yorulmaz azad bir quşam,
Şənlik məclisidir yurdum, oylağım.
Daşkəsən kəndində doğulsam da mən,
Uzaq eldən gəlir, səsim, sorağım.

- Sağ ol, aşıq! - deyə, mağardan kənarda ona qulaq asan Məşədi Yusif ağa razılıqla, - səsinə qüvvət, bizi yaxşı feyziyab edirsən, əhsən ustadına, - dedi.

Ağac kölgəsində əyləşən ağsaqqallar, hamısı bir ağızdan Məşədi Yusif ağanın sözünü təsdiq etdilər.

Məclisdəkilərə ötəri nəzər yetirən Məşədi Yusif ağa, ərklə Mirzəyə:

- Mübarəkdir, Mirzə, Allah hər ikisinə də xoş gün qismət etsin, xoşbəxt olsunlar.

- Çox sağ olun, Məşədi, sayıb gəlmisiniz, balalarınız xoşbəxt olsun, toylarını görəsiniz, - deyə, sakitcə danışan Mirzə, qonaqlara dil-ağız edib, razılığını bildirdi.

- Allah xeyir versin, ay Mirzə, xoşbəxt olsunlar, qoşa qarısınlar, - deyə təmkinlə danışan Kərbəlayi Cavad, mehribanlıqla ona göz aydınlığı verdi.

Mağarda, qara zurnada səslənən oyun havalarının sədası altında oynayan qız-gəlinlər, şadyanalıq edir, şənlənirdilər.

Gecədən xeyli keçmiş toy şadyanalığı aşıq Humayın "Tahir Mirzə dastanı" ilə sona yetdi. Toy sahibi Mirzəni əhatəyə alan aşıqlar, ona xeyir-dua verib, sağollaşdılar.

Kəndin ara yolunda toydakı təəssüratlarını danışa-danışa Məşədi Humayla yanaşı addımlayan çalğıçılar, onun evinə tərəf yollandılar. Toyda iştirak edənlər də ev sahibi ilə görüşüb, bir-bir, iki-iki həyəti tərk edirdilər. Qonaqları hörmətlə yola salan Mirzə Məmişlə Gözəl xanım, yorğun halda daş pillələrlə eyvana çıxdılar.

***

Günəş şəfəqlərinin nuru ilə oyanan Daşkəsən kəndinin bağları təbiət gözəlliyini özündə canlandırır, xoş təəssürat yaradırdı. İnsanı valeh edən bağlar diyarı, Dəhnə bağında adamların şən əhvalı, böyük qələbəliklə hiss olunurdu. Hamı gəlin köçən Mayanı yola salmağa gəlmişdi. Süleymanlı kəndinə təmtəraqla yola salınan Mayanın ətrafına toplaşan qız-gəlinlər, gülər üzlə ona xeyir-dua verirdilər. Qohum-qonşu oğlan evinin adamlarını, bəyin gəlişini gözləyirdilər. Gəlin otağına yığışan qız-gəlinlər Mayanı əzizləyir, şirin sözlərlə onu oxşayır, xoşbəxtlik arzulayırdılar.

Həyətdəki iri tut ağacının kölgəsində sərilmiş xalı üstündə əyləşən ağbirçək qadınlar, armudu stəkanlarda çay içə-içə, Gözəl xanımı təbrik edirdilər.

Məclisdə oturanların diqqətini cəlb edən Ceyran nənə, üzünü Gözəl arvada çevirib, aramla:

- Bajı, bir qız bir oğlanındır. Təki onların bəxti nurlu olsun. Maya obanın ərköyün balasıdır. Kənddə uşaqlı-böyüklü hamı onu əziz tutub, sevib. İnanın inandığınıza! Tək biz yox, bu bağ-bağatlar, Qoşa cinar ağacları, Səsverən qaya da onun məlahətli, həzin səsini bir əfsanə kimi həmişə köksündə sirli saxlayacaq. Səhərdən həyətə yığılanlara baxıb, fikir verirəm, hamı onu yola salmağa gəlib.

Bağda, qoz ağaclarının budaqlarında atılıb-düşən, bülbültək cəh-cəh vuran dəcəl uşaqlarımız da son dəfə onu görməyə gəliblər. Vallah, bajı, hamımız onun xiffətini çəkəcəyik. Xoşbəxt olsunlar, qoşa qarısınlar.

Yer-yerdən ağız dolusu xeyir-dua verən ağbirçək qadınlar da bir ağızdan:

- Amin! Xoşbəxt olsunlar, - deyə səsləndilər.

Daş yoldan kəndə doğru atını dördnala çapan cavan oğlan qışqıra-qışqıra:

- Gəlirlər, gəlirlər, - deyə, kürsülü evin yanında atı əyləyib, təngnəfəs yerə sıçradı.

Xəbəri eşidənlər dərhal küçəyə axışdılar. Kəndin ara yolu ilə irəliləyən qoşa atlı faytonda, oğlan evinin adamları qara zurnanın sədası altında, qız evinə tərəf gəlirdilər. Çalınan havanı eşidənlər - uşaqlı-böyüklü geniş meydana yığılıb, gələnləri səbirsizliklə gözləyirdilər. Gələn qonaqlar küçə qapısının önündə, geniş meydançada atlarından düşüb, həyətə keçdilər.

Qara zurnada çalınan "Vağzalı" havasının sədası altında həyətə yığılanlar, aşıqları dövrəyə almışdılar. Şirni, noğul dolu xonçaları başları üzərində tutan qız-gəlinlər, şadyanalıqla ev sahibinə göz aydınlığı verirdilər.

Meydanda sıxlığı görən nağaraçı, cəld ortaya atılıb, məzəli hərəkətləriylə adamları geriyə çəkməyə çalışdı. Nağaraçının ədalı hərəkətindən şənlənən adamlar, gülə-gülə geri çəkilib, meydanı genişləndirdilər. Bunu görən zurnaçı, Heyvagülü havasını şəstlə çalmağa başladı.

Bir-birinin bəhsinə ortaya atılıb süzən qız-gəlinlər, yorulmaq bilmədən oynayırdılar. Ovurdlarını şişirtmiş balabançı, hərdən dönüb nağaraçıya baxa-baxa, ona acıq verirmiş kimi, qaz yerişi ilə zurnaçının ardınca hərəkət edirdi.

İçi dolu şirni ilə xonçanı başı üzərinə qaldıran Dürnisə xanım, irəli keçib, meydanda oynayan qız-gəlinlərə qoşulub, süzməyə başladı.

Bəy evindən gələnlərin bu tezliklə meydanı boşaltmaq fikirləri yox idi.

Dostları ilə yanaşı dayanan İbad, başını aşağı salıb, oynayanları sakitcə seyr edirdi. Qız-gəlinlərin əhatəsində süzə-süzə daş pillələrlə dəhlizə çıxan Dürnisə xanım, gəlin otağına tərəf yollandı.

İçəridə eşidilən şən səslər ətrafa yayılmışdı. Qara zurnada çalınan hava, Heydər dağında əks-səda verirdi. Bir azdan otaqda olanlar hamılıqla deyə-gülə qiyyə çəkib, dəhlizə çıxdılar. Dürnisə xanım çalınan "Vağzalı" havasına gəlinin qarşısında süzərək qız-gəlinlərlə həyətə endi.

Artırmada dayanan cavan gəlin, əlindəki içi noğulla dolu gümüş xonçanı yuxarı qaldırıb, adamların başı üstündən səpələdi. Bunu görən dəcəl uşaqlar irəli cumub, yerə tökülən noğulu, şirniləri dərhal yığışdırdılar.

Bəylə gəlinə yol verənlərin xoş ovqatı hamını sevindirirdi. At belində tamaşa edən bəy evinin adamları güləgülə onları təbrik edirdilər.

Böyüklərdən xeyir-dua alan bəylə-gəlin, bəzədilmiş faytona tərəf gedib, bir anlıq yanında dayandılar. Bir-birinə baxan Maya ilə İbad, kənarda iki atın cilovundan yapışıb, saxlayan cavana yaxınlaşdılar və bu andaca ayaqlarını üzəngiyə qoyan bəylə-gəlin atlarına süvar oldular. Ağ köhlənin belinə qalxan gəlini görənlər təəccüb edib, ağız büzdülər. Çaşıb qalan oğlanla-qız evinin adamları, məsələnin məğzini başa düşəndən sonra, ucadan qəh-qəhə çəkib gülərək, bəylə-gəlini ürəkdən alqışladılar. Ətrafına nəzər yetirən İbad, kənarda dayanıb bu mənzərəni seyr

edən atlı dostlarına - Hüseynlə Kərəmə qıyğacı baxıb, tərpənmək lazım olduğunu anlatdı.

İbadın qəlbindən keçənləri hiss edən Hüseyn, gülərək yüyəni çəkib, ucadan:

- Hə, tərpən görüm, - deyə, kəhərin başını çevirib, bağa tərəf götürüldü.

İbadla Maya atlarını dərhal onun ardınca çapdılar. Dəhnə bağında ağacların arası ilə Çinarlı gölünə yaxınlaşan toy karvanı, qoşa xan çinarın ətrafında dövrə vurub, bir anlıq atları əylədilər.

Atlarından düşməyən bəylə-gəlin, sükutla adamları seyr edirdi. Zirvəsi səmada buludları salamlayan qoşa çinar ağacı sanki ana nəvazişinin isti nəfəsiylə hər iki aşiqi öz ağuşuna almışdı.

Oğlan evinin adamları dərhal atdan düşdülər. Qara zurnada şövqlə çalınan Heyvagülü havası meydanı təzədən qızışdırdı.

Bir azdan qoşa çinar ağacının kölgəsini xalçatək bəzəyən çəmənlikdə ortaya atılıb, yorulmadan şıdırğı oynayanların istəyinin çox uzun çəkəcəyini görən Nəcəf kişi, ucadan səslənərək:

- Ay sizin qadanızı alım. Allah hamınızdan razı olsun, subaylarınızdan görəsiniz. İndi isə icazə verin, yolumuza davam edək, şadlığımızın qalanını da öz obamızda, toyxanada keçirərik.

Bunu eşidənlər hamılıqla qıy vurub, faytonlara, atlara minib yola düzəldilər.

Təzə kəhrizdən daş yola tərəf gedən toy karvanı, Havadərə çökəyində körpüyə çatmamış dövrə vurub dayandı.

Ağ köhləni əyləyən Maya, Daşkəsən çayının burula-burula qıjıltı ilə axan sularına baxdı. Bir anlıq, xəyalı Çi-

narlı gölünün sahilində gördüyü İbadı, ilk dəfə dayandığı yerdə kəndlərinə yola saldığı anları xatırladı. Sonra nigaran baxışları ilə arxaya çönüb, son dəfə Heydər dağına sığınan Daşkəsən kəndinə tərəf boylandı. Doğma obasından ayrılmaq çətin olsa da, qəlbindən keçənləri, həsrət dolu nisgilini büruzə verməməyə çalışdı. Onu əhatə edənlərə hiss etdirmədən, Səsverən qaya üzərində, səmada dövrə vurub süzən qoşa qartalı seyr etdi.

Onlardan gözünü çəkməyən Maya, arxayınlıqla atın belindən yerə düşüb, başına örtülmüş örpəyi əlləri ilə geriyə qatladı. Mayanın açıq-saçıq hərəkəti bəy evindən gələnlərin təəccübünə səbəb oldu. Çayın daşlı sahilinə yaxınlaşan Maya aşağı əyilərək, soyuq sudan bir ovuc içdi. Başını qaldırıb, intizarla bir daha Dəhnə bağını seyr edib, doluxsundu. Gözlərindən süzülən mirvaritək yaş damlaları çaya düşüb, suda görünən əksini bir an titrətdi. Daşkəsən bağlarını seyr edən Maya, sanki sonuncu dəfə öz obasından halallıq diləyirdi. Onun nəzərləri bir az aralıda - təpənin döşündə görünən Qiyas kişinin dəyirmanına tərəf yönəldi. Səmada uçan qoşa qartallar, qiyyə çəkərək, üzüaşağı şığıyıb təpədə, torpaqdan güclə seçilən qaya üzərinə qondu. Əyriburun dimdiklərini tez-tez şaqqıldadan quşlar, gəlinə tərəf boylanıb, qəribə səs çıxarırdılar.

Bunu görən İbad, Mayaya tərəf dönüb, təbəssümlə eşitdirdi:

- Səni ötürməyə gəliblər.

Qoşa qartalı görən qız-gəlinlər təəccüblənərək, birbirlərinə baxıb, çiyinlərini çəkdilər. Bu mənzərədən təsirlənən adamların yanağında donub qalmış sevinc parıltılı damlalar, günəş şüası altında bərq vururdu.

Son dəfə Daşkəsən çayının soyuq suyunu içib kəndi seyr edən gəlin, köhlənin belinə qalxdı. Maya ilə İbad daş körpüdən üzüyuxarı, Süleymanlı obasına doğru atlarını yorğa sürüb, uzaqlaşdılar.

Süleymanlı obasına doğru gedən toy karvanı, Ala dağdan üzüaşağı, çaparaq irəliləyən atlı dəstəsiylə rastlaşıb dayandılar. Yolun ortasında qısa şadyanalıqdan sonra toy karvanı onları qarşılamağa gələn atlılarla birlikdə kəndə tərəf yollandılar. Kənddə toya təşrif buyuranlar deyə-gülə gələnləri qarşıladılar. Aralıq meydanına axışan kənd camaatı, bəylə-gəlini Vağzalı havasının sədası altında Nəcəf kişinin kənd məscidindən yuxarıda, geniş həyətində qurulan toy mağarına aparırdılar.

Toy şənliyinə gələn adamlar yer-yerdən, hamılıqla onlara gözaydınlığı verirdilər. Həyətə qədəm qoyan gəlinin ayağı altında qoç kəsiləndən sonra, silahlı cavanlar beşaçılan tüfənglə açıq səmaya yaylım atəşi açmağa başladılar. Üç gün gecə-gündüz davam edən toyun son günündə, gəlinin bəy evinə gətirilməsi hamını sevindirmişdi. Tamaşasına yığılan qız-gəlinlər, Mayanın qənirsiz gözəlliyinə heyranlıqla baxırdılar. Qara zurnada çalınan şən havaların sədası altında ortaya atılıb, oynayanlar yorulmadan bir-birini əvəz edirdilər. Gecədən xeyli keçsə də, telli sazını dilləndirən aşığın mağarda söylədiyi, - "Ayla-Günəş"in sevgi dastanına qulaq asanlar feyziyab olmuşdular. Mağardan asılmış otuzluq lampaların gur işığında davam edən toy, bəylə-gəlinin tərifi ilə sona çatdı.

Gecənin zülmətində səmada iki haqq aşiqinin taleyinə nur çiləyən bir cüt bəxt ulduzunun sayrışan parıltısı aydın görünürdü...

***

Sübhün sərinliyində Ala dağın zirvəsindən boylanan günəşin ilıq nəfəsi ilə oyanan oba camaatı, mal-qaranı Təzə kəhrizə yaxın Aralıq meydanında naxıra ötürürdü. Meydana yığılan mal-qaranın böyürtüsü ətrafı bürümüşdü. Dürnisə xanımın ətrafına yığılan arvadlar, ona gözaydınlığı verirdilər.

- Gəlinin elə bil mələkdir, xoşbəxt olsunlar, qoşa qarısınlar, həmişə bir yerdə olsunlar, - deyə, ağbirçək arvad Dürnisə xanımı qucaqlayıb, bağrına basdı.

- Sağ ol, ay Mülkücahan nənə, nəvələrindən görəsən.

Kəndin naxırçısı, ucaboylu Mirzalı kişi, əlindəki iri çomaqla Dürnisə xanıma yaxınlaşdı. O, Dürnisə xanımı qucaqlayıb, sidq-ürəklə ona gözaydınlığı verdi:

- Gözün aydın olsun, bajı. Xoşbəxt olsunlar, qoşa qarısınlar, - deyə, dil-ağız etdi.

Naxırçının alqışını eşidən Dürnisə xanım:

- Sağ ol, ay Mirzalı, övladlarından görəsən. Gün o gün olsun, sən də oğlun Fərzalının toyunu edib, gəlin gətirəsən, - deyə, gülə-gülə ona cavab verdi.

Ağbirçəklərlə yanaşı gedən Dürnisə xanım, tez-tələsik evlərinə tərəf yollandı.

***

Atları kəndin Atçılıq dərəsində cidarlayıb evə qayıdan İbad, Aralıq meydanında çinar ağacının kölgəsində toplaşan dostlarını görüb, onlara yaxınlaşdı. İbadı gülərüzlə qarşılayanlar yer-yerdən onu təbrik edib, gözaydınlığı verdilər. Utancaq baxışları ilə dostlarını süzüb, razılığını bildirən İbad:

- Sağ olun, Allah razı olsun. Sizə də, balalarınıza da qismət olsun, - deyə, onu təbrik edənlərə razılıq etdi.

Kərəm həmişə olduğu kimi, yenə də şit zarafatından qalmayıb, irişə-irişə atmaca ataraq, dedi:

- Bəy, armud oğurluğuna getmək istəmirsən?

- Ə, niyə getmir axı? Əgər sən özün ağaca çıxıb, armud dərə bilsən, oynaya-oynaya gedər, - deyə, dostunun tərəfini saxlayan Hüseyn, yoldaşlarına göz vuraraq, zarafatla Kərəmə cavab verdi.

Hüseynin bədahətən Kərəmə verdiyi cavabı eşidən cavanlar, qəşş edib güldülər.

Dostlarının gülüşündən pərt olan Kərəm israrla:

- Ə, bəsdirin. Məni həmişə məsxərəyə qoyub, deyib-gülürsünüz.

İncik halda bir addım geri çəkilən Kərəm başını aşağı salıb, şırıl-şırıl axan su arxına baxaraq, başını silkələdi.

- Yaxşı-yaxşı, dəymə-düşər olma. Hər dəfə sən bizi ələ salıb, lağ-lağı edirsən, bu dəfə də biz sənin zarafat edirik, - deyə, Hüseyn söz altında qalmayıb, Kərəmin könlünü aldı.

Zarafat edən cavanlar, kəndin Aralıq meydanından yuxarı, armudlu təpəyə yollandılar.

***

Qışın sərt, şaxtalı keçməsi ilə aramsız yağan qar, yollarda gediş-gəlişi çətinləşdirmişdi. Ala dağın ətəyində yerləşən Süleymanlı kəndində ağ örpəyə bürünmüş ağacların budaqları, sanki qardan don geyinmişdi. Aralıq meydanının yuxarı məhəlləsində yerləşən kənd məscidinə toplaşan ağsaqqallar, divar dibində quraşdırılmış dəmir sobada çırta-çırtla yanan ocağın ətrafına yığılmışdılar. Son

günlər kənddə baş verən hadisələrdən narahat olduqlarını dilə gətirən ağsaqqalların qəzəbli çıxışları, məclisdə oturanları mütəəssir etmişdi. Gecələr xəlvəti kəndə basqın edən erməni dığalarının od vurub, yandırdığı ot tayalarının sahibləri pis vəziyyətdə qaldıqlarını qəzəblə danışırdılar. Danışanların səbr kasası tükənmişdi. Banazurlu dığaları elə gün olmurdu ki, kəndə hücum etməsinlər. Niyyətlərindən əl çəkməyən erməni silahlıları, gecələr xəlvəti kəndə basqın edərək, evlərə, tövlələrə od vurub, yandırır, əllərinə keçən mal-qaranı da yağmalayıb, aparırdılar. Məsciddə hamının nəzər-diqqəti kəndin sayılıb-seçilən ağsaqqalı Məşədi Abbasa yönəlmişdi.

O, səsini ucaldaraq, qətiyyətlə:

- Dığaların qarşısını almasaq, deyəsən, onlar cızıqlarından çıxıb, çox baş aparacaqlar. Kəndin ucqar yerlərində gözətçilərin sayını artırmalıyıq. Daşkəsən kəndinin camaatı bir aydan çoxdur ki, bizdən aşağıda - Xiyabanda, Heydər dağıyla Ala dağın arasında köhnə səngər yerlərini bərkidiblər. Onlar gecə-gündüz sərvaxt olub Əfəndilər kəndinin də ətrafında hərlənir, dığaların oralara girməsinə imkan vermirlər. Kol-kosda pusquda dayanan dığalara da aman vermirlər ki, cınqırlarını belə çıxartsınlar.

- Məşədi, elə bilmə ki, biz evdə isti yorğan-döşəkdə yatıb dincəlirik. Qışlaq kəndindən üzüaşağı hər yeri gecə-gündüz qoruyuruq. Hamımız da bu yolda şəhid olmağa hazırıq, - deyə, qətiyyətlə danışan Allahqulu, məclisdə oturanlara eşitdirdi.

- Dediklərinlə mən də razıyam, yaxşı başa düşürəm. Yadından çıxıb, on il bundan əvvəl, günün-gündüz çağı ot biçimi vaxtı Qışlaq kəndinə soxulan dığalar bütün evləri yandırıb kül etmişdilər? Onlar elə bilirsən Qışlağa

tərəf qaçan atı axtarmağa görə kəndə gəlmişdilər? Ay hay! Xeyr, dığaların məqsədi kəndi talan edib yandırmaq, camaatını da öz ocağından qovub, didərgin salmaq idi. Onları şirnikdirib it kimi fısqırdan Dolanlı Nerses başlarını tovlayıb, deyirdi:

- "Qorxmayın, müharibəni bir az da uzada bilsək, Sokratın ordusu köməyimizə gələcək". İndi də o sılahlı erməni dığaları təzədən başlayıblar kəndlərimizə hücum edib, bizi ocağımızdan didərgin salmağa, - deyə, Məşədi Abbas gileyli-gileyli deyindi.

- Belə isə, biz nəyi gözləyirik? Silah-sursatımızı götürüb elə burdan, məscidin qabağından birbaşa təpəyə qalxmalıyıq. Dığaların məqsədi yaza qədər bu yerlərdən camaatımızı qovub çıxartmaqdır. Ancaq bircə onu görməyəcəklər, - deyə, boyuna görə hamıdan seçilən iri cüssəli Nəcəf kişi danışdı.

Məscidi dərhal tərk edib həyətə düşən adamlar, silah-sursatlarını götürmək üçün tələsik evlərinə yollandılar.

Bir azdan məscidin qabağına toplanan silahlı adamlar təpəyə tərəf qalxdılar.

Süleymanlılar gecə-gündüz yerlərdə keşik çəkir, pusquda duran erməni dığalarına bir addım da qabağa gəlməyə imkan vermir, kəndə buraxmırdılar.

Camaatın silahlandığını görən ermənilər, çar-naçar qalıb, səngərdən başlarını qırağa çıxara bilmirdilər. Dığalar dəfələrlə hücuma keçməyə cəhd göstərsələr də, güllə-borana düşüb, səngərlərinə tərəf qaçaraq, birtəhər canlarını qurtarırdılar.

Qışın sərtliyi Məşədi Abbasla səngərdə dayananları qorxutmurdu. Bir addım geriyə çəkilməyən süleymanlılar, növbə ilə kənd ətrafını qoruyur, keşik çəkirdilər. Ya-

zın gəlişinə sevinsələr də, insanlar əkin-biçini bir tərəfə qoyub, günlərini səngərlərdə keçirirdilər. Qarşı tərəfdən silahlanmış ermənilər, yenə növbəti hücuma keçmişdilər. Novruz bayramı axşamı, qəflətən Qışlaq kəndi tərəfdən kəndə soxulan dığalar, uşaqlı-böyüklü hamıya silahdan atəş açırdılar.

Səngərdə bir nəfər kimi dirəniş göstərən Süleymanlı kəndinin silahlı adamları, hünərlə vuruşurdular. Təpədən-dırnağa kimi silahlanan dığalar gecə-gündüz hara gəldi atəş açır, fürsət düşən kimi hücuma keçirdilər.

İbad, dostları Hüseyn və Kərəmlə çiyin-çiyinə verib, dığaların qarşısını sipər kimi kəsmişdi. Sərrast atəşlə dığaların başlarını səngərdən çıxartmağa aman vermir, hücuma keçənləri geri otuzdururdular.

Bu an təpənin yuxarı tərəfində, şiş qayanı özünə səngər edən Məşədi Abbas aşağı tərəfə boylanıb çağıraraq:

- Allahqulu, "badron"um qurtarıb, mən tərəfə beş-altı "badron" at, - deyə, aşağı səngərdə dığaları gülləyə tutan Allahquluya hayqırtı ilə səsləndi.

Aşağıda qayanı özünə sipər edən Allahqulu, Abbasın gur səsini eşidən kimi, beşaçılan tüfəngini ona tərəf qolaylayıb, yuxarıya tulladı.

Tüfəngi cəld havada tutan Məşədi Abbas:

- Ə, mən "badron" istədim, tüfəng yox, - deyə qarşıdan qayaya tərəf sürünən erməni silahlılarına atəş açıb, onları geri çəkilməyə məcbur etdi.

Məşədi Abbasın hayqırtısını eşidən Nəcəf kişi, dərhal başını yana çevirərək, ermənilər güllə yağışına tutan oğlu İbada səsləndi:

- İbad, aşağı düş, tez evə yollan. Evdə, iç otaqda sandıqda iki torba patron var. Torbanın birini götür, beş-altı

yerə bölüb, əski ilə düyünçələ, gətir, burda vuruşanlara ver. Döyüş qızışsa, patronlarımız azala bilər. Belə vaxtda dığaların qabağından geriyə çəkilmək qorxaqlıqdır, - deyə, ona eşitdirdi.

Atasının həyəcanlı səsini eşidən İbad, tələsik səngərdən çıxıb, təpədən üzüaşağı yol kənarında donu açılmamış qarın üstündə sürüşə-sürüşə məscidə tərəf endi.

Silahlıların sayını artıran ermənilər, təpəni mühasirəyə almaq istəyirdilər.

Səngərdən birbaşa tələsik evlərinə gələn İbad, dəhlizə yığılan qonşuları görüb, həyəcanla anasına səsləndi:

- Nə olub belə, bütün qonşular bizim evə yığılıb?

Dürnisə arvad oğlunu çox da intizarda saxlamayıb:

- Yox, bala, qonşularımız yuxarıda eşidilən güllə səsindən ehtiyat edib, uşaqlı-böyüklü Aralıq meydanına tökülüblər. Bayırda, soyuqda dayanmaqlarını rəva biməyib hamını yığıb, gətirmişəm evimizə, - deyə, cavab verdi.

Bir qədər sakitləşən İbad, qapının kandarında dayandığı yerdən:

- Nənə, içəri otaqdakı sandıqda qağamın ağzıbağlı torbaları var. Onlardan birini tez mənə gətir, - deyə, İbad təngnəfəs halda eşitdirdi.

Oğlunun həyəcanla dediklərinə əməl edən Dürnisə arvad dərhal otağa keçib, iri bir torba gətirdi. Torbanın içindəki güllələri döşəməyə tökən İbad, onları ovuclayıb, beş-altı yerə böldü. Sonra nənəsinə səslənərək:

- Mənə beş-altı əski parçası ver, - deyə, özü də güllələrdən bir-iki ovuc götürüb dəri kürkünün cibinə yığdı.

Dəhlizə yığılan qonşular, Dürnisə arvadın verdiyi mələfəni tələsik beş-altı yerə bölüb, yerdəki güllələri arasına bükərək, düyünlədilər.

Düyünçələri torbaya yığan İbad, anasına eşitdirdi:

- Nənə, vəziyyətimiz ağırdır. Qonşularla birlikdə yığışın, geyinin. Sizin hamınızı daş yola tərəf, Daşkəsən kəndinə ötürüm, gedin ora. Mən təpəyə qalxıb, güllələri adamlarımıza paylayıb, qayıdıram, - deyə, İbad tələsik bayıra çıxdı.

Açıq qapıdan oğluna səslənən Dürnisə xanım:

- Oğul, bəs atan harda vuruşur? - deyə, nigarançılıqla soruşdu.

- Nənə, qağam Məşədi Abbasın yanında, qayalıqdadır. Allahqulu əmi ilə Qışlaq kəndinin aşağı tərəfində, suyu qurumuş kəhriz tərəflərdə vuruşurlar. Hamınız yır-yığış edib hazırlaşın, mən güllə dalınca evə gəlmişdim. Güllələri aparıb verib, ləngimədən tez qayıdacam.

Bir azdan İbadın geriyə qayıtdığını görən adamlar hazırlaşıb, tez-tələsik bayıra çıxdılar. Qonşunun balaca uşağını qucağına alan Maya da həyətə düşdü.

Adamlarla birlikdə yola düşən İbadın ardınca hər tərəfdən Aralığa axışan arvad-uşaq üzüaşağı, daş yola tərəf hərəkət edirdilər. Kələ-kötür yolda dayanmadan iti addımlarla irəliləyən kənd adamları özləri ilə qocaları, uşaqları da köməkləşib aparırdılar. Yola düşənlərlə dördyol ayrıcına çatan İbad, uzaqdan yamacda duman-çənə bürünmüş Daşkəsən kəndinin bağlarını göstərib:

- Bağa çatmamış su dəhnəsinin üst tərəfində yamacda görünən balaca daxma Qiyas kişinin su dəyirmanıdır. Dəyirmanın yuxarı tərəfindən bağarası, gölün qırağı ilə kəndə gedin. Sizi qarşılayan daşkəsənlilər hamınızı öz evlərinə aparıb, yerbəyer edəcəklər. Mən isə burdan geriyə, səngərə qayıdıram. Aralıq sakitləşən kimi gəlib, burdan sizi götürəcəyik, - deyə, İbad onları yoldan aşağı tə-

rəfə ötürüb, nigarançılıqla xeyli arxalarınca baxdı. Sonra kəhərin başını çevirib, Süleymanlı kəndinə doğru çapıb, uzaqlaşdı.

***

Ağ köhlənin yəhərsiz sarğısında güclə oturan balaca uşaqlar, yerə yıxılmasınlar deyə bir-birinə qısılıb möhkəm qucaqlaşmışdılar. Daşkəsən bağlarına tərəf hərəkət edən arvad-uşaqlarla kəndə yaxınlaşan Maya, soyuqdan üşüyüb büzüşənlərə ürək-dirək verib qayğı ilə eşitdirərək:

- Qorxmayın, az qalıb, çatmışıq. İşıq görünən pəncərəli ev bizimdir. Hamınız soba yanında qızışacaqsınız. Kəndimizin adamları Çinarlı gölündə sizi qarşılayıb, evlərinə aparacaqlar, - dedi.

Çinarlı gölünün sahilində toplaşan daşkəsənlilər, gələnlərin qabağına çıxıb, qayğı ilə qarşılayıb, evlərinə aparırdılar. Həyətlərinə çatan Maya bir dəstə adamla evlərinə yaxınlaşdı. Bayırdan gələn səs-küyü eşidib, dəhlizə çıxan Gözəl arvad, həyəcanla:

- Bismillah! Ay bala, gecənin bu vaxtında, hardan belə gəlirsiniz? Yenə nə olub axı? - deyə, qorxudan özünü itirən arvad Mayadan soruşdu.

- Nənə, erməni dığaları beş-altı gündür yenə də kəndimizə hücum edirlər. Cəlladlar ağına-bozuna baxmadan, qayalıqlarda pusquda dayanıb, kəndin adamlarını gülləyə tuturlar. Vəziyyətimizin çətin olduğunu görən İbad, bizi daş yola qədər gətirib ötürdü. Özü isə geriyə, ermənilərlə döyüşməyə, səngərə qayıtdı, - deyə, bir anlıq nəfəsini dərən Maya, həyəcanla cavab verdi.

O, qapının kandarında dayanıb, özü ilə gətirdiyi balaca uşaqları, yaşlı qadınları bir-bir otağa ötürdü. Otağı

gözdən keçirən Maya, divarda xalça üstündən asılmış atasının beşaçılan tüfəngini görüb, həyəcanla soruşdu:

- Nənə, bəs, qağam hardadır?

- Bala, qağan on gün olar Xiyabandan yuxarı tərəfdə, köhnə səngər yerində keşik çəkib, erməni silahlıları ilə vuruşurdu. Bu gün günorta vaxtı Ağalar kişi onu at belində xəstə vəziyyətində evimizə gətirdi. Ağalar kişi özü tələsik səngərə tərəf atını çapıb getdi. Qağan, odur ey, yanaşı otaqda yorğan-döşəkdə evə gələndən yatır. Yazıq qızdırma içində yanır, - deyə, kövrəlmiş halda danışan Gözəl arvad, əli ilə yan otağı göstərdi.

Xəbəri eşidən Maya cəld yan otağa keçdi. Taxtdakı yorğan-döşək içində sərili qalıb, inildəyən atasına yanaşdı. Qızdırma içində yanan atasının iniltisindən mütəəssir olan Maya, onun tərli alnından öpdü. Pərt olmuş halda atasının isti əllərini əlinə alıb ovxaladı. Qızın gözlərindən süzülən yaş damlası atasının əlini islatdı. Yuxuda sayıqlayan Mirzə Məmiş özündə deyildi. Xırıltılı nəfəs alan qocanın sinəsi qalxıb, yenirdi. Atasının vəziyyətinin ağır olduğunu görən Maya, tərəddüd içində qalmışdı. O, xalça üzərində qoyulmuş rəhildə Quran kitabının açıq səhifələrinə ötəri nəzər yetirdi. Bismillah deyib geriyə, otağa qayıtdı.

Çöhrəsi qəzəbindən bozarmış Maya, divardan asılmış tüfəngə nifrətlə baxaraq, - bəs Alış hara gedib, it-bata düşüb? - deyə, divar dibində dayanıb, sakitcə ona baxaraq, yazıq görkəm almış gəlinləri Maraldan soruşdu.

Mayanın sualından kövrəlib gözləri dolmuş Maral, qəflətən hönkürərək, ağlamağa başladı.

Maralın əvəzindən cavab verən Gözəl arvad:

- Qızım, Alış, döyüş başlanan günlərdən bəri bir aydan çoxdur ki, əlisilahlı daşkəsənli kişilərlə səngərlər-

dədir. Axır vaxtlar yazıq heç evə də gəlib baş çəkmir. Əvvəl-əvvəl o, Qanlı dərə gədiyində, köhnə səngər yerində Surxay bəyin silahlı dəstəsiylə keşik çəkirdi. Sonra Heydər dağının aşağısında, Xiyaban tərəfdə vəziyyətin pis olduğunu görən Behbud bəy hamını ora çağırtdırıb, səngərlərdə keşik çəkdirir. Daşkəsənli silahlıları orda hamılıqla Xiyabandakı tut bağlarından yuxarıda, Süleymanlıdan Əfəndilər kəndinə gedən el yolunda qazdıqları səngərlərdə ermənilərlə vuruşurlar. Alış xəbər göndərib ki, səngərdə döyüşənləri - Behbud bəyi, Məşədi Yusif ağanı orda qoyub, evə gələ bilmərəm, - deyib.

Kənddə baş verənləri, çətin durumu təfsilatı ilə izah edən anasının sözlərindən qeyzlənən Maya, atasının divardan asılmış kürkünü götürüb, tez-tələsik geyindi.

Sonra tüfənglə güllə qatarını çiynindən aşırıb, cəld bayıra atıldı.

Bunu görən Gözəl arvad, Mayanın arxasınca dəhlizə çıxıb, həyəcanla soruşdu:

- Ay bala, sən hara gedirsən...?!

- Nənə, mən də döyüşə gedirəm. Alışın kürəyini düşmən gülləsindən qorumağa. Behbud bəylə Ağalar kişi harda döyüşürsə, mən də onlarla bir yerdə vuruşacam.

Maya həyətdə ağaca bağladığı köhlənin yüyənini açıb, belinə sıçradı. Atın başını çevirib, daş yola tərəf çapdı. Kənd məzarlığından aralıda, Köhnə kəhrizin aşağısı ilə bağarası irəliləyən Maya, "urus" yurdunu ötüb keçdi. Xiyabandan üzüyuxarı tut bağlarının arası ilə qədim səngər yerinə tərəf atını dördnala çaparaq cəld tüfəngin xəzinəsini güllə ilə doldurdu. Gecə Ay işığında tut bağlarının arası ilə pusquda dayanmış bir dəstə atlı silahlıların yanından çaparaq, ötüb keçən Maya ətrafdakılara əhəmiy-

yət vermədən səngərə tələsirdi. Qarşıda, səngərdə dayanan daşkəsənlilər, Xiyaban tərəfdən yaxınlaşan atlını görüb, təəccüblə ona tərəf boylandılar.

- Bu gecə vaxtı görəsən kimdir belə, bizə tərəf çaparaq gəlir? Yəqin ki, kənddə nəsə xoşagəlməz bir hadisə baş verib, - deyə, arxaya çevrilən Məşədi Yusif ağa, tüfəngin nişangahı ilə atlını göstərib, dilləndi.

Daşkəsənli silahlıları tələşlə atlının səngərə yaxınlaşmasını gözləyirdi. Bir azdan atlının qadın olduğunu görüb - Mayanı tanıyan Talıb ucadan səslənərək:

- Atı saxla, tez yerə düş, gülləyə tuş gələrsən, - deyə, özü də cəld səngərdən çıxıb, irəli atıldı. O, qaçaraq atın yüyənini dərhal əlinə keçirib, onu əylədi. Bir əli ilə qızı yerə endirən Talıb, onu arxasınca gətirib, dərhal səngərə düşürərək, ötkəmliklə:

- Gecənin bu vaxtı, yar-yaraqlı hardan belə peyda olub gəlmisən? Kənddə bir hadisə baş verməyib ki?

- Talıb əmi, kənddə salamatlıqdır. Gəlmişəm sizinlə bir yerdə ermənilərlə vuruşum. Qızın cavabından təəccüblənən Talıb hövsələdən çıxıb, hikkə ilə öz-özünə deyinərək:

- Əşi, başımıza iş açma. Tez qayıt, get evinizə. Burda bir sənin yerin çatmırdı.

- Talıb əmi! Mən yazıq hara gedim axı? Süleymanlıdan camaatı, arvad-uşaqları yığıb gətirmişəm Daşkəsənə. Kənd camaatı sağ olsun ki, gələnləri bağda, Çinarlı gölünün sahilində qarşılayıb, öz evlərinə apardılar. Kəndin əli silah tutan kişiləri, cavanından qocasına kimi hamısı Qışlaqla Süleymanlı kəndi arasında dərə-təpədə səngər qazıb ermənilərin qabağını kəsiblər. İbad da qayınatamla bir yerdə orda vuruşur. Atam evdə ağır xəstə, qar-

daşım Alış da döyüş başlayandan sizin yanınızda qalıb, heç evimizə də gəlmir. Mən sizi səngərdə qoyub, evə qayıdan deyiləm. Məni burda öldürsəniz də, dediyimdən dönən deyiləm, burda qalıb, dığalarla döyüşəcəm.

Çılğınlıqla danışan Mayanı eşidib-görən daşkəsənli döyüşçüləri onun cəsarətinə məəttəl qalmışdılar. Səngərin baş tərəfindən bacısının səsini eşidib, əyilə-əyilə yaxınlaşan Alışı görən Maya, bir anlıq nitqi qurumuş kimi, donuxub qaldı. Sifəti soyuqdan bozarıb solmuş, gözləri çuxura düşmüş Alış, hiddətlə bacısına səslənərək:

- Səni kim göndərib bura, niyə gəlmisən?

- Gəlmişəm sizinlə bir yerdə döyüşüm.

- Bu saat qayıt, get evə. Tez tərpən, gözüm səni görməsin.

Hikkəli danışan Alış, bacısına təpinərək, onu səngərdən uzaqlaşdırmağa çalışdı.

- Ay qızım, axı bura sənin yerin deyil, qayıt get evinizə. Bizi peşman eləmə. Atan iki gündür burda möhkəm soyuqlayıb, xəstələnmişdi. Bu gün günorta vaxtı çətinliklə onu razı salıb, Ağalar kişi ilə evinizə yola salmışıq. O yazığın da halına yanıb baxan bir adam lazımdır axı, - deyə, Mayanı dilə tutan Məşədi Yusif ağa, qızı inadından döndərmək istədi.

Bunu eşidən Maya, qəfil kənara sıçradı. Çevik hərəkətlə ciynindən aşırdığı beşaçılan tüfəngi aşağı endirdi. Bir andaca çaxmağı çəkib, gülləni xəzinəyə verdi. Tüfəngin lüləsini köksünə dirəyib, hayqırtı ilə:

- Yusif əmi, məni burdan qovsanız, özümü öldürəcəm, - deyib çılğıncasına son qərarını səngərdəkilərə eşitdirdi.

Səngərdə vuruşan adamlar qızın inadkarlığını görüb, heyrətlənmişdilər.

- Onunla işiniz olmasın. Qoyun səngərdə bizimlə qalsın. Talıb, yerini ona ver! - deyə, kənardan münaqişəni seyr edən Kərbəlayi Behbudun amiranə səslə, - qızım, sənin kimi övladı olan el-oba heç vaxtı basılmaz! - dedi.

Behbud bəyin hökmlü və qayğılı tapşırığı Mayanı kövrəltmişdi. O, səngərdə yerini rahatlayıb, qarşı tərəfi göz yaşları ilə müşahidə etməyə başladı.

- Talıb, səngərdə dayananların hamısına bildir ki, sübh tezdən hücuma keçirik. Adamlara da tapşır ki, hayküy salıb, yerlərində vurnuxmasınlar. Qarşı tərəfdə dayanan erməni dığaları bizim hücumumuzdan duyuq düşə bilərlər. Bu gecə vaxtı Maya qızımızın döyüşə gəlişi bizim qələbə müjdəmiz olmalıdır. Tut bağlarında gözləyən atlı silahlılara tapşır ki, döyüşə hazır olsunlar. Sabahkı hücum haqqında iki atlını Süleymanlı kəndində Məşədi Abbasa xəbərə göndər. Onlara mənim adımdan de ki, Məşədi Abbası tapıb bildirsinlər ki, sübh tezdən ilk atəşimizi eşidən kimi, Süleymanlılar da dərhal yuxarıdan ermənilərin üzərinə hücuma keçsinlər.

- Yaxşı, Kərbəlayi, tapşırığınızı atlılara çatdıraram, - deyə, cəld səngəri tərk edən Talıb, arxadakı tut bağlarına tərəf yollandı.

Behbud bəy Məşədi Yusif ağa ilə Surxay bəyə tərəf çevrilib, - siz dəstənizlə hər iki tərəfdən yamac boyu üzüyuxarı hücuma keçin. Ermənilərin səngərinə catanda Əfəndilər kəndinə gedən cığırları nəzarətsiz qoymayın. Çünki Hərəkül dığaları həmin yerdən Banazurlu silahlılarına köməyə gələcəklər. Erməni qüvvələrini gözdən qoymaq olmaz. Onları səngərdə də mühasirəyə almalıyıq, - deyə, Behbud bəy tapşırığını verdi.

Gecədən sübhədək səngərdə keşik çəkən Daşkəsənli, Süleymanlı silahlıları Hamazaspın Banazura göndərdiyi erməni birləşmiş qüvvələrinin kəndlərə soxulmasına imkan vermədilər.

Sübhdən yenicə qalxan günəşin qızartısı havanı işıqlandırırdı. Mauzerin gülləsini yoxlayan Behbud bəy:

- Talıb, uşaqlara işarə ver, atları taladakı böyürtkən kolluğuna gətirsinlər, hücuma keçirik.

- Yaxşı, Kərbəlayi.

Talıb arxaya dönüb, tut bağlarında gözləyən silahlı atlılara işarə ilə yamacda görünən böyürtkən kolluqlarını göstərdi. Səngərdə dayanan əlisilahlılar hücuma hazırlaşdılar. Bir azdan Behbud bəyin əmri ilə kolluqda hazır dayanmış atlılar hayqırtı ilə atlarını dəhmərləyib çaparaq, erməni səngərlərinə hücuma keçdilər.

Daşkəsənli silahlıların qəfil hücumundan çaş-baş qalıb, qorxuya düşən erməni dığaları səngərdən çıxıb, Banazur kəndinə tərəf götürüldülər. Qaçan ermənilər əllərindəki silahları kənara tullayaraq, özlərini böyürtkən kolluğuna vurdular.

Silahlı dığalar aradan çıxmaq istəsələr də, artıq gec idi. Ağ köhləni səyirdib, onları atdöşü edən Maya, dığaları güllə yağışına tutmuşdu. Hamı heyrətlə qızın güllə atmağını, hünərini izləyirdi. Ermənilərı atdöşü edən Talıb aşağı əyilərək, qaçan silahlı dığanın boynunun kökündən birəlli yapışıb, onu boyu bərabərində yuxarıya qaldırdı. Havada çapalayaraq, öküztək böyürən dığanı ağzı üstə yəhərin qaşına aşırıb, hayqırtı ilə irəliyə şığıdı. Talıbın gur səsini eşidən ermənilər pərən-pərən oldular. Onun heyrətamiz gücünü görüb, vəlvələyə düşən erməni silahlıları don vurmuş kimi, yerlərində dayanıb, əllərini yuxarı qaldıraraq, aman dilədilər.

Hər tərəfdən mühasirəyə alınan dığalar naəlac qalıb təslim oldular. Mühasirədə əsir düşən erməni silahlılarına nifrətlə baxan Behbud bəy, qəzəbini güclə boğaraq:

- Dığaları öz yerimizə, səngərimizə aparın, orda bu qansız mürvətsizləri danışdıraq görək, nə sülənirlər buralarda? - deyə, ciddiyyətlə tapşırıq verdi.

Bu an kolluqdan üzübəri, bir dəstə erməni dığasını qabağına qatıb, qovan Mayanın səsi hamının diqqətin cəlb etdi. Ağalarla Diliş kişi ermәniləri atdöşü edib qovaraq, Daşkəsənli silahlıların dayandığı yerə yaxınlaşırdı. Ağalar kişi saqqal basmış erməni dığalarını Behbud bəyə göstərərək:

- Yarğanın sıldırımından aşağı düşməkdən qorxub, donuz kimi böyürtkən kolluğuna soxulmuşdular. Onları təqib edən Maya, dığaların kolluqlarda gizləndiyini görüb, başları üstündən dalbadal yaylım atəşi açaraq, kolluqdan çıxardıb əsir götürdü.

Ağalar kişiyə diqqətlə qulaq asan Daşkəsənli silahlıları, "Afərin", - deyə, Mayanı alqışladılar.

- Qızım, sənin gecə qaranlığında at çapıb, səngərə gəlişin və bu günkü döyüşdə göstərdiyin hünərin həmişə dillər əzbəri olacaqdır. Bu torpağın suyu, çörəyi, ana südü kimi sənə halal olsun, - deyə, Behbud bəy Mayanın göstərdiyi cəsarətin qarşısında qəhərlənib, gözlərini ondan çəkmədən razı qaldığını bildirdi.

- Talıb, qucağında mışıl-mışıl yatan o dığanı oyat, düşür aşağı. Deyəsən, yeri yaman rahatdır.

Ağalar kişinin eyhamlı sözünə Daşkəsənli silahlıları qəh-qəhə çəkib, möhkəm gülüşdülər.

Ermәniləri məğlub edən daşkəsənlilər, yerdə atılıb qalan silahları yığıb, özləri ilə götürdülər.

- Bax belə, Mayanın səngərə gəlişi düşərli oldu. Qızım, sənin cəsarətin heç vaxt yadımızdan çıxmaz, - şəstlə danışan Behbud bəy hamıya eşitdirərək: - Talıb, o dığaları çəkin ortaya, görək bunlar buralarda nə qələt qarışdırırdılar?

O birilərə danışmağa imkan verməyən saqqallı erməni, qəfil Behbud bəyin ayağına yıxılıb, yalvarmağa başladı:

- Ağa, məzhəb haqqı, bir də bu tərəflərə gəlmərik. Məni öldürməyin, onsuz da Andranikin əlaltısı olan Nijdenin adamları bizi evimizdən qovub, küçəyə atıblar. İndi onlar evlərimizdə yeyib-içib kef edirlər.

Saqqallını tanıyan Surxay bəy təəccüblə:

- Ay dığa, sən mənim fabrikimdə dəzgahlara baxıb, yağlayan Suren deyilsən? Nə tez yolunu azıb, üzümüzə ağ oldun? Nə pislik gördün bizdən? İpək fabrikinə gətirdiyin qohumlarınla işləyib, çörək qazanırdınız. İndi onların da çörəyinə bais oldun, - deyə, qeyzlə dığanı tənbeh etdi.

- Surxay bəy! Məzhəb haqqı, bizdə günah yoxdur. Cəllad köpək oğlu Hamazasp, dombagöz Andranikə arxalanıb bizim başımıza min oyun açdırır. Deyir, siz Qara-

bağ ermənilər, yaltaqsınız, qorxaqsınız. Hamınız arvad-uşaqlı, yalağa hürən köpəksiniz. Həmişə türklərin qabağında tülkü kimi quyruq bulayıb, yalmanırsınız.

Sözünü bitirən Suren, yalvarışla şirin dilini işə salıb, Behbud bəyi yumşaltmaq istəyirdi. Hiyləsinin bir məna vermədiyini görən erməni, çönüb yoldaşlarına baxaraq, hönkürtü ilə ağladı.

- Dığa, səni öldürmürük. De görüm, gecə səngərdə kişiləşən o dılğır dığaların qalanları hardadır? Gündüzlər səngərdə meymun kimi atılıb düşür, bizi lağa qoyub söyürdünüz, - deyə, Behbud bəy ikrah hissi ilə soruşdu.

- Ağa, o qaçan adamlar da bizim günümüzdədirlər. Hamazaspın özü üç gün bundan əvvəl dəstəsi ilə Banazura, kəndə gəlmişdi. O, bizi kəndin meydanına yığıb, arvad-uşağın gözü qabağında söyüb təhqir etdi. Hamımızı qorxudaraq deyirdi ki, əgər səngərdən qaçsanız, ayaqlarınızı zəncirlə iri ağac kötüyünə bağlatdıracam. Məzhəb haqqı, Sokratla Hamazasp biz yazıqlara nə evimizdə, nə də məzarımız olan bu səngərlərdə dinclik vermirlər. Qohumlarımızı da, arvad-uşaqları da hədələyib, evlərimizdən zorla çıxarıb, həyətə atıblar. Özləri evimizdə yeyib-içib kef çəkir, rahat yatıb dincəlirlər. Biz isə səngərdə qalıb, qorxumuzdan hərdənbir siz tərəflərə güllə atırdıq.

Dığa qorxa-qorxa başlarına gətirilənləri danışırdı. Ermənini diqqətlə dinləyən Behbud bəy:

- Bəs, qalanlarınız hardadır? Axı dünən səngərin bu başından o başına kimi oxuyub, lağ-lağı edirdiniz.

- Behbud bəy, məzhəb haqqı, xəndəklərdə pusquda durmaqdan bezikmişik, cana doymuşuq. Adam nə qədər ac-susuz səngərdə durub, siz tərəfə baxar? Siz yaxşı bilirsiniz ki, hər gün bu yolu gedib-gəlirdik. Sizin, Surxay bəyin, Yusif ağanın fabriklərində zəhmət çəkib, çörək qazanırdıq. Yanımızda bizimlə bir yerdə olanların çoxusu da əməllərindən bezib peşman olublar. İndi onlar da heç kim-

dən qorxmurlar. Axşamdan sözü bir yerə qoyub, çıxıb gediblər evlərinə.

Danışan ermənіyə diqqətlə qulaq asan Behbud bəy:

- Sizi öldürmürük. Gedin, o qaçan dığalara da çatdırın ki, əllərinə silah alıb bu tərəflərdə az şellənsinlər. Bilirik, sizin hamınızı Nerseslə Hamazaspın xülyaları yoldan çıxardıb. Törətdiyiniz o vəhşi əməlləri biz də bacararıq. Bəxtiniz gətirib ki, şəriətimiz, mənliyimiz bəd əməlləri bizə yasaq edib. Bir də sizi əlisilahlı bu ətrafda görsək, vay halınıza. Onda heç biriniz bizdən aman diləməsin.

Behbud bəy dığaları tənbeh edib, səngərdən qovdu. Səngərlərdən qənimət götürdükləri silahları gətirən Nəcəflə Diliş, onları bəyin qarşısında yerə qoydular.

- Yığışın, evə getmək vaxtıdır, dığalar bir də cürət edib bu tərəflərə gələ bilməzlər, - deyə, yerdə üst-üstə qalaqlanmış silahları daşkəsənlilərə göstərib, - öyrənin görün, kənddə kimin silahı yoxdursa, yığıb gətirdiyiniz bu qənimətləri də onlara paylayın.

Ucadan danışan Behbud bəy, qətiyyətlə ona qulaq asanlara eşitdirdi.

Qışın oğlan çağında sərt soyuqda iki aydan çox səngərdə keşik çəkib, dığaları məğlub edən Daşkəsən silahlıları, qələbə ilə kəndə qayıdırdılar.

Əzəməti ilə seçilən Heydər dağının ətəyində salınmış Hacıkəndin adamları, ara yolda ötüb keçən silahlıları salamlayırdı. Uşaqdan böyüyədək onların ardınca gələnlər kəndə doğru hərəkət edirdilər. Üzlərdəki təbəssüm dolu sevinc hisslərini yaşayan insanlar yer-yerdən silahlılara alqış edir, gözaydınlığı verirdilər. Qədim kənd məzarlığının önündə atları əyləyənlər, məzarıstanda uyuyanların ruhuna fatihə verib salavat çevirdilər. Alışla yanaşı atını sürən Maya evlərinin yanında kəhərdən düşüb həyətə keçdi...

EPİLOQ ƏVƏZİ

Yazın gəlişi ilə səngərlərdən öz ocaqlarına qayıdan Süleymanlı kəndinin adamları, əkin-biçinlə məşğul olurdular. Top-tüfəng səsləri kəsilmiş, insanların həyat tərzi əmin-amanlıqla, xoş güzəranla əvəz olunmuşdu. Torpağa bağlı olan insanlar da sadə kənd həyatını yaşayırdılar. Dörd övladını böyüdən Maya ilə İbad, el-obanın sevimlisinə çevrilmişdilər.

Xoşbəxt həyat sürən ailənin könül telləri qəfil qırıldı. Rayon rəhbərliyinin göstərişi ilə Qaracallı kəndində kolxozçular arasında iğtişaşa səbəb olmuş mübahisəli torpaq məsələsini həll etməyə göndərilən İbad, gecədən xeyli keçsə də evə qayıtmamışdı. Evdə onun yolunu gözləyənlər səhəri dirigözlü açdılar.

Xoşagəlməz hadisənin baş verməsindən nigaran qalan Nəcəf kişi, böyük oğlu Səmədlə tüfənglərini götürüb, bağaşağı, daş yola tərəf, İbadı axtarmağa getdilər.

Hər tərəfi birər-birər axtaran Nəcəf kişiylə Səməd, İbadı tapa bilməyib, kor-peşman evlərinə qayıtdılar.

Sübh ertədən Qanlı dərədə mal-qara otaran naxırçı Mirzalının harayını eşidən kənd camaatı, daşlı-kəsəkli yolda üzüaşağı səs gələn tərəfə götürüldülər.

Dərənin düzən yerində təzəcə biçilmiş arpa zəmisində baş verən qətldən xəbər tutan kənd camaatı uşaqdan-böyüyə ora axışırdı.

Xotmanlanmış saman tayalarının yanında sinəsindən iki güllə yarası almış İbadın qanlı cəsədini görənlər

fəryad edir, haray-həşir qoparırdılar. Arxası üstə sərili qalmış İbad, sanki gözləri açıq, səmaya baxa-baxa əbədi yuxuya getmişdi.

Bir əli sinəsi üstündə, o biri əlini isə yanına düşmüş tüfəngə tərəf uzadılmış halda qalmışdı. Saman çöpləri arasına atılmış beşaçılan tüfəngin xəzinəsində güllələr açılmamış qalmışdı. Yaralı halda kənd yoluna tərəf çıxmaq istəyən İbadın sürüdüyü saman çöpləri arasında qan gölməçəsi laxtalanıb qurumuşdu.

Ömür-gün yoldaşının qanlı cəsədini görüb, özünü dəlicəsinə onun üstünə atan Mayanın hayqırtısı dağlarda əkssəda verdi. Cəsədi çılğıncasına qucaqlayan gəlinin naləsi haya gələnləri varından etmişdi.

Hönkürüb ağlayan Maya saçlarını yolaraq, şivən qoparır, nalə çəkirdi.

Kənd ağsaqqalları, Nəcəf kişi, gəlini cəsəddən ayırıb onu sakitləşdirməyə çalışırdılar. İbadı bərk-bərk qucaqlayan Maya, qəflətən bayılıb cəsədin üzərində sərili qaldı.

Bir azdan özünə gələn Maya halsız halda, ağu deyə-deyə cəsədi oxşadı. O, uzaqdan, Heydər dağının yamacında görünən Daşkəsən kəndinə baxa-baxa, yumulmuş əlləri ilə başına döyür, ovxalanıb hıçqırırdı.

Maya, İbadı sanki oyatmağa çalışır, ətrafına yığılan kənd adamlarından imdad istəyirdi. Heydər dağını hər tərəfdən əhatəyə almış Dəhnə bağlarını məlul-məlul süzüb göz yaşı axıdan Maya, ağuşuna qısılıb, çığıran körpələrini sinəsinə sıxaraq, için-için ağlayırdı...

(Birinci hissənin sonu)

MÜNDƏRİCAT

Proloq əvəzi.....3

Qanlı dərə *(I fəsil)*.....7

Heydər dağı *(II fəsil)*.....77

SƏSVERƏN QAYA (roman)

Maya *(I fəsil)*.....133

Düldül ocağı *(II fəsil)*.....207

Epiloq əvəzi.....265

Rəssam: **Məmməd Səfərov**
Dizayn: **Naibə Səfərova**

Çapa imzalanmışdır: .....
Kağız formatı: .....
Həcmi: .....
Tiraj: ..... nüsxə, sifariş: .....